AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

**Ərəstun Baxşəliyev**
**Qəribə Rəhimova**

# AZƏRBAYCANDA PSİXOLOGİYANIN İNKİŞAF TARİXİ

DƏRS VƏSAİTİ

İxtisas: Təhsildə sosial- psixoloji xidmət – 060118

BAKI – 2019

Elmi redaktor: Pedaqogika üzrə elmlər doktoru
Ş.Q.Əliyeva

Rəyçilər: Dosent S.Heydərova
Dosent. Ü.Əfəndiyeva

**Ərəstun Təriş oğlu Baxşəliyev - psixologiya elmləri doktoru, professor, Qəribə Vahid qızı Rəhimova – psixologiya üzrə fəlsəfə doktoru, dosent. "Azərbaycanda psixologiyanın inkişaf tarixi". (Pedaqoji universitet və institutlarda magistr səviyyəsi üçün dərs vəsaiti). Bakı 2019. 348 səh.**

*Təqdim olunan dərs vəsaitində Azərbaycanda psixologiya elminin inkişaf edib, formalaşmasında xalq yaradıcılığının dahi mütəfəkkir şəxsiyyətlərin yaradıcılığında psixoloji fikirlər seçilib ümumiləşdirilərək təqdim olunmuşdur.*

*Dərs vəsaitində həmçinin Azərbaycanda psixologiya elminin müxtəlif sahələri üzrə aparılmış elmi tədqiqatlar haqqında da geniş məlumatlar verilir. Dərs vəsaiti magistrantlar, tələbələr, müəllim və valideynlər habelə pedaqoq və psixoloqlar üçün nəzərdə tutlmuşdur. Dərs vəsaitindən pedaqoji fəaliyyət zamanı geniş istifadə etmək olar.*

MÜNDƏRİCAT


| | Mövzunun adı | Mühazirə ssaatları | Seminar saatları | Səh |
|---|---|---|---|---|
| 1 | Psixologiya tarixi haqqında anlayış | 2 | 2 | 7 |
| 2 | Psixoloji fikrin ilkin qaynaqları | 2 | 2 | 14 |
| 3 | Azərbaycanda psixoloji fikrin inkişaf mərhələləri | 2 | 2 | 22 |
| 4 | Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında psixoloji fikirlər | 2 | 2 | 27 |
| 5 | Azərbaycanda milli psixoloji kadr hazırlığı | 2 | 2 | 35 |
| 6 | Eksperimental psixologiya laboratoriyalarının təşkili və müasir vəziyyəti | 2 | 2 | 45 |
| 7 | Psixologiya kafedralarının yaradılması və onların müasir vəziyyəti | 2 | 2 | 52 |
| 8 | Psixologiya | 2 | 2 | 60 |

| | | | | |
|---|---|---|---|---|
| | dərslikləri və dərs vəsaitləri | | | |
| 9 | Şəxsiyyət psixologiyası üzrə aparılan tədqiqatlar | 2 | 2 | 72 |
| 10 | Yaş psixologiyası üzrə aparılan tədqiqatlar | 2 | 2 | 117 |
| 11 | Pedaqoji psixologiya üzrə aparılan tədqiqatlar | 2 | 2 | 157 |
| 12 | Əmək psixologiyası üzrə aparılan tədqiqatlar | 2 | 2 | 178 |
| 13 | Hüquq, hərbi, tibbi və xüsusi psixologiya üzrə aparılan tədqiqatlar | 2 | 2 | 189 |
| 14 | Sosial psixologiya üzrə aparılan tədqiqatlar | 2 | 2 | 205 |
| 15 | Azərbaycanın ilk psixoloqları və psixologiya elmləri doktorları | 2 | 2 | 208 |
| | CƏMİ | 30 | 30 | |

# Giriş

Azərbaycanda psixoloji fikir tarixi çox qədim və zəngindir. Azərbaycanda psixoloji fikrin ilk qaynaqları şifahi xalq ədəbiyyatı nümunələrində, xalq dastanlarında , nağıllarda, yazılı abidələrdə, tapmaca və hikmətli ifadələrdə, dini təsəvvürlərdə və.s öz əksini tapmışdır. Azərbaycanın müdrik filosofları, şair və yazıçıları, görkəmli tarixi şəxsiyyətləri psixika və psixologiyaya aid bu gün də öz əhəmiyyətini itirməyən mütərəqqi fikirlər söyləmişlər. Nizami Gəncəvi, N.Tusi , Məhsəti Gəncəvi, İ.Nəsimi, M. Gəncəvi, İ.Nəsimi, M.Füzuli, Ş.İ.Xətai, A.A. Bakıxanov, S.Ə. Şirvani, H.B.Zərdabi, C.Məmmədquluzadə, M.Ə.Sabir , C.Cabbarlı, N.Nərimanov, S. Vurğun və başqalarını buna misal göstərmək olar.

1918-ci ildən başlayaraq respublikamızda elmi psixologiya formalaşmağa başlamış, psixologiyanın müxtəlif sahələri üzrə tədqiqatlar aparılmış və milli kadrlar hazırlanmışdır. "Azərbaycanda psixologiyanın inkişaf tarixi" kursunun öyrənilməsində magistrantlar, doktorantlar, dissertantlar Azərbaycanın zəngin elmi- psixoloji irsi ilə tanış olur, onlarda bu haqda konkret təsəvvürlər formalaşır.

" Azərbaycanda psixologiyanın inkişaf tarixi" kursunun tədrisi həmçinin magistrantların psixologiya tarixinə aid bilik dairəsini genişləndirir, Azərbaycanda psixologiya fəninin inkişafı ilə onları tanış edir.

" Azərbaycanda psixologiyanın inkişaf tarixi" kursunu şərh edərkən əvvəlcə psixologiya elminin meydana gəlməsi ümumdünya çərçivəsində izah etmək , tarixi ardıcıllığı pozmadan Azərbaycanda bu elmin necə təşəkkül

tapıb inkişafını göstərmək lazımdır. Bu baxımdan Azərbaycanın görkəmli psixoloqlarının əsər və ideallarına, ümumiyyətlə yaradıcıllıqlarına geniş yer vermək məqsədəmüvafiqdir.

Azərbaycan psixoloqlarının təlim- tərbiyənin psixoloji problemlərinə aid apardıqları eksperimental tədqiqatlar, bu tədqiqatların əhəmiyyətini açıqlamaq çox faydalıdır. Azərbaycanda psixologiyanın inkişaf tarixini tədris edərkən respublika psixoloqlarının xarici ölkə psixoloqları ilə yaradıcıllıq əlaqələrinə, bu əlaqələrin mahiyyətinə diqqət yetirmək, həmin prosesin tarixi qanunauyğunluqlarını göstərmək faydalı olar. Azərbaycanda psixologiyanın inkişaf tarixi kursunu öyrənərkən hər bir şəxs, psixoloq, tələbə, magistrant bir daha bilir ki, xalqımızın keçmiş nəzəri və təcrübi ideyalarının, mifik təfəkkürünün, etik baxışlarının qanuni yarısıdır. Magistr pilləsində tədris edilən " Azərbaycanda psixologiyanın inkişaf tarixi" fənninin tədrisinə 60 saat verilmişdir. Azərbaycanda psixologiyanın inkişaf tarixi adlı metodik vəsaiti çap olunması zənnimcə magistrantlar, bakalavrlar, müəllimlər, doktorantlar və dissertantlar üçün faydalı bir iş olar.Bunlardan 30 saat mühazirə, 30 saat isə seminar məşğələləri üçün ayrılmışdır. Tədris ediləcək mövzular və onlara ayrılmış saatların aşağıdakı şəkildə verilməsini məqsədə müvafiq saydıq.

## Mövzu – 1
## Psixologiya tarixi haqqında anlayış.

Psixologiyanın mövzusu, psixika və şüur, ruh haqqında nəzəriyyələr, ruhun mahiyyəti, psixika, onun strukturu və funksiyaları psixikanın filogenezdə, ontogenezdə inkişafının qanunauyğunluqları, şüurun strukturu, psixologiyada istifadə edilən üsul və prinsiplər, psixikanın inkişaf səviyyələri, psixika və beyin psixologiyanın fəlsəfi əsasları, psixikanın təkamülü və inkişafı, psixologiyanın elmlər sistemində yeri, psixi proseslər, psixi hallar, ictimai-sosial mühitdə psixologiyanın mövqeyi, psixi xassələr, hiss və emosiyalar və digər problemlər psixologiyanın ümumi nəzəri tarixi istiqamətlərdə izah olunmasına ehtiyacı olan məsələlərdir. XX əsrlə XXI əsrin ilk on illiyində Azərbaycanda bu istiqamətdə də müəyyən işlər görülmüşdür. Psixikanın normal və anormal inkişafını fərqləndirən keyfiyyətlər, psixikaya aid problemləri, o cümlədən psixi proseslər, psixi hallar və xassələrin, insan şəxsiyyətinin formalaşmasının qanunauyğunluqlarının araşdırılması da ümumi psixologiyanın öyrəndiyi əsas sahələrdəndir. Çünki hər hansı bir elmi-nəzəri problemlərini araşdırmadan, bu elmin özünü dərk etmək çətindir. Məhz buna görə də Azərbaycanda bu sahəyə ciddi fikir verilmişdir. Psixologiyanın bütün inkişaf dövrlərində bu problem ön planda olub. Qərbi Avropa ölkələrində, Fransada, Almaniyada, İngiltərədə, ABŞ-da da bu sahəyə həmişə ciddi fikir verilmişdir. Bu istiqamətdə yaranmış nəzəriyyələr psixologiya məktəbləri buna əyani sübutdur. Azərbaycan pedaqoji-psixoloji fikir tarixində də bu problem həmişə diqqət mərkəzində olmuşdur. Birbaşa

olmasa da bu problemlə bağlı xalqımızın etnopsixoloji fikir tarixində bir çox ideyalar yer alır. (Bax: Ə.T.Baxşəliyev "Azərbaycan milli – mənəvi dəyərlərinin sosial – psixoloji mahiyyəti" Bakı, 2011) Psixologiyanın ümumi, nəzəri, tarixi problemlərinin elmi əsaslarla araşdırılması isə XIX əsrin sonu, XX əsrin əvvəllərinə təsadüf edir.

1920-30-cu illərdən başlayaraq bu sahə üzrə Azərbaycanda bir sıra əsərlər, dərsliklər "Ruhiyyət nöqteyi nəzərindən məhəbbət" (Ə.K. Zəkuyev, Bakı, 1922), "Psixologya" (A. Əfəndiyev, Bakı, 1923), "Fənni tərbiyə" (X. Fikrət, Bakı, 1924) nəşr edilmişdir. Bu əsərlər dərslik kimi yazılsa da, orada psixologiyanın ümumi nəzəri, tarixi məsələlərinə də toxunulmuşdur.

XX əsrdə Azərbaycanda psixoloji fikrin nəzəri problemlərindən danışarkən keçmiş SSRİ-də bu məsələnin necə cərəyan etməsinə toxunmamaq qeyri-mümkündür. Çünki Azərbaycan respublikası 1920-1991-ci ilə kimi SSRİ-nin tərkibində olan respublika kimi Avropada cərəyan edən hadisələrin iştirakçısı və icraçısı olmuşdur. Keçmiş SSRİ-də psixologiyanın nəzəri problemlərinin öyrənilməsi işində rus psixoloqlarından G.N. Kornilov, P.P. Blonski, L.S. Vıqotski ilk təşəbbüsçülər olmuşlar.

K.N. Kornilovun "Müasir psixologiya və marksizm" (Leninqrad, 1925) adlı məqalələr məcmuəsi bu sahədə ilk addım olmuşdur. Qoyulan bu problemlər rus ədəbiyyatında geniş təhlil edilmişdir. Məqalələr məcmuəsində Kornilovun "Müasir psixologiya və marksizm", M.A. Pyrin "Sosioloji psixologiya və marksizm", B.D.Frimanın "Freydin əsas psixoloji tarixi materializm nəzəriyyəsi", B.M.Bobrovskinin "Davranış haqqında elmdə instinkt məsələlər", L.J. Vıqotskinin "Şüur davranış psixolo-

giyasının problemi kimi" i.a. məqalələri dərc olunmuşdur. Göründüyü kimi, məqalələrin adlarından o dövrdə psixoloji problemlərə münasibətin əsas istiqaməti nəzərə çarpır. Bu məqalələrdə əsas məqsəd psixologiyanın hökmən, yeni quruluşun tələblərinə uyğun şəkildə inkişaf etdirmək ideya yaymaq idi.

Aydındır ki, XX əsrin son on illiyinə qədər bütün elmlərin, o cümlədən psixologiyanın metodoloji əsası kimi əsasən marksizm-leninizm nəzəriyyələri qəbul olunmuşdur. Psixologiyanın nəzəri məsələlərini həmin təlim təşkil edirdi. Ona görə də psixologiyanın nəzəri məsələləri öyrənilmişdi. Məhz buna görə də 1923-cü ildə Moskvada, 1924-cü ildə keçmiş Leninqradda bir-birinin ardınca I, II Ümumrusiya psixonevroloji qurultayları keçirildi. Qurultay qarşısında duran əsas məsələ müasir psixologiyanı daha da inkişaf etdirmək idi.

Qeyd etdiyimiz kimi, 1923-310ci illərdə psixologiyanın tətbiqi sahəsində G.H.Kornilovun ən alovlu, ən mahir mübarizələrindən biri olmuşdur. Bu dövrdə Kornilovun psixologiyada yaratdığı reaktologiyanın reaksiyaların tətbiqi nəticəsində əldə etdiyi eksperimental məlumatlar M. Yaroşevskinin dediyi kimi, psixologiyaya böyük töhfə idi. Lakin bu cür nailiyyətlərinə baxmayaraq reaktologiyanın çox sadə olan proqram və onun məzmunu (reaksiyaların forması, gücü və sürətlərinin öyrənilməsi) yeni psixologiyanın qarşısında düzgün qoyulmuş vəzifələrlə bir araya sığmırdı. G.N. Kornolov psixikanın reaktivliyi prinsipini psixologiyanın əsas prinsipi kimi irəli sürdü ki, bunun nəticəsində də psixologiya insan reaksiyaları haqqında mexanistik təlimə çevrilirdi. O, şüuru obyektiv gerçək aləminin inikası deyil, insan beynində

baş verən fizioloji proses kimi izah edirdi. G.N. Kornilovun şüur problemini bu cür izah etməsi, şüuru tədqiq etmənin yolunu bağlayırdı.

Blonski göstərirdi ki, psixologiyanın indiki vəziyyəti bir elm kimi onu qane etmir. Bu münasibətlə o yazırdı: "Ənənəvi universitet psixologiyası, heç də mənim istədiyim kimi deyil. Mən istəyirdim ki, psixologiya mənə adamların xarakter və davranışından baş çıxarmağı öyrətsin". Aydındır ki, 1920-1930-cu illərdə Rusiyada gedən metodologiya uğrunda mübarizəyə Azərbaycan psixoloqları da qoşulmurlar. A.O. Makovelski, Ə.K. Zəkuyev, F.Ə. İbrahimbəyov, M.C.Məhərrəmov, C. Hacıyev bu sahədə ilk təşəbbüsçülər olmuşlar.

1920-cı illərdə Azərbaycanda psixologiya üzrə bir sıra əsərlər, dərsliklər (Ə.K.Zəkuyev "Ruhiyyət nöqteyi-nəzərindən məhəbbət"), (Bakı, 1922, Mühiddin), "Psixologiya" (1923, A. Əfəndiyev), "Fənn Tərbiyə", (Bakı, 1924) nəşr edilmişdir. Bu əsərlər müxtəlif məqsədlərlə yazılanda orada psixologiyanın fəlsəfi məsələlərinə də toxunulmuşdur.

Reaktologiya, refleksologiya, pedalogiya Azərbaycanda da geniş yayılmışdır, bu "yeni" elm sahələrinə aid əsərlər, dərsliklər belə yazılmış və nəşr olunmuşdur. Refleksologiya psixologiyası da, başlıca olaraq Rusiyada XX əsrin əvvəllərində inkişafa başlamış təbii elmi cərəyan idi. Həmin cərəyanın banisi B.M. Bexterev (1857-1927) olmuşdur. Sonralar həmin cərəyan amerikan biheviorizm probleminin işlənib hazırlanmasına böyük təsir göstərmişdir. Psixologiyanın fəlsəfi problemlərini öyrənmək məqsədi ilə 1930-cu il aprel ayında Bakıda pedaqoqlar cəmiyyəti təşkil edildi. Bu şöbə keçmiş SSRİ

pedaqoqlar cəmiyyətinin şöbəsi kimi açılmışdır. Şöbənin əsas məqsədi Azərbaycanda pedaqoji elmlər sahəsində təlimi inkişaf etdirmə, bu xüsusda dərsliklər və metodiki əsərlər yaratmaqdan ibarət idi.

Cəmiyyət həm pedaqoqların, həm də psixoloqların işindəki təqdirəlayiq cəhətləri göstərir və yol verilən qüsurları tənqid edir, bunu düzəltmək yollarını göstərirdi.

Azərbaycanda materialist psixologiya uğrunda gedən mübarizə 1930-1936-cı illərdə xüsusi ilə kəskin xarakter almışdır. Bu dövrdə geniş yayılan tənqid və özünütənqid Azərbaycanda psixologiyanın inkişafına böyük təsir etmişdir.

Keçmiş SSRİ-nin başqa institutlarında olduğu kimi, həmin dövrdə indiki ADPU-da pedaqoq və psixoloqlar hazırlayan xüsusi fakültə fəaliyyət göstərir. Bu fakültənin tədris planlarında psixologiyaya hədsiz dərəcədə az yer verilməsinə baxmayaraq, mərhum M. Məhərrəmovun dediyinə görə, gənc psixoloqlar pedalogiyanın nəzəri məsələlərinin öyrənilməsi işində səylə çalışırdılar. Bu sahədə tələbələrə F.İbrahimbəyov yaxından kömək göstərirdi. 1931-ci ildə F. İbrahimbəyov testlər metodunun milli psixologiyasını öyrənmək sahəsindəki zərərli nəticələri barədə psixotexnika yığıncağında ətraflı və məzmunla məruzə ilə çıxış etmişlər. Bu dövrdə psixologiyaya aid məqalələr, yazılar, dərsliklər nəşr olunurdu.

Pedalogiya 1936-cı ilin 4 iyulunda xüsusi qərarla ləğv olundu. Düzdür, bu gün pedalogiyaya münasibət dəyişilib. Onun bir çox müddəaları müəyyən qrup alimlər tərəfindən qəbul olunur. Lakin, bu mülahizələr hələlik mübahisəli olaraq qalır. Konkret, hamı tərəfindən qəbul edilən elmi nəticə yoxdur. Psixologiyanın metodoloji

fəlsəfi problemləri Azərbaycan psixologiyasında həmişə aktual problem olmuş və bu gün də o aktuallığını itirmir.

1930-cu ildə psixologiya sahəsində vəziyyət əsaslı surətdə dəyişdi. Hətta 30-cu illərin ortalarında psixologiya elminin əsas prinsipləri artıq formalaşdı. Determinizm prinsipi, inikası, şüur və fəaliyyətin vəhdəti prinsipi, həmin prinsipə istinad edirlər. "Beyin və təfəkkür" (Təşviqatçı) j. 1945, № 8, "Psixika və şüur" (Zaqafqaziya psixoloqlarının III konfransının materialları, Bakı, 1962), "Obyektiv gerçəkliyi əks etdirmək prosesində insan fəallığının rolu" bu sahədə yazılan ilk məqalələrdir.

"Səciyyə haqqında" psixoloji nəzəriyyələr (M.C. Məhərrəmov, Bakı, 1948) adlı namizədlik dissertasiyası psixologiyanın nəzəri məsələlərinin öyrənilməsində ən böyük nailiyyətdir. Burada qədim yunan alimlərindən Platonun (b.e.ə. 427-347), Demokritin (b.e.ə. 469-370), Hippokratın (b.e.ə. 460-377), K.D. Uşinskinin (1824-1870), K.N. Kornilovun, N.D. Levitovun, Azərbaycanın qabaqcıl pedaqoqlarının, yazıçılarının xarakteri haqında fikirləri geniş təhlil edilir.

Akademik A.O. Makovelski, prof. Ə.K. Zəkuyev, dos. F. İbrahimbəyov və başqaları dissertasiyaya yazdıqları rəylərdə əsəri yüksək qiymətləndirmişlər. Ə.K.Zəkuyev göstərir ki, dissertasiya nəzəriyyə və təcrübə ilə vəhdətdə götürülür, bu da müasir gənc nəslin tərbiyəsində böyük əhəmiyyətə malikdir. Dissertasiyada pedaqoji məqamlar ən görkəmli yer tutur.

Psixologiya üzrə dərslik yaradılması, elmi-metodiki və əyani vəsait hazırlamaq, yeni tələblərə uyğun psixologiyadan elmi-pedaqoji kadrların, orta məktəb üçün müəllimlər hazırlanması bütün psixoloji tədqiqatlar

sisteminə böyük təsir göstərdi, psixologiyanın Azərbaycanda inkişafına təkan verdi.

1946-1956-cı il psixoloji kadrların tərkibi əvvəlki illərə nisbətən xeyli dəyişdi. Psixologiya sahəsində yeni qüvvələr daxil olmağa başladı.

Psixologiyanı daha geniş miqyasda təbliğ etmək üçün elmi-kütləvi xarakterli kitablar, məqalələr yazılırdı. Bu dövrdə C. Hacıyevin psixologiyanın ümumi nəzəri məsələlərinə aid bir kitabçası "Psixologiya haqqında söhbət" (Bakı, 1954) və bir neçə məqaləsi ("Materialist psixologiyanın əsasları" AETPİ, 1955, I buraxılış) nəşr olundu.

"Psixologiya haqqında söhbət" adlı kitabçada "Şüur materiyadan asılıdır", "İnikas nəzəriyyəsi-şüurun necə törədiyini anlamanın əsasıdır", İ.P. Pavlov-İ.M.Seçenovun işinin böyük davam etdiricisidir, "Psixika və şüur nədir?", "Gerçəkliyin inikas problemləri", "Hafizə prosesləri", "İnsanların psixoloji xarakteristikasının çox mühüm cəhətləri" və s. məsələlər şərh olunur. Müəllif inikas nəzəriyyəsinin mahiyyətini, İ.P. Pavlovun ali sinir fəaliyyəti haqqında təlimin psixologiyanın təbii elmi əsası olduğunu konkret və inandırıcı faktlar əsasında şərh etmişdir.

## Mövzu-2
## Psixoloji fikrin ilkin qaynaqları.

Hər bir xalqın özünəməxsus adət və ənənələri, istək və arzuları, xarakteri, ağıl və düşüncəsi, təfəkkür tərzi, qonaqpərvərliyi, qabiliyyəti, ictimai – sosial münasibətləri, bir sözlə mənəvi – psixoloji aləmi onun milli mənəvi dəyərlərində öz əksini tapır. Bu milli mənəvi dəyərləri isə müxtəlif formalarda (şifahi xalq yaradıcılığı nümunələrində, dini təsəvvürlərdə, görkəmli tarixi şəxsiyyətlərin yaradıcılığında, daş və qaya rəsmlərində, arxeoloji qazıntılarda və s) təşəkkül tapmış, inkişaf edib nəsildən - nəslə ötürülmüşdür.

Bu baxımdan Azərbaycanın da özünəməxsus milli mənəvi dəyərləri ilk

Azərbaycan şifahi xalq yaradıcılığı canlı danışıq dilimizin bütün incəliklərini özündə əks etdirən qiymətli bir xəzinədir. Azərbaycan şifahi xalq yaradıcılığının hər bir nümunələrində (nağıllar, atalar sözü və məsəllər, bayatılar, laylalar, tapmacalar, yanıltmaclar, nəğmələr və s) xalqımızın mənəvi – psixoloji aləmi, məişəti, dünyagörüşü, təfəkkür, təxəyyülü, hissi – iradi keyfiyyətləri, qabiliyyət və istedadı, əməyə münasibəti əks etdirilir.

Şifahi xalq ədəbiyyatının elə bir nümunəsi tapılmaz ki, orada uşaqların, ümumiyyətlə insanların əxlaqına, ağlına, zəkasına, onların mənəvi – psixoloji fikri aydın surətdə özünü göstərməsin. Xalqın bədii söz yaradıcılığında atalar sözü və məsəllər xüsusi yer tutur. Son dərəcə yığcam, konkret, həkimanə ifadələr olan atalar sözü və məsəllər vasitəsilə xalq öz mənəvi aləmini, milli tarixini, mövcud ictimai quruluşa və əməyə münasibətini,

məişətini və dünyagörüşünü əks etdirmişdir. Atalar sözü və məsəlləri hər bir xalq özünə uyğun daha dolğun ifadələrlə mənalandırmağa çalışmışdır. Atalar sözləri və məsəllər son dərəcə yığcam, dolğun məzmuna, dərin mənaya malik olmaqla yanaşı, mənsub olduğu xalqın canlı danışıq dilinin ən incə xüsusiyyətləri əsasında yaranır. Şəxsiyyətin formalaşmasında ağlın, təfəkkürün, müstəqil düşüncənin, çevik hazırcavablığın, dərin mühakimə bacarığının rolu əvəzsizdir.

Ulularımız həmişə insan ağlına, zəkasına yüksək qiymət vermişlər. Çünki ağıllı insan həyata qorxulu olmur. Ağıl, təfəkkür sahibləri sadə və təvazökar olurlar. Müstəqillik, hadisələrə tənqidi münasibət bəsləmək, problemli situasiyalardan baş çıxarmaq yüksək intelektli insanlara xasdır. Buna aşağıdakı atalar sözlərində bir daha aydın görürük: "Ağıl yaşda deyil, başdadır","Ağıllı baş hər şeydən mənfəət ala bilər", "Ağıllıya bir işarə, nadana min kötək", "Boyunu böyütdükcə ağlını böyüt". Vaxtilə əməkçi xalq, adamlar arasında fərdi fərqlər olduğunu söyləmişdir: "Adam var ki, yaxşı – yamanı bilməz, adam var ki bir söz deyərsən anlar", "Adam var ki, adamların naxışıdır, adam var ki, heyvan ondan yaxşıdır, adam var ki, dindirərsən can deyər, adam var ki, dindirməsən yaxşıdır" .

Atalar sözlərinin əksəriyyətində insan ləyaqətinə, təmizliyinə, təvazökarlığına, xeyirxahlığına, əxlaqi gözəlliyinə, hörmət və dostluq hisslərinə, kamil şəxsiyyət anlayışına, milli – etnik xüsusiyyətlərə, xarakter və adətlərimizə aid xeyli fikirlər vardır: "Ağac bar verdikcə başını aşağı salar", "Hər şey nazikliyindən sınar, insan qalınlığından".

Azərbaycan xalq ədəbiyyatının çox yayılmış növlərindən biri atalar sözü və məsəllərdir. İctimai tarixi həqiqətlərin bədii ifadəsindən ibarət olan, bu janr xalq yaradıcılığının ən sadə formalarından biridir. Atalar sözü və

məsəllərin yaradıcısı olan xalq özünün dahiyanə fikirlərini ən adi üsullarla, təkcə bir iki yığcam cümlə vasitəsi ilə ifadə etməyi böyük ustalıqla bacarmışdır.

Alimlərin yazdıqlarına görə atalar sözü "həyatın müxtəlif məsələlərinə aid ibrətamiz məzmunlu qısa kəlam, hikmətli sözlər", "xalq müdrikliyinin ümumiləşdirilmiş bədii ifadəsi", "xalqın dühasını", yaxud " xalq müdrikliyini, xalq zəka və düşüncəsini, xalqın həyati təcrübələrinin nəticələrini ", başqa sözlə "xalqın ümumiləşdirilmiş təcrübəsini əks etdirən", "xalq dünya görüşünün, onun əməli həyat fəlsəfəsinin xülasəsi, qısa və dolğun, yığcam və mənalı bir şəkildə, aforizmlər halında ifadəsi", "ictimai – tarixi həqiqətlərin bədii ifadəsindən ibarət olan, son dərəcə yığcam, konkret, həkimanə aforistik ifadələr"dir. Heç təsadüfi deyildir ki, atalar sözü və məsəllərə ruslar "ibrətamiz söz", "qanadlı söz", "qızıl söz", şərq xalqları "dilin gülzarı", "ipə-sapa düzülməmiş incilər", yunanlar və romalılar "hakim fikirlər", italyanlar "xalq məktəbi" , ispanlar "ruhun təbibi", ingilislər və fransızlar "təcrübənin barı" və s. bu kimi adlar vermişlər.

Çox vaxt "atalar sözü" ilə "zərb - məsəl" kəlmələrini rusların "poslovitsa" ilə "poqovorka" kəlmələrinin müvafiq qarşılıqlı vəzifəsində işlətmək ciddi - cəhdi özünü büruzə verir.Yadımızdan çıxarmayaq ki, məşhur rus folklorçusu V.İ.Dalin hamıya məlum olan məcmuəsinin adı "Poslovitsi poqovorki" deyil, məhz "Poslovitsı

russkoqo naroda”, yəni “Rus elinin atalar sözü” dür və bu ad altında həmin məcmuə, atalar sözünün əlliyə qədər növünü əhatə edir. Onu da etiraf edək ki, istər”poslovitsa” ya, istərsə də “poqovorka” ya hamı həm “atalar sözü”, həm də “zərb –məsəl” deyir. Ümumiyyətlə, bu qəbildən olan hər hansı bir atalar sözünü səciyyələndirmək üçün vahid, özü də çox sadə meyar vardır: bunları bir qayda olaraq “Məsəl var, deyərlər ....” söyləmilə başlamaq olar.

Məsəllərin bəzi növləri – kəlamlar və atmacalar (“qanadlı sözlər” və “aforizmlər”) tarixi şəxslər tərəfindən söylənilən ibarələrdir: Bir addım irəli, iki addım geri. Diz çöküb yaşamaqdansa, ayaq üstə ölmək yaxşıdır.(Dolores İbarruri) kəlamlarını, “Pəncşənbənin nöqtələrini düzür-düm” (M.F.Axundov) atmacasını xatırladaq. Məsəlləri növlərinin mübadiləsin də ədiblərin xidməti olduqca böyükdür; söz ustaları atalar sözünü bəzən “borc alır” : “Yağışdan çıxdıq yağmura düşdük.....” (Nəcəfbəy Və-zirov), Bəzə “borc verir”: “Tarixi -Nadiri” yarısınacan oxumuşam (Üzeyir Hacıbəyov), bəzən də “borc götürüb qaytarır”: müqayisə edin – Qurddan qorxan (Süleyman Rəhimov), Duz - Çörək qədri bilməyən itdən alçaqdır və Qazancını itir, ancaq duz çörəyi itirmə .....

(Süleyman Rüstəm). Nərdivana ayaq bir – bir qoyurlar və məsəldir deyərlər: heç tələsmə, ayaq bir – bir qoyarlar nərdivana (Seyid Əzim Şirvani)

Atalar sözü və məsəllərin ədəbi-bədii dəyərini, təlim - tərbiyəvi qüdrətini və ictimai - tarixi əhəmiyyətini, uşaq şəxsiyyətinin hərtərəfli inkişafındakı rolunu xalq həmişə dərindən dərk edərək, atalar sözünə baxan geri qalmaz, yaxud cəvahirin qiyməti var, amma atalar sözünün qiyməti yoxdur - demişdir. M.Qorki atalar sözü və məsələrdən

bəhs edərək yazır: “Atalar sözləri, başqa cür desək, hikmətli sözlərlə fikirləşmək, mənə çox şey öyrətdi” .

Atalar sözü və məsəllər şifahi ədəbiyyatın ən kütləvi janrlardan biridir .

Məlum olduğu üzrə, dastanlar və xalq şerləri əsasən aşıqlar, yəni müəyən peşəkarlar tərəfindən icra etdiyi halda, atalar sözü və məsəllər bütün xalq tərəfindən yaradılır və istifadə edilir.

İnsan gündəlik həyatında üz - üzə gəldiyi müxtəlif hadisə və təbii zəruruətlərəöz münasibətini bildirmək üçün tarixin hansı mərhələsində isə yaranmış, eyni və ya bənzər hadisələrin ifadəsi olan atalar sözü və məsəllərdən istifadə etmişdir. Beləliklə də, söz “qanadlanmış”, ”səpələnmiş”, ağızdan – ağıza düşüb yaşamış, siyasi və bədii ədəbiyyat-da da gözəl ifadə vasitəsi olmuşdur. Azərbaycan ədəbiy-yatının görkəmli nümayəndələri Nizami, Xaqani, Füzuli, Xətai, M.F.Axundov , M.Ə.Sabir, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Vəzirov, C.Cabbarlı və başqaları öz əsərlərində külli miqdarda atalar sözü və məsəllər işlətmişlər.

Atalar sözünün ən qabarıq xüsusiyyəti onun bir hökmü və ya bir fikri ümumiləşmiş halda, tam bitmiş - şəkildə ifadə etməsidir. Hər bir atalar sözü ayrı – ayrı-lıqda, bir - birindən fərqlənən bir çox məsələni izah etmək məqsədilə işlədilir. Məsələn:

“İstədiyin söyləyən, istəmədiyin eşidər”

Hər ağlına gələni danışan adam xoşa gəlməyən cavab eşidər - demək bu atalar sözündə fikir, tam mənası ilə bitmiş şəkildə verilmişdir. Məsəllərdə isə əksinə, müəyyən fikir tam şəkildə deyil, yarımçıq halda verilir. Burada məsəl ancaq ifadə edilən mühakiməni izah etmək

üçün güclü və ya zəif bir işarəyəçevrilmiş olur. Hər məsəlin arxasında bir əhvalat, hekayə, rəvayət, nağıl durur.

Müdrik babalarımız sözdən çox böyük məharətlə istifadə edərək dərin mənalı fəlsəfi, pedaqoji ümumiləşdirmələri son dərəcə sadəşəkildə və adi sözlərlə ifadə etmişlər. Onların yaratdıqları minlərlə bayatılar, atalar sözləri, məsəllər, atmacalar, lətifələr, həmçinin ideomatik ifadələr, mübaliğə və təşbehlər (məsələn, «Daş qayaya rast gəlib», «Elə bil tünd sirkədir», «Nə yardan doyur, nə əldən qoyur», «Elə bil dil otu yeyib», «Kirpikləri ilə od götürdü», «Kişini od götürdü», «Böyük tikəni qulağın boyda edərəm» və s.) buna parlaq sübutdur. Xalq yaradıcılığının belə nümunələrinin hər biri ağla qida verən, nitqi ifadəli və danışmağı təsirli edən gözəl poetik əsərdir. Onlarda sözlər böyük ustalıqla, düzgün və yerində işlədilmişdir. Həm də bu sözlər və kəlamlar dar lüğəti mənadan çıxıb, geniş məcazi məna kəsb etdiklərindən böyük təsir qüvvəsinə malikdir.

Atalar sözü - əməli mənada hər hansı bir fikri və ya müddəanı əsaslandırmaq vasitəsidir. Bu vasitəçilik isə atalar sözünə daha çox xas olan bir sualla aparılır. Bu yol oxşar hadisələrdən ikincisini, birincidən alınmışəqli nəticələr vasitəsi ilə təsbit etmək yoludur. Çox zaman atalar sözlərini müstəqil mənada, yəni özünün ilk mənasında götürdükdə, onu heç bir başqa hadisəyə bağlamadıqda mənasız görünür. Məsələn “Yanan yerdən tüstü çıxar”.

İlk baxışda bu ifadəçox yüngül və adi görünür. Elə doğurdan – doğruya yanmaqda və tüstülənməkdə olan bir ocağın yanında durub, ona baxdıqda:

“Yanan yerdən tüstüçıxar” deyilərsə, bu olduqca adi

bir qədər mənasız görünəcəkdir. Lakin eyni ifadə hər hansı haqsızlıq müqabilində “ürəyi yanan” və ona etiraz edən adamın vəziyyəti iləəlaqədar olaraq işlədildikdə “səbəb olmasa, nəticə olmaz” kimi dərin məzmun kəsb edir. Bu da öz növbəsində uşaqda səbəb - nəticəəlaqəsinin formalaşmasına şərait yaradır. Demək atalar sözündəki əsas məzmunu tuta bilmək üçün ondakı mənanı ikinci oxşar hadisəyə tətbiq etmək lazım gəlir. Təbii ki, bunu uşağa birdən-birə kortəbii şəkildə demək düzgün olmaz. Valideyn və tərbiyəçilər yeri gəldikcə və uşaqların anlaya biləcəyi dildə bu atalar sözlərinin mənasını izah edərək uşaqları onları eşitməyə və işlətməyə alışdıra bilərlər.

“Diş yox ikən, dodaq var idi” ifadəsi aydındır və ilk anda adama elə gəlir ki, qarşısındakı insana heç bir yeni şey öyrətmir. Doğurdan da dodağın dişdən qabaq mövcud olmasını demək yeni bir kəşf deyildir. Bu hər kəsə bəlli bir məsələdir. Lakin bu atalar sözünü başqa, oxşar bir hadisə iləəlaqələndirdikdə daha çox mənalı görünür. Məsələn, bu ifadə qohumluq, sahiblik, mənsubiyyət və sairəni isbat etmək üçün bir dəlil kimi işlənildikdə, tətbiq olunduğu hadisənin köməyi iləçox qüvvətli bir məna alınır və yaxud: “Ağız ilə qulağın arası dörd barmaqdır”.

Adam istər istəməz bu ifadəyə “Nə olsun?” deyə etiraz etmək istəyir; lakin bu da ikinci əməli bir hadisə ilə qarşılıqda dərin bir məna kəsb edir. Bu məna ondan ibarətdir ki, məsafə yaxınlığışəxs, hadisə, şey və sairənin eyniyyəti üçün şərt ola bilməz.

Bütün bunlardan aydın olur, müstəqim mənasına görə ilk baxışda mənasız kimi görünən atalar sözlərini oxşar hadisələrlə qarşılaşdırdıqda əsil fəlsəfi - məntiqi məzmunlarıüzəçıxır.

Bizdə mənaları çox aydın, bəzən isə aydın olmayan atalar sözləri vardır. Bu cür atalar sözlərinin geniş mənasını uşaqların anlaması heç də asan deyil. Onun üçün bu işdə böyüklər mütləq yardımçı olmalıdırlar. Misal üçün "Yay kasıbın həm atasıdır, həm anası" atalar sözünü götürək. Bunun mənasız ifadə olduğunu söyləmək olmaz. Lakin mənası da açıq deyil, bir qədər üstüörtülüdür. Odur ki, bu mənanın üzərindən pərdəni qaldırmaq üçün əvvəldə qeyd etdiyimiz üsullardan fərqli yol ilə nəticəçıxarmalıyıq. Nəüçün bu misalda yay ata və anaya bənzədilmişdir? Atanın, həm də ananın öz övladları ilə münasibətidəki qabarıq xüsusiyyətlər nədən ibarətdir? Bu sualların cavabı aydındır. Ana mehriban, ata isə tələbkar olur. «Yay kasıbın həm atasıdır, həm anası» dedikdə onun ana kimi mehriban, ata kimi tələbkardır mənasını ifadə etmiş oluruq. Doğurdan da yay fəsli elə bir təbii şəraitdir ki, qəzəbsiz, mülayim olduğu kimi, insanlardan işləməyi də tələb edir. Bir az da geniş mənada desək – bu şərait əmək və mübarizəyəçağıran bir zərurət halındadır. Başqa bir misal gətirək: "Yük əyilməzsə daş qəribliyə düşməz".

## Mövzu-3
## Azərbaycanda psixoloji fikrin inkişaf mərhələləri.

Psixologiya elmi öz inkişafında müxtəlif mərhələlərdən keçmişdir. Bunlar aşağıdakılardan ibarətdir: Elməqədərki I mərhələ. Qədim dövrdən başlayaraq bizim eradan əvvəlki VII-VI əsrlərə qədərki dövrü əhatə edir. Bu dövrdə ruh (psixika) haqqında təsəvvürlər çoxsaylı mif və əfsanələrdə, nağıl və ilkin dini inamlarda, totemlərdə öz əksini tapmışdır.

İlkin elmi təsəvvürlər (ikinci mərhələ). Bu dövr eramızdan əvvəl VII-VI əsrlərdən başlayaraq XVIII əsrin sonuna qədər olan dövrü əhatə edir. Bu dövrdə psixologiya elmi fəlsəfənin tərkibində inkişaf etmişdir. II mərhələnin başa çatması ilə bağlı psixoloji ədəbiyyatda fikir və mövqelər fərqlidir. Kimi ilk psixologiya məktəbinin - assosionizmin yaranmasıyla (XVIII əsrin sonları), kimi də fəlsəfə və təbiət elmlərindən fərqli psixologiya terminlərinin yaranmasıyla (XIX əsrin ortaları) II mərhələnin başa çatdığını qəbul edir. Psixologiyanın inkişafının mərhələlərə ayrılması digər elmlərdə olduğu kimi şərti xarakter daşıyır. Bəzən psixologiya elminin müstəqil elm sahəsi kimi yaranmasını V.Vundtun eksperimental psixologiya laboratoriyasının yaranması tarixindən götürməyi təklif edənlər də var. Bunlarla yanaşı psixologiyanın müstəqil elm sahəsi kimi daha əvvəlki dövrlərdən meydana çıxdığını qəbul edənlər də olmuşdur. Bu, psixologiyanın müstəqil şəkildə predmetinin müəyyənləşməsi, humanitar və təbiət elmləri sistemində öz yerini tutması, psixikanın daxili və xarici təzahürlərinin eyni vaxtda öyrənilməsi ilə bağlıdır. Psixologiyanın müstəqil mövqeyi

onun bir fənn kimi üniversitetlərdə tədris olunması ilə də əlaqələndirilir. Bu isə XVIII əsrin sonu, XIX əsrin əvvəllərinə təsadüf edir. Psixoloqların böyük əksəriyyəti psixologiya elminin müstəqil elm sahəsi kimi meydana çıxmasının tarixini XIX əsrin ikinci yarısından, eksperimental psixologiyanın yaranması tarixindən götürməyi daha düzgün hesab edirlər. İstənilən halda qəbul etmək lazımdır ki, psixologiyanın müstəqil elm sahəsi kimi mövcudluğu tarixi onun fəlsəfənin tərkibində inkişafı tarixindən qat-qat azdır. Təbii ki, fəlsəfənin tərkibində olduqda belə bu elm inkişaf etmiş, onun predmeti, məzmunu təkmilləşmişdir. Uzun müddət psixologiyanın predmeti ruh olmuşdur. Lakin müxtəlif dövrlərdə ruh anlayışı müxtəlif məzmun, mahiyyət kəsb etmişdir. «Ruhi aləm» anlayışının əmələgəlməsi ibtidai insanların animistik görüşləri ilə əlaqədardır. İbtidai insanların təsəvvürlərində ruh bədəndən aydın surətdə ayrılmır. Bu təsəvvürlər həyat fəaliyyəti və şüur, o cümlədən yuxu, ölüm, ürəkkeçmə və s. hadisələrin elməqədərki, primitiv – materialist şərhi nəticəsində əmələ gəlmişdi. Belə hadisələrin səbəbini izah etməkdə çətinlik çəkən ibtidai insanlar onların bilavasitə qavranılan zahiri cəhətlərini onun əsl mahiyyəti kimi qəbul edirlər. Qədim insanlara görə insanın ruhu – onun bənzəridir. Onun tələbatı və adətləri, mövcudluq şəraiti canlı insanlarda olduğu kimidir. Bununla yanaşı, hesab edilirdi ki, ruhun başlıca funksiyası bədəni fəallaşdırmaqdır. Qədim dövrün alimləri – psixoloqlar hesab edirdilər ki, bədən ətalətdə olan kütlədir və onu məhz ruh hərəkətə gətirir. Ruh yalnız fəallıq üçün enerji vermir, eyni zamanda onu istiqamətləndirir, insanın davranışını tənzim edir. Tədricən ruhun funksiyasına idrak

da əlavə olundu. Beləliklə, fəallığın mənbəyi kimi idrak, onun mərhələləri psixoloji tədqiqatların mühüm məsələlərinə çevrildi. Orta əsrlərdə ruhun öyrənilməsi ilə bağlı dini nəzəriyyələr meydana çıxdı və elmi araşdırmaları sıxışdırmağa başladı. Buna görə də formal olaraq psixologiyanın predmeti dəyişmədi, bədənin fəallığının növləri, idrakın xüsusiyyətləri, ilk növbədə hissi idrak tədqiq olunurdu. Tənzimedici funksiya, iradi davranış, məntiqi təfəkkür və s. ilahi iradə, allaha inam kimi təqdim olunmağa başlandı. Lakin dini ideologiya real aləmə neqativ münasibət formalaşdırmışdı, haqq-təalaya qovuşmaq istəyən insandan özü ilə tək qalmaq tələb olunurdu. Din xadimləri hesab edirdilər ki, mövcud olanlar artıq yaradılmışdır və əbədi olaraq dəyişməz qalacaqdır. Yeganə radikal dəyişiklik yalnız insanın «ikinci zühuru» zamanı baş verəcəkdir. O vaxta qədər isə heçnə dəyişməyəcəkdir. Lakin bu kimi təzyiqlərə baxmayaraq, artıq feodalizmin daxilində mütərəqqi psixoloji təlimlər meydana çıxır. Həmin dövrdə universitet tələbələri ilk mühazirədə professoru qiymətləndirmək istədikdə deyirdilər: «Bizə ruhi aləm haqqında danışın!». Digər elm sahələri kimi, psixologiya elmi də tədricən dinin təzyiqlərindən, buxovundan azad olmağa başladı. Antik dövrlərdə olduğu kimi, elm yenə də obyektiv, rasional düşüncəyə, yanaşmaya, ağıla, inama, real faktlara istinad etməyə başladı. Lakin bununla yanaşı, dini inamlardan hələ də tam imtina etmək mümkün deyildi. Buna görə də psixologiyanın predmeti dəyişdi. Onun predmeti ruh, ruhu aləm deyil, şüur, onun məzmunu, formalaşdırılması yolları oldu. Lakin bu dövr ona gətirib çıxardı ki, artıq XVIII əsrdə faktiki olaraq idrak prosesləri psixologiyanın predmetinə çevrildi. Eyni

zamanda, davranış, emosional proseslər, eləcə də şəxsiyyət, onun inkişafı hələ də psixologiyanın predmetindən kənarda qalırdı. Tədqiqatların belə məhdud dairəsi ilk dövrlərdə həm də əhəmiyyətli idi. Belə ki, bu vəziyyət psixologiyaya dini mövqedən uzaqlaşmağa, sonra isə eksperimental elmə çevrilməyə imkan yaratdı. Bu həm də onun müstəqil elm sahəsinə çevrilməsinə, tədqiqat sahəsinin, predmetinin fəlsəfədən fərqlənməsinə, ayrılmasına təkan verdi. Digər tərəfdən isə belə yanaşma psixologiyanın inkişafına əngəl olurdu. Buna görə də XIX əsrin ikinci yarısında bu məsələlərə yenidən baxmaq zərurəti yarandı. Biologiyanın inkişafı, o cümlədən Ç. Darvinin təkamül nəzəriyyəsi, H.Spenserin və digər tədqiqatçıların işlərinin nəticəsində psixologiya elmi fəlsəfədən tamamilə ayrıldı, təbiət elmlərinə yaxınlaşdı. Bununla yanaşı, öz predmetini genişləndirərək, İ.N.Seçenovun sözləri ilə desək «şüur sahəsindən davranış sahəsinə» keçirdi. Beləliklə idrak proseslərindən başqa, emosional proseslər və davranış psixologiyanın predmetinə daxil oldu. Daha mühümü isə ondan ibarətdir ki, psixologiyanın obyektiv elm sahəsi olmaq cəhdi psixikanın tədqiqində yeni metodların axtarışına səbəb olmadı. XIX əsrin 80-cı illərinə qədər introspeksiya hələ də aparıcı metod olaraq qalırdı. Psixologiya elminin inkişafının III mərhələsi Almaniyanın Leypsiq şəhərində V.Vundtun ilk eksperimental psixologiya laboratoriyasının yaratması ilə başlayır. Eksperimental psixologiya laboratoriyasının yaranması ilə psixologiya müstəqil, obyektiv və eksperimental elm sahəsinə çevrildi. Lakin V.Vundt-un assosianist yanaşmanın əsasında qurduğu psixoloji model insanın ruhu aləmi, emosianal haləti, şəxsiyyətin strukturu, yaradıcı fəallığı ilə bağlı yeni

faktlar verə bilmədi. Belə vəziyyət alimləri psixikanın tədqiqi ilə bağlı yeni metodlar axtarmağa sövq etdi. Həmin dövrdə yaranan ilk psixologiya məktəbləri (strukturalizm, funksionalizm, Vyursburq məktəbi) uzun müddət fəaliyyət göstərə bilmədi. Lakin onlar sübut etdilər ki, psixologiyanın predmeti, metodları ilə bağlı fərqli mövqelər, yanaşmalar mövcuddur. Beləliklə, zamanın tələblərinə uyğun yeni axtarışlar başladı. Bu dövrü psixoloqlar metodoloji böhran dövrü adlandırırlar. Vahid mövqeyə gələ bilməmələri nəticəsində XX əsrin əvvələrində psixologiyada bir neçə istiqamət meydana çıxdı. Onların hər birinin öz predmeti və tədqiqat metodları yarandı. Nəticədə psixologiyada psixoanaliz, biheviorizm, qeştalt psixologiya, marksist psixologiya istiqamətləri və məktəbləri yarandı. XX əsrin II yarısında yeni psixologiya məktəbləri və istiqamətləri: humanist psixologiya, genetik psixologiya, koqnitiv psixologiya meydana çıxdı. Beləliklə, demək olar ki, XX əsrin 60-cı illərindən başlayaraq psixologiya elmi özünün yeni inkişaf mərhələsinə daxil oldu. Bu mərhələnin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, indi ayrılma, parçalanma yox, ayrı-ayrı məktəblərin, tədqiqat istiqamətlərinin birləşməsi prosesi gedir.

## Mövzu-4
## Azərbaycan mütəfəkkirlərinin yaradıcıllığında psixoloji fikirlər.

Müasir şəraitdə insan amili, şəxsiyyət və onun mahiyyəti, onun sosial-psixoloji kökləri, təşəkkül tapıb formalaşması problemi xüsusi aktuallıq kəsb edir. Məhz buna görədir ki, istər ümumi psixologiyada, istərsə də sosial psixologiyada şəxsiyyət problemi konseptual hesab olunur. İstər xarici ölkələrdə (ABŞ-da, Almaniyada, İngiltərədə, Fransada, keçmiş SSRİ-də) və istərsə də Azərbaycanda bu sahədə xeyli tədqiqatlar aparılmış, maraqlı fikirlər irəli sürülmüşdür. Həmin ideyaların öyrənilməsi və ümumiləşdirilməsinin mühüm elmi əhəmiyyəti var. Klassik ədəbiyyatımız yalnız bədii təfəkkürün məhsulu hesab edilə bilməz. Azərbaycan ədəbiyyatı bədii və elmi təfəkkürün vəhdəti nəticəsində yaranaraq, dövrün sosial, fəlsəfi-psixoloji xüsusiyyətlərini özündə əks etdirir. Bu baxımdan klassik irsimiz psixologiyanın nəzəri, tarixi problemlərinin öyrənilməsində əvəzolunmaz mənbədir. Məhz buna görədir ki, çoxdandır poeziya və nəsr əsərləri psixoloqların tədqiqat obyektlərinə çevrilmişdir.

Müdrik sözlər, hakimanə fikirlər, ibrətamiz psixoloji aforizmlər, bədii yaradıcılığın, söz sənətinin gözəlliyi və yaraşığıdır. Onlar sönməyən, daim şölələnib ətrafa işıq saçan incilərdir. Bu söz sənətində insan psixologiyasına xas olan keyfiyyətlərin yüksək sənətkarlıqla əks etdirilməsi digər ədəbiyyatlarda olduğu kimi, Şərq ədəbiyyatında da geniş şəkildə öz əksini tapmışdır. Azərbaycan klassiklərinin yaradıcılığı tükənməz sosial-psixoloji çalar-

la, zəngindir. Burada əsas yeri insan şəxsiyyətinin fikir azadlığı, dərin psixoloji mühakimələri tutur. Azərbaycan klassiklərini (N. Gəncəvi, İ.Nəsimi, M. Füzuli, A. Bakıxanov, M.F. Axundov, C. Cabbarlı, S. Vurğun və b.) həmişə insan azadlığı, ağlı, təfəkkürü, düşüncə tərzi, mənəvi təkmilləşməsi düşündürmüş və öz əsərlərində bu amala, əqidəyə sadiq qalmışlar. Şüur, düşüncə, ruhi təmizlik, aydın insani münasibətlər, həyatın, sosial-psixoloji varlığın gizli sirlərini öyrənmək Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında qırmızı lent kimi özünü göstərir. Onların əsərlərində vətənpərvərlik hissi, haqq, ədalət, ədalət, səmimilik, sadəlik və təvazökarlıq, xeyirxahlıq kimi ülvi və bəşəri keyfiyyətlər ön planda durur. Azərbaycan psixoloqları həmin əsərlərdən məhz insan ləyaqəti üçün vacib olan bu keyfiyyətləri seçib təqdim edirlər. Bu yolla da onlar gənc nəslin bir şəxsiyyət kimi formalaşmasında həmin əxlaqi dəyərlərdən istifadə olunmasına kömək etmiş olurlar. Budur psixoloqlarımızın xeyirxahlığı.

Bu problem min illərdir ki, bəşəriyyətin ən ağıllı, müdrik adamlarını düşündürmüş və bu barədə onlar müxtəlif ideyalar irəli sürmüşlər. Azərbaycan xalqına xas olan şifahi xalq yaradıcılığında dini görüşlərdə, həmçinin görkəmli mütəfəkkir alim və sənətkarların yazıçı və şairlərin yaradıcılığında şəxsiyyətin sosial-psixoloji xüsusiyyətlərinə aid fikirlər sistemli şəkildə olmasa da əks olunmuşdur.

Hər bir xalqın, o cümlədən Azərbaycan xalqının da müxtəlif dövrlərdə yazıb-yaratmış bədii söz ustaları öz əsərlərində şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri, xarakteri, ağıl və təfəkkürü, iradəsi, hissi, arzu və xəyalı haqqında birbaşa və dolayısı ilə fikir söyləmişlər. Bu fikir

və mülahizələrin öyrənilməsi psixologiyanın ümumi-nəzəri tarixi problemlərini yeni ideyalarla zənginləşdirilməsinə təbii ki, çox böyük kömək edir. İnsanın özünü dərk edib qiymətləndirməsi, xaraktercə təvazökar, səmimi və ədalətli olması, haqq və düzlüyə rəvac verməsi, xüsusilə dövlət başçılarının adil və səxavətli, elinə-obasına, idarə etdiyi insanlara qarşı qayğıkeş olmaları xalqımızın qabaqcıl alimlərinin, mütəfəkkirlərinin yaradıcılığının əsas xüsusiyyətlərindəndir.

Azərbaycan xalqının belə mütəfəkkirləri çoxdur. Onlar öz əsərlərində bir tərəfdən yaşadıqları dövrün ictimai-sosial hadisələrini bədii obrazlarda təsvir etmiş, digər tərəfdən əsl şəxsiyyətə xas olan psixoloji keyfiyyətlər göstərilmişdir. X. Şirvani, N. Gəncəvi, N. Tusi, M.Füzuli, M.F. Axundov, A.Bakıxanov, H. Zərdabi, C.Məmmədquluzadə, M. Ə. Sabir, A. Səhhət, A.Şaiq, N. Vəzirov, Ə. Haqverdiyev, C.Cabbarlı, S. Vurğun, S. Rəhimov, B.Vahabzadə və başqalarını buna misal göstərmək olar.

Azərbaycan psixoloqları xalqımızın və müdrik insanlarının yaradıcılığındakı sosial-psixoloji xüsusiyyətləri öyrənməklə həm onların irsinə böyük hörmət bəsləmiş və həm də, gənc nəslin humanist, vətənpərvər inkişafına kömək etmişlər. Bu tədqiqatlar bu gün də yazıb-yaradan ədiblərin yaradıcılığına təkan verən amil kimi də qiymətləndirilməlidir. Çünki, hər hansı bir alim, mütəxəssis onların əməyinə verilən qiyməti görəndə dünənkindən daha çox işləməyə səy edirlər.

İnsanların həmişə müdrik, ağıllı insanlara böyük ehtiyacı olub. Müdrik fikirlər, hakimanə sözlər, ibrətamiz fəlsəfi aforizmlər bədii yaradıcılığın, xüsusən söz sənə-

tinin gözəlliyi və yaraşığıdır. Onlar sönmək bilməyən, hey şölələnən, daima ətrafa qığılcım səpələyən gözlər kimidir: həmişə yanır, həmişə işıq verir, həmişə isti və odludur. Havaxt əlinə alsan elə biləcəksənki gurhagur yanan kürədən çıxarmısan. Bunlardan, bu işıq saçan, insanın fikrini oynadan, sinəsindəki hissləri alovlandıran bu müdrik, mənalı sözlərdən məhrum olan əsərlər nə qədər sönük, nə qədə cansızdır! Bu böyük keyfiyyət mənalı, müdrik aforistik söz yaratmaq keyfiyyəti ta qədim zamandan istər Şərqdə, istərsə Qərbdə klassik əsərlər üçün səciyyəvi olmuşdur.

Xüsusən o əsərlər ki, onlar cəmiyyətin gündəlik həyatı və insanların sosial mübarizələri ilə canlı əlaqədə yaranırlar. O əsərlər üçün ki, onlar dərin həyəcan və ilhamla yazılmış olurlar. Həyatın mənası, insan əməllərinin yaxşı və yamanlığı barədə, şüurun, ehtirasların, sözlə əməlin harada, hansı ictimai şəraitdə ahəngdar və ya uçurumlu olduğu barədə düzgün təsəvvür yaradırlar. Dərin və həssas müşahidələri, mürəkkəb həqiqətləri, mütərəqqi fəlsəfi, əxlaqi fikirləri ifadə edirlər.

Şərq xalqlarının bədii yaradıcılığında, xüsusən, klassik ədəbiyyatında varlığın mənasını, insan həyatının sirlərini dərk etmək, həyat hadisələrindən mənəvi-əxlaqi və ictimai fəlsəfi nəticələr çıxarmaq, insanın həyat təcrübəsini yığcam, aforistik fəlsəfi fikirlərlə yekunlaşdırmaq meyli çox güclü olmuşdur. Buna görədir ki, uzun əsrlər boyu həm nəsr əsərləri, həm də poeziya fəlsəfi-psixoloji təfəkkürlə aşılanmış, böyük şairlərin əsərləri eyni zamanda fəlsəfi fikrin hərəkətini əks etdirmiş, həyatın, obyektiv aləmin həm bədii, həm də fəlsəfi idrak vasitəsi olmuşdur. Bir sıra şərq xalqlarının tarixində elə dövrlər

var ki, poeziya həm estetik, həm də fəlsəfi fikrin inkişafını göstərən ən mötəbər mənbədir.

Lakin hər poeziya yox, o poeziya ki, dərin ictimai məna daşıyır, həyatdan doğub, həyatın nəfəsi ilə yaşayıb, xalqın real mübarizələri ilə, mənəvi aləmi, inamı, əqidələri və həyat fəlsəfəsi ilə üzvi surətdə bağlı olub. Belə poeziyanın nəinki mündərəcəsi, məzmunu, əks etdirdiyi materialları, bədii forması da, bədii priomları və obrazlar silsiləsi də xalqın həyatı və psixoloji aləminin xüsusiyyətləri ilə bağlı olur. Həqiqi istedadın, dahi sənətkarın böyüklüyü də elə ondadır ki, xalqın geniş mənada həyat təcrübəsinə və qazandığı mənəvi sərvətlərə əsaslanaraq yeni ictimai, fəlsəfi və estetik inkişafın tələblərini, ehtiyaclarını hamıdan əvvəl duyur və onu yüksək səviyyədə ödəyə bilir. Bir sıra müdrik, hakimanə ifadələrin, yaşamaq norması olmuş fəlsəfi fikirlərin müxtəlif dövrlərdə yazmış sənətkarların əsərlərində bəzən bu və ya digər şəkildə təkrar olunması heç də təəccüblü deyildir: ədəbi məktəblər və insan nəsilləri həmişə bir-biri ilə bağlı olmuş, bir-birinin həm uğurlu, həm də uğursuz təcrübəsindən ibrət almağa çalışmışdır.

Humanist fikirlər, zəhmətkeş insana hörmət və məhəbbət, ədalətsiz, zülmkar hakimlərə nifrət, faydalı fəaliyyətə, yaradıcı əməyə çağırış, varlığın gizli sirlərini açmaq ehtirası, sağlam insan şüurunu hər şeydən üstün tutmaq bu nümunələrdə tez-tez rast gəldiyimiz qiymətli motivlərdir. Dünyanın hər yerində əsrlər uzunu böyük-kiçik bütün hakimlər zəhmətkeş kəndliyə alçaq nəzərlə baxmış, onu avam, cahil adlandıraraq ələ salmış, ehtiyac dolu həyatına gülmüşlər. Özlərinin bolluqdan çatlayan süfrələrini və dəbdəbəli saraylarını isə kəndlinin ağır

əməyi ilə yetişmiş nemətlər bəzəmişdir. Şərqin də, Qərbin də böyük humanist şairləri və yazıçıları həmişə zəhmətkeş kəndlinin müdafiəsinə qalxmış, onun əməyini şöhrətləndirmiş, bu əməyin böyük həyati əhəmiyyətini qürurla qeyd etmişlər. Xəqaninin, Nizaminin, Füzulinin, Tusinin zəhmətkeş insana, xüsusən, əməkçi kəndliyə həsr olunmuş şerləri "ürək qanı" ilə yazılmışdır.

Halal əməyi ilə həm öz ailəsinə çörək qazanan, həm də başqa vətəndaşlara xidmət edən kənd və şəhər əməkçisini tərənnüm klassik ədəbiyyatda ənənədən doğan adi ədəbi hadisə deyildi, böyük sənətkarların inamının, fikri və əxlaqi mövqeyinin insani mahiyyətinin tələbi idi. Onların daha dərin düşünənləri həyatın, ictimai varlığın mövcud qaydalarının ədalətsizlik mənbəyi olduğuna və bu qaydaların dəyişilməsi zərurətinə inananları zəhmətkeş insandan, onun ağır, əzabkeş vəziyyətindən və hüquqsuzluğundan danışarkən nəzərlərini əks qütbə salır, hakim, müstəbid ictimai quruluşun başında duranları, sükançıları qəzəb və nifrət hədəfi edirdilər.

Azərbaycan mili-mənəvi dəyərlərindəki sosial-psixoloji fəlsəfi fikirlər Azərbaycanın görkəmli ədiblərinin, filosoflarının, pedaqoq və maarifçilərinin yaradıcılığında öz əksini tapmışdır. Bu bir həqiqətdir ki, keçmişi olmayan bir xalqın gələcəyi də yoxdur. Öz tarixini, keçmişini bilməyən bir xalq xalq deyildir.

Tarixi şəxsiyyət, filosof, yazıçı və şair A.A. Bakıxanov "Gülüstani-İrəm" adlı əsərində yazır: "Tarix insana öz millətinin əxlaqından və təbiətinin xassələrindən, qonşu tayfaların rəftarından xəbər tutması, cürbəcür xalqların əlaqələrini anladır " (1951, səhifə 9). Tarixi qaynaqlar şahidlərdir. Şahidi ətraflı danışdırıb dindirmədən, onun

dediklərini psixoloji, hüquqi baxımdan təhlil etmədən, nəticə çıxarmaq, baş vermiş cinayətdə günahkarı aşkar etmək çətindir. Bu baxımdan tarixi qaynaqları öyrənmək vacibdir. Çünki, xalın əxlaqi sərvətlərini cilalayan, ona sığal çəkən, xalqın özünü yaşadan amillərdən biri onun tarixidir. "Yaşamaq və bəşəriyyətin inkişafında öz mövqeyini müəyyənləşdirmək üçün hər xalq, hər millət öz tarixini bilməlidir" (İ. Şıxlı, "Hər xalq öz tarixini bilməlidir", "Bakı" qəzeti 25 noyabr, 1992). Qeyd etmək lazımdır ki, görkəmli tarixi şəxsiyyətlərin (məsələn, N.Gəncəvi, M. Füzuli, N. Tusi, M.F. Axundov, A.A. Bakıxanov və b.) heç biri ayrıca bir psixoloji əsər yazmamışlar. Lakin onların yaratdıqları əsərlərdə yeri gəldikcə təlim-təbiyəyə, psixologiyaya, pedaqogikaya, fəlsəfəyə aid elə ibrətamiz fikirlər vardır ki, onları seçib, ümumiləşdirib vermək hər bir tədqiqatçının vətəndaşlıq borcudur. Dövrün tarixi şəxsiyyətlərinə düzgün qiymət vermək lazımdır. Onların yaradıcılıqları yaşadığı dövrlə əlaqələndirilməli və bu gün üçün əhəmiyyətli olan keyfiyyətlər ortalığa qoyulmalıdır. Yazıçı və şairlərin, filosofların əsərləri həmin dövrün güzgüsüdür. Tarixi psixologiya onların əsərlərində, tərcümeyi-halında öz əksini tapır. Xalqın iztirablarını, adət-ənənələrini, əxlaqını, keçirdiyi hissləri, arzu və xəyallarını, xarakterini, milli ləyaqət və qürurunu öyrənmək üçün bu tarixi mənbələrə müraciət etmək lazımdır. Bu bizim qan yaddaşımız, genefondumuzdur.

Bu baxımdan Azərbaycan klassiklərinin yaradıcılığı möhtəşəm bir abidədir.

Müstəqilik əldə etdiyimiz indiki vaxtda milli-mənəvi dəyərlərimizin öyrənilməsi, bu dəyərlərdən gənc nəslin

təlim-tərbiyəsində sistemli şəkildə istifadə edilməsi günün vacib problemlərindəndir.

Bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi milli psixologiyanın əsas tərkib hissələrindən biri olan milli-etnik hisslərin müxtəlif aspektdə öyrənilməsindən ibarətdir.

Azərbaycan şifahi xalq yaradıcılığında əksini tapan psixoloji ideyalar dahi mütəfəkkirlər tərəfindən öyrənilmiş, təkmilləşdirilərək inkişaf etdirilmişdir. Bu istiqamətdə aparılan tədqiqatların araşdırılması da psixoloqlarımızın diqqətindən yayınmamışdır. Azərbaycanın görkəmli alim və mütəfəkkirlərinin X. Bəhmənyarın (Ə.K. Zəkuyev), X.Şirvaninin (1120-1190) (M. Məhərrəmov, Q.E. Əzimli), N. Gəncəvinin (1141-1203) (A.O.Makovelski, M. Abbasov, Ə.Ə. Əlizadə, Q.E. Əzimli, Z.Hüseynov), M.Füzulinin (1498-1556) (Ə.K.Zəkuyev, A.O.Makovelski), N.Tusinin (1201-1274) (Ə.K.Zəkuyev, Ə.T.Baxşəliyev), A.A.Bakıxanovun (1794-1847) (A. Abdullayev, Ə.Bayramov, Ə.T.Baxşəliyev), M.F.Axundovun (1812-1878) (M. Məhərrəmov), İ.Nəsiminin (Ə.S.Bayramov), S.Vurğunun (1906-1956), C. Cabbarlının, H.B.Zərdabinin (1827-1907), S.Ə. Şirvaninin (1835-1888), M.Ə. Sabirin (1862-1911), N.B. Vəzirovun (1854-1926), C.Məmmədquluzadənin (1866-1934), Ə. Haqverdiyevin (1870-1933) yaradıcılıqları psixoloji baxımdan az da olsa öyrənilmişdir.

## Mövzu-5
## Azərbaycanda milli psixoloji kadr hazırlığı.

Respublikamızda psixologiya elminin inkişafını zəruri edən, onun tərəqqi etməsinə şərait yaradan hərəkət-verici qüvvələrdən biri də milli psixoloji kadr hazırlığı olmuşdur. Kadrların hazırlanmasındakı əsas məqsəd ali məktəblərin professor-müəllim kollegiyasının peşəkarlıq səviyyəsini yüksəltmək idi. Məhz buna görə də psixologiya elmi üzrə kadrların hazırlanması işinə ali təhsil müəssisələrindən başlanılmışdır.

1960-cı illər milli psixoloji kadr hazırlığı sahəsində xüsusi bir dövr hesab edilir. Psixoloji kadrlar hazırlamaq üçün 1960-cı ildə indiki Bakı Dövlət Universiteti nəzdində pedaqogika-psixologiya kafedrası təsis edildi. Görkəmli alim, psixalogiya elmində misilsiz xidmətlər göstərən M.Məhərrəmov 60-70-ci illərdə kafedraya rəhbərlik etmişdir. Kafedranın dəstəyi ilə Q.E.Əzimov, S.Hələtai, N.A.Cavadov, T.Dadaşova, C.Təhmasib namizədlik dissertaslyalarını, həmçinin, Ş.Ağayev, Ə.Qədirov, Ə.Bayramov, M.Nəcəfov, M.Həmzəyev doktorluq dissertasiyalarını müdafiə etmişlər. 1971-ci ildən isə kafedraya Ə.Bayramov başçılıq etmişdir.

Psixoloigya elminə böyük töhfələr verən, professor Ə.S.Bayramovun bilavasitə başçılığı ilə Azərbaycanda və xarici ölkələrdə psixoloqlarımızın müdafiə elədiyi dissertasiyaların çoxu burada müsakirə edilib. Belə ki, kafedranın təşəbbüsü ilə Ə.Qədirov ‘’Kiçik yaşlı məktəblilərdə mücərrdələşdirmənin inkişafı’’ mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyasında göstərilən baş-

lıca xüsusiyyətlərdən biri də tədqiq etdiyi işin müasir dövrün tələblərinə cavab verməsidir. Ə.Ə.Qədirov sübut edir ki, təcrübi bilik verən ənənəvi təlim dövrün tələbinə uyğun gəlmir. Buna görə də ibtidai sinif şagirdlərinin elmi-nəzəri təfəkkürün inkişafına daha çox üstųnlük vermək lazımdır. Mücərrədləşdirmə cisim və hadisələrin hər hansı bir əlamətinin, hissəsinin fikri olaraq nəzərdn keçirilməsindən mütəşəkkil olan təfəkkür prosesidir. Mücərrədləşmə konkretdən keçir, konkret mücərrəd vasitəsi ilə dərk olunur. Bunlarla yanaşı müəllif qeyd edir ki, mücərrədləşdirmənin perseptual və konseptual səviyyələri mövcddur ki, bunlardan konceptual səviyə yüksək dərəcə inkişaf etmiş şagirdlərə xasdır. Beləliklə, Ə.Qədirov ibtidai sinif şagirdlərində mücərrədləşdirmənin qanunauyğunluqlarını tədqiq edərək təlim metodlarının təkmilləşdirilməsində böyük rol oynadığını göstərmişdir.

Kafedranın dəstəyi ilə Ə.Ə.Əlizadə 1975-ci ildə ‘’Cinsi demorfizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri’’adlı VI fəsildən təşkil olunmuş doktorluq disertasiyasını müdafiə etmişdir.

Birinci fəsildə cinslərarası qarşılıqlı münasibətlər ictimai-tarixi nöqteyi-nəzərdən təhlil edilir. Eyni zamanda bu münasibətlərin formalaşmasında ailənin, mühitin rolu da qeyd edilir. Bu fəsldə həm də tədiqatın işlənmə metodikası, məqsədi, vəzifələri aydın şəkildə göstərilir.

Eksperimental tədqiqatlar əsasında ikinci fəsildə oğlan və qızların qarşlıqlı munasibəti təhlil edilir. Bu münasibətlərin xüsusilə məktəbəqədər yaş dövründən başlayaraq formlaşması xassələrindən bəhs edilir. Bu prosesdə valideyn və müəllimlərin mövqeyi, dostluq və məhəbbət hissinin və s. kimi məsələlr tədqiq edilmişdir.

Əsərdə müəyyən edilir ki, istənilən yaş qruplarında onların ünsiyyətinin spesifik cəhətləri mövcuddur. Xüsusilə, kiçik məktəb yaşı dövründə bu münasibət hərəkətsiz olmayıb, vəziyyətdən asılı olaraq qısamüddətli xarakter daşıyır. Alim, yeniyetməlik dövrünü digər yaş mərhələlərindən fərqləndirərək bu dövr üçün xarakterik olan əks cinsə olan marağın artması, ünsiyyət təlabatı, əxlaqi və mənlik şüurunun formalaşması kimi halları səciyyələndirmişdir.

Azərbaycan psixologiyasında bu məsələni ilk dəfə ətraflı şəkildə öyrənən Əbdül Əlizadə üçüncü fəsildə cinsi fərqlənmənin müxtəlif ifadə tərzlərini göstərmiş, bu işdə müəllim və valideynlərinin çox vaxt laqeyd olduqlarını nəticə etibari ilə uşaqlarda mənfi keyfiyyətlərin yaranmasına gətirib çıxartdığını bildirir. Tədqiqat işində ən çox bu münasibətlərə emotivlik aspektindən yanaşır.

Beçinci fəsildə qarşılıqlı münasisətlərin cinslərin birbirini dərk edib başa düşməsi fonunda formalaşıb inkişaf etməsi məsələləri şərh edilmişdir.

Altıncı fəsil dostluq və məhəbbət kimi hislərin yeniyetməlik və gənclik yaşı dövrü üçün xarakterik olan xüsusiyyətləri tədqiqinə həsr olunmuşdur. Bu kimi hislərin özünəməxsus xassələri, inkişaf formaları, fərqli xüsusiyyətəri araşdırılmışdır. Əsərdə cinsi fərqlərin formalaşması, qızlar və oğlamların özünüqiymətləndirməsi və özünüdərketməsi, şəxsi qarşılıqlı münasibətlər elmi sübutlar əsasında izah edilmişdir.

Ölkəmizdə milli kadrların hazırlanmasında keçmiş SSRİ Psixoıloqlar Cəmiyyətinin mühüm rolu olub. 1965-ci ildən etibarən şöbənin sədri F.İbrahimbəyov olmuşdur.

İlk illərdə elmin başqa sahələrində olduğu kimi psixologya sahəsində də durğunluq müşahidə edilir, kadr çatışmazlığı özünü göstərirdi. 1963-64-cü illərdən etibarən psixoıogiya kafedrsı müstəqil olaraq fəaliyyət göstərməyə başlayır. 1963-cü ildən başlayaraq 1975-ci ilədək həmin kaferdraya Ş.S.Ağayev rəhbərlik edir.

Kafedra elmi işçilər hazırlamaq məqsədi ilə elmi-tədqiqat işləri aparmış, xüsusilə Ə.Baxşəliyev, Z.Orucov, M.Əbdülov, İ.Məmmədov bu işdə böyük təşəbbüs göstərmişlər.

Psixologiya kafedrasının əsasında 1974-cü ildə ümumi psixologiya , yaş və pedaqoi psixologiya kafedrları təsis edilir. Ümumi psixologiya kafedrasna Ə.Əlizadə, yaş və pedaqoji psixologyaya isə öncə Z.Mehdizadə, 1988-ci ildən etibarən Q.Əzimov, hal-hazırda Ə.Baxşılıyev kafedraya  başcılıq edir.

Kafedraının yardımı ilə Ə.Əlzadə 1962-ci ildə ‘’Şagirdlərin yaradıcı təxəyyül fəaliyyətində analiz və sintez proseslərinin xüsusiyyətləri’’, A.Məmmədov (1965) ‘’II-IV sinif şagirdlərində məntiqi hafizənin bəzi xüsusiyyətləri’’, İ.Fərəcov (1968) ‘’Təlim materialının qavranılması sahəsində IV-V sinif şagirdləri arasında fərdi fərqlər’’, Q.Əzimov (1970) ‘’Kiçik məktəb yaşlı şagirdlərdə hörmət hissini inkişaf və tərbiyəsi’’, M.Əbdülov (1973) ‘’Kiçik məktəblilərdə lüğət ehtiyatının və şifahi nitq vərdişlərinin inkişaf dinamikası’’, Ə.Baxşəliyev (1973) ‘’Sovet Azərbaycanında psixologiyanın inkişafı tarixindən’’, N.Cavadov (1974) ‘’I-IV sinif şagirdlərində həya hissinin inkişafı’’ adlı namızədlik dissertasyalarını uğurla müdafiə etmişlər.

Bu tədqiqat işlərindən bəziləri haqqında qısa məlumat verək. İstər rus istərsə də digər xarici ölkə psixoloqların təlim materialının qavranılması sahəsində fərdi fərqlərin öyrənilməsi məsələlərinə ithaf edilmiş tədiqat işlərinə rast gəlinməmişdir. Belə ki, İ.A.Fərəcovun 1968-ci ildə müdafiə etdiyi ‘’Təlim materialının qavranılması sahəsində IV-V sinif şagirdləri arasında fərdi fərqlər’’ mövzusunda namizədlik dissertacyası keçmiş sovet psixologiyasında bu məsələyə həsr edilmiş ilk tədqiqat işi hesab edilir. Biliklərə yiyələnmənin ən mühüm əlamətləri uğrunda mübarizə məktəbin başlıca vəzifələrindən biridir. Bu hadisələrin gedişində qavrayış zəruri amillərdən hesab edilir, çünki təlim materiallarının mənimsənilməsi səviyyəsi onun əlverişli şəkildə qavranılmasından aslıdır.

Sınaq zamanı aydın olur ki, təlim matrialını əlverişli şəkıldə qavramaq üçün bu prosesin gedişini bilmək lazımdır. Təlim materialının qavranılmasının səmərəliliyini təmin etmək üşün şagirdlərin qavrayışındakı fərdi fərqləri də nəzərə almaq zəruridir. İ.A.Fərəcov qavrayışda fərdi fərqlər məsələsəni təkcə sinif sisteminin tipoloji xüsusiyyətlərinin ifadəsi kimi deyil əqli faliyyətinin inkişafının müxtəlif mərhələlərinin təzahürü kimi baxır. Əsərdə məktəblilərin qavrayışının səmərələliyini təmin etmək üçün vacib olan bur sıra şərtlərdən söhbət açılır. Bu şərtlərdən biri də müəllimin nitqinin sürətidir ki, buraya da oxu sürəti, sorğu, dərsi izah etmə sürəti aiddir.

Göründüyü kimi bu dövrdə tədqiq edilən araşdırılan məsələlərin əsasını məktəblilərin psixoloji xüsusiyyətləri, fərdi keyfiyyətləri nəzərə alınmaqla təlim prosesində inkişaf etdirilməsi təşkil edirdi.

Yüksək ixtisaslı kadırların hazrlanmasında professor Ə.Əlizadənin böyük rolu olmuşdur. Professorun elmi fəaliyyəti məhz bu universitetin adı ilə bağlı olmuşdur. Onun aspirant və dissertantları müxtəlif mövzualr üzrə dissertasiyalar müdafiə etmişlər.

ADPU-da 1965-ci ildə ixtisaslaşmış müdafiə şurasının yaradılması bu sahədə böyük təşəbbüs hesab edilir. Şuranın təsis edilməsi psixoloji elmləin inkişafını şərtləndirən əsas vasitələrdən birinə çevrilməklə birgə respublikanın psixoloji həyatında dirçəlmə yaratdı.

Şura pedaqoji və psixaloji elmlər ilə bağlı aparılan araşdırmaların əlaqələndirilməsində böyük işlər görmüş, müntəzəm şəkildə universitetlərdə, institutlarda işlənilən elmi-tədqiqat mövzularının uzlaşdıraraq bütöv yekun planını qurmuş, mövzuların seçilməsi işində yaranan təkrarlıq, eyniliyin qarşısını almışdır.

Bu şuranın köməyi ilə M.F.Axuindov adına ADPİ-nun psixologiya kaferdrasından K.Əbilov (1964) ‘’Kiçik yaşlı məktəblilərdə əməksevərliyin inkişafı’’, T.Mustafayevin’’İlk gəclik dövründə ədəbi yaradıcılıq qabiliyyələrinin xüsusiyyətləri’’(1965), BDU-nun pedaqogik-psixlogya kafedrasının nümayəndələrindən olan S.Hələtai (1965) ‘’Tağı Eraninin psixoloji görüşləri’’ , C.Təhmasib (1965) ‘’Sovet hakimiyyəti illərində Azərbaycan qadınlarının mənəvi simasını səciyyələndirən yeni əlamətlərin təşəkkülünə dair’’ , F.Hüseynova (1972) ‘’Kiçik məktəblinin maraqları’’ və digərləri bu şuranın dəstəyi ilə namizədlik dissertasiyalrını müdafiə etmişlər.

Tofiq Mustafayevin 1965-ci ildə müdafiə etdiyi namizədlik dissertasiyasında erkən gənclik dövrundə yaradıcılıq qabiliyyətlərinin psixoloji xüsusiyyətlərindən

bəhs edilir. Əsərdə ədəbi yaradıcılıq fəaliyyətinin spesifik xüsusiyyətləri göztərilir. Bu yaradıcılıq fəaliiyəti bədii dil tələb edir. Bədii dili isə səciyyələndirən başlıca cəhət onun obrazlılıq keyfiyyətinə malik olmasıdır. Bu cəhət onu başqa fəaliyyət sahələrində istifadə edilən dildən fərqləndirir.

Müxtəlif nümunələr əsasında müəlif ədəbi yaradıcılıqla məşğul olan böyük yaşlı məktəblilərin qavrayışının hissiliyi, emosionallığı, məntiqiliyini əks etdirmişdir.

Məktəblilərdə bu qabiliyyətləri aşılamaq dedikdə onları yazıçı etmək nəzərdə tutulmur. Ədəbi yaradiciliq qabiliyyətlərinin böyük yaşlı uşaqlarda formalaşdırmağın əsas məqsədi onlarda əxlaqi, estetik xüsusiyyətləri tərbiyə etmək, ətraf aləmə, insanlara, bütövlükdə cəmiyyətə qarşı məqbul olan yüksək keyfiyətləri formalaşdırmaqdır. Bütün bunlar isə məktəbdə aparılan təlim-tərbiyə işinə əsaslanır.

Çox vaxt müəllimlər təlim zamanı şagirdlərdə müşahidəçilik, gördüklərini təsvir etmək, qısa şəkildə ifadə edə bilmək bacarıqlarını tərbiyə etmək məsələlərinə daha az diqqət yetirirlər. Onlar çalışmalıdır ki, bu cəhətləri əsas götürərək uşaqlarda tərbiyə etsinlər.

Şagirdlərin ədəbi yaradıcılıq qabiliyətinin tərbiyəsi ilə məşğul olan hər bir kəs ədəbi yaradıcılıq qabiliyyətinin psixoloji quruluşuna aid olan tərkib hissələrdən biri bədii dili fərqləndirən bədi təsvir vasitələrindən istifadə etməyin əhəmiyyəti və yuxarı sinif şagirdlərində təzahür xüssiyyətlərini bilməlidir ki, tərbiyə işində onları nəzərə alaraq əsas götürsün.

Şuranın köməyi ilə A.O.Makovelskinin rəhbərliyi ilə Cəmilə Təhmasib azərbaycanlı qadınları səciyyələndirən xüsusiyyətləri tədqiq etmişdir.

Dissertasiyaın birinci fəslində M.F.Axundov, F.Köçərli, H.Zərdabi kimi ziyalılıar qadınların kölə vəziyyətinə acıyır, onları bu vəziyyətdən qurtarmaq üçün öz yaradıcılıqlarından istifadə edərək qadınların taleyini təsvir edirlər.

''Azərbaycan sovet qadınlarında yeni əlamətlərin təşəkkülünə dair'' ikinci fəsildə keçmiş sovet qadınlarının, sosialist əməyi qəhrəmanlarının nailiyyətləri qeyd edilir. Bu fəsildə həmin dövr üçün müasir qadınları səciyyələndirən yeni keyfiyyətləri müəyyyənləşdirmişdir. Bu keyfiyyətlərin dəqiqləşməsində dövrün tələbini, şəriatin rolunu nəzərə almışdı.

Burada nəzərə çarpan vəzifələrdən biri də müxtəlif qadın klublarının, kəndli qadın güşələrinin yaradılması olmuşdur. Belə təşəbbüslərdən biri də AKPMK nəzdində qadınlara məxsus klubun yaradılması olmuşdur. Klubların yaradılmasındakı əsas məqsəd qadınları mövcu cəmiyyətin adət-ənənələrinə, qanunlarına olan münasibəti dəyişmək idi.

Kluba gedən qadınlar savad öyrənir, eşitmədiyi, bilmədiyi məlumatları əldə edir, ixtisas qazanırdı. Qadının bərabərhüquqlu vətəndaş olduğunu təsdiq edən bu amillər ona mənəvi qida verir, yavaş-yavaş cəsarətləndirirdi.

Burada göstərilən əsas məqamlardan biri də qadın hərəkatı uğrunda mübarizə aparan ilk və tək 1923-cü ildə nəşr edilən '' Şərq qadını'' jurnalı olmuşdur. Jurnal qadınlarımızın sosializm quruculuğuna doğru yönəlməsində böyük işlər görmüş, qarşıya çıxan bütün çətinliklərlə,

irticaçı qüvvələrlə mübarizə aparmışdır. Jurnalın xüsusi səhifəsini təşkil edən ‘’şəxsi tənqid’’ adlanan bölmədə qadın hüququnu tapdalayanlara qarşı mübarizə aparmış, çadrasız gəzən qadınlara pis baxan, çox arvadlılıq, qızların erkən yaşda nigaha cəlb edilməsi faktları kəskin tənqid edilmişdir. Jurnal yalnız respublikada deyil eləcə də bütün Yaxın Şərq ölkələrində böyük nüfuza sahib olmuşdur.

Əsərdə qadınların fəaliyətini müşahidə edərək onları qələmə alan yazıçılarımız Sevil, Ceyran və s. kimi obrazlar yaratmışlar. Bu əsərlərdə hüquqları tapdalanan, çarəsiz, mühitin tələblərinə boyun əyən qadınların vəziyyəti işıqlandrılıb.

Dıssertasiyada qeyd edilir ki, ilk dəfə Bakıda qurulmuş qadın klubları ictimai əməkdə iştirak etməmiş qadınları bir yerə toplayacaq yeganə müəssisə olmuşdur. Rusiyada təşkil edilmiş fəhlə klublarından fəqrli olaraq bu klublar yalnız qadınlara məxsus idi. Zaman keçdikcə qadınlar üçün ilk təlim və tərbiyə ocağına çevrilmişdir.

Ali təhsil müəssisələrinin psixologiya kafedraları ilə bərabər Elmi-Tədqiqat Pedaqogika instituunun psixologiya labaratoriyasının da kadır hazırlıgında xüsusi rolu olmuşdur. Həmin intitutda psixolagiyanın fərqli istiqamətləri üzrə kadrlar hazırlanıb. Peşəkar kadrların hazırlanmasında A.O.Makovelsk, F.Ə.İbrahimbəyov, M.Həmzəyev kimi görkəmli alimlər xüsusi ilə qeyd edilməlidir. Hazırda isə institut Azərbaycan Respublikasının Təhsil Problenləri İnstitutu kimi fəaliyyət göstərir.

Səriştəli kadrıların hasırlanmasında Azərbaycaan Pedaqoji Xarici Dillər insitutunun psixologiya kafedrsaı sədri F.İbrahimbəyovun böyük xidmətləri olub.

K.S.Əbilov, C.N.Səmədov v s. onun rəhbərliyiilə yüksək ixtisaslı alim kimi yetişmişdirlər.

Diqqəti cəlb edən digər məqamlardan biri də burada xarici ölkə alimləri ilə həmkarlığın əhəmiyyətidir.

Psixoloqlarımız öz qüvvələrindən istifadə etməklə bərabər dissertant, aspirant və başqa bu kimi yollarla müxtəlif ölkələrin alimləri ilə əlaqə saxlayaraq bu sahədə böyük xidmət göstərmişlər. Bu cür mütəxəssislər sırasında A.O.Makovelskinin rolu danılmazdır. O, ölkəmizi digər ölkələrdə - Rusiya, Orta Asya və s. təbliğ etmişdir. 1968-ci ilə qədər müdafiə edilən dissertasiyalarda onun zəhməti olmuş, güclü bir psixoloq nəsli onun rəhbərliyi ilə təşkil edilmişdir. Bütün bunlarla yanaşı xarici ölkə psixoloqları da öz tətqiqatlarında, elmi araşdırmalarında Azərbaycan psixoloqlarının yaradıcılığından bəhrələnmiş, Ş.Ağayev, Ə.Bayramov, C.Təhmasib kimi görkəmli şəxslərin tədqiqatları qiymətləndirilirdi.

Ölkədə ali məktəblərin gələcək inkişafı və təhsil islahatlarının müvəffəqiyyətlə həyata keçirilməsi işi məhz ixtisaslı kadrların hazırlanması işindən aslıdır. Aparılan

araşdırmalar göstərirdi ki, psixologiya sahəsində çalışanların sayı durmadan artmış, kadr hazırlığında müəyyən işlər görülmüşdür.

## Mövzu-6
## Eksperimental psixologiya laboratoriyalarının təşkili və müasir vəziyyəti.

Azərbaycan psixoloqları xarici ölkələrdə eksperimental psixologiya sahəsindəki təcrübələrlə tanış olub, onlarla sıx əlaqə saxlayaraq respublikamızda bu sahədə müəyyən nailiyyətlər əldə etmişlər. Belə ki, 1921-ci ildə ilk dəfə Azərbaycan Dövlət Universitetində eksperimental psixologiya laboratoriyası yaradılmışdır. Həmin laboratoriyanın təşkilatçısı F.Ə. İbrahimbəyov ora müxtəlif psixoloji cihazlar alıb gətirmiş və gələcək tədqiqatların bünövrəsini qoymuşdur.

XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq, xarici ölkələrdə əməyin elmi-psixoloji təşkilinə xüsusi fikir verilmişdir. 1921-ci ildə Rusiyanın paytaxtı Moskva şəhərində əməyin elmi təşkili üzrə birinci Ümumdünya Konfransı keçirilmişdir.

Konfransın əsas təşkilatçıları V.M. Bexterev olmuşdur. Konfransda əməyin təşkilinin psixoloji məsələlərinə dair bir neçə məruzələr dinlənilmişdir. Bu hadisədən sonra Moskvada, Sankt-Peterburqda və digər iri şəhərlərdə psixo-texniki laboratoriyaları yaradıldı. Həmin laboratoriyaların biri də 1923-cü ildə Bakı Azərneft birliyinin peşə-texniki və təhsil şöbəsində təşkil edilmişdir. Laboratoriyada əməyə psixoloji hazırlığın problemləri, peşə hazırlığı, peşə üçün lazım olan bilik, bacarıq və vərdişlərin tərbiyəvi yollarına aid tədqiqatlar aparılmışdır. 1924-25-ci illərdə F.Ə.İbrahimbəyov, V.M. Vadimov və başqaları laboratoriyada çalışmış, tədqiqatlar aparmışlar. 1926-cı

ildə respublikamızda ilk dəfə olaraq “Yeniyetmənin hərəkət sahəsinə istehsalat təlimi sisteminin təsiri məsələsinə dair” adlı (V.M. Vadimov) tədqiqat əsəri laboratoriyanın fəaliyyətinin məntiqi nəticəsi kimi çap olundu. Əsər respublikamızda eksperimental psixologiyaya aid ilk tədqiqat idi. Laboratoriyanın əməkdaşları dövri mətbuatda da tez-tez çıxış edir, tədqiqatların elmi-nəticələri ilə oxucuları tanış edirdilər.

1927-ci ildə Moskvada əmək psixologiyası üzrə eksperimental tədqiqatları genişləndirmək, bu sahə üzrə eksperimental tədqiqatları əmək müəssisələrinə əməli kömək məqsədilə Ümumrusiya Psixotexnika Cəmiyyəti yaradıldı. Sonralar bu cəmiyyət tətbiqi psixologiya və psixotexnika cəmiyyəti adlandırılır. Rus psixoloqlarından A.K. Barsuk, S.Q. Gelerştteyn, N.D. Levitov, R.A. Rudnik, M.Y.Sirkin və başqaları bu prosesdə fəal iştirak etmişlər.

Azərbaycan psixoloqları da bu prosesdə rus psixoloqları ilə əlaqə saxlamış və 1928-29-cu illərdə Bakıda tətbiqi psixologiya və psixotexnika cəmiyyəti yaratmışlar.

Q. Smışlyayev, A.O. Makovelski, Ə.K. Zəkuyev, F.Ə. İbrahimbəyov bu sahədə fəal təşəbbüsçülər idilər. Bu cəmiyyətin məqsədi psixoloji təcrübələr vasitəsilə yeniyetmə və gənclərdə əmək vərdişlərinin, bacarıqlarının qanunauyğunluqlarını aşkara çıxarmaq, əməyin psixofizioloji imkanlarını öyrənmək idi. Bu məqsədlə də Bakıda təcrübi psixoloji laboratoriya yaradılmışdır.

1923-cü ildə Bakı Xalq Maarifi şöbəsi nəzdində psixologiya laboratoriyası təşkil edildi. Ə.K. Zəkuyev, B.Mustafayev, U.Şaxtaxtinski, A.O.Makovelski, A.Perelman, M.Muradxanov, F.İbrahimbəyov, B.B.Komarovski və başqaları laboratoriyanın ilk əməkdaşları olmuşlar.

Həmin laboratoriyanın əməkdaşı A.A. Perelman 1923-27-ci illərdə tədqiqat apararaq eksperimental psixologiyaya aid iki kitab ("Qrafik təsvir təcrübəsi", Bakı, 1927 və "Hafizə və onun patoloji xüsusiyyətləri", Bakı, 1927) nəşr edilmişdir Bu laboratoriya 1936-cı ilə qədər fəaliyyət göstərmişdir. Məhz bu yolla ilk dəfə olaraq Azərbaycanda psixologiya elmi təhsil sahəsinə tətbiq edilmişdir.

1926-cı ildə Bakıda Ümumittifaq Tətbiqi Psixologiya Cəmiyyətinin Azərbaycan şöbəsi təşkil edilmişdir. Bu şöbənin nəzdində məktəblilərin əməyini psixoloji cəhətdən öyrənmək, bu sahədə konkret tədqiqatlar aparmaq üçün psixotexnika laboratoriyası təşkil edilmiş və orada 30-a qədər müxtəlif mövzularda tədqiqatlar aparılmışdır. Həmin laboratoriya Bakının ümumtəhsil məktəblərində şagirdlərin əməyə psixoloji hazırlanmasında xeyli iş görmüş və bu yolla da məktəblə psixologiya arasında əlaqə yaranmışdır. Bu yolla da Azərbaycan psixoloqları təhsilə psixoloji xidmət göstərmişlər.

Azərbaycanda XX əsrdə psixologiya elminin inkişaf edib formalaşmasında nəinki Respublika Təhsil Problemləri İnstitutunun böyük rolu olmuşdur. Bu institut əvvəlki illərdə psixologiya arasında bir körpü oynamış və təhsilə psixoloji xidmət göstərmişdir. İlk illərdə institutda dörd şöbə (pedalogiya, pedaqogika, psixologiya, əmək və psixotexnika) fəaliyyət göstərmişdir. Pedalogiya, pedaqogika, psixologiya şöbəsinə F.Ə. İbrahimbəyov, əmək və psixotexnika şöbələrinə isə M. Abbasov rəhbərlik etmişdir.

Azərbaycanın görkəmli alim və psixoloqlarından olan A.O. Makovelski, Ə.K.Zəkuyev, S. Hacıyev, V. Mustafayev, M. Məhərrəmov, M. Hacıyev, M.Muradxanov, N.S. Lutoxina həmin şöbələrdə çalışmış və eks-

perimental psixologiya üzrə tədqiqat aparan ilk mütəxəssislərdir.

1936-cı ildə psixologiya şöbəsinin gələcək inkişafında, onun strukturunda əsaslı dəyişikliklər haqqında xüsusi qərar qəbul olundu. Bu qərara əsasən psixologiya şöbəsinin işi daha da gücləndirildi. A.O. Makovelski, Ə.K. Zəkuyev, F.Ə.İbrahimbəyov həmin şöbənin işinə cəlb olundular. Sonralar psixologiya şöbəsi pedaqogika şöbəsi ilə birləşmiş və pedaqogika-psixologiya şöbəsi adlandırılmışdır. 1958-ci ilə kimi fəaliyyət göstərən bu şöbəyə F. İbrahimbəyov, S. Hacıyev rəhbərlik etmişlər. Həmin şöbədə ana dili təliminin mənimsənilməsi psixologiyası, təfəkkürün təlim prosesində inkişafı, əmək psixologiyası və s. problemlər üzrə eksperimental tədqiqat işləri aparılmış və məktəblilərimizə əməli kömək edən nəticələr əldə edilmişdir. C. Hacıyev, Z. Mehdizadə, B. Mustafayev, K. Əbilov, Ş. Babayev həmin laboratoriyanın ilk aspirantları olmuş və psixologiyanın müxtəlif sahələri üzrə elmi tədqiqatlar aparmışlar.

Bu laboratoriyaların əsas məqsədi psixologiya və pedaqogikanın təhsillə əlaqəsini yaratmaq və bu yolla da xalq maarifinə xidməti təmin etmək idi. Bunu çox müvəffəqiyyətlə yerinə yetirirdi. Bu laboratoriyalarda respublikamızın adlı-sanlı psixoloqları, pedaqoq və filosofları çalışırdılar(A.O. Makovelski, Ə.K. Zəkuyev, M.Hacıyev, S. Hacıyev, M. Abbasov, F.Ə. İbrahimbəyov, B. Mustafayev, M.Mustafayeva, M. Muradxanov, A. Perelman, N.S. Lutoxina və başqaları).

Psixologiya, psixotexnika, əmək psixologiyası və başqa şöbələrdə çox maraqlı eksperimentlər aparılırdı. Məsələn, 1931-1936-cı illər ərzində pedalogiyanın

ləğvindən sonra institutun nəzdində pedalogiya ilə bağlı olan bütün şöbələr ləğv edildi. Həmin şöbələrin əsasında 3 nəfər üzvlə (A.O. Makovelski, Ə.K. Zəkuyev, F.Ə.İbrahimbəyov) psixologiya şöbəsi yaradılır. Bu vəziyyət Böyük Vətən müharibəsi qurtarana qədər davam edir. Bu müddətdə şöbəyə S. Hacıyev, F.Ə.İbrahimbəyov rəhbərlik edir. 1949-1951-ci illərdə isə şöbənin müdiri M. Hacıyev olmuşdur. Sonra bir neçə il şöbəyə Z. Mehdizadə rəhbərlik etmişdir.

Laboratoriyaya uzun müddət Z.M. Mehdizadə rəhbərlik edir. 1961-ci ildən 1974-cü ilə qədər isə laboratoriyaya M.Ə. Həmzəyev başçılıq etmişdir. Bu dövr psixologiya laboratoriyasının fəaliyyətində ən məhsuldar dövr olmuşdur. Psixoloji tədqiqatlar Bakının 31 saylı orta məktəbində aparılırdı. Laboratoriya isə ora köçmüşdür. Respublikamızın gənc alimləri (Ə.S. Bayramov, Ə. Əlizadə, K. Əbilov, Ş. Babayev, İ.Fərəcov və başqaları) həmin laboratoriyaya cəlb olunmuşdu. Çox təəssüflər olsun ki, M.Ə. Həmzəyev başqa işə keçməklə həmin laboratoriya öz işini dayandırır. Bir neçə ilə həmin institutda psixologiya üzrə tədqiqatlar azaldı. Lakin sonralar yenidən bir canlanma özünü göstərdi.

İnstitutda hal – hazırda təhsilin psixoloji problemləri ilə məşğul olan üç şöbə fəaliyyət güstərir.Qeyd etmək lazımdır ki, təhsilin psixoloji problemləri üzrə həmin şöbələrdə bir doktorluq (R.Əliyev) və bir neçə namizədlik (L.Əmrahlı, İ.Sultanova və b.) dissertasiyaları, dərsliklər (Psixologiya R.Əliyev, 2007, Psixologiya tarixi, R.Əliyev 2006, Psixoloji xidmətin əsasları, L.Əmrahlı, 2006, Məktəbə hazırlığın psixodiaqnostikası,L.Əmrahlı, 2008 və

b.) hazırlanmış və müəllim-tərbiyəçilərin istifadəsinə verilmişdir.

XXI əsrin ilk onilliyində respublikamızda milli psixoloji kadrların hazırlanmasında dərslik və dərs vəsaitlərinin, monoqrafiya və elmi məqalələrin yazılmasında prof. R.İ.Əliyevin əməyi xüsusi ilə qeyd edilməlidir.

Respublikamızda psixologiya elminin inkişaf edib formalaşmasında, maraqlı tədqiqatların aparılmasında, yüksək ixtisaslı milli psixoloji kadrların hazırlanmasında Bakı Dövlət Universitetində fəaliyyət göstərən "Eksperimental psixologiya" elmi-tədqiqat laboratoriyasının böyük rolu vardır. Laboratoriya güclü elmi potensiala (prof. B. Əliyev-rəhbər; R.V. Cavadov-icraçı məsul katib; Ə. Vəliyeva, E.Ə. Əliyeva, Z.İ.Sadıqova, M.A. Mustafayev, M.İ. Məhəmməd, S.S. Mirzəyeva və başqaları) malikdir. Orada psixologiyanın ən aktual problemlərinə-mili şüur və xarakterin təşəkkülünün öyrənilməsi; şəxsiyyətin öyrənilməsinin psixoloji məsələləri; təhsildə şəxsiyyət problemi, uşaqların psixi inkişafının diaqnostikası və psixokorreksiyası; tibbi psixologiyanın aktual problemləri və s. məsələlərə aid tədqiqatlar aparılır. Laboratoriyanın elmi-tədqiqat işləri təhsilə, səhiyyəyə, sənaye və digər sahələrə tətbiq edilir ki, bu da müstəqil respublikamızın elm və təhsilinin inkişafında diqqəti cəlb edən faktlardandır.

XX əsrin sonlarında 2000 –ci il aprel ayının birində Bakı Dövlət Universitetində yaradılmış "Eksperimental psixologiya"sı ET laboratoriyası (rəhbəri prof. B. Əliyev, icraçı katib R. Cabbarov) tədqiq etdiyimiz problem baxımından daha şərəfli yol keçmişdir. Laboratoriyada güclü elmi potensiala malik olan mütəxəssislər (prof. B. Əliyev,

R.V. Cabbarov, Y.Ə.Vəliyev, E.Ə. Əhmədova, Z.İ. Sadıqova, M.Mustafayev, M.M. İranə, S.M.Mirzəyeva. S.F. Dünyamalıyeva, F.İ. Əliyeva) çalışırlar. Laboratoriyaya psixologiyanın aktual problemlərinə ("Şəxsiyyətin inkişafının aktual-psixoloji problemləri", "Milli şüur və xarakterin inkişaf və təşəkkülü, uşaqların psixi inkişafının diaqnostikası və korreksiyası, tibbi psixologiyanın aktual problemləri") elmi şəkildə öyrənilir və təcrübəyə tətbiq edilir. Laboratoriyada aparılan yüksək elmi tədqiqatların nəticəsidir ki, orada çalışan mütəxəssislərin əksəriyyəti (R. Cabbarov, M. Mustafayev, E. Əhmədova və başqaları) prof. B.H. Əliyevin rəhbərliyi ilə namizədlik dissertasiyalarını müdafiə etmişlər.

XX əsr və XXI əsrin ilk onilliyində Azərbaycanda milli psixoloji kadrların hazırlanmasında yüksək səviyyəli tədqiqatların aparılmasında psixologiya üzrə ixtisaslaşdırılmış dissertasiya şuralarının böyük rolu olmuşdur. 1965 -1975 ci illərdə indiki ADPU-nun nəzdində fəaliyyət göstərən müdafiə şurası bu sahədə ilk addım idi. Şuraya uzun müddət tanınmış psixoloq Ş.S.Ağayev rəhbərlik etmişdir. Şura fəaliyyətini başa vurduqdan xeyli sonra, 1999-cu ildə BDU – nun nəzdində (№02014) dissertasiya şurası fəaliyyətə başladı. Bir müddət şuraya prof. Ə.S.Bayramov rəhbərlik etmişdir.

## Mövzu-7
## Psixologiya kafedralarının yaradılması və onların müasir vəziyyəti

Biz bunun haqqında əvvəlki bölmədə məlumat vermişik. Respublikamızda psixologiya laboratoriyaları az olduğu üçün bəzi ali məktəblərin psixologiya kafedraları, tədris funksiyasını yerinə yetirməklə yanaşı, elmi-tədqiqat laboratoriyası funksiyasını da yerinə yetirmişlər. Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət pedaqoji Universitetində, Azərbaycan Dillər Universitetində, Azərbaycan Respublikası Bədən Tərbiyəsi və İdman Akademiyasında, Azərbaycan Müəllimlər İnstitutunda yaradılan psixologiya kafedraları bu yolda şərəfli bir yol keçmişdir.

Respublikamızda psixologiya elminin inkişaf edib formalaşmasında, milli-psixoloji kadrların hazırlanmasında, dərsliklərin, proqramların, dərs vəsaitlərinin nəşrində, monoqrafiyaların, əsər və məqalələrin, namizədlik və doktorluq dissertasiyalarının yazılmasında Bakı Dövlət Universitetinin psixologiya kafedrası ilk elmi mərkəzdir. Uzun müddət psixologiya universitetin fəlsəfə və pedaqogika kafedralarının tərkibində fəaliyyət göstərmişdir. Bu vəziyyət 1946-cı ilə qədər davam etmişdir. Bu illərdə A.O. Makovelski, Ə.K. Zəkuyev, M.C. Məhərrəmov, F.Ə.İbrahimbəyov, Şaxtaxtinski, M. Axundov, M. Mustafayeva, S. Xəlilov, Selixanoviç, Qulyayeva və başqaları universitetdə psixologiyadan dərs demişlər. 1947-ci ilin avqust ayında rektorluğun xüsusi qərarı ilə məntiq-psixologiya kafedrası yaradıldı.

Kafedraya akademik A.O. Makovelski rəhbərlik etməyə başladı. On bir nəfər üzvlə (A.O. Makovelski, S.S.

Xəlilov, M.A. Axundov, M.C. Məhərrəmov, M.N.Mustafayeva, T.M. Sadıqov və başqaları) fəaliyyətə başlayan bu kafedra sonralar əsl psixoloji mərkəzə çevrildi.

1961-ci il 1 iyunda isə həmin kafedranın əsasında pedaqogika-psixologiya kafedrası təşkil edildi. Kafedraya uzun müddət (1961-1970-ci illər) M.C. Məhərrəmov başçılıq etmişdir.

1961-1970-ci illərdə universitetdə psixologiya üzrə elmi-kütləvi əsərlərin, monoqrafiya və dərsliklərin yazılmasına, milli kadrların hazırlanmasına daha ciddi fikir vermişdilər. A.O. Makovelskinin kafedraya rəhbərlik etdiyi dövrdə universitetdə psixologiya təşəkkül tapıb inkişaf etməyə başladı.

A.O. Makovelski əsasən filosof idi. Ancaq buna baxmayaraq, o, psixologiya sahəsində dərsliklər yazır, kadrlar yetişdirir, respublikamızda psixologiya elminin inkişafını xarici ölkələrdə təbliğ edirdi.

"Pedaloji" (1935), "Avesta" (1960), "Soristlər" (I-II hissə, 1960-1961), "Uşağın ana rəhmli dövrü" (1931) kimi elmi-kütləvi əsərləri və bir sıra məqalələri alimin qələmindən çıxmışdır.

Ə.K. Zəkuyev (1947), M. Məhərrəmov (1947), M. Mustafayeva (1949), İ.Seyidov (1954), M. Abbasov (1945), M. Hacıyev (1951) həmin dövrdə dissertasiyalarını A.O. Makovelskinin rəhbərliyi ilə müdafiə etmişlər.

1947-1956-cı illərdə Bakı Dövlət Universitetində Azərbaycan dili, məntiq və psixologiya fakültəsi fəaliyyət göstərmişdir. Burada respublikamız üçün yüksək ixtisaslı psixoloqlar hazırlanmışdır. Azərbaycanda psixologiya elminin inkişafında böyük xidmətləri olan Ə.S. Bayramov,

Ə.Ə Əlizadə, Ə.Ə. Qədirov, Q.E. Əzimli, B.İ.Rzayev və yüzlərlə başqaları həmin fakültənin məzunları olmuşlar.

1960-70-cı illərdə universitetin əməkdaşları respublikamızda psixologiyanın inkişafına kömək etməklə yanaşı, onu xarici ölkələrdə təbliğ etmişlər (M.Məhərrəmov, İ. Seyidov, C. Təhmasib və başqaları).

Bu illərdə M.C. Məhərrəmovun bilavasitə müəllifliyi ilə iki hissədən ibarət "Psixologiya oçerkləri" (I hissə, 1960; II hissə 1961), bir iri həcmli "Psixologiya" (1968) dərsliyi bir neçə elmi-kütləvi əsərlər.

"Məktəblilərin iradəsini tərbiyə etmək haqqında" (1953), "İradə tərbiyəsinin yolları" (1961), "Uşaqlarda iradi nöqsanları necə aradan qaldırmalı" (1964), "Məktəblilərin xarakterini tərbiyə etmək haqqında" (1967) və bir neçə elmi məqalələr nəşr olunmuşdur. Bu dövrdə həmçinin həmin kafedranın köməyi ilə üç doktorluq (Ş.S.Ağayev, Ə.S. Bayramov, M.Ə. Həmzəyev) və bir neçə namizədlik dissertasiyaları müzakirə edilərək müdafiə olunmuşdur. Universitetin pedaqogika-psixologiya kafedrasının 1969-70-ci ildən 1998-ci ilə qədər Ə.S. Bayramov başçılıq etmişdir. İndiki Bakı Dövlət Universitetinin psixologiya kafedrası əvvəlki ənənələrinə sadiq qalaraq respublikamızda psixologiya elminin inkişafına öz əməli köməyini əsirgəmədi. Bu dövr ərzində kafedrada dörd doktorluq dissertasiyası (Ə.Ə. Qədirov, Ə.Ə. Əlizadə, Ə. Baxşəliyev, B. Əliyev), iyirmidən artıq namizədlik dissertasiyası müzakirə edilərək, orada müdafiə olunmuşdur. Prof. Ə.S. Bayramovun rəhbərliyi ilə kafedraya yüksək elmi potensiala malik olan kollektiv (Ə.S. Bayramov, İ.Ə. Seyidov, C. Təhmasib, M. Vəliyev, R. Cavadov və başqaları) yaranmışdır.

Universitetdə bir neçə ildir ki, psixologiya ixtisası üzrə dissertasiya şurası yaradılmışdır. Dissertasiya şurasının sədri əvvəlcə Ə.S. Bayramov olmuşdur.

Ə.S. Bayramovun rəhbərliyi ilə 30 nəfərdən artıq elmlər namizədi hazırlanmışdır: (M. Vəliyev, O. Kərimov, R. İbrahimbəyova, L.Sülyemanova, Z. Veysova, V. Əliyeva, Ə. Kazımzadə, R. Cavadov, R. Qədirova, K.Şiriyeva və başqaları).

Ə.S. Bayramov çox işgüzar, məhsuldar alim idi. O, psixologiyanın bütün sahələri üzrə öz qələmini sınayıb və uğurlar da qazanıb.

Əsərlər alimin əməyinin məhsuludur. Ə. Bayramov bir neçə kitabların, monoqrafiyaların, elmi-kütləvi əsərlərin, məqalələrin, tezislərin müəllifidir.

1996-2006-cı illər Bakı Dövlət Universitetinin psixologiya kafedrası üçün daha uğurlu illər olmuşdur. Əvvəla bu dövrdə əvvəldən universitetdə fəaliyyət göstərən psixologiya üzrə dissertasiya şurasının (H. 02014) uğurları daha çox olmuşdur. Dissertasiya şurasının sədri AMEA-nın müxbir üzvi, millət vəkili, prof. B.Əliyev, katibi isə dos. R.Cabbarovdur. Gənc istedadlı psixoloq B.H. Əliyevin bu sahədəki əməyi xüsusi ilə təqdirəlayiqdir. O, “Cinayət və mülki prosesdə məhkəmə psixoloji ekspertizası problemləri” (Bakı, 1998) adlı doktorluq dissertasiyası və “Cinayət və mülki işlərin məhkəmə psixoloji ekspertizasında Atzeidin sorğu metodu” (Bakı, 1991), “Məhkəmə psixoloji ekspertizası” (1994), “Məhkəmə psixoloji ekspertizasının əsas terminlər lüğəti” (1995), “Məhkəmə psixoloji ekspertizasının əsasları” (1995), “Məhkəmə psixoloji ekspertizasının ümumi nəzəriyyəsi” (1997) və onlarca digər əsərləri respublikamızda hüquq psixologiyası

sahəsində yeni bir elmi məktəbin yaranmasını bərqərar etdi. Onun rəhbərliyi ilə tez bir zamanda iki nəfərin (M.K. İmamverdiyeva-"Susidal davranışın təşəkkülünün xüsusiyyətləri" (2002), A.F.Məmmədova-"Cəzanın sosial-psixoloji məsələləri" (2004)) həmin problemə aid namizədlik dissertasiyalarını yazıb müdafiə etmələri dediyimizə əyani sübutdur. B.Əliyevin rəhbərliyi ilə ona yaxın aspirant və dissertant (K.R. Əliyeva, 2002; M.H.Mustafayev, 2005; R.V. Cabbarov, 2004 və başqaları) namizədlik dissertasiyalarını müdafiə etmişlər.

Hazırda BDU- da daha iki kafedra Gender və tətbiqi psixologiya (R. İbrahimbəyova) Sosial və Pedaqoji psixologiya (2010, rəhbər K.R. Əliyeva) fəaliyyət göstərir.

Bakı Dövlət Universitetində üç psixologiya kafedrasının (B.H. Əliyev, K.R.Əliyeva, R.F. İbrahimbəyova), ayrıca psixologiya jurnalının, ixtisaslaşdırılmış dissertasiya şurasının (B.H. Əliyev, elmi katib R. Cabbarov) fəaliyyət göstərməsi bu elm mərkəzinin bu sahədəki uğurlu fəaliyyətinin bariz nümunəsidir.

Respublikamızda psixologiya elminin inkişafını şərtləndirən amillərdən biri də indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin psixologiya kafedrasının yaradılmasıdır. 1921-ci ildən başlayaraq indiki universitetin mövcud fakültələrində psixologiya tədris edilmişdir. İlk dəfə burada psixoloq Mühiddin, M. Tofiq, A.Əfəndiyev, Şaxtaxtinski, A.O. Makovelski, Ə.K. Zəkuyev, M. Hacıyev, M.Mustafayeva, V. Mustafayev, F.Ə. İbrahimbəyov, M.C. Məhərrəmov tədris etmişlər. Psixoloqlar uzun müddət pedaqogika kafedrasında fəaliyyət göstərmişlər.

İndiki Azərbaycan Dövlət Pedaqoji Universiteti 1921-ci ildə yaradılmışdır. İlk illərdə burada psixologiyanı

A. Azatbəyli, Mühiddin, T. Fikrət, Ə.K. Zəkuyev, S.Hacıyev, M. Hacıyev, V. Mustafayev, M. Mustafayeva, N.S. Putoxina və başqaları tədris etmişlər. “Psixologiya” (Mühiddin, 1923), “Fənni tərbiyə” (Mühiddin, 1924) və “Tərbiyə və təlim tarixi” (X. Fikrət, 1924) adlı kitablardan psixologiya dərsliyi kimi istifadə olunmuşdur. 1941-ci ilə qədər bu ali məktəbdə ayrıca psixologiya kafedrası olmamışdır. Psixologiyadan dərs deyən müəllimlər pedaqogika kafedrası tərkibində fəaliyyət göstərmişlər. 1941-ci ilin iyun ayında ilk dəfə olaraq indiki ADPU-da üç nəfər üzvlə psixologiya kafedrası təşkil edildi. S. Hacıyev kafedraya rəhbər təyin edildi. Bu hal çox çəkmir. Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq indiki universitet indiki Bakı Dövlət Universiteti ilə birləşdiyi üçün kafedra da fəaliyyətini universitetə keçirir.

1943-cü tədris ilində indiki ADPU yenidən müstəqil fəaliyyətə başlayır. Həmin dövrdə 1959-cu ilə kimi institutda psixologiya kafedrasına Ə. Zəkuyev başçılıq etmişdir. Bu dövr institutun psixologiya kafedrasının məhsuldar dövrü olmuşdur. A.Abdullayev, Ş. Ağayev və başqaları kafedranın ilk aspirantları olmuşlar.

1946-47-ci tədris ilindən başlayaraq ADPU-da Azərbaycan dili və ədəbiyyat fakültəsi nəzdində Azərbaycan dili, məntiq və psixologiya şöbəsi açılmışdır.

Psixoloqlardan M. Həmzəyev, Ə. Əlizadə, A. Məmmədov və başqaları həmin fakültənin məzunlarıdır. Pedaqoji Universitetdə məntiq və psixologiya şöbəsinin açılması respublikada eksperimental psixologiyanın inkişafını sürətləndirdi. 1950-ci ildən başlayaraq bu sahədə daha bacarıqlı, işgüzar mütəxəssislər yetişdi. Ə. Bayramov, İ. Həmzəyev, Ə. Əlizadə, A. Məmmədov, İ. Fərəcov və

başqaları 1950-ci ildən sonrakı dövrlərdə Pedaqoji Universitetin psixologiya kafedrasında aspirantura yolu ilə təhsil almış və əməkdar elm xadimi prof. Ə. Zəkuyevin rəhbərliyi ilə namizədlik dissertasiyalarını müdafiə etmişlər.

1959-cu ildən psixologiya kafedrası yenidən pedaqogika kafedrası ilə birləşir. Bu vəziyyət 1963-64-cü tədris ilindən psixologiya kafedrası yenidən müstəqil fəaliyyətə başlayır. Kafedraya 1963-cü ildən 1975-ci ilə qədər Ş. Ağayev rəhbərlik etmişdir.

M. Əbdülov, İ. Məmmədov, Ə. Baxşəliyev, Z. Orucov və başqaları həmin kafedrada Ş. Ağayev rəhbərliyi ilə elmi-tədqiqat işi aparmışlar və namizədlik dissertasiyaları müdafiə etmişlər.

1974-cü ildən həmin kafedra əsasında iki ümumi, yaş və pedaqoji psixologiya kafedraları təşkil edilir. 1975-ci ildən bu günə qədər ümumi psixologiya kafedrasına prof. Ə. Əlizadə, yaş və pedaqoji psixologiya kafedrasına əvvəlcə Z. Mehdizadə, 1988-ci ildən 1991-ci ilə kimi Q. Əzimov və hazırda isə professor Ə. Baxşəliyev rəhbərlik edir. Hər iki kafedraya ümumi, yaş və pedaqoji psixologiya üzrə eksperimental tədqiqatlar aparılır.

Kafedra üzvlərinin rəhbərliyi və köməyi ilə 5 doktorluq dissertasiyaları hazırlanmış və müxtəlif illərdə olmuşdur.

Respublikamızın psixologiya üzrə müdafiə olunan namizədlik dissertasiyalarının əksəriyyəti bu kafedranın adı ilə bağlanır. Belə ki, M.F. Axundov adına ADPU-nun psixologiya kafedrasının üzvlərdən K. Əbilov (1964) və T. Mustafayev (1965), M.Ə.Rəsulzadə adına BDU-nun pedaqogika-psixologiya kafedrası üzvlərindən S.Təhmasib

(1965), S. Hələtai (1965), T. Dadaşova (1972) və başqaları öz namizədlik dissertasiyalarını həmin kafedranın köməyi ilə müdafiə etmişlər.

1965-ci ildə universitetdə pedaqogika və onun tarixi üzrə müdafiə şurasının təşkil olunması bu sahədə daha böyük uğurlara səbəb olmuşdur. Respublikamızda elmi psixoloji kadrların hazırlanmasında, bu elmin inkişafı Azərbaycan Dillər Universitetinin psixologiya kafedrasının (M. Həmzəyev, S.Seyidov,M.Əliyev) böyük rolu olmuşdur.

## Mövzu-8
## Psixologiya dərslikləri və dərs vəsaitləri.

Azərbaycanda psixologiya elminin inkişaf edib formalaşmasında, tədris edilən fənlərin keyfiyyətinin yüksəldilməsində dərslik və dərs vəsaitlərinin xüsusi əhəmiyyəti olmuşdur. Görkəmli alimlərimiz psixologiya üzrə dərsliklərin hazırlanması sahəsində böyük işlər görmüşlər.

Bu dövrdə ali və orta ixtisas məktəb tələbələrini dərsliklərlə təmin etmək ən mühüm vəzifələrdən hesab edilirdi.

60-cı ildən etibarən psixologiya üzrə ardıcıl olaraq dərslik və dərs vəsaitləri nəşr edilməyə başlanıldı.

1960-cı ildə bu sahədə ilk təşəbbüs olan iki hissədən ibarət olan ‘’Psixologiya’’ dərsliyi Ə.K.Zəkuyev, Ş.Sağayev, A.K.Abdullayev, M.Mustafayeva tərəfindən nəşr edildi. Dərsliyin tərtib edilməsində əsas məqsəd böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsi üçün vacib olan pedaqoji fəaliyyətə, psixoloji biliklərə yiyələnməyə kömək etmək idi. XI fəsildən ibarət olan dərsliyin birinci bölməsində psixologiyanın mövzusu, vəzifələri, psixi hadisələr, sinir sisteminin strukturu, insan şüurunu və heyvan psixikasının fərqi və.s haqqında ümumi məlumat verilmişdir. İkinci bölmədə isə psixi proseslər adı altında duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür, təxəyyül, nitq haqqında geniş izahat öz əksini tapmışdır.

1961-ci ildə tərtib edilən ikinci hissədə şəxsiyyət və onun fərdi psixoloji xüsusiyyətləri, fəaliyyət, onun psixoloji təhlili, iradə, vərdiş, adətlər, xarakter, temprament barədə əsas məsələlər əhatə edilmişdir.

Psixologiyanın tədris keyfiyyətinin yüksəldilməsində xüsusi əhəmiyyəti olan II hissəli ‘’Psixologiya oçerkləri’’ kitabı 1960-cı ildə Ə.Bayramovun redaktorluğu ilə Məmmədəli Məhərrəmov tərəfindən çap edildi. Vəsaitdə psixika haqqında, psixologiya elminin yaranma tarixindən söz açılır. Bu elm fəlsəfənin tərkibində öyrənilərkən materialist və idealistlər arasındakı fikir ayrılığı nəticəsində müxtəlif cərəyanlar meydana gəldi. Burada psixi və fiziki proseslərin münasibətini izah etməyə çalışan psixofizioloji təsir nəzəriyyəsi psixi hadisələrin maddi hadisələrdən əmələ gəldiyini inkar edərək, onların bir-birinə qarşılıqlı təsir göstərdiyini bildirirdi. Keçmiş sovet psixologiyası isə hadisələrə idealist baxışdan yanaşmağın əksinə çıxaraq monist materializm cəbhəsində dayanırdı. Əsərdə sosializm cəmiyyətinin tərənnüm edilməsi, kapitalizmin qalıqlarından yalnız elm və texnikanın sürətlə inkişafı sayəsində yaxa qurtarmağın mümkünlüyü vurğulanırdı. İnikas nəzəriyyəsinin elmi səviyyədə izahına əsaslanaraq onun yalnız duyğular səviyyəsində qalmayıb təfəkkürə qədər qalxan bir proses olduğu qeyd edilir. Psixoloq bununla kifayətlənməyib fəaliyyətin psixoloji izahı, idrak proseslərinin mahiyyətini açmışdır.

Azərbaycan dilində ilk dərs vəsaitinin II hissəsi psixlogiyada nisbətən az işlənmiş problemlərə- şəxsiyyətin psixoloji xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir.

Müəllif bildirir ki, ‘’Şəxsiyyətin psixoloji simasını müəyyən edən bu cəhətlər- onun istiqaməti, inam və əqidəsi, tələbatı, maraq və idealları, qabiliyyətləri, temprament və xarakteri bir-biri ilə üzvi surətdə bağlıdır, biri digərini şərtləndirərək bütövlük təşkil edir. Bunlar insanın

fərdi psixi xüsusiyyətləridir və onları öyrənmək, bilmək olduqca mühüm nəzəri, həm də əməli əhəmiyyətə malikdir. Bu sözün daha geniş mənasında, tərbiyə işlərinin düzgün və dəqiq elmi əsaslar üzərində qurulması üçün daha vacibdir. Çünki insanlara fərdi yanaşmanı bacarmağnın həm əmək fəaliyyətinin müxtəlif sahələrində-istehsalatda, nizam-intizam qanunlarında, hərbi işlərdə, tibbdə, həm də tərbiyə işlərində nailiyyət qazanmaq üçün istisna əhəmiyyəti vardır. Bu da insanlarda fərdi psixoloji xüsusiyyətlərini elmi surətdə bilmədən mümkün deyildir''.

Yekunda xarakterin tərbiyə edilməsi ilə bağlı müəllif bir cəhəti də xüsusi ilə qeyid edir:'' Adamların bütövlükdə inkişafı və tərbiyəsi, o cümlədən onun xarakter tərbiyəsi bütün həyat boyu formalaşır, həyat və mübarizə insanı inkişaf etdirir, onu gücləndirir və növbəti daha qəliz mübarizə və fəaliyyətə hazırlayır.

Xarakter praktik həyatda, həyatın imtahanlarında, eniş-yoxuşlarında mükəmməlləşir, möhkəmlənir və qüvvətli olur, həyat xarakter məktəbidir''.

60-cı ilə qədər Azərbaycan dilində psixologiya terminlərinin izahını verən vəsaitin çatışmazlığı psixologiya fənni keçən müəllim və tələbələrin bu elmi öyrənmələrində böyük çətinliklə üzləşmələrinə səbəb olurdu. 1960-cı ildə bu problem görkəmli alim, psixoloq M.Məhərrəmov tərəfindən nəşr edilən ''Izahlı psixoloji lüğət''adlı tədris vəsaitinin köməyi ilə aradan qaldırıldı.

Lüğətdə şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri, psixi proseslərdən danışarkən onları tərbiyə edilməsi yolları da göstərilmiş, gənc nəslin düzgün tərbiyə edilməsində müəllimlərə, valideynlərə yararlı məsləhətlər verilmişdir.

Müsbət tərəflərdən başlıcası isə canlı danışıq dilindən də istifadə edilməsidir. Bunlara nümunə kimi alışma, qarovluq, titrəyiş və s aiddir.

Lüğətdə verilən mühüm anlayışlar psixoloji təhsilin inkişafında, fizioloji, patopsixoloji, pedaqoji məsələlər barəsində oxucuların marağının artırmasında xüsusi əhəmiyyət kəsb edir. İzahlı lüğət Azərbaycan dilində elmi-psixoloji terminalogiyanın möhkəmlənməsində və konkretləşməsində zəruri əhəmiyyət kəsb edir.

Keçmiş sovet psixologiya elminin nailiyyətləri əsasında tərtib edilən vəsaitdə psixi prosesinin xüsusiyyətləri, növləri və qanunauyğunluqları dialektik-materializm metodologiyası əsasında izah edilmişdir.

Assosiasiya, abstraksiya, hallusinasiya, sinir sistemi, hipnoz kimi terminlərin izahında Pavlov və Seçenovun fikirlərinə istinad edilmişdir. Vəsaitdə psixologiya tarixi üzrə müəyyən məlumatlar verilməklə yanaşı psixologiyanın üsulları, nəzəriyyələr, habelə, irticaçı cərəyanları, idealist psixoloqları tənqid edilmişdir. Terminlərdən bəhs edilərkən xalqımızın zərbi məsəlləri və yazılı ədəbiyyatdan istifadə edərək lüğətin daha da zənginləşməsinə kömək etmişdir.

1964-cü ildə Ə.Zəkuyev, F.İbrahimbəyov, M.Məhərrəmov, Ş.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə tərəfindən ‘’Psixologiya’’ dərsliyi nəşr edildi. Burada psixologiyanın mövzusu, vəzifələri, şəxsiyyətin idrak fəaliyyəti, hislər və iradə, temprament, qabiliyyət, xarakter və s. barəsində məlumat verilmişdir.

Bəhs edilən dövrə qədər nəşr olunan dərs vəsaitlərindən fərqli olaraq qısa bir kitab şəklində yazılmışdır. Bu da ondan dərslik kimi istifadə olunması işini asan-

laşdırırdı. Kitab 5 bölmədən, 20 fəsildən təşkil olmuşdur. İlk bölmə 3 fəsli əhatə edir. Burada psixologiyanın ümumi məsələləri şərh edilir. Birinci fəsildə psixologiyanın mövzusu, bu elmin qarşısında duran vəzifələr, psixika haqqında, onun üsulları qısa və aydın dildə izah edilmişdir. Həmçinin burada materialsit psixologiyanın keçmiş sovet psixologiyasının elmi prinsiplərinə əsaslanan psixika materiyanın ən yksək xassəsi olduğu, alimlərin apardığı geniş miqayaslı axtarışlar öz əksini tapmışdır.

İkinci fəsildə ali sinir fəaliyyəti ilə bağlı problemlər təhlil edilmişdir. Bəllidir ki, bəsit duyğulardan başlayaraq, mürəkkəb təfəkkürədək bütün psixi proseslər sinir sisteminin fəaliyyəti ilə vəhdətdədir. Elə buna görə də fərdi psixi xassələri açıq şəkildə başadüşmək üçün sinir sisteminin strukturu ilə qısa tanışlıq vacibdir. Bu tələb dərslikdə nəzərə alınmış, yetəri qədər material verilmişdir.

Psixikanın inkişafına ithaf edilmiş üçüncü fəsildə şüurun yaranması və tarixi inkişafı, heyvanlar aləmində əksetdirmə fəaliyyətinin inkişafı haqqında qısa məlumat verilmişdir.

Kitabın ən böyük bölməsi hesab edilən ikinci bölmə idrak prosesləridir. Ona duyğu haqqında məlumatla başlanıldı. İnikas nəzəriyyəsi haşiyəsində duyğunun əsas məğzi verilir. Beşinci fəsildə qavrayış, altıncı fəsildə isə insanın fəaliyyətinin özəyini təşkil edən diqqətin önəmi göstərilir.Diqqətin məzmunu açıqlanarkən onun təlim fəaliyyətindəki rolu əsaslı formada şərh edilmişdir. Onun inkişafı ilə bağlı olan hissədə müxtəlif yaş dövrlərində diqqətin xassələri verilmiş, uşaqlarda müşahidəçilik və fəallığı tərbiyə etməklə ixtiyari diqqətin inkişafına təsir göstərməyin mümkünlüyü göstərilir.

Yeddinci fəsildə verilmiş ‘’hafizə’’ bölməsində diqqəti çəkən cəhətlərdən biri də təlim vəsaitlərinin əlverişli şəkildə öyrənməyin zəruri yollarının izah olunmasıdır.

Üçüncü bölmədə fəaliyyət psixoloji cəhətdən şərh edilərək göstərilir ki, ‘’....fəaliyyət həmişə şüurludur. İnsan qarşıya məqsəd qoyarsa, ona nail olma yollarını araşdırıb tapmaqda, işləri planlaşdırdıqda və məqsədə çatmaq üçün çalışdıqda daim şüurun nəarəti vacibdir. Fəaliyyətin yerinə yetirilməsi hər zaman geniş formada düşünülmüş lazımı plan əsasında cərəyan edir”. [8,səh229]

Bütün bunlarla bərabər fəaliyyətin müxtəlif növləri olan əmək, təlim və oyun fəaliyyətinin insan həyatının müxtəlif dövrlərində aparıcı olması kimi xüsusiyyətlər nəzərdən keçirilmişdir.

Nəhayət, dərsliyin sonuncu bölməsində uşaqlarda psixi inkişafın əsas xassələrinin mahiyyəti açıqlanmışdır. Bəzi burjua psixoloqlarının biogenetik nəzəriyyəni psixologiyaya tətbiq edərək uşağın inkişafında əcdadlarının keçdiyi mərhələri təkrar etdiyini iddia edirlər. Lakin keçmiş sovet psixologiyasında isə uşağın psixi inkişafında ictimai mühitin əvəzsiz rol oynadığını tələb edirdi. Bölmədə uşağın inkişafının bir neçə dövrə ayrılması və hər yaş dövrünün də özünəməxsus spesifik xüsusiyyətlərindən bəhs edilmişdir.

1968-ci ildə M.Məhərrəmovun iştirakı ilə dərsliyin ikinci hissəsi çap edildi.Kitab 5 bölmədən 21 fəsildən ibarətdir. Əsərin ilk fəslində psixoloqiyanın tərifi, mövzu və vəzifələri şərh edilmişdir. Həmçinin keçmiş sovet psixologiya elminin prinsiplərinə əsaslanan psixika materiyanın yüksək surətdə inkişaf etmiş ən ali forması kimi öyrənilmişdir. Ali sinir fəaliyyətində isə psixikanın

mühüm üzvü olan beyin yarımkürələri qabığında oyanmalar, ləngimə kimi hallar qeydə alınmışdır.

Orqanizm ilə mühit arasındakı qarşılıqlı əlaqəsinə dialektik materializm apektindən yanaşılmış,inkişafın məhsulu olan sinir sisteminin ən mürəkkəb formasının insanda təşəkkül etməsi kimi problemlərə toxunulmuşdur.

Heyvanlarda psixikanın inkşaf etməsinin ən ali forması onlarda əqli davranışın təcəssüm etməsidir. Əqli davranış heyvanın ətraf mühitə uyğunlaşmasıdır. Onun vasitəsilə heyvan cisimlər arasındakı əlaqəni tapır və qarşıda duran məsləni həll edir.

İkinci bölmədə duyğularla bağlı maraqlı faktlar diqqət çəkir. İnsan şüurundan asılı olmayaraq maddi aləm analizatorlara təsir göstərərək duyğuların əmələ gəlməsinə səbəb olur. Maddi aləm haqqındakı fikirlərin mənşəyini duyğular təşkil edir. Duygular haqqında müxtəlif nəzəriyyələrə də geniş yer verilmiş, idealist baxışları kəskin tənqid edilmiş, problemə materializm istiqamətində yanaşılmışdır.

Beşinci bölmədə qavrayiş haqqında anlayış, onun xassələri, apperspsiya onun inkişafında təfəkkür, hafizə idrak prsesləri haqqında məlumat verilmişdir. Hər bir şəxsin özünəməxsus qavrayış xüsusiyyətləri vardır. Elə insanlar vardır ki, onlar sadəcə hadisələrə diqqət edirlər. Bəziləri isə faktların dəyərliliyinə, elementlərinə diqqət edirlər. Hər iki halı da əhəmiyyətli hesab edənlər vardır ki, onlar qarışıq tip adlanır.

Qavrayışın uşaqların həyatındakı inikişafında yaşlılar önəmli rola malikdir. Böyüklərin köməyi ilə uşaq ətrafda gördüyü hadisələri onlardan öyrənərək qavrayır,

suallarına cavab alırlar. Bu işdə məktəbin də rolunu nəzərə almaq lazımdır.

Ayrı-ayrılıqda dərslikdə xarakter, temprament proseslər, şəxsiyyət, onun tələbatları, uşaqların psixikasının imkanları tədqiq edilmişdir.

Pedaqoji psixologiya sahəsi üzrə dərsliklərin nəşrinə diqqət xeyli artdı. 1974-cü ildə Ş.S.Ağayevin, Ə.Ə.Əlizadənin, Z.M.Mehdizadə, M.Ə.Həmzəyevin iştirrakı ilə birlikdə ‘’Yaş və pedaqoji psixologiya məsələləri’’ dərs vəsaiti nəşr edildi. Dərsliyin yazılmasında başlıca məqsəd şəxsiyyətin ictimai-psixoloji inkişafına əsaslanaraq onu idarə etmə üsullarını aydımlaşdırmaq, hər bir yaş dövrünün səciyyəvi cəhətlərini aşkara çıxarmaqdan ibarətdir. Vəsait hazırlanarkən rus dilində olan əsərlər, məqalələr, dərsliklərdən istifadə edilmişdir.

Yaş və pedaqoji psixologyanın mövzusu və vəzifələri adlı hissədə yaş psixologiyasının, həmçinin pedaqoji psixologiya və onun tərkib hissələri şərh edilmişdir. Qeyd edək ki, dərsiliyin bu hisəsi professor Ş.Ağayev tərəfindən yazılmışdır.

Psixi inkişafın mahiyyəti verilərkən ilk öncə inkişaf haqqında marksiz-leninizm nəzəriyyəsi ilə tanışlıq göstərilmişdir ki, bu da kəmiyyət dəyşmələrinin keyfiyyət dəyişmələrinə keçməyin, asandan çətinə doğru hərəkətin önəmi vurğulanırdı. Burada təlimin psxi inkişafla qarşlıqlı əlaqəsi biogenetik nöqteyi-nəzərdən inkar edilir.

Kiçik məktəb yaşı dövründə uşağın psixi inkişafında dəyişikliklər özünü büruzə verməyə başlayır. O artıq bağça yaşlı uşaqdan həm fiziki cəhətdən həm də psixoloji xüsuisyyətlərinə görə fərqlənir. Məktəbə daxil olan uşağın həyatında təlim birinci olur. Bunlardan başqa kiçik

məktəblinin təfəkkürü və nitqinin əlaqəli şəkildə inkişafı da vəsaitdə qeydə alınır.

Yeniyetmə yaşına xas olan xüsusiyyətlər, cinsi yetişkənlik dövrünə aid olan xarakterik əlamətlərdən bəhs edilir.

Sonuncu hissədə dos. A.U.Məmmədov təlimin psixoloji əhəmiyyətindən yazır. İnsanın daxili potensialının, imkanlarının ortaya çıxmasında öyrənmənin rolu göstərilir.

1975-ci ildə hüquq sahəsində işləyən şəxslərin, tələbələrin ehtiyacına əsasən ‘’Məhkəmə psixologiyası’’dərsliyi nəşr edildi. Məhkəmə psixologiası hüquq elmi ilə psixologiyanın ortaq sahələrinin olması nəticəsində əmələ gəlmişdir.

Dərs vəsaiti dörd fəsil, giriş, mündəricatdan ibarətdir. Giriş hissəsində elmin məzmunu, psixoloji biliklərin məhkəmə prsosesində icra etməyin əhəmiyyəti kimi məsələlər şərh edilir.

İlk fəsildə elmin mövzusu və yolları təhlil edilir. Məhkəmə pisixologiyasının üç sahəsini səciyyələndirilir: 1)kriminal psixologiya 2)cinayət-mühaimə üsulunun 3)islah psixoigyası. İkinci fəsldə hüquq pozğunluğu kimi hallara müxtəlif faktlarla xitab edir. Üçüncü fəsildə hakim fəaliyyətinin psialoji xüsusiyytələri, eyni zamanda təqsirkarın psixi xüsusiyyətləri barəsində ətraflı şəkildə məlumat verilib.

Nəhayət, dördüncü fəsildə isə ədalət hökmünün məqsədindən söhbət açılır. Qeyd edilir ki, ‘’Ədalət mühakiməsi yalnız günahkarların tapılması və onlara qarşı cəza tədbirlərin tətbiq edilməsi ilə məhdudlaşmır. Keçmiş sosialist ədliyyəsinin qarşısında duran əsas məqsədlərdən

biri də cinayət törətmiş şəxslərin islahı və onların yenidən tərbiyə olunmasıdır''.

Bu dönəmdə sosial psixologiyaya dair 1976-cı ildə Ə.Əlizadə, Ə.Bayramov və C.Təhmasibin əməkdaşlığı ilə dərslik nəşr edildi.

Girişdə hökumətin istedadlı inkişaf edmiş gənc qurucular yetişdirməsi haqqında qərar və göstərişlər, sosial psixologiyanın rolu elmlər sistemindəki yerindən bəhs edilir.

Birinci hissə isə elmin mövzu və vəzifələrinə ithaf edilmişdir. Bu fəsildə sosyal psixologiyanın quruluş vahidləri, formalaşması, inkişaf istiqamətləri təhlil edilmişdir.

Növbəti fəsildə elmin metodları, sosial psixologiyanın tədqiqat metodları müşahidə, eksperiment, sosiometriya metodları öz əksini tapmışdır.

Məlumdur ki, sosiaol psixologiyada şəxsiyyət problemi geniş tədqiq edilən məsələlərdəndir və vəsaitin bütün fəsillərində ona toxunulmuşdur. Lakin üçüncü fəsildə onun geniş şəkildə izahı verilmiş, ictimai varlıq kimi təhlil edilmişdir.

Şəxsiyyət fenomenalogiyasının izahını məzmununu aydın şəkildə izahını vermək məqsədi ilə ''fərd'' və ''insan'' anlayışları müqayisə edilir. Şəxsiyyətin özünəməxsus cəhətləri, onun inkişafına və formalaşmasına təsir edən amillər şərh edilir.

IV fəsil ünsiyyət psxologiyası məsələlərinə həsr edilmiş, sosial persepsiya, ünsiyyətin fəaliyyət və münasibətlər sistemindəki yeri, əsas funksiyaları etibarilə tədqiq edilmişdir. Bir cəhəti də qeyd edək ki, burada verilən

ünsiyyət psixologiyası ümumi psixologiya kontekstində deyil, tamamilə fərqli bir qayda ilə verilmişdir.

Şəxsiyyətin birgə fəaliyyət prosesində öyrənilməsi məsləsi sonuncu fəsildə təhlil edilmişdir. Qrup və kollektivdə çəxsiyyətin inkişaf etməsi, şəxsi qarşılıqlı münasibətlərin şəhri verilmişdir.

1977-ci ildə ‘’Yaş və pedaqoji psixologiya’’ dərsliyi Ş.Ağayev, Z.Mehdizadə, İ.Fərəcov tərəfindən çap edildi. Vəsait üç hissədən ibarətdir. Bu hissədə ‘’Yaş psixologiyasının mövzusu və vəzifələri, psixi inkişaf problemi, müxtəlif yaş dövrlərində uşağın inkişafının psixoloji xüsusiyətləri öyrənilmişdir.

Təbiət və cəmiyyət elmləri kimi psixika da daim dəyişərək inkişaf edir. Onun özünəməxsus qanunauyğunluqları və aparıcı qüvvələri mövcuddur. Yaş psixologiyası hər yaş dövrü üçün xarakterik olan, psixi inkişafın mərhələlərini, psixoloji əlamətlərini öyrənir. Burada qoşa amil nəzəriyyəsinin mahiyyəti təfsir edilmiş, insanın inkişafında bioloji və ictimai amillərin rolu müəyyənləşdirilirdi.

Psixi inkişaf problemi bölməsində isə bioloji və sosial nəzəriyyələri bir- birinə qarşı qoyan tərəflər tənqid edilir. Çünki, şəxsiyyət həm ictimai sosial həm də anadangəlmə bioloji amilləri özündə qoruyub saxlayır.

İnsanın müxtəlif yaş dövrlərindəki inkişafı, psixoloji xassələri, fiziki inkişafı, yaş böhranları əhatəli şəkildə təhlil edilmişdir.

Dərs vəsaitinin ikinci hissəsi 1978-ci ildə E.M.Quliyev, Q.E.Əzimov, Ə.Ə.Əlizadə tərəfindən dərc edilmişdir. Vəsait üç fəsildən ibarətdir.

Birinci fəsildə kiçik məktəb yaşı dövründə uşağın psixi inkişafından, təlimin psixi inkişafdakı rolundan bəhs edilir. Uşaq bağça yaşını bitirdikdən sonra kiçik məktəbli yaşına daxil olur. Bu dövrdə onun həyatında əsaslı dəyişikliklər yaranmağa başlayıt. Belə şəraitdə müəllim çalışmalıdır ki, şagirdin məktəb həaytına adaptasiya olsun, onun ətrafdakılarla yaşlılarla və yaşıdları ilə normal ünsiyyətinə şərait yaratsın.

II fəsildə yeniyetməlik yaş dövrünün psixoloji xüsusiyyətləri, bu dövr üçn xarakterik olan əamətlər, böhran dövrü, cinsi yetişkənlik problemləri öyrənilmişdir.

Sonuncu fəsil isə böyük məktəb yaşı dövrü üçün xas olan keyfiyyətlər tədqiq edilir.

Məlum olur ki, 60-70-ci illərdə psixoloqlarımız bu elmin müxtəlif sferaları  üzrə tədqiqatlarını daha da genişləndirərək, dərs vəsaitlərinin və dərsliklərin çap edilməsi yolu ilə bu sahədə çalışan müəllim və tələbələrə xeyli kömək etmişlər.

## Mövzu-9
## Şəxsiyyət psixologiyası üzrə aparılan tədqiqatlar

**Etnopsixologiya** (yunan dilində etno-xalq, tayfa deməkdir) əvvəllər sosial psixologiyanın mühüm bir sahəsi kimi qrup və kollektivdə insanların etnik ümumiliyi və milli mənsubiyyəti ilə əlaqədar psixi xüsusiyyətlərini, davranış və rəftar tərzini öyrənmişdir. Müasir dövrdə isə etnik psixologiya fənlərarası bilik sahəsi olub, insanların psixikasının etnik xüsusiyyətlərini öyrənir. Başqa sözlə desək, milli, irqi, etnik mənsubiyyəti nəzərə almaqla insanların psixoloji xüsusiyyətlərini öyrənən elm sahəsidir.

Alman alimləri M. Latsarus və T.Şteyntal "Xalqların psixologiyasına dair ilkin mülahizələr" (1861) adlı əsərində insanın, öz xalqının, millətinin, etnosunun nümayəndələri ilə, eləcə də digər insan qrupları ilə qarşılıqlı əlaqədə müəyyən psixoloji keyfiyyətlərə yiyələnə biləcəyini göstərmişlər.

XIX əsrin sonu XX əsrin əvvəllərində elmi-texniki tərəqqinin inkişaf etdiyi bir dövrdə bir çox sosial psixologiya və psixologiyanın tədqiqat metodları inkişaf etdirilib, təkmilləşmişdir. Bu da öz növbəsində etnik psixologiyanın inkişafına zəmin yaratdı.

Etnopsixologiyanın yaradıcılarından olan T. Şteyntal və M. Latsarus hər cür ictimai həqiqətləri "tayfa ruhu"nun məhsulu hesab edirdilər. Onların fikrincə, etnopsixologiyanın əsas vəzifəsi "xalq ruhu"nu öyrənməkdən ibarətdir. Vilhem Vundta görə isə "xalq ruhu " ayrıca bir fərddən asılı olmayan müstəqil substansiya olmayıb, adamların birgə yaşayışlarının qarşılıqlı əlaqələrinin məhsulu olan psixoloji hadisələrin müəyyən toplusudur. Onun fikrincə,

“xalqların psixologiyası”nın əsas vəzifəsi ayrı-ayrı xalqların təzahür formalarını öyrənmək olmayıb, “xalq ruhu”nun məhsulu olan dil, mif, adət və ənənələri öyrənməkdir.

XX əsrin məşhur filosofu və psixoloqu Q. Şnet də “xalq ruhu”nu “öz mütəşəkkilliyinə, birgəliyinə görə real olan ”, “kollektivin tətbiqində, özünün sosial həyatında və tarixində obyektiv şəkildə baş verən hadisələrə ümumi, subyektiv reaksiyası ” kimi başa düşür.

Deməli, Şnet “ruh”un təcəssümünə “birgə subyektivliyin obyektivləşməsi” kimi baxırdı. Vundtla onun fikir ayrılığı isə bu sahədə özünü göstərdi.

Şteyntal və Latsarus kimi “xalq ruhu”nu etnopsixologiyanın mövzusu hesab edən Şnet bütün təəssüratların, hiss və həyəcanların əsasının mənasını sistemdə axtarırdı.

“Xalq ruhu ” anlayışı etnik psixologiyanın əsas problemlərini dərk etmək üçün çox əhəmiyyətlidir. Lakin, əsas məsələ, “xalq ruhu ” anlayışında hansı semantik mənanın və psixoloji məzmununun verilməsindədir.

Z. Freyd şəxsiyyətin quruluşunu üç komponentə ayırırdı: “o”, “mən” və “fövqəl-mən”. Qarşılıqlı təsirdə olan bu komponentlərin əsasını şüurdankənar və ya şüursuzluq (“O”), şüur (“mən”) və “sensor”-“fövqəlmən” qatı təşkil edir. “O” enerji qaynağı olub, kortəbii instinktlərin mərkəzidir. Burada əsas rolu seksual həvəs təşkil edir. “Fövqəl-mən” isə mənəvi ənənə və sərvətlərin daşıyıcısıdır. Onun vicdan, özünümüşahidə, özünənəzarət kimi funksiyaları vardır. Öz seksual arzusunun təmin olunmasının, ancaq ləzzət, həzz almağı əsas götürən “o”-

ya qarşı mübarizədə şüura ("mən")-ə "fövqəl-mən" kömək edir.

İlk etnik və sosial-psixoloji nəzəriyyələr Avropada yaranmışdır. Belə ki, xalq psixologiyası alman, kütlə psixologiyası isə fransız və italyan tədqiqatçıları tərəfindən öyrənilmişdir.

Şəxsiyyət psixologiyası üzrə aparılmış tədqiqatlar

Şəxsiyyətin öyrənilməsi bütün dövrlərdə aktual problemlərdən biri olmuşdur. Çünki, ictimai quruluşun sosial-iqtisadi, ictimai-siyasi inkişafı şəxsiyyətin necə formalaşmasından asılıdır. Ona görə də, Azərbaycan psixoloqları şəxsiyyət probleminə mühüm tədqiqat işləri həsr etmişlər.

Şəxsiyyətin formalaşmasının etnopsixoloji problemləri (F.Ə.İbrahimbəyov, Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, R. Əliyev və başqaları), şəxsiyyətin formalaşmasının metodoloji prinsiplərinin öyrənilməsi (A.O.Makovelski, Ə.K. Zəkuyev, M.C. Məhərrəmov, F.Ə. İbrahimbəyov və Ə.S. Bayramov), şəxsiyyətin inkişafının sosial- psixoloji mövqedən tədqiqi (F.Ə. İbrahimbəyov, Ə.Ə. Əlizadə, C. Təhmasib, T. Dadaşova), şəxsiyyətin fəaliyyət prosesində inkişafı (Ş.S. Ağayev, S.K. Əbilov, İ.N. Məmmədov), təlim-tərbiyə prosesində şəxsiyyətin fəallaşdırılmasının xüsusiyyətləri (Ə.S.Bayramov, Ə.Ə. Əlizadə, B. Əliyev, R.F. İbrahimbəyova, M.V. Vəliyev), şəxsiyyətin inkişafının etnopsixoloji problemləri (F.Ə. İbrahimbəyov, Ə.S.Bayramov, S.K. Əbilov, L.A. Süleymanova, O.F. Kərimov və başqaları), şəxsiyyətin özünüqiymətləndirməsi və özünüdərketməsi (Ə.S. Bayramov, Ə.Ə.Əlizadə, G. Tağıyeva, V. Əliyev, S.F. Şabanov) və sair tədqiqatlar şəxsiyyətin formalaşmasının aktual problemlərinə həsr

olunmuşdur. Azərbaycan Respublikasında bu sahəyə aid tədqiqat işləri hələ 1926-cı ildən aparılsa da əsas eksperimental işlərə son dövrlərdə təsadüf olunur. Bu da respublikamızda bu sahə üzrə kifayət dərəcədə elmi psixoloji kadrların olmaması ilə izah edilə bilər. 1926-cı ildən başlayaraq, şəxsiyyətin öyrənilməsi sahəsində müəyyən işlər görülmüş, üsullar təklif edilmiş, bir sıra məruzələr həsr edilmişdir. Hətta, 24 oktyabr 1926-cı ildə Azərbaycanı öyrənib tədqiq edən cəmiyyət Azərbaycan əhalisinin və müxtəlif yaş və peşələrdə fitri istedadı öyrənən ictimai təbabət və gigiyena komissiyası təşkil etdi. Komissiya uzun müddət respublikamızda azərbaycan-lıların bir şəxsiyyət kimi formalaşmasının psixofizioloji, etnopsixoloji problemlərini öyrənmiş, bu sahədə müəyyən iş görmüşdür. 1926-cı il noyabr ayının 25-ə həmin komis-siyanın iclası olmuş və həmin iclasda respublikamızın görkəmli psixoloqu F.Ə. İbrahimbəyov "İstedadların milli xüsusiyyətlərinin öyrənilməsində eksperimental üsul" mövzusunda məruzə etmiş və şəxsiyyətin öyrənilməsinin etnopsixoloji məsələlərinin konkret yollarını göstərmişdir.

1920-1950-ci illərdə Azərbaycanda psixologiya üzrə tədqiqatlara nəzər saldıqda məlum olur ki, şəxsiyyət psixologiyasına aid müəyyən işlər görülmüş, məqalələr yazılmışdır. Lakin, eksperimental xarakter daşıyan müəyyən bir dissertasiyanın, kitabın və başqa elmi kütləvi əsərlərin yazılıb nəşr olunmasına rast gəlmədik. Şəxsiyyət psixologiyasına diqqət 1950-ci illərdən başlayaraq daha da artmışdır.

Akademik A.O. Makovelskinin rəhbərliyi ilə C.A. Təhmasib Azərbaycan qadınlarını səciyyələndirən mənəvi

keyfiyyətləri öyrənmiş və bu mövzuda 1965-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir.

1960-cı illərdən başlayaraq, Ə.Ə. Əlizadə şəxsiyyətlərarası münasibətlər psixologiyasını ardıcıl tədqiq etməyə başladı.

Ə.Ə. Əlizadə həmin problemin öyrənilməsinə aid yüzdən artıq məqalə, məruzə, tezis və kitablar ("Yoldaşlıq və dostluq tərbiyəsi", "Ailədə uşaqların cinsi tərbiyəsi", "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi") həsr etmiş və müxtəlif illərdə nəşr etdirmişdir.

Ə.Ə. Əlizadə şəxsiyyətlərarası münasibətlərə aid fikir və mülahizələrini bu sahədə apardığı eksperimental təcrübələrin nəticələrini ümumiləşdirərək, 1975-ci ildə müdafiə etdiyi "Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri" adlı doktorluq dissertasiyasında vermişdir. Müxtəlif yaş dövrlərində cinsi yetişkənliyin psixofizioloji sosial-ictimai tərəflərini açmaqla yanaşı onun etnik mahiyyətini də geniş şəkildə şərh etmişdir.

Müəllif giriş hissədə şəxsiyyətlərarası münasibətlər problemini dünya psixoloqlarının son nailiyyətləri və özünün tədqiqatları əsasında tədqiq edir. Cinslərarası münasibətlərin aktuallığından bəhs edərək müəllif yazır: "Cinsi dimorfizm şəxsiyyətin antropoloji xarakteristikasına aid olub, əsasən, ictimai-demoqrafik amillərdən biridir". İnsan münasibətləri kimi cinslərarası münasibətlər də ictimai-tarixi aspektdə təhlil olunur. Həmin münasibətlərin təşəkkülü, inkişafı və formalaşmasında etnopsixoloji amillərin, ailənin, mühitin rolu ətraflı göstərilir. Burada cinslərarası münasibətlərin iki tərəfi – kişi və qadının bir-birinə münasibəti, cəmiyyət və kollektiv

səviyyəsində vətəndaşın vətəndaşa, işçinin işçiyə münasibəti diqqət mərkəzində durur. Onun fikrincə, hər iki tərəf cinslərarası münasibətləri psixoloji baxımdan səciyyələndirmək üçün əsas vermir. "Şəxsiyyət münasibət obyekti kimi götürüldükdə belə bir meyar rolunu oynaya bilər". Ə. Əlizadə də problemin təhlili prosesində insana şəxsiyyətə etnopsixoloji baxımından yanaşır. O, bu qənaətə gəlir ki, cinslərarası münasibətləri psixoloji baxımdan təhlil etmək üçün onları "şəxsiyyət vasitəsi ilə və şəxsiyyətin təzahürü kimi aydınlaşdırmaq zəruridir".

Əsərdə qeyd olunur ki, "... V sinifdə şəxsi qarşılıqlı münasibətlərin normallaşması müəyyən bir qız və ya qız qrupunun fəal rol oynaması ilə bağlıdır". Bu cəhətdən VII sinifdə mühüm dəyişikliklər meydana çıxır...

Son illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində, Bakı Dövlət Universitetində, Azərbaycan Pedaqoji Elmlər İnstitutunda şəxsiyyətin formalaşmasının psixoloji problemlərinə aid müəyyən tədqiqatlar aparılır. Bu tədqiqatlar içərisində Ə.S. Bayramovun rəhbərliyi ilə, Azərbaycan Dövlət Universitetində aparılan tədqiqatlar xüsusilə diqqəti cəlb edir. Ə.S.Bayramovun "Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri" (Bakı, 1981), "Psixoloji düşüncələr" (Bakı, 1984), "Psixoloji etüdlər" (Bakı, 1989), "Etnik psixologiya məsələləri" (Bakı, 1996) adlı kitabları və onlarca məqalələri də həmin problemin tədqiqi istiqamətində yazılmışdır.

Respublikamızda nəşr edilmiş psixologiya dərsliklərində, dərs vəsaitlərində "Psixologiya" (M. Məhərrəmov, 1968), "Psixologiya oçerkləri" (I-II hissələr: 1960-1961-ci illər), "Şagirdlərdə xarakterin tərbiyəsi" (M.Məhərrəmov, 1963), "Psixologiya" (Ə. Bayramov, Ə. Əlizadə, 2003), iri

həcmli monoqrafiyalarda, elmi kütləvi əsərlərdə, "Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti" (Ə. Baxşəliyev, 2008), "Tələbənin idrak fəaliyyəti və şəxsiyyətinin təşəkkülü" (Ə.S. Bayramov, Ə.Ə.Seyidov, Bakı, ADU-nun nəşri, 1981), "Təlim-tərbiyə prosesində şəxsiyyətin fəallaşdırılmasının xüsusiyyətləri, yol və vasitələri" (Kollektiv müəllim heyəti, Bakı, ADU-nun nəşri, 1984), "Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri" (Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, İ.Ə. Seyidov və başqaları, Bakı, ADU-nun nəşri, 1985), bir sıra məqalələrdə (2, 3, 11, 13, 20, 27, 29, 33 və s.) şəxsiyyətin inkişaf və tərbiyəsində milli dəyərlərin rolu şərh olunur.

"Tələbənin idrak fəaliyyəti və şəxsiyyətin təşəkkülü" adlı kitabda "Tələbə-gənclərin ictimai fəallığı, onun məzmunu, meyarı, səviyyələri və amilləri", "Özünüdərketmə və özünüqiymətləndirmənin tələbə şəxsiyyətinin formalaşmasında mövqeyi" (C. Təhmasib, səhifə 54), "Qrupda qarşılıqlı münasibətlərdə tələbələrin sərbəst meyli idarəedici faktor kimi" (L.Süleymanova, səhifə 63), "Tələbələrdə müəllim peşəsi üçün zəruri olan sərvət meyli və mənəvi ideyaların təşəkkül xüsusiyyətləri " (M. Vəliyev, səhifə 75), "Şəxsiyyətlərarası münasibətlər amilinin tələbələrdə təfəkkür müstəqilliyinin təzahürünə təsirinin öyrənilməsinə dair " (İ. Seyidov, səhifə 34) və başqa məqalələr verilmişdir. Məlumdur ki, insanın bir şəxsiyyət kimi formalaşmasında onun fəallığı əsas şərtlərdən biridir. Fəallıq isə müəyyən tələbatlarla, motivlərlə bağlıdır. Azərbaycanın suverenliyi uğrunda mübarizə aparıldığı indiki dövrdə isə bu problem aktuallıq kəsb edir. Yeniyetmə və gənclərin ictimai-sosial fəallığı uğrunda mübarizə apardığımız məqsədə çatmaq üçün ən zəruri tələblərdəndir.

Məcmuədə bu məsələyə xüsusi fikir verilir. Məktəblilərdə və tələbələrdə ictimai fəallığın məzmunu, meyarı, səviyyələri, eksperimental tədqiqatlar əsasında şərh olunur. Qeyri-fəallığa səbəb olan şərt və amillər göstərilir. Orada qeyd olunur ki, tələbə fəaliyyətinin ən mürəkkəb və dinamik forması olan ictimai fəallıq birtərəfli proses olmayıb, obyektiv və subyektiv amillərin qarşılıqlı təsiri ilə formalaşır və inkişaf edir. Müəllifin fikrincə, "İctimai fəallıq hər bir tələbənin mənəvi tələbatının məhsuludur. Tələbat tarixən təşəkkül tapmış ictimai maraqlar, məqsəd, ustanovka və motivlər vasitəsilə təsir göstərərək ictimai fəallığın təhrikedici qüvvəsini xarakterizə edir və onun sövqedici vəzifəsini yerinə yetirir. İctimai fəallığın daxili sövqedicilərindən biri də motivdir".

Şəxsiyyətin mühüm keyfiyyətlərindən biri də özünüdərketmə və özünüqiymətləndirmədir. İnsan özünü dərk etmədən, özünü düzgün qiymətləndirmədən şəxsiyyətə çevrilə bilməz. İnsan özünü və ya başqalarını qavradıqca, özünü onlarla müqayisə edir, özünə kənardan nəzər salır, özünü təhlil edir. Şəxsiyyətin özünü dərk etməsi və düzgün qiymətləndirməsi isə elmi dünyagörüş-dən, onun əqidə və inamından, keçdiyi həyat yolundan, tutduğu mövqedən, maraq və meylindən asılıdır. Kitabda bu problemə diqqət yetirilərək qeyd olunur ki, "Tələbənin özünə verdiyi qiymət, bir çox halda mühitin ona verdiyi qiymətə uyğundur. Tələbə bir çox halda davranışını, rəftarını başqalarının nöqteyi-nəzəri əsasında qiymətlən-dirir... tələbəlik dövründə belə (yeniyetmə yaşından fərqli olaraq) mühitin ona verdiyi qiymətin, bir qədər yeni formada, yeni məzmunda, yeni təzahürlərindən ibarətdir" (səhifə 61-62). Kitabda həmçinin tələbə qruplarında

şəxsiyyətlərarası münasibətlərin formalaşması məsələləri təhlil olunur, bu prosesdə sərvət meylinin rolu ətraflı şəkildə göstərilir. Şəxsiyyətin inkişafında sərvət meyli və mənəvi idealın böyük rolu vardır. Sərvət meyli insanın tələbatlarının ödənilməsi ilə bağlı olan, ona kömək göstərən maddi və mənəvi sərvətlərə, ideallar məcmuəsinə nisbətən davamlı və ictimai cəhətdən şərtlənmiş münasibətidir. İdeal isə ali mənəvi sərvət rolunu oynayaraq hələ həyata keçməmiş olan, lakin özünün həyata keçməsini tələb edən imkan rolunu oynayaraq sərvət meylinin mühüm göstəricisi kimi çıxış edir. Kitabda problemin bu səpgidə izah edilməsi, tələbə gənclərdə sərvət meyli və ideallarin formalaşmasının eksperimentlər əsasında öyrənilməsi də təlim-tərbiyə baxımından əhəmiyyətlidir. Müəllif həmin amilləri şəxsiyyətin peşə keyfiyyətləri ilə əlaqələndirir, "Tələbələrdə zəruri sərvət meyli və mənəvi idealların təşəkkülü mürəkkəb proses olub, ali məktəbdə nəinki tələbələr arasındakı, eləcədə müəllim-tələbə, müəllim-müəllim sistemindəki qarşılıqlı münasibətlərin, ali məktəbin tərbiyəvi ənənələri və s. kimi amillərdən asılı olaraq formalaşır ".

Kollektiv daxilində şəxsiyyətlərarası münasibətlər düzgün təşkil ediləndə orada şəxsiyyətin formalaşması, intellektual fəaliyyətin səmərəli təşkili də istənilən səviyyədə olur. Münasibətlərin düzgün qurulması şəxsiyyətin müstəqil düşüncə qabiliyyətini artırır, onları fəallaşdırır. Bu problem də haqqında danışdığımız məcmuədə şərh edilir, tələbələrin təfəkkür müstəqilliyinin inkişafında qarşılıqlı münasibətlərin yeri göstərilir. Məsələni ətraflı təhlil etmək üçün müəllif tələbə qruplarında təfəkkür müstəqilliyinin fərqli xüsusiyyətlərini göstərmişdir. Müəllifin

gəldiyi qənaət budur ki, "... şəxsiyyətlərarası münasibətləri yüksək səviyyədə olan hər bir qrup birgə fikri fəaliyyətin səmərəliliyi və təfəkkür müstəqilliyinin təzahürü üçün əlverişli potensial imkana malikdir".

Kitabda şəxsiyyət psixologiyasına aid digər məsələlər də eksperimental səpgidə öyrənilmiş və bir sıra maraqlı nəticələr çıxarılmışdır.

"Təlim-tərbiyə prosesində şəxsiyyətin formalaşdırılmasının xüsusiyyətləri, yol və vasitələri" (1984) adlı kitabda isə şəxsiyyətin mənəvi və əxlaqi tərbiyəsində, onun bir vətəndaş kimi yetişməsində təlim üsullarının, müəllim-şagird münasibətlərinin rolu eksperimental tədqiqatlar əsasında şərh olunmuşdur".

Şəxsiyyət psixologiyasından danışarkən bir cəhəti xüsusilə qeyd etmək lazımdır. Bu da fərdin şəxsiyyət kimi formalaşmasında etnopsixoloji amillərin nəzərə alınmasıdır. İnsanın şəxsiyyət kimi yetişməsində onun milli, ərazi, etnik mənsubiyyəti nəzərə alınmalıdır. Azərbaycan xalqının əski mifik görüşləri, inam və əqidələri, adət-ənənələri, böyüyə hörmət, namus, qeyrət və təəssübkeşliyi və başqa əxlaqi hisslər yeniyetmə və gənclərimizin vətəndaş və şəxsiyyət kimi böyüməsində ən mühüm amillərdən biridir. Yetişməkdə olan gənc nəsli bu soykökdən ayırmaq, ağacı kökündən çıxarıb atmaq kimi bir şeydir. Azərbaycan xalqının soykökündə özünə möhkəm yer tutan bu əxlaqi sərvətləri tədqiq edib öyrənmək, uşaq və yeniyetmələri həmin ruhda tərbiyə baxımından böyük əhəmiyyətə malikdir.

"Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri" adlı məqalələr məcmuəsi də məhz belə bir xeyirxah məqsəd üçün yazılmışdır. Kitabda XII əsrdə yaşamış Azərbay-

can xalqının ən böyük mütəfəkkiri N. Gəncəvinin əsərlərində etnopsixoloji məsələlər (Ə.S. Bayramov), adət-ənənələrin möhkəmliyi, onların sosial-psixoloji strukturu (A. Yusifzadə), şəxsiyyətin özünüqiymətləndirməsi prosesini də təfəkkür müstəqilliyinin təzahür xüsusiyyətləri (Ə.S. Bayramov, R. Cavadov, R. Kərimov), istehlakçılıq psixologiyası və onun təşəkkül tapmasının bəzi mexanizmləri (K.S. Əbilov, G.Qasımova), adamların bir-birlərini anlamalarında etnopsixoloji xüsusiyyətlərin mövqeyi (B. Əliyev) və başqa məsələlər müxtəlif psixoloji üsullarla öyrənilmiş, maraqlı nəticələr əldə olunmuşdur. Kitab 1985-ci ildə nəşr olunub. Orada qaldırılan problemlər, elə bil ki, bugünkü ictimai-siyasi hadisələri sanki qabaqlamışdır. 1988-ci ildən başlayaraq qondarma Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycan respublikası qanlı müharibə içərisindədir. Neçə-neçə qəhrəman oğullar, görkəmli sərkərdələr, dövlət başçıları itirmişik. Bax, bu cəngavərlər, Koroğlu, Babək, Nəbi, Nigar, Həcər kimi qəhrəmanların nəvələridir. Gələcək gənclərimizi də bu ruhda böyütmək üçün həmin kitabda xeyli tövsiyələr vardır. Müəllimlər, tərbiyəçilər, valideynlər tərbiyə işində həmin kitabdan faydalana bilərlər.

"Kiçik məktəblinin maraqları" (F. Hüseynova, Bakı, 1971), "Kiçik məktəbyaşı dövründə şəxsiyyətin ictimai fəallığının formalaşması " (R.Əliyev, Kiyev, 1985), "I-X beşillikdə fəhlə-gənclərin obrazlarının dəyişilməsinin sosial-psixoloji təhlili" (B. Haqverdiyev, Moskva, 1982), "Pedaqoji institut tələbələrində müəllimlik peşəsi üçün zəruri olan mənəvi sərvət və ideallarıın formalaşması" (M. Vəliyev, Tbilisi, 1984), "Mənəvi sərvətlər şəxsiyyətlərarası münasibətlərin idarəedici faktoru kimi" (L. Süley-

manova, Moskva, 1982), "Tələbələrin qiymət və özünüqiymətləndirməsində cinsi fərqlərin psixoloji analizi" (S. Şabanov, Kiyev, 1987), "Böyük məktəbəqədər yaşlı uşaqlarda özünüqiymətləndirmənin yaranması məktəb təliminə hazırlığın əsas faktoru kimi" (G. Tağıyeva, Moskva, 1988) adlı namizədlik dissertasiyalarında şəxsiyyət psixologiyası məsələləri daha ətraflı təhlil edilmiş, şəxsiyyətin hərtərəfli inkişafının mühüm amilləri göstərilmişdir.

Yuxarıda adlarını çəkdiyimiz tədqiqatlar alimlərimizin şəxsiyyət psixologiyasına, onun formalaşmasının şərt və amillərinə aid müəyyən işlər gördüyünü sübut edir. Lakin XX əsrdə ictimai-siyasi hadisələrin çox gərgin və intensiv cərəyan etdiyi bir vaxtda, insan amilinə getdikcə tələbatın artdığı bir şəraitdə Azərbaycan psixoloqlarının da öhdəsinə məsuliyyətli və şərəfli bir iş düşür. Bu gün Azərbaycan gənclərindən daha çox qətiyyət, təşəbbüskarlıq, əqidə, inam, əxlaqi saflıq, mənlik və milli özünüdərk, şəxsiyyət bütövlüyü, etika, yetkinlik tələb olunur. Düzdür, son illərdə Azərbaycan gənclərindəki milli qeyrət, torpaq uğrunda canından-qanından keçmək kimi mərd xüsusiyyətlər bizi sevindirir. Adamın ürəyi fərəh hissi ilə döyünür. Gənclərimizin könüllü olaraq Qarabağ torpaqlarını düşmənlərdən qorumağa getmələri əsl fədakarlıqdır. Lakin açıq etiraf etməliyik ki, gənclərimizin bəzilərində biganəlik, ələ baxımlılıq, kobudluq, laqeydlik, məsuliyyətsizlik kimi xüsusiyyətlər özünü göstərir.

Soykökümüzdə özünə möhkəm yer tutan yuxarıda adlarını çəkdiyimiz müstəqil əxlaqi keyfiyyətlərin hansı milli zəmin üzərində gənclərimizə aşılanması, bəzi nöqsanların aradan qaldırılması yollarının psixoloji baxımdan göstərilməsinə bu gün zəruri ehtiyac hiss olunur. Ümid-

varıq ki, Azərbaycan psixoloqları bu sahəyə daha ciddi fikir verəcək, şəxsiyyətin sosializasiya məsələlərinə, onun tələbatlarının tərbiyəsinə, əqidə və həyat mövqeyinə, özünüqiymətləndirmələrinə və s. problemlərə aid kompleks tədqiqatları daha da genişləndirəcəklər.

Azərbaycanda son zamanlar etnopsixoloi baxımdan şəxsiyyətin tədqiqi üzrə aparılmış tədqiqatlar diqqəti daha çox cəlb edir. Buraya "Erkən gənclik qruplarında sosial persepsiyanın etnopsixoloji xüsusiyyətləri " (G.Q. Hüseynova, nam. dis. Bakı, 1995), "Yeniyetmələrin mənəvi keyfiyyətlərinin formalaşmasında, təşəkkülündə inam və dini etiqadların rolu " (K.K Təhməzova), "Dini şüur səviyyəsində özünüdərkin məntiqi xüsusiyyətləri " (U. Şiriyeva, nam. dıs., Bakı, 2004), "Azərbaycanın cənub zonasında ailə konfliktləri və onların psixoloji təhlili" (K.M. Şiriyeva nam. dis., Bakı, 1998), "Nizami Gəncəvinin psixoloji görüşləri" (Z.S. Şiriyeva, Bakı, 2002), "Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası " (N.T. Rzayev, nam. dis., Bakı, 2004), "Molla Nəsrəddin jurnalında xalqa və müəyyən sosial qruplara xas olan səciyyəvi etnik-psixoloji xüsusiyyətlərin inikas"ı (M.M Sadıqov, nam. dis., Bakı, 2002), "Məktəbəqədər yaşlı uşaqlarda milli hisslərin formalaşdırılması" (İ.H.Sultanova, nam. dis., Bakı, 2000), "S.Ə. Şirvaninin irsində etnik-psixoloji xüsusiyyətlərin əks etdirilməsi problemi" (K.K. Kazımova, nam. dis., Bakı, 2004) namizədlik dissertasiyalarını aid etmək olar. Həmin əsərlərdə Azərbaycan xalqına xas olan milli etnik xüsusiyyətlərin təzahür formaları və onların müasir dövrdə əhəmiyyəti, onlardan elmi istifadə imkanları şəklində şərh olunur.

Respublikamızın şəxsiyyətin etnopsixoloji baxımdan tədqiqindən inkişaf tarixindən danışarkən psixologiya elmləri doktoru prof. R. Əliyevin xidmətlərini xüsusilə qeyd etməliyik. Onun elmi-psixoloji yaradıcılığında bu problem qırmızı xətt kimi özünü göstərir. "Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması" (Bakı, 1995), "Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları" (Bakı, 2002) adlı əsərlərini və 2004-cü ildə BDU-də həmin problem üzrə müdafiə etdiyi doktorluq dissertasiyasını qeyd etməliyik. Əlbəttə, onun bu sahədə çoxsaylı məqalələrini və kitablarını "Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları" (Bakı, 2003), "Təhsil sistemində milli xüsusiyyətlərin nəzərə alınması" ("Azərbaycan məktəbi " jurnalı №5, 1996), "Psixologiya tarixi" (Bakı, 2006), "Şəxsiyyətin təşəkkülünün etno-psixoloji məsələləri" (Bakı, 2003), "Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları" (Bakı, 2000), "Nizami Gəncəvinin psixoloji görüşləri, yaş və pedaqoji psixologiya məsələləri", Azərbaycan Təhsil Problem İnstitutu (Bakı, 1999) və s. təhlil etmək yazdığımız dissertasiyanın həcmi baxımından qeyri-mümkündür. Ona görə də doktorluq dissertasiyası haqqında qısa məlumat verməklə kifayətlənəcəyik.

"Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları" adlı doktorluq dissertasiyası giriş, dörd fəsil, nəticə, ədəbiyyat siyahısından ibarət olub, 271 səhifə həcmindədir. Giriş hissədə problemin aktuallığı, vəzifələri, yeniliyi və digər məsələlər açıqlanır. "Problemin ümumi məsələləri və ədəbiyyatda qoyuluşu" adlanan birinci birinci fəsildə Şərq fəlsəfi fikir tarixində şəxsiyyət problemi haqqında məlumat verilir. Şərq filosoflarının bu

barədə fikirləri şərh edilir. Sonra müəllif pedaqoji-psixoloji ədəbiyyatda problemin tədqiqinə münasibət bildirir və etnik psixologiyanın tarixinə diqqəti yönəldir. Ümumən müəllifin fikirləri əlaqələndiricidir. Şəxsiyyət və etnopsixoloji problemlərin öyrənilməsi mövcud psixoloji ədəbiyyatlar baxımından aydın şəkildə şərh olunur.

"Etnik xüsusiyyətlərin formalaşdırılmasının sosial-psixoloji əsasları" adlanan ikinci fəsil isə daha çox diqqəti cəlb edir. Burada mühit və irsiyyətin rolu açıqlanır. Fikrini əsaslandırmaq üçün o, yenə də rus və xarici ölkə psixoloqlarının əsərlərinə istinad edir. V. Bexterev, E. Stounq, Q. Lebon, M.Mid, E. Fromt, İ.P. Pavlov, M.Q. Yaroşevski və digərlərini gündəmə gətirir.

Müəllif yekunda qeyd edir ki, "Yuxarıda adları çəkilən, adlarına istinad edilən alimlərin tədqiqatları göstərir ki, hər bir xalqın inkişaf edib formalaşmasında, həm etnosun, həm də mühitin xüsusilə ictimai quruluşun rolu inkaredilməzdir " .

Müəllif qeyd edir ki, "Bir xalqı məğlub etmək, torpağını istila etmək istəyəndə silah işlətməzdən qabaq həmin xalqın mənəviyyatını oğurlayırlar. Öncə onun adət-ənənəsini, tarixini, kökünü öyrənirlər. Zəif yerlərini tapırlar. Sonra öz ədəbiyyatlarını, mədəniyyətlərini həmin xalqa təlqin edirlər".

"Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji istiqamətləri" adlı üçüncü fəsildə oğlan və qızların şəxsiyyətinin milli zəmində formalaşmasında valideynlərin rolu, oğlan və qızların mənəvi tərbiyəsinin etnopsixoloji əsasları, milli adət-ənənələrin şagird şəxsiyyətinin formalaşmasına təsiri, məktəbli şəxsiyyətinin milli ruhda formalaşmasında şagirdlərin psixoloji biliklərinin nəzərə

alınması, şagird şəxsiyyətinin formalaşmasında sosial-psixoloji amillərin rolu və digər məsələlər mövcud psixoloji-pedaqoji ədəbiyyatlara və müəllifin apardığı təcrübələrə istinad olunaraq şərh olunmuşdur. Təbii ki, istər oğlan olsun və yaxud qız fərqi yoxdur. Onlar ailədə şəxsiyyət kimi cəmiyyətə hazırlanır. Burada həm ananın, xüsusilə atanın nüfuzunun böyük rolu var. Adət-ənənələri də yaddan çıxarmaq olmaz. Bizim qan yaddaşımızda həkk olunan adətlər, ənənələr çox ömürlü olur. Onları rəsmi qanunlarla tənzimləmək qeyri-mümkündür. Müəllif bunları elmi əsaslarla şərh edir. Ən ümdəsi isə müəllifin qeyd etdiyi kimi, şagird o zaman şəxsiyyət kimi formalaşır ki, onda milli qeyrət, əqidə, əsl vətəndaşlıq ləyaqəti olsun.Bu fəsildə nəhayət şagird şəxsiyyətinin formalaşmasında sosial-psixoloji amillərin əhəmiyyəti açıqlanır. Müəllif həm xarici ölkələrin və həm də Azərbaycan alimlərinin, pedaqoq və psixoloqlarının bu sahədə apardıqları tədqiqatlara öz münasibətini bildirir və onlardan bəhrələnir. Bütün bunlar qənaətləndiricidir.

Dissertasiyanın IV fəsli “Təlim prosesində etnik xüsusiyyətlərin nəzərə alınması və əsl şagird şəxsiyyətinin formalaşmasına onun təsiri” adlanır. Buraya təlim üçün əsas olan “müəllimin etnopsixoloji konsepsiyası və şagird şəxsiyyətinin formalaşmasında onun rolu ” problemi haqlı olaraq ön planda təhlil olunur. Müəllimin bilik, bacarıq, vərdişləri, nüfuzu, psixoloji hazırlığı qeyd olunur. Müəllim şəxsiyyətinin psixologiyası göstərilir. Müəllif Z.Qaralovdan, V.F. Lomovdan, L.R. Melnikovdan və digər alimlərdən misallar gətirilir. Təlim-tərbiyədə müəllim şəxsiyyətinin rolundan danışılır. Təlimdə müəllimin bilik,

bacarıq, vərdişləri, qabiliyyətlərinin əhəmiyyəti tutarlı faktlarla izah olunur.

Müəllif şəxsiyyətin formalaşmasında etnopsixoloji xüsusiyyətləri qalan fəsillərdə də ətraflı şərh edir və bununla da XX əsr Azərbaycan psixoloji fikir tarixində öz fikrini deyir.

XX əsrdə Azərbaycanda şəxsiyyətin etnopsixoloji baxımdan öyrənilməsində Q.E. Əzimlinin əməyini xüsusilə qeyd etməliyik. Ədalət naminə deməliyik ki, həm namizədlik dissertasiyasında "Kiçik məktəblilərdə hörmət hissinin inkişafı və tərbiyəsi" (Bakı, 1974), həm də yüzlərlə elmi məqalələrində, əsərlərində "Psixi inkişaf və tərbiyənin müasir problemləri" (2004), "Yaş və pedaqoji psixologiyanın müasir problemləri" (2005), elmi tədqiqat işlərində uşaq və yeniyetmələrin, gənclərin, ümumiyyətlə, insanların təlim-tərbiyəsinin etno-psixoloji məsələləri elmi cəhətdən şərh olunur. O, Azərbaycan klassiklərinin (N. Gəncəvi, S.Ə. Şirvani, X. Şirvani və b.) yaradıcılığında etnik xüsusiyyətləri öyrənmiş və müasir dövrdə onların mahiyyətini açıqlamışdır. Q.E. Əzimli eyni zamanda Azərbaycan xalq yaradıcılığında etnik psixoloji fikirlərin tədqiqi sahəsində özünəməxsus yer tutur. Bu baxımdan prof. Q.E. Əzimlinin "X. Şirvani irsində etnik-psixoloji problemlərin inikası" mövzusunda apardığı araşdırmaları dəyərli mənbələrdən biri kimi qiymətləndirmək olar.

Müəllif X. Şirvani irsində şəxsiyyətlərarası qarşılıqlı münasibətlər sistemində milli-etnik psixoloji problemlərin rolunu müəyyənləşdirmiş və çox dəyərli ümumiləşdirmələr əsasında elmi nəticələr əldə edə bilmişdir.

Q.E. Əzimli, X. Şirvani yaradıcılığında insan probleminin qoyuluşunu diqqət mərkəzində saxlamış, insan

mənəviyyatında özünü göstərən xeyirxahlıq, səxavətlilik, ləyaqətlilik, nəzakətlilik, dostluq və s. kimi onlarla fəzilətlərin, riyakarlıq, zülmkarlıq, qəddarlıq, tamahkarlıq, yaltaqlıq, ikiüzlülük, paxıllıq və s. kimi naqisliklərin elmi-psixoloji təhlilini böyük bir peşəkarlıqla verə bilmişdir. Fikrimizcə bütün bunları müəllifin zəngin professional təfəkkürünün məhsulu hesab etmək olar.

Professor Q.E. Əzimlinin dəyərli axtarışlarında dünya mədəniyyəti tarixində görkəmli şair və mütəfəkkir alim kimi yer tutan N. Gəncəvinin psixoloji görüşlərinin öyrənilməsi xüsusi yer tutur.

Müəllif haqlı olaraq qeyd edir ki, N. Gəncəvi ilk dəfə olaraq insan və onun mənəvi dünyasını ancaq bədii baxımdan deyil, həm də sosial-psixoloji aspektdə təhlil etmiş, diqqəti şəxsiyyətin mənəvi inkişafına, daxili dünyasına, onun tərbiyə prosesində formalaşmasında ictimai və fərdi amillərin dialektikasına yönəltmişdir.

N. Gəncəvinin yaradıcılığında etnopsixoloji məsələlərin öyrənilməsində Q.E. Əzimlinin araşdırmaları xüsusi əhəmiyyət kəsb edir.

Bu baxımdan onun "Nizaminin psixoloji görüşləri " və "Nizami Gəncəvinin əsərlərində əxlaqi hisslərin təzahürü " adlı tədqiqat işi xarakterikdir.

Şəxsiyyət problemi bütün ictimai formasiyalarda aktual olub və bu gün də aktual olaraq qalır. Çünki cəmiyyətin ictimai, sosial-iqtisadi, mənəvi, psixoloji baxımdan inkişaf edib təkmilləşməsi bilavasitə şəxsiyyətlə bağlıdır. Bütövlükdə cəmiyyətin inkişafı şəxsiyyətin kamil insan kimi formalaşmasından asılıdır. Şəxsiyyət ictimai münasibətlərin məcmusudur. Bu baxımdan şəxsiyyətin formalaşması mürəkkəb bir prosesdir. Bu prosesə bir sıra

amillər təsir edir. Buraya sosial-psixoloji, psixofizioloji, etnopsixoloji, bioloji, irsi və digər amilləri aid etmək olar.

Şəxsiyyətin "Mən" konsepsiyası, mənlik şüuru, mən-obraz, özünüdərk və özünüqiymətləndirmə, şəxsiyyətin yönümü, şəxsiyyətin sosializasiyası, kollektiv və qruplarda şəxsiyyətlərarası münasibətlər, qrup uyuşması, qrup təzyiqi və s. müasir psixologiya şəxsiyyət psixologiyasının qarşısında duran problemləridir.

Bu problemin öyrənilməsinə bütün dünyada həmişə geniş maraq olub. Bu da təbiidir. Çünki hər hansı bir cəmiyyəti şəxsiyyətsiz təsəvvür etmək çətindir. Cəmiyyətin fövqündə şəxsiyyət yoxdur, ola da bilməz. Haqlı olaraq deyirlər ki, insan ictimai münasibətlərin məcmusudur. Deməli, şəxsiyyət ictimai münasibətlərdə formalaşır.

Hələ lap qədim zamanlardan insanların müxtəlif tipologiyaları haqqında fikirlər irəli sürülürdü. Məsələn, Yunan alimi Platon insan ruhundan müxtəlif sahələrinin üstünlüyü ilə insanları müxtəlif qruplara bölürdü. (Ağıl, cəsarət, tamah), Aristotel insanı mahiyyətinə görə ictimai heyvana bənzədirdi. Platondan fərqli olaraq Aristotel insanın birliyini instiktiv amillər kimi yox, birgə fəaliyyət tərzi, şəxsiyyətlərarası ünsiyyət vasitəsi kimi qəbul edirdi. V. Vundt isə şəxsiyyəti eksperimental yolla öyrənməyi irəli sürürdü. Alman alimlərindən Q. Şteytal və M. Latsarusun əsərlərində də şəxsiyyət psixologiyasına geniş yer verilirdi. İnsanın bir şəxsiyyət kimi formalaşması problemi Fransız alimləri H. Tardı, Q. Lebond, İtalyan alimləri L.Yordu, E. Roseli, İngilis alimi D. Mak və digərlərini də maraqlandırmışdır. Şəxsiyyətlərarası münasibətlərin formalaşması amillərini öyrənmək üçün tətbiq

edilən sosiometrik istiqamət isə S. Moçenoya nəsib oldu. O, öz fəaliyyətində Z. Freydin psixoanalizinə istinad edirdi. Ümumiyyətlə XX əsrin 50-60-cı illərində ABŞ-da, Fransada, İngiltərədə, Almaniyada, Rusiyada şəxsiyyət psixologiyasına aid yeni-yeni fikirlər meydana gəlirdi ki, bunlar da şəxsiyyətin öyrənilməsinə əsaslı təsir göstərirdi. Məlum olduğu kimi şəxsiyyət və onun psixologiyası qədim və dərin sosial köklərə malikdir.

Şəxsiyyət psixologiyası öz nəzəri əsaslarını dünya xalqlarının mifik düşüncə tərzlərindən, qabaqcıl mütəfəkkirlərin ideyalarından almışdır.

XX əsr və XXI əsrin ilk on illiyində Azərbaycan psixoloji fikir tarixinə nəzər saldıqda şəxsiyyətin psixoloji problemlərinin öyrənilməsinin bir istiqamətdə aparılmasının şahidi oluruq. Bunlar təxminən aşağıdakı kimi olmuşdur.

I. Şəxsiyyətin mahiyyəti, psixoloji məzmunu, öyrənilməsi (M.Məhərrəmov, Ş.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev, S.Seyidov, B.Əliyev, Ə.Baxşəliyev, İ.Novruzlu, R.Əliyev, K.Əliyeva, S.Məcidova, R.Qədirova, G.Məmmədova və b.)

II. Təhsildə şəxsiyyət problemi (M.Məhərrəmov, Ş.Ağayev,Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev, R.Əliyev, B.Əliyev, R.Cabbarov və b.)

III. Şəxsiyyətin milli mənəvi dəyərlər kontekstindən tədqiqi (Ə.Bayramov, Ə.Əlizadə, S.Seyidov, B.Əliyev, R.Əliyev, İ.Bayramov, Ə.Baxşəliyev, R.Qədirova, İ.Sultanova, S.Heydərova, Q.Rəhimova və b.)

IV. Azərbaycanın görkəmli mütəfəkkirlərinin yaradıcılığında şəxsiyyətin sosial-psixoloji xüsusiyyətlərinin tədqiqi (A.O.Makovelski, Ə.K.Zəkuyev, M.Abbasov,

C.Təhmasib, Ş.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, Z.Şirinova, Ə.Baxşəliyev, T.Dadaşova, İ.Novruzlu, R.Əliyev və b.)

V. Şəxsiyyət və fəaliyyət probleminin tədqiqi (F.İbrahimbəyov, Ş.Ağayev, K.Əbilov, İ.Məmmədov, Z.Aslanova və b.)

VI. Siyasətçi şəxsiyyətinin sosial-psixoloji problemlərinin tədqiqi (S.Seyidov, B.Əliyev, Ş.Əliyeva, N.Mamayeva və b.)

Şəxsiyyətin öyrənilməsi bütün dövrlərdə aktual problemlərdən biri olmuşdur. Çünki ictimai quruluşun sosial-iqtisadi, ictimai-siyasi inkişafı şəxsiyyətin necə formalaşmasından asılıdır. Ona görə də Azərbaycan psixoloqları şəxsiyyət probleminə aid mühüm tədqiqat işləri aparmışlar. Şəxsiyyətin formalaşmasının metodoloji prinsiplərinin öyrənilməsi (A.O. Makovelski, Ə.K. Zəkuyev, M.C. Məhərrəmov, F.Ə.İbrahimbəyov və Ə.S. Bayramov), şəxsiyyətin inkişafının sosial—psixoloji mövqedən tədqiqi (F.Ə. İbrahimbəyov, Ə. Əlizadə, C. Təhmasib, T. Dadaşova), şəxsiyyətin fəaliyyət prosesində inkişafı (Ş.S. Ağayev, S.K. Əbilov, İ.N. Məmmədov), təlim-tərbiyə prosesində şəxsiyyətin formalaşdırılmasının xüsusiyyətləri (Ə.S.Bayramov, Z.M. Mehdizadə, Ə.Ə. Əlizadə, R.F. İbrahimbəyova, M.V. Vəliyev), şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri (F.Ə. İbrahimbəyov, Ə.S.Bayramov, M.C. Məhərrəmov, Ə.Ə. Əlizadə, F. Əliyev, N. İsmayılzadə, L.A. Süleymanova, O.F.Kərimov və b.), şəxsiyyətin özünüqiymətləndirməsi və özünü dərk etməsi (Ə.S.Bayramov, Ə.Ə. Əlizadə, G. Tatlıyeva, V. Əliyeva, S.F. Şabanov və b.) şəxsiyyətin formalaşmasının aktual problemlərinə həsr olunmuşdur. Şəxsiyyət psixologiyası

sahəsində aparılan tədqiqatların, demək olar ki, əksəriyyətində şəxsiyyətin formalaşmasının genezisi, ictimai-sosial məsələləri, motiv və tələbatları, şəxsiyyətin yaradıcılıq qabiliyyətləri, şəxsiyyət və mədəniyyət, şəxsiyyətin əsas məsələləri: təhsil və şəxsiyyətin qarşılıqlı təsiri, şəxsiyyətlərarası qarşılıqlı münasibətlərin psixologiyası və digər məsələlər diqqət mərkəzində durur. Azərbaycan Respublikasında bu sahəyə aid tədqiqat işləri hələ 1926-cı ildən aparılsa da, əsas eksperimental işlər son dövrlərə təsadüf olunur. Bu da respublikamızda bu sahə üzrə kifayət dərəcədə elmi psixoloji kadrların olmaması ilə izah edilə bilər. 1926-cı ildən başlayaraq şəxsiyyətin öyrənilməsi sahəsində müəyyən işlər görülmüş, üsullar təklif edilmiş, bir sıra məruzələr həsr olunmuşdur. Hətta 24 oktyabr 1926-cı ildə Azərbaycanı öyrənib tədqiq edən cəmiyyət Azərbaycan əhalisinin və müxtəlif yaş və peşələrdə fitri istedadı öyrənən ictimai təbabət və gigiyena komissiyası təşkil etdi. Komissiya uzun müddət respublikamızda azərbaycanlıların bir şəxsiyyət kimi formalaşmasının psixofizioloji, etnopsixoloji problemlərini öyrənmiş və bu sahədə müəyyən iş görmüşdür. 1926-cı il noyabr ayının 25-də həmin komissiyanın iclası olmuş və həmin iclasda respublikamızın görkəmli psixoloqu F.Ə. İbrahimbəyov "İstedadların milli xüsusiyyətlərinin öyrənilməsində eksperimental üsul" mövzusunda məruzə etmiş və şəxsiyyətin öyrənilməsinin etnopsixoloji məsələlərinin konkret yollarını göstərmişdir.

1920-1950-ci illərdə Azərbaycanda psixologiya üzrə tədqiqatlara nəzər saldıqda məlum olur ki, şəxsiyyət psixologiyasına aid müəyyən işlər görülmüş, məqalələr yazılmışdır. Lakin eksperimental xarakter daşıyan müəy-

yən bir dissertasiyanın, kitabın və başqa elmi-kütləvi əsərlərin yazılıb nəşr olunmasına rast gəlmədik. Şəxsiyyət psixologiyasına diqqət 1950-ci illərdən başlayaraq daha da artmışdır.

Akademik A.O. Makovelskinin rəhbərliyi ilə C.A. Təhmasib Azərbaycan qadınlarını səciyyələndirən mənəvi keyfiyyətləri öyrənmiş və bu mövzuda 1965-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir.

1960-cı illərdən başlayaraq Ə.Ə. Əlizadə şəxsiyyət-lərarası münasibətlər psixologiyasını ardıcıl tədqiq etməyə başladı.

Ə.Ə. Əlizadə həmin problemin öyrənilməsinə aid yüzdən artıq məqalələr, məruzələr, tezislər və bir sıra kitablar ("Yoldaşlıq və dostluq tərbiyəsi", "Ailədə uşaqların cinsi tərbiyəsi", "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi") həsr etmiş və müxtəlif illərdə nəşr etdirmişdir.

Ə.Ə. Əlizadə şəxsiyyətlərarası münasibətlərə aid fikir və mülahizələrini, bu sahədə apardığı eksperimental təcrübələrin nəticələrini ümumiləşdirərək, 1975-ci ilə müdafiə etdiyi "Cinsi demorfizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri" adlı doktorluq dissertasiyasında vermişdir.

Ə.Ə. Əlizadə müxtəlif yaş dövrlərində cinsi yetişkənliyin psixofizioloji, sosial-ictimai tərəflərini açmaqla yanaşı, onun etnik mahiyyətini də şərh etmişdir.

Dissertasiya VI fəsil və biblioqrafiyadan ibarət olub, 418 makina səhifəsi həcmindədir. Birinci fəsildə tədqiqatın metodikasının əsas vəzifələri şərh olunmuşdur.

Müəllif giriş hissədə şəxsiyyətlərarası münasibətlər problemini dünya psixoloqlarının son nailiyyətləri və özünün tədqiqatları əsasında təhlil edir, cinslərarası

münasibətlərin aktuallığından bəhs edərək müəllif yazır: "Cinsi şəxsiyyətin antropoloji xarakteristikasına aid olub əsasən ictimai-demoqrafik amillərdən biridir" (səh.16). İnsan münasibətləri kimi cinslərarası münasibətlər də ictimai-tarixi aspektdə təhlil olunur. Həmin münasibətlərin təşəkkülü, inkişafı və formalaşmasında etnopsixoloji amillərin, ailənin mühitin rolu ətraflı göstərilir. Burada, cinslərarası münasibətlərin iki tərəfi-kişi və qadının bir-birinə münasibəti: cəmiyyət və kollektiv səviyyəsində vətəndaşın vətəndaşa, işçinin işçiyə münasibəti diqqət mərkəzində durur. Onun fikrincə, hər iki tərəf cinslərarası münasibətləri psixoloji baxımdan səciyyələndirmək üçün əsas vermir. "Şəxsiyyət münasibət obyekti kimi götürüldükdə belə bir meyar rolunu oynaya bilər" (səh.18). Ə. Əlizadə də problemin təhlili prosesində insana şəxsiyyət baxımından yanaşır. O, bu qənaətə gəlir ki, cinslərarası münasibətləri psixoloji baxımdan təhlil etmək üçün onları "şəxsiyyət vasitəsilə və şəxsiyyətin təzahürü kimi aydınlaşdırmaq zəruridir" (səh.21).

İkinci fəsildə oğlanlarla qızlar arasında qarşılıqlı münasibətlərin formalaşması xüsusiyyətləri eksperimentlər əsasında təhlildən keçirilir. Oğlanlarla qızlar arasında qarşılıqlı münasibətlərin mənşəyi məsələlərinə diqqət yetirilir.

Məktəbəqədər yaş dövründən başlayaraq müxtəlif yaş dövrlərində münasibətlərin dinamikası göstərilir.

Dissertasiyada həmçinin cinslərarası münasibətlər, həmin münasibətlərin müxtəlif yaş dövrlərində təzahür xüsusiyyətləri, valideyn və müəllimlərin bu sahədə mövqeləri, sosial-cinsi status, dostluq və məhəbbət hissi və başqa məsələlər haqqında geniş elmi məlumat verilir.

P.P. Blonskinin, L.S. Vıqotskinin, B.K. Ananyevin, A.V. Petrovskinin, S.L.Rubinşteynin, V.N. Miyasişevin, A.V. Kovalyovun, E.A. Budilovanın və başqalarının yaradıcılıqlarında bu problemin qoyuluşuna nəzər salınır. Müəllif həmin psixoloji məktəblərin bu sahədəki nəzəriyyələrinə istinad edərək respublikamızda və eləcə də xarici ölkə miqyasında ilk dəfə oğlanlarla qızlar arasında spesifik münasibətlərin formalaşması şəraitini, bu münasibətlərin strukturası və tiplərinin əsas xüsusiyyətlərini, cinsi fərqlənmənin oğlan və qızların maraqlarında necə təşəkkül tapmasını, cinsi nöqteyi-nəzərdən onların özünü dərk etməsini, cinsi qrupların identifikasiyasını, bu prosesə təsir göstərən etnopsixoloji amilləri eksperimental şəkildə öyrənmişdir. Müəllif nəzəri və eksperimental biliklərə əsaslanaraq "Oğlanlarla qızların qarşılıqlı münasibətlərinin mənşəyinə toxunur, müxtəlif dövrlərdə bu münasibətlərin çalarlarını göstərir. Tədqiqatda müəyyən olunur ki, məktəbəqədər yaş dövründə oğlanlarla qızların qarşılıqlı münasibətləri, zahirən oğlanın oğlan, qızın qızla qarşılıqlı münasibətindən demək olar ki, fərqlənmir. Lakin sosiometrik üsulla aparılan tədqiqatlar göstərir ki, bütün yaş qruplarının ünsiyyətində özünəməxsusu cəhətlər də mövcuddur. Kiçik məktəbli yaş dövründə də oğlanlarla qızların qarşılıqlı münasibətləri sabit deyildir, situativ və qısa müddətli xarakter daşıyır, ayrı-ayrı hallar nəzərə alınmazsa, görüş təyin etmək onlar üçün səciyyəvi deyil, bu münasibətlər əsasən bir-birlərinə qayğı və kömək göstərməklə, birlikdə oynamaqla ifadə olunur, onların qarşılıqlı münasibətləri əsasən cinsi xarakter daşımır" (səh.71). Yeniyetmə oğlan və qızların münasibətlərində əvvəlki yaş dövrlərində müşahidə edilməyən yeni

xüsusiyyətlər meydana çıxır. Əxlaqi və ənlik şüurunun formalaşması, özünü yaşlı adam kimi aparmaq hissi, ünsiyyət tələbatı, əks cinsə marağın artması, özləri haqqında təsəvvürlərin yaranması və s. məsələlər həmin yaş dövrünü səciyyələndirən xüsusiyyətlərdir. Əsərlərdə bu xüsusiyyətlərin yaranmasınınpsixofizioloji mexanizmləri geniş təhlildən keçirilir, müəllimlərin, valideynlərin diqqəti tərbiyəvi əhəmiyyəti olan sahələrə yönəldilir.

Üçüncü fəsildə cinsi fərqlənmə fenomeni haqqında məlumat verilir, cinsi fərqlənmənin müxtəlif yaş dövrlərində təzahür xüsusiyyətləri göstərilir. Aparılmış tədqiqatların nəticələrinə görə, cinsi fərqlənmə iki mərhələni (məktəbəqədər, kiçik məktəb və yeniyetməlik yaş dövrləri birinci mərhələni, sonrakı yaş dövrləri ikinci mərhələni təşkil edir) əhatə edir. Cinsi fərqlənmənin birinci mərhələsində oğlanlar, ikinci mərhələsində isə qızlar fəal rol oynayır. Tədqiqatda bu məsələlər də diqqət mərkəzində dayanır. Müəllif Azərbaycan psixologiya məktəbi tarixində ilk dəfə olaraq bu problemə ətraflı yanaşır, oğlan və qızların maraqlarında cinsi fərqlərin yerini, mövqeyini aydınlaşdırır. Təlim-tərbiyə zamanı çox vaxt müəllimlər və valideynlər cinsi qarşılıqlı münasibətlərin yaranmasına, həmin prosesin gedişinə laqeyd olurlar. Nəticədə, uşaqların tərbiyəsində qarşısıalınmaz mənfi keyfiyyətlər əmələ gəlir. Bunları nəzərə alaraq Ə.Ə. Əlizadə əsərdə cinsi qarşılıqlı münasibətlərin qavranılmasını, təşəkkülü və təkamülünü çox inandırıcı faktlarla izah edir, müəllim və valideynlərin mövqeyini göstərir.

Oğlanlarla qızlar arasında şəxsi qarşılıqlı münasibətlər müxtəlif şəkildə baş verir. Belə münasibətlər oğlanlarla oğlanlar, qızlarla qızlar və ya qızlarla oğlanların

qarşılıqlı münasibətləri strukturunda baş verir. Tədqiqatın məqsədinə müvafiq olaraq müəllif oğlanlarla qızların münasibətlərinə daha çox diqqət yetirir. Ümumtəhsil orta məktəblərində tədqiqatlar əsasında müəllif V-X sinif şagirdləri arasında həmin münasibətlərin gedişini izləyir, təlim-tərbiyə üçün lazım olan nəticələr əldə edir.

Əsərdə qeyd olunur ki, "...V sinifdə şəxsi qarşılıqlı münasibətlərin formalaşması müəyyən bir qız və ya qız qrupunun fəal rol oynaması ilə bağlıdır" (səh. 205). Bu cəhətdən VII sinifdə mühüm dəyişikliklər meydana çıxır...Tədqiq etdiyimiz VI sinifdə təcrid olunmuş oğlan yoxdur, oğlanların 3 nəfəri isə ən çox səs almışdır. VII sinifdə oğlanlarla qızlar arasında şəxsi qarşılıqlı münasibətlərin təşəkkülündə onların hər ikisi eyni dərəcədə mühüm rol oynayır. VIII sinifdə şəxsi qarşılıqlı münasibətlərin təşəkkülündə oğlanlar daha fəal rol oynamağa başlayırlar. Bu, eyni zamanda IX sinifdə də özünü göstərir.

Müasir psixologiyada qruplarda qarşılıqlı münasibətlərin sturukturası üç meyar (emotiv, kommunikativ, funksional) baxımından təhlil olunur. Dissertasiyada ən çox həmin münasibətlərin emotivlik tərəfinə çox diqqət yetirilir. Müəllif bu sahədə aparılmış çoxlu əsərlərə müraciət edir, onları ümumiləşdirərək qruplarda şəxsi qarşılıqlı münasibətlərin üç tipini (simpatiya, laqeydlik, antipatiya) ayırd edir və bu tiplərin hər birinin psixoloji xarakteristikasını verir. Bu tipli münasibətlərin siniflər üzrə inkişaf səviyyələri diqqəti cəlb edir. Oğlanların qızlara və yaxud qızların oğlanlara verdikləri qiymətlər siniflər üzrə müxtəlif xarakter daşıyır. Şəxsi qarşılıqlı münasibətlərdə cinsi meylin, həvəsin də böyük rolu vardır. "Cinsi meyl anadangəlmə olub, cinsi yetişmə dövründə meydana çıxır

və cinslərarası münasibətlərdə onun təbii cəhəti kimi təsəvvür edir" (səh. 209). Cinsi meylin, tez, vaxtından əvvəl yaranması tərbiyə işini çətinləşdirir. Əsərin məziyyətlərindən biri də məktəblilərdə vaxtından əvvəl cinsi meylin formalaşmasının səbəblərinin cinsi gigiyena qaydalarının nəzərə alınmaması, oğlan və qızlar arasındakı cinsi fərqlərin nəzərə çarpdırılması, cinsi marağın formalaşması, cinslərarası münasibətlər haqqında təhrif olunmuş informasiyaya malik olmaları, urbanizasiya və sosial cinsi nəzarətin zəifliyi elmi-praktiki səpgidə təhlil olunmalıdır. Dissertasiyanın beşinci fəslində oğlanlarla qızların bir-birini qavraması və anlamasının bəzi məsələləri şərh olunur. Oğlan və qızların qarşılıqlı münasibətləri onların bir-birini dərk etmələri prosesində formalaşıb inkişaf edir. Bunun da öz qanunauyğunluqları var. Bu prosesdə bir sıra nöqsanlara yol verilir. Ən tərbiyəvi cəhətlərdən biri də oğlanlarla qızların bir-birində olan əxlaqi keyfiyyətləri seçib qiymətləndirmələrinin aşkar edilməsidir.

Altıncı fəsildə yeniyetmə və gənclik yaşı dövrlərində şagirdlərdə dostluq, yoldaşlıq, rəğbət və məhəbbət hisslərinin inkişaf səviyyələri haqqında məlumat verilir. "Rəğbət hissi oğlan və qızlarda əks cins nümayəndəsinə yaranan seçici emosional münasibətlərin özünəməxsusu ifadəsidir" (səh. 320). Onu da qeyd etmək lazımdır ki, rəğbət hissi emosional qiymətə əsaslanır. Bir tərəfli hiss kimi təşəkkül edir, sabit hiss deyildir. Əsərdə məktəblilər arasında yaranan belə hissi emosional halların yaranmasının xüsusiyyətləri ətraflı təhlil olunur. Dostluq-məhəbbət hissinin özünəməxsusu boyaları, inkişaf şərtləri, həmin hisslərin fərqli xüsusiyyətləri şərh olunur. Oğlan və

qızların cinsi qarşılıqlı münasibətlərində diqqəti cəlb edən maraqlı faktlardan biri də onların bir-birinə tənqidi yanaşmalarının müxtəlif səviyyələrdə olmasıdır. Dissertasiyanı, onunla bağlı əsər və məqalələri oxuyarkən hər bir gənc özünün mövcud əxlaqi keyfiyyətlərini bir daha gözünün qabağına gətirir. Özünü düzgün qiymətləndirməyə çalışır, mənfi və müsbət keyfiyyətlərini təhlil və təshih edir. Oğlan dərk edir ki, onun hansı hərəkətləri qızın xoşuna gəlmir və əksinə, qızlar bilirlər ki, onların hansı keyfiyyətləri  əks cins tərəfindən pis qarşılanır. Belə qarşılıqlı anlaşma əxlaq tərbiyəsi üçün ən təsirli vasitələrdən biridir. Əsər oğlan və qızların maraqlarında cinsi fərqlərin təşəkkülü, onların özünü dərk etməsi, qiymətləndirməsi, etnopsixoloji amillərin yeri, ümumiyyətlə, cinsi dəyişiklik və şəxsi qarşılıqlı münasibətlərin psixoloji problemlərinin öyrənilməsinin tərbiyəvi əhəmiyyəti çox inandırıcı və elmi faktlar əsasında şərh olunmuşdur. Əsəri oxuyarkən müəllifin zəhməti və zəhmət hesabına əldə olunmuş nəticələr bir daha oxucuda tədqiqata rəğbət hissi oyadır.

Bunun nəticəsidir ki, əsərə Azərbaycan, Leninqrad, Kiyev, Gürcüstan psixoloqları yüksək qiymət vermişlər. Akademik M.M. Mehdizadə, professorlardan Ş.S. Ağayev, Ə.S. Bayramov, F.F. Qasımzadə, M.Ə. Həmzəyev, M.S. Nəcəfov, Gürcüstan psixoloqu, professor Ş.A. Nadiraşvili və onlarca başqalarının əsər haqqındakı müsbət fikirləri buna parlaq nümunədir.

Son illərdə Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində, Azərbaycan Təhsil Problemləri İnstitutunda şəxsiyyətin formalaşmasının psixoloji problemlərinə aid müəyyən tədqiqatlar aparılır. Bu tədqiqatlar içərisində Ə.S. Bayramovun rəhbərliyi ilə

BDU-da aparılan tədqiqatlar xüsusilə diqqəti cəlb edir. Ə.S. Bayramovun "Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri" (Bakı, 1981), "Psixoloji etüdlər" (Bakı, 1989), "Psixoloji düşüncələr" (Bakı, 1994), "Etnik psixologiya məsələləri" (Bakı, 1996) adlı kitabları və onlarca məqalələri də həmin problemin tədqiqi istiqamətində yazılmışdır.

"Tələbənin idrak fəaliyyəti və şəxsiyyətinin təşəkkülü" (Ə.S. Bayramov, Ə.Ə.Seyidov, Bakı, ADU-nun nəşri, 1981), "Təlim-tərbiyə prosesində şəxsiyyətin fəallaşdırılmasının xüsusiyyətləri, yol və vasitələri" (kollektiv müəlliflər heyəti, Bakı, ADU-nun nəşri, 1984), "Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri" (Ə.S.Bayramov, Ə.Ə. Əlizadə, Ə.Ə. Seyidov və başqaları, Bakı, ADU-nun nəşri, 1985) əsərləri isə Ə.S. Bayramovun xüsusi redaktorluğu altında çap olunmuşdur.

Birinci kitabda "Tələbə gənclərin ictimai fəallığı, onun məzmunu, meyarı, səviyyələri və amilləri", "Özünüdərketmə və özünüqiymətləndirmənin tələbə şəxsiyyətinin formalaşmasında mövqeyi" (C. Təhmasib, səh.54), "Qrupda qarşılıqlı münasibətlərdə tələbələrin sərvət meyli idarəedici faktor kimi" (L. Süleymanova, səh.63), "tələbələrdə müəllim peşəsi üçün zəruri olan sərvət meyli və mənəvi ideallarının təşəkkül xüsusiyyətləri" (M. Vəliyev, səh. 75), "Şəxsiyyətlərarası münasibətlər amilinin tələbələrdə təfəkkür müstəqilliyinin təzahürünə təsirinin öyrənilməsinə dair" (R. Cavadov, səh.84), "Tələbə şəxsiyyətinin formalaşmasının genetik kökləri" (S. Bəbirova, səh.133), "Tələbələrin tipoloji xüsusiyyətlərinə dair" (İ.Seyidov, səh.34) və başqa məqalələr verilmişdir. Məlumdur ki, insanın bir şəxsiyyət kimi formalaşmasında onun fəallığı

əsas şərtlərdən biridir. Fəallıq isə müəyyən tələbatlarla, motivlərlə bağlıdır. Azərbaycanın suverenliyi uğrunda mübarizə aparıldığı indiki dövrdə isə bu problem aktuallıq kəsb edir. Yeniyetmə və gənclərin ictimai-sosial fəallığı uğrunda mübarizə aparmağımız məqsədə çatmaq üçün ən zəruri tələblərdəndir. Məcmuədə bu məsələyə xüsusi fikir verilir. Məktəblilərdə və tələbələrdə ictimai fəallığın məzmunu, meyarı, səviyyələri eksperimental tədqiqatlar əsasında şərh olunur. Qeyri-fəallığa səbəb olan şərt və amillər göstərilir. Orada qeyd olunur ki, tələbə fəaliyyətinin ən mürəkkəb və dinamik forması olan ictimai fəallıq birtərəfli proses olmayıb, obyektiv və subyektiv amillərin qarşılıqlı təsiri ilə formalaşır və inkişaf edir. Müəllifin fikrincə, "İctimai fəallıq hər bir tələbənin mənəvi tələbatının məhsuludur. Tələbat tarixən təşəkkül tapmış ictimai maraqlar, məqsəd, ustanovka və motivlər vasitəsi ilə təsir göstərərək ictimai fəallığın təhrikedici qüvvəsini xarakterizə edir və onun sövqedici vəzifəsini yerinə yetirir. İctimai fəallığın daxili sövqedicilərindən biri də motivdir" (səh 52-53).

Şəxsiyyətin mühüm psixoloji keyfiyyətlərindən biri də özünüdərketmə və özünüqiymətləndirmədir. İnsan özünüdərk etmədən, özünü düzgün qiymətləndirmədən şəxsiyyətə çevrilə bilməz. İnsan özünü və ya başqalarını qavradıqca, özünü onlarla müqayisə edir, özünə kənardan nəzər salır, özünü təhlil edir. Şəxsiyyətin özünü dərk etməsi və düzgün qiymətləndirməsi isə elmi dünyagörüşündən, onun əqidə və inamından, keçdiyi həyat yolundan, tutduğu mövqedən, maraq və meylindən asılıdır. Kitabda bu problemə diqqət yetirilərək qeyd olunur ki, "Tələbənin özünə verdiyi qiymət, bir çox halda mühitin

ona verdiyi qiymətə uyğundur. Tələbə bir çox halda davranışını, rəftarını başqalarının nöqteyi-nəzəri əsasında qiymətləndirir...tələbəlik dövründə belə (yeniyetmə yaşından fərqli olaraq) şəxsin özünə verdiyi qiymət mühitin verdiyi qiymətə uyğun gəlir. Bu yaşda şəxsin özünə verdiyi qiymət (kiçik məktəb yaşından fərqli olaraq) mühitin ona verdiyi qiymətin, bir qədər yeni formada, yeni məzmunda, yeni təzahüründən ibarətdir" (səh.61-62). Kitabda həmçinin tələbə qruplarında şəxsiyyətlərarası münasibətlərin formalaşası məsələləri təhlil olunur, bu prosesdə sərvət meylinin rolu ətraflı şəkildə göstərilir. Şəxsiyyətin inkişafında sərvət meyli və mənəvi idealın böyük rolu vardır. Sərvət meyli insanın tələbatlarının ödənilməsi ilə bağlı olan, ona kömək göstərən maddi və mənəvi sərvətlərə, ideallar məcmuəsinə nisbətən davamlı və ictimai cəhətdən şərtlənmiş münasibətdir. İdeal isə ali mənəvi sərvət rolunu oynayaraq hələ həyata keçməmiş olan, lakin özünün həyata keçməsini tələb edən imkan rolunu oynayaraq sərvət meylinin mühüm göstəricisi kimi çıxış edir. Kitabda problemin bu səpgidə izah edilməsi, tələbə gənclərdə sərvət meyli və ideallarıın formalaşmasının eksperimentlər əsasında öyrənilməsi də təlim-tərbiyəvi baxımından əhəmiyyətlidir. Müəllif həmin amilləri şəxsiyyətin peşə keyfiyyətləri ilə əlaqələndirir. "Tələbələrdə zəruri sərvət meyli və mənəvi ideallarıın təşəkkülü mürəkkəb proses olub, ali məktəbdə nəinki tələbələr arasındakı, eləcə də müəllim-tələbə, müəllim sistemindəki qarşılıqlı münasibətlərin, ali məktəbin tərbiyəvi ənənələri və s. kimi amillərdən asılı olaraq formalaşır".

Kollektiv daxilində şəxsiyyətlərarası münasibətlər düzgün təşkil ediləndə orada şəxsiyyətin formalaşması,

intellektual fəaliyyətin səmərəli təşkili də istənilən səviyyədə olur. Münasibətlərin düzgün qurulması şəxsiyyətin müstəqil düşüncə qabiliyyətini artırır, onları fəallaşdırır. Bu problem haqqında danışdığımız məcmuədə şərh edilir, tələbələrin təfəkkür müstəqilliyinin inkişafında qarşılıqlı münasibətlərin yeri göstərilir. Məsələni ətraflı təhlil etmək üçün müəllif tələbə qruplarında təfəkkür müstəqilliyinin fərqli xüsusiyyətlərini göstərmişdir. Müəllifin gədiyi qənaət budur ki, "...şəxsiyyətlərarası münasibətləri yüksək səviyyədə olan hər bir qrup birgə fikri fəaliyyətin səmərəliliyi və təfəkkür müstəqilliyinin təzahürü üçün əlverişli potensial imkana malikdir" (səh.95).

Kitabda şəxsiyyət psixologiyasına aid digər məsələlər də eksperimental səpgidə öyrənilmiş və bir sıra maraqlı nəticələr çıxarılmışdır.

"Təlim-tərbiyə prosesində şəxsiyyətin fəallaşdırılmasının xüsusiyyətləri, yol və vasitələri" (1984) adlı kitabda isə şəxsiyyətin mənəvi və əxlaqi tərbiyəsində, onun bir vətəndaş kimi yetişməsində təlim üsullarının, müəllim-şagird münasibətlərinin rolu eksperimental tədqiqatlar əsasında şərh olunmuşdur.

Şəxsiyyət psixologiyasından danışarkən bir cəhəti xüsusi ilə qeyd etmək lazımdır. Bu da fərdin şəxsiyyət kimi formalaşmasında etnopsixoloji amillərin nəzərə alınmasıdır. İnsanın şəxsiyyət kimi yetişməsində onun milli, ərazi, etnik mənsubiyyəti nəzərə alınmalıdır. Azərbaycan xalqının əski mifik görüşləri, inam və əqidələri, adət-ənənələri, böyüyə hörmət, namus, qeyrət və təəssübkeşliyi və başqa əxlaqi hisslər yeniyetmə və gənclərimizin vətəndaş və şəxsiyyət kimi böyüməsində ən mühüm amillərdən biridir. Yetişməkdə olan gənc nəsli bu soykök-

dən ayırmaq, ağacı kökündən ayırıb çıxarmaq kimi bir şeydir. Azərbaycan xalqının soykökündə özünə möhkəm yer tutan bu əxlaqi sərvətləri tədqiq edib öyrənmək, uşaq və yeniyetmələri bu ruhda tərbiyə baxımından böyük əhəmiyyətə malikdir.

“Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri” adlı məqalələr məcmuəsi də məhz belə bir xeyirxah məqsəd üçün yazılmışdır. Kitabda XII əsrdə yaşamış Azərbaycan xalqının ən böyük mütəfəkkiri N. Gəncəvinin əsərlərində etnopsixoloji məsələlər (Ə.S. Bayramov), adət-ənənələrin möhkəmliyi, onların sosial-psixoloji strukturu (A. Yusifzadə) şəxsiyyətin özünüqiymətləndirməsi prosesini də təfəkkür müstəqilliyinin təzahür xüsusiyyətləri (Ə.S. Bayramov, R. Cavadov, O. Kərimov), istehlakçılıq psixologiyası və onun təşəkkül tapmasının bəzi mexanizmləri (K.S.Əbilov, K. Qasımova) adamların bir-birlərini anlamalarında etnopsixoloji, psixoloji xüsusiyyətlərin mövqeyi (B. Əliyev) və başqa məsələlər müxtəlif psixoloji üsullarla öyrənilmiş, maraqlı nəticələr əldə olunmuşdur. Kitab 1985-ci ildə nəşr olunub. Orada qaldırılan problemlər, elə bil ki, bugünkü ictimai-siyasi hadisələri sanki qabaqlamışdır. 1988-ci ildən başlayaraq qondarma Dağlıq Qarabağ problemi ilə Azərbaycan Respublikası qanlı müharibə içərisindədir. Neçə-neçə qəhrəman oğullar, görkəmli sərkərdələr, dövlət başçıları itirmişik. Bax, bu cəngavərlər, Koroğlu, Babək, Nəbi, Nigar, Həcər kimi qəhrəmanların nəvələridir. Gələcək gənclərimizi də bu ruhda böyütmək üçün həmin kitabda xeyli tövsiyələr vardır. Müəllimlər, tərbiyəçilər, valideynlər tərbiyə işində həmin kitabdan xeyli faydalana bilərlər.

"Kiçik məktəblinin maraqları" (F. Hüseynov, Bakı, 1971), "Kiçik məktəbyaşlı dövründə şəxsiyyətin ictimai fəallığının formalaşması" (R. Əliyev, Kiyev, 1985), "I-X beşillikdə fəhlə-gənclərin obrazlarının dəyişilməsinin sosial-psixoloji təhlili" (B.Haqverdiyev, Moskva, 1982), "Pedaqoji institut tələbələrində müəllimlik peşəsi üçün zəruri olan mənəvi sərvət və ideallarin formalaşması" (M. Vəliyev, Tbilisi, 1984), "Mənəvi sərvətlər şəxsiyyətlər-arası münasibətlərin idarəedici faktoru kimi" (L.Süleymanova, Moskva, 1982), "Tələbələrin qiymət və özünüqiymətləndirməsində cinsi fərqin psixoloji analizi" (S. Şabanov, Kiyev, 1987), "Böyük məktəbəqədər yaşlı uşaqlarda özünüqiymətləndirmənin yaranması məktəb təliminə hazırlığın əsas faktoru kimi" (G. Tağıyeva, Moskva, 1988) adlı namizədlik dissertasiyalarında şəxsiyyət psixologiyası məsələləri daha ətraflı təhlil edilmiş, şəxsiyyətin hərtərəfli inkişafının mühüm amilləri göstərilmişdir. Yuxarıda adlarını çəkdiyimiz tədqiqatlar alimlərimizin şəxsiyyət psixologiyasına, onun formalaşmasının şərt və amillərinə aid müəyyən işlər gördüyünü sübut edir. Lakin XX əsrdə ictimai-siyasi hadisələrin çox gərgin və intensiv cərəyan etdiyi bir vaxtda, insan amilinə getdikcə tələbatın artdığı bir şəraitdə Azərbaycan psixoloqlarının da öhdəsinə məsuliyyətli və şərəfli bir iş düşür. Bu gün Azərbaycan gənclərindən daha çox qətiyyət, təşəbbüskarlıq, əqidə, inam, əxlaqi saflıq, mənlik və milli özünüdərk, şəxsiyyət bütövlüyü, etika, yetkinlik tələb olunur. Düzdür, son illərdə Azərbaycan gənclərində milli qeyrət, torpaq uğrunda canından, qanından keçmək kimi mərd xüsusiyyətlər bizi sevindirir. Adamın ürəyi fərəh hissi ilə döyünür. Gənclərimizin könüllü olaraq Qarabağ torpaqlarını düşmən-

lərdən qorumağa getmələri əsl fədakarlıqdır. Lakin açıq etiraf etməliyik ki, gənclərimizin bəzilərində biganəlik, ələbaxımlıq, kobudluq, laqeydlik, məsuliyyətsizlik kimi xüsusiyyətlər də özünü göstərir.

Azərbaycan psixoloqları XX əsrdə, xüsusilə XX əsrin sonu və XXI əsrin ilk onilliyində bu sahəyə diqqəti daha çox artırmışlar.

Təbii ki, bu, ölkəmizin ictimai-sosial, siyasi-iqtisadi həyatında insan amilinə olan marağın artması ilə bağlı olmuşdur. Şəxsiyyət və sosial psixologiyaya aid bir neçə doktorluq dissertasiyasının ("Yaradıcılığın sosial psixologiyası" (S. Seyidov, Bakı, 1995), "Şəxsiyyətin formalaşmasının etnopsixoloji problemləri" (R. Əliyev, Bakı, 2004), "Şəxsiyyətin yaradıcı potensialının formalaşmasının psixoloji problemləri" (K.R.Əliyeva) "Yaradıcılıq şəxsiyyətin inkişaf faktoru kimi" (K.R.Əliyeva, 2008), "Psixologiyada və bədii ədəbiyyatda şəxsiyyətin tipologiyası problemi" (G.Məmmədova, dok.dis. 2003), "Məktəblilərdə milli şüurun və milli ləyaqətin tərbiyəsi üzrə işin sistemi" (N.Muxtarova. dok.dis.1996) və otuza yaxın namizədlik dissertasiyalarının "Siyasi proseslərdə milli psixologiya amili" (E. Piriyev, Bakı, 2006), "Psixologiyada və bədii ədəbiyyatda" (G.Məmmədov, Bakı, 2006), "Destriktuv davranışın sosial-psixoloji aspektləri" (E.Əhmədov, Bakı, 2005), "S.Ə. Şirvaninin ədəbi irsində etnik-psixoloji xüsusiyyətlərin əks etdirilməsi problemi" (K. Kazımov, Bakı, 2004), "Müasir şəraitdə tənhalığın sosial-psixoloji problemləri" (L. Cabbarov, Bakı, 2002), "Eksperimental aviasiya şəraitində insan amili" (S. Məmmədov, Bakı, 2005), "Molla Nəsrəddin jurnalında xalqa və müəyyən sosial qruplara xas olan səciyyəvi etnik-psixoloji

xüsusiyyətlərin inikası" (M. Sadıqova, Bakı, 2002) yazılması dediklərimizi bir daha təsdiq edir. "Yaradıcılığın sosial psixologiyası" adlı doktorluq dissertasiyasında şəxsiyyət problemlərini çox aydın və elmi şəkildə təhlil edilir.

Soykökümüzdə özünə möhkəm yer tutan yuxarıda adlarını çəkdiyimiz müstəqil əxlaqi keyfiyyətlərin hansı milli zəmin üzərində gənclərimizdə aşılanması, bəzi nöqsanların aradan qaldırılması yollarının psixoloji baxımdan göstərilməsinə bu gün zəruri ehtiyac hiss olunur. Ümidvarıq ki, Azərbaycan psixoloqları bu sahəyə daha çox fikir verəcək, şəxsiyyətin sosializasiya məsələlərinə, onun tələbatlarının tərbiyəsinə, əqidə və həyat mövqeyinə, özünüqiymətləndirmələrinə və s. problemlərə aid kompleks tədqiqatları daha da genişləndirəcəklər.

Əsərdə şəxsiyyətin yaradıcı fəallığı hərtərəfli təhlil olunmuş, yaradıcılığın məqsəd və vəzifələri dəqiqləşdirilmişdir. Yaradıcılıq olduqca mürəkkəb və ziddiyyətli bir prosesdir. Yaradıcılıq prosesi zamanı qarşıya bir sıra çətinliklər çıxır. Müəllif ilk dəfə olaraq həmin çətinliklərin mənşəyini, mahiyyətini, tərkib hissələrini açıb göstərmiş, indiyə qədər bu problemlə bağlı psixoloji ədəbiyyatda məlum olmayan 10 paradoksu müəyyən etmiş, yaradıcılıq prosesinə onun təsirini göstərmişdir. Dissertasiyada yaradıcılıq fəallığı probleminin müasir vəziyyəti, bu prosesin tədqiqi üsulları xüsusilə, müəllifin özünün işləyib hazırladığı paradokslu məsələlər üsulu haqqında geniş məlumat verilir. Dissertasiyanın məziyyətlərindən biri də odur ki, müəllif yaradıcılıq fəallığına insanın insanın şəxsiyyəti, sərvət meyli və yönümləri baxımından yanaşır,

şəxsiyyətin yaradıcılıq fəallığının koqnitiv xarakteristikalarını, qabiliyyətlərini müəyyən edir.

Yaradıcılıq prosesində motivlərin böyük əhəmiyyəti vardır. Müəllif düzgün olaraq yaradıcılıq fəallığının daxili və xarici motivlərini də ətraflı şərh edir. Azərbaycan psixoloji fikir tarixində ilk dəfə olaraq məhz bu əsərdə şəxsiyyətin yaradıcılıq fəallığının psixologiyası ətraflı şərh olunur və bununla da o sahədə yeni bir psixoloji məktəbin yaranmasına səbəb olur.

Azərbaycanda şəxsiyyət psixologiyası sahəsində aparılan eksperimental tədqiqatlardan danışarkən Respublika Təhsil Problemləri İnstitutunun psixologiya və yaş fiziologiyası şöbəsinin müdiri prof. R. Əliyevin əməyini xüsusi ilə qeyd etməliyik. Onun "Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları" (2000), "Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması" (1995) əsərləri, onlarla məqalələri, "Şəxsiyyətin formalaşmasının etnopsixoloji məsələləri" (2003) adlı doktorluq dissertasiyası bunu deməyə bizə haqq verir. Kitabın etnopsixologiyanın inkişaf məsələləri bölməsində bu barədə daha ətraflı məlumat verilmişdir.

Şəxsiyyətin formalaşmasının bir çox psixoloji xüsusiyyətləri, şərt və amilləri mövcuddur. Bu baxımdan qadın psixoloqlarımızın bu sahəyə həsr etdikləri tədqiqat işləri hər zaman çox aktual xarakter daşımışdır və daşımaqdadır. Bu problemə həsr olunmuş "Dini şüur səviyyəsində özünüdərketmənin xüsusiyyətləri" (U.Şiriyeva nam.dis.), "Sosial – psixoloji tiplər 69" (S.Məcidova nam.dis), "Şəxsiyyətin yaradıcı potensialının təşəkkülünün psixoloji problemləri"(K.Əliyeva, dok.dis. 2008), «Psixologiya və bədii ədəbiyyatda şəxsiyyətin tipolo-

giyası problemi» (G.Məmmədova,dok.dis.2006) və s. tədqiqat işləri diqqətə layiqdir.R.Qədirova respublikamızda ilk dəfə olaraq Azərbaycanlı uşaqlarda

identikliyin inkişaf xüsusiyyətlərini öyrənmiş və problemin etnopsixoloji baxımdan şərhinə nail olmuşdur.

Müəllif göstərmişdir ki, milli identiklik probleminin öyrənilməsi uşaq və gənclərdə vətənpərvərlik hisslərinin inkişaf etdirilməsində, onların öz milli mənini dərk etməsində, özünü bir vətəndaş kimi təsdiqində müstəsna əhəmiyyətə malikdir. Öz milli mənliyini dərk etməyən gənc, öz vətəninin və xalqının laqyiqli övladı ola bilməz. Milli identikliyin formalaşdırılması  və bu prosesin sosial – psixoloji qanunauyğunluqlarının hərtərəfli tədqiqi zərurəti həm də, respublikamızın 20% ərazisinin erməni işğalçılar tərəfindən zəbt edilməsi və bi milyondan artıq qaçaın və məcburi köçkünün olmasından irəli gəlmişdir.

R.Qədirova dissertasiya işində irəli sürdüyü fikirlər, elmi ideyalar, təklif və tövsiyyələrlə bu istiqamətdə aparılmış tədqiqatları daha da zənginləşdirmiş, eyni zamanda tədqiqatın nəticələrindən müasir Azərbaycan psixologiyasında yeni və aktual elmi istiqamətin konseptual əsası qoyulmuşdur.

Müəllif belə nəticəyə gəlir ki, təhsil və tərbiyə dili, valideynlərin təhsil səviyyəsi və onların sosial statusu, məktəbdə təhsilin xüsusiyyətləri və ilk növbədə tarix dərslikləri və tarixin tədrisi eləcə də kütləvi informasiya vasitələri, qeyri – formal birliklər və kollektivlər tərəfindən təbliğ edilən narmativlər azərbaycanlı uşaq və yeniyetmələrin milli, etnolinqvistik və dini identikliyinin baza komponentlərinin təşəkkülündə həlledici rol oynayır.

Uşaq böyüdükcə milli identikliyin subyektiv ifadəsi güclənir. Aşkar edilmişdir ki, Azərbaycan dilində təhsil alan məktəblilər üçün, ilk növbədə 9 yaşlı şagirdlər üçün etnik – milli identikliyin subyektiv əhəmiyyəti bir qədər artıqdır. Bütün yaş qruplarına aid uşaqlar öz milli qruplarına üstünlük verməyə meyllidir.

Aparılmış tədqiqat göstərmişdir ki, uşaqların milli identifikasiyasının dərəcəsi onların başqa qrupa münasibəti ilə əlaqəli deyildir, yəni uşaqların milli autqruplara münasibəti onların milli identifikasiya dərəcəsindən asılı deyildir. Lakin uşaqların milli identifikasiyasının dərəcəsi, çox vaxt onların öz milli inqrupunu nə dərəcədə sevməsi ilə bağlıdır; milli identifikasiyanın dərəcəsi uşaqların öz milli qrupuna aid etdiyi pozitiv xüsusiyyətlərdən də asılıdır. Bu nəticələr onu göstərir ki, uşaqlar çox vaxt hesab edirlər ki, onların öz milli qruplarını başqa ölkələrdə yaşayan insanlar çox müsbət insanlar kimi qiymətləndirirlər.

Svetlana Məcid qızı Məcidovanın tədqiq etdiyi "Sosoal – psixoloji tiplər" adlı dissertasiya işi aktual mövzunu əhatə edir. Demək olar ki, tipologiyaların müxtəlifliyi ətraf mühitin təlabatları: insanın mənəvi təkamülünün müəyyənləşdirilməsinin vacibliyi, sosial şəraitə adaptivliyi, professional yararlığı, mədəni mühitin şəxsiyyətə təsirinin xüsusiyyətləri, anomaliyaların və inkişafda əyintilərin müəyyənləşdirilməsi və s. ilə bağlıdır. Hər bir tipologiya şəxsiyyətin strukturlaşmasının, onun sosium və maddi aləm ilə qarşılıqlı təsirinin yeni qanunauyğunluqlarının tapılmasıdır və nəticədə özünü daha yaxşı tanımaq deməkdir. Hər bir tipologiya mühit tərəfindən praktiki vəzifələrin həlli üçün istifadə edilir: insanın sağlamlığı,

peşə seçimi, tərbiyə, təlim, kiçik və böyük qrupların sosial davranışının proqnozlaşdırılması, şəxsiyyətin uyğunluğu ilə bağlı məsələlərin həlli, sosial – siyasi və iqtisadi problemlərin dərki və s. ilə bağlıdır. S.Məcidova müxtəlif metodoloji yanaşma üsullarının fərqli mənşəli olduğunu anlamaq və düzgün qiymətləndirmək, eləcə də bilavasitə müxtəlif tipologiyalar ilə əlaqədar bir sıra nəzəri və praktiki məsələləri təqdim etmək və həll etmək imkanı verir.

Bütün dövrlərdə şəxsiyyətin hərtərəfli inkişafına ciddi ehtiyac olmuşdur. Bu mühüm vəzifənin yerinə yetirilməsi şəxsiyyətin potensial imkanlarının, şəxsiyyətin inkişaf nüvəsini təşkil edən keyfiyyətlərin, xüsusilə müstəqilliyin, tənqidiliyin, əqli çevikliyin, özünüdərk və özünüqiymətləndirmənin, məqsədyönlülüyün, təşəbbüskarlığın və s. inkişafını şərtləndirir. Həmin keyfiyyətlərə xas yaradıcılıq fəaliyyəti şəxsiyyəti inkişaf etdirir. Bütün bunlar tədqiqat işinin aktual olmasını sübuta yetirir.

Dissertasiyada ilk dəfə olaraq psixoloji – eksperimental yolla yaradıcılıq fəaliyyəti şəxsiyyətin inkişaf amili kimi öyrənilmişdir. Tələbə şəxsiyyətini inkişaf etdirən yaradıcılıq imkanlarının spesifik xüsusiyyətləri aşkar edilmişdir. Tədqiqatda müəyyən edilmişdir ki, yaradıcılıq şəxsiyyətin motivləşmə sferası və emosional münasibətlər sistemi ilə xüsusilə şəxsiyyətin mənəvi keyfiyyətləri ilə əlaqədar təzahür edərək şəxsiyyəti inkişaf etdirir, hərtərəfli formalaşdırır.

Azərbaycanda bu sahədə ən çox uğur qazanan AZMEA-nını müxbir üzvü, millət vəkili, professor B.H.Əliyev olmuşdur.

AMEA-nın müxbir üzvü, prof.B.H.Əliyev keçmiş SSRİ-də məhkəmə-psixoloji ekspertizasının ümumi nəzəriyyəsini işləyib hazırlayan ilk tədqiqatçı alimdir. O, həmin nəzəriyyəyə söykənərək ilk dəfə olaraq fizioloji affektin müəyyən edilməsinin yeni metodikasını və psixoloji meyarlarını, həmçinin məhkəmə-psixoloji ekspertizasının növlərinin təsnifatı sistemini müəyyənləşdirmişdir. Əldə edilmiş nəticələr hüquq praktikasında istifadə edilərək cəzanın fərdiləşdirilməsində və obyektiv araşdırılmasında istifadə edilir. Zəruri əhəmiyyyət daşıyan "fizioloji affektin" məhkəmə ekspertizasının təşkili və keçirilməsi prinsiplərini, ekspert-psixoloqun rəyinin sübutun bir növü qiymətləndirilməsinin elmi-hüquqi əsaslarını müəyyənləşdirmişdir. Bu məsələyə dair elmi məqalələrlə beynəlxalq və respublika elmi konfranslarında çıxışlar etmişdir.

AMEA-nın müxbir üzvü, prof.B.H.Əliyev həmin tədqiqatlarına əsaslanaraq Azərbaycanda ilk dəfə olaraq 1990-cı ildə məhkəmə-psixoloji ekspertizası elmi-tədqiqat laboratoriyasını yaradılmışdır. Həmin laboratoriya öz fəaliyyətində o zamanlar Cənubi Qafqaz və Orta Asiya respublikalarını əhatə edirdi.

Azərbaycanda ilk dəfə olaraq Bakı Dövlət Universitetində «Eksperimental psixologiya» elmi-tədqiqat laboratoriyasını yaradaraq idrak prosesləri, şəxsiyyət psixologiyası sahəsində elmi araşdırmalara rəhbərlik edir. Şəxsiyyətin yaradıcılıq imkan və potensialının aktuallaşması və şəxsiyyətin özünügerçəkləşdirməsinin metodoloji və psixoloji əsasları tədqiq edilir. İlk dəfə olaraq respublikada eksperimental psixologiyanın əsasları işlənmişdir. AMEA-nın müxbir üzvü, prof.B.H.Əliyev «Şəxsiyyətə yeni baxış»

nəzəriyyəsini işləyib hazırlamış və bu nəzəriyyə əsasında fundamental tədqiqatların aparılmasına elmi rəhbərlik edir. Onun siyası liderin psixologiyası, siyası liderin tipologiyası, ümummilli liderin psixoloji portreti kimi tədqiqatları bu sahədəki nəzəriyyələrdə mövcud olan boşluqları doldurmuş, cəmiyyətdə gedən ictimai-siyasi proseslərə tarixi şəxsiyyətin nüfuzunun göstərdiyi təsir araşdırılmışdır.

AMEA-nın müxbir üzvü, prof.B.H.Əliyevin elmi yaradıcılığı çoxşaxəlidir. Onun tədqiqatlarında ekologiyanın və sosial ekologiyanın fəlsəfi-psixoloji məsələləri, təhsil və tərbiyənin psixoloji əsasları, insanın ekstremal şəratdə davranışının tənzimlənməsi, Dekartın, Aristotelin və Bəhmənyarın fikirlərinin idrak nəzəriyyəsinin inkişafında rolu, cinayət və mülki hüququn, həmçinin kriminologiyanın əsas məsələlərinin, xüsusi biliklərin hüquq praktikasında tətbiqinin metotoloji əsasları, milli dövlətçilik və demokratik inkişafın sosial, fəlsəfi və psixoloji aspektləri, kütlə psixologiyası, siyasi və ümummilli liderin psixoloji portreti, sosial və psixoloji tədqiqatların metodologiyası öz əksini tapmışdır. Bu yeni istiqamətlər üzrə onun tədqiqatlarına istinad olunaraq müxtəlif mövzularda 11 namizədlik, 3 doktorluq dissertasiyası müdafiə olunmuşdur. Respublikamızda ilk dəfə olaraq 1999-cu ildə «Psixologiya jurnalı»nı təsis etmiş və elə həmin dövrdən hal-hazıra kimi onun baş elmi redaktorudur. Jurnal qısa müddətdə respublikada və xarici ölkələrdə diqqəti cəlb etmiş, elmin inkişafında böyük rol oynamışdır.

2005-ci ildə onun təşəbbüsü və rəhbərliyi altında ilk dəfə olaraq psixologiya elminin rəsmi internet saytı yaradılmışdır (www.psixologiya.az). Azərbaycan psixol-

ogiya elminin təbliğində, dünya psixologiya elminə inteqrasiyasında jurnalın və rəsmi saytın əhəmiyyətli rolu vardır.

Ərazilərimizin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş bir milyondan artıq insanın psixoloji reabilitasiyası ilə bağlı İngiltərənin Haşford universitetinin əməkdaşları ilə birlikdə B.Əliyevin təşəbbüsü və rəhbərliyi altında xüsusi proqram hazırlanılıb həyata keçirilmişdir. AMEA-nın müxbir üzvü, prof.B.H.Əliyev elmi-pedaqoji kadrların hazırlanmasında daima bilavasitə iştirak edir. Belə ki, 1993-cü ildən 1999-cu ilə kimi psixologiya elmləri üzrə AAK-ın dissertasiya şurasının elmi katibidir. Həmçinin BDU-da psixologiya elmləri üzrə magistr dissertasiyalarının müdafiəsi üzrə ixtisaslaşdırılmış Elmi Şuranın sədridir.

Elmi fəaliyyətinə görə 1999-cu ildə Beynəlxalq Kadrlar Akademiyasının həqiqi üzvü seçilmişdir. 1997-ci ildən BDU-nun «Psixologiya» kafedrasının müdiridir. Eyni zamanda «Eksperimental psixologiya» ETL-in elmi rəhbəridir. B.H.Əliyev elmi-pedaqoji fəaliyyətlə yanaşı, ictimai-siyasi fəaliyyətlə də məşğuldur. Azərbaycan Respublikası Milli Məclisinin II Çağırışının (2000-2005-ci illər) və III çağırışının deputatı seçilmişdir. 2001-2005-ci illərdə Avropa Şurası Parlament Assembleyasının üzvü kimi «Elm və təhsil məsələləri komitəsinin», «Monitorinq komitəsinin» üzvü və «Geniş miqyaslı miqrantlar və köçkünlər işi üzrə» alt komitənin sədri olmuşdur. Hal-hazırda Azərbaycan Respublikası Milli Məclisinin «Elm və təhsil məsələləri daimi komissiyasının» sədr müavinidir.

Azərbaycan Respublikası Prezidenti yanında «Əfv məsələləri üzrə komissiya»nın və Dövlət Qulluğunu İdarəetmə Şurası yanında «Korrupsiyaya qarşı mübarizə üzrə komissiya»nın üzvüdür.

Onun bir sıra fundamental monoqrafiyaları elmi – kütləvi əsərləri, məqalələri, doktorluq dissertasiyası dediklərimizə əyani sübutdur. Onun rəhbərliyi ilə son illər Azərbaycanda cinayətin baş verməsinin sosial – psixoloji səbəbləri və onların islah olunması yollarına aid diqqəti cəlb edən namizədlik dissertasiyaları hazırlanmış və müdafiə olunmuşdur. Prof. B.H.Əliyevin rəhbərliyi ilə kompleks tədqiqatlar davam etdirilir. Bu onu göstərir ki, B.H.Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquq psixologiyası üzrə məktəb formalaşıb. Onun bilabasitə rəhbərliyi ilə Azərbaycanda bir neçə elmi kütləvi əsərlər, məqalələr, namizədlik dissertasiyaları yazılmışdır.

## Mövzu-10
## Yaş psixologiyası üzrə aparılan tədqiqatlar.

XX əsr və XXI əsrin ilk onilliyində Azərbaycanda təhsil və tərbiyənin psixoloji problemlərinə dair aparılan tədqiqatlar və onların gələcək inkişaf perspektivləri

a)Məktəbəqədər təhsilin psixoloji problemləri Azərbaycan psixoloqlarının tədqiqat obyekti kimi

Azərbaycanda məktəbəqədər təhsilin psixoloji problemlərinin öyrənilməsinə maraq əsasən XIX əsrin sonu, XX əsrin əvvəllərindən yaranmışdır.

Azərbaycanda bağçalar necə olmalıdır? Bu bağçalar dünya səviyyəsi ilə müqayisədə hansı durumdadır? Bu sahədə qarşıda nə kimi vəzifələr durur? Məktəbəqədər təhsilə psixoloji yanaşmanın formaları necə olmalıdır? Valideynlərlə tərbiyəçilərin qarşılıqlı ünsiyyəti nə səviyyədədir? Məktəbəqədər yaşlı uşaqların psixi və fıziki qüsurları bizi nə dərəcədə maraqlandırır? Bu və ya digər suallar respublikanın pedaqoq və psixoloqlarını düşündürmüş və əməli iş görməyə vadar etmişdir.

XX əsrin əvvələrindən başlayaraq Azərbaycan psixoloji fikir tarixində məktəbə qədər yaşlı uşaqlarda şəxsiyyətinin öyrənilməsinə xüsusi fikir verilir. XX əsrdə Azərbaycnda məktəbə qədər təhsilin psixoloji problemlərinin öyrənilməsinə xüsusi fikir verilir.

Bu sahədə ilk tədqiqat əsəri 1931- ci ildə A.O.Makovelski tərəfindən yazılmışdır. Onun bu əsəri «Uşaq inkişafının ana rəhmli dövrü» adlanır. Bu kitabda istər ana bətnində və istərsə də çağalıq dövründə uşaqların anatomik-fizioloji xüsusiyyətləri təhlil olunur və ən çox çağalıq

dövründə psixi proseslərin inkişaf xüsusiyyətləri üzərində dayanılır.

İlk vaxtlarda Azərbaycanda məktəbəqədər təhsilin psixoloji problemlərinin öyrənilməsində professor Ə.K.Zəkuyevin də müəyyən xidmətləri olmuşdur.O, bir tərəfdən yaş və pedaqoji psixologiya üzrə aparılan tədqiqatlara rəhbərlik etmiş, digər tərəfədən özü də həmin sahəyə aid tədqiqatlar aparmışdır. 1930-40 cı illərdən başlayaraq respublikamızın pedaqoji təmayüllü mətbuatında onun müəllim və tərbiyəçilərə kömək məqsədi ilə bir neçə silsilə məqalələri nəşr olunub. «Uşağın diqqəti haqqında»(keçmiş APİ.E.ə. 1935,№.1), «Dərsə şagirdlərin diqqətini təşkil etmək haqqında «(«Müəllimə kömək» 1940,№9), «Şagirdlərin diqqətsizliyinin səbəbləri» («Azərbaycan məktəbi»,1945,№5) adlı məqalələrini buna misal göstərmək olar.

«Uşaq hafizəsinin möhkəmliyi üçün əyaniliyin əhəmiyyəti» («müəllimə kömək», 1943,№2), «Uşaq hafizəsinin bəzi xüsusiyyətləri» («Azərbaycan məktəbi», 1944, №2,3) adlı məqalələrdə isə tədris materiallarının öyrənilməsi və yadda saxlanılmasının psixoloji yolları açıqlanır.

Uşağın bir şəxsiyyət kimi formalaşmasında təfəkkür prosesi müstəsna əhəmiyyət kəsb edir. Çünki şagirdlər müxtəlif fənnlərə aid məfhumları düzgün anlamasa, onları ümumiləşdirib müəyyən bir məntiqi nəticəyə gələ bilməz, o, təlimdə müvəffəqiyyət qazana bilməz. Ə.K.Zəkuyev «Məntiqi təfəkkürün tətbiqi və tərbiyəsi haqqında» («Azərbaycan məktəbi»,1945,№1), «Məktəbəqədər və məktəb yaşlı uşaqlarda təfəkkürün inkişafı» (keçmiş APİ, E.ə.,1946,№1) adlı məqalələrdə məhz bu problemlərə

toxunur, təfəkkürün inkişafı xüsusiyyətlərinə diqqəti yönəldilir.

Bəzi araşdırmalar göstərir ki, 1940-cı ilə qədər bu kitabdan başqa bağça yaşlı uşaqların psixi inkişafına dair əsər yazılmamışdır. 1940- cı ildən başlayaraq Azərbaycanda məktəbəqədər yaşlı uşaqların təlim və tərbiyəsinə, onların fiziki və mənəvi inkişafına diqqət bir qədər artırılmışdır. Həmin dövrdən Azərbaycan dövlət elmi tədqiqat institutu məktəbəqədər yaşlı uşaqların pedaqoji, psixoloji baxımdan tərbiyəsinə aid 30 pedaqoji və psixoloji kitabça nəşr etdirməyi qərara almışlar və bunların bəziləri həmin dövrdə nəşr olunmuşdur. Bu kitabçalardan «İradə və xarakterik tərbiyə», «Şüursuz və mədəni davranış qaydaları», «Uşaqlarda kollektivçilik və dostluq tərbiyəsi», «Pedaqoji təsir tədbirləri», «Tənbəlliklə mübarizə və uşaqlarda zəhmətə sevgi tərbiyəsi», «Uşaqları nə üçün döymək olmaz», «Körpə uşaqların tərbiyəsi», «Uşaqlarda diqqəti, müşahidəçiliyi, yaddaşı, yaradıcılığı və təfəkkürü necə inkişaf etdirməli», «Uşaq şıltaqlığı ilə mübarizə» və s. göstərmək olar. Bu kitabçalarda institutu məktəbəqədər yaşlı uşaqlarda psixoloji xüsusiyyətlərin nəzərə alınmasının vacibliyindən danışılır və yeri gəldikcə konkret psixi proseslərin inkişaf etdirilməsi yolları göstərilir. Bu sahədə ilk eksperimentlər 40-50 –ci illərdən başlayaraq aparılmağa başlanmışdır. İlk azərbaycanlı qadın psixoloq M.Mustafayeva, 1949- cu ildə bu sahəyə aid «Böyük bağça yaşlı azərbaycanlı uşaqlarda söz ehtiyatının inkişafı» adlı namizədlik dissertasiyasını yazmışdır. Dissertasiyada böyük bağça yaşlı uşaqların nitqinin inkişaf xüsusiyyətləri, bu uşaqların lüğət ehtiyatının zənginləşdirilməsinin psixoloji yolları və digər məsələlər ətraflı şərh olun-

muşdur. 1960-1970-ci illərdə Azərbaycanda uşaq şəxsiyyətinin inkişafında mühüm əhəmiyyət kəsb edən bir neçə dərslik və dərs vəsaitləri nəşr olunurdu. «Yaş və pedaqoji psixologiya məsələləri», (II hissə E.M.Quliyev, Q.E.Əzimov, Ə.Ə. Əlizadə 1978) (III hissə Ə.S.Bayramov, Ə.Abdullayev, A.Məmmədov, 1988). Onların psixi inkişafın ümumi qanunauyğunluqlarını özündə əks etdirən əsərlər, «Uşaq psixologiyası məsələlərinə dair», «Atalıq borcu», «İlk addımlar», «Uşaq psixologiyası « (Z.Mehdizadə, I hissə , Bakı, 1982), II hissə (Bakı , 1984), III hissə (Bakı, 1987), «Körpə uşaqların həyatı dərk etmələri haqqında» (A.K.Abdullayev), «Uşaq şıltaqlığı və oun qarşısını almaq yolları»(Ş.S.Ağayev), «Uşaqların psixi inkişafının bəzi xüsusiyyətləri haqqında » (M.C.Məhərrəmov) və b. əsərlər bu məqsədlə yazılmışdır. Bu əsərlərdə əsasən uşaq psixologiyasının ümumi nəzəri məsələləri həmin problemi öyrənməyin mahiyyəti, yol və vasitələri prinsipləri aydınlaşdırılmışdır. «Uşaq psixologiyası məsələlərinə dair» adlı kitabçada uşaq psixologiyasının mövzusu, vəzifələri, üsulları izah edilir, uşaqların duyğu və qavrayışın, diqqətin inkişaf xüsusiyyətləri, tərbiyə edilməsi yolları göstərilir. Müəllif qeyd edir ki, uşağın psixi inkişafında bir-birindən fərqlənən, lakin bir-birini tamamlayan keyfiyyətcə fərqli cəhətlərə təsadüf olunur. Bu cür cəhətlərin nəzərə alınması tərbiyə işi üçün böyük əhəmiyyətə malikdir. Üç hissədən ibarət olan «Uşaq psixologiyası» adlı kitablarda isə uşaq psixologiyası fənninin mövzusu, metodları, psixi inkişafın qanunauyğunluqları, müxtəlif yaş dövrlərində psixikanın inkişaf dinamikası və s. problemlər geniş şərh olunur. Dərsliklərdən bu gün də tələbələrimiz geniş istifadə edirlər.

XX əsrdə Azərbaycanda məktəbəqədər təhsilin psixoloji məsələlərindən danışarkən prof. Ə.Ə.Əlizadənin «İlk addımlar» adlı əsəri xüsusilə qeyd edilməlidir. Kitabda uşaqların əqli keyfiyyətlərinin inkişafına aid materiallar vardır. Oyuncaqlar, məktəb, yemək şeyləri, dirrik və bostan, ilin fəsilləri, bağ, ev heyvanları, vəhşi heyvanlar, ev çöl quşları, şəhər nəqliyyatı, meşə, kənd həyatı barədə materiallar bu cəhətdən diqqəti cəlb edir. Kitabda əsas yeri şəkillər tutur. Çünki, şəkil hər hansı bir fikri, ideyanı daha anlaşılan şəkildə uşaqlara çatdırır. Onları bir növ özünə cəlb edir, sanki onları danışdırır, bu baxımdan kitabda verilmiş şəkillər uşaqların zehni inkişafı üçün, əsas vasitələrdən biri kimi götürülə bilər. Kitabda şerlərdən, nağıllardan, atalar sözlərindən, tapmacalardan geniş istifadə olunmuşdur. Professor Ə.Ə.Əlizadə və digər psixoloqlarımız məktəbəqədər yaşlı uşaqların təhsilinin psixoloji problemlərini daim diqqət mərkəzində saxlamış və xeyli dəyərli əsərlər yazmışlar. Ş,S.Ağayevin «Əmək , tərbiyə və inkişaf», M.Ə.Həmzəyevin «Ailədə uşaqların nitqinin inkişaf etdirilməsi»(Bakı,1965), Ə.Əlizadənin «Uşaqlarda diqqətin tərbiyə edilməsi» «Uşaqlarda kollek-tivçilik hissinin tərbiyə edilməsi», Ə.S.Bayramovun «Uşaqlarda məsuliyyət hissinin tərbiyəsi»(Bakı,1962), «Uşaqlarda əxlaqi hisslərin tərbiyəsi», Ə.Abdullayevin «Uşaqlarda hisslərin və temperamentin inkişafı» (Bakı,1966) Ə.K.Zəkuyevin «Uşağın diqqəti haqqında» (N.Tusi ADPU-nun elmi əsərləri, 1935, №1), «Uşaq hafi-zəsi inkişafının bəzi xüsusiyyətləri»(«Azərbaycan mək-təbi» jurnalı, 1944, №2-3) Z.M.Mehdizadənin «Uşaqlarda təfəkkür və nitqin inkişafı» (Bakı,1966), M.M.Şükü-rovanın «Valideynlər uşaqlarda hafizəni inkişaf etdir-

məlidirlər» (Bakı, 1964), Ə.Ə Qədirovun «Uşaqlarda idrak proseslərinin inkişafı» Ə.Bayramovun «Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri» və başqalarının əsər və məqalələrini buna misal göstərə bilərik. Göründüyü kimi, Azərbaycan psixoloqlarının yaradıcılığında məktəbəqədər yaşlı uşaqların psixi inkişafının qanunauyğunluqlarının öyrənilməsinə, onlarda vətəndaşlıq, borc, məsuliyyət və kollektivçilik hisslərinin inkişaf və tərbiyəsinə ciddi fikir verilmişdir. Bu problemin işlənilməsində Azərbaycan psixoloqlarından Ə.Bayramovun, Ə.Ə.Əlizadənin, Z.M.Mehdizadənin, Q.Əzimovun, M.N. Şükürovanın, M.Həmzəyevin və başqalarının xidməti olmuşdur.

XX əsrin 80 – ci illərindən başlayaraq bu sahədə xeyli canlanma yaranmışdır. "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri», «Yaş Pedaqoji psixologiya problemləri (M.Həmzəyev,B,2000) adlı iri həcmli əsərləri, «Tərbiyənin ünsiyyət üslubunun məktəbəqədər yaşlı uşaqların qarşılıqlı münasibətinə təsiri» və başqalarını göstərmək olar».

Göründüyü kimi son illərdə Azərbaycanda bu sahəyə ciddi fikir verilir. "Uşaq məktəbə gedir», «Məktəbəqədər yaşlı uşaqlarda nitqin inkişafı», «Məktəbəqədər yaşlı uşaqlarda milli hisslərin formalaşdırılması», «Uşağın məktəb təliminə hazırlığının psixoloji xüsusiyyətləri», «Məktəbəqədər yaşlı uşaqlarda mənəvi keyfiyətlərin formalaşmasının psixoloji xüsusiyyətləri», «F.M.Dostoyevskinin yaradıcılığında uşaq fobiyasının psixoloji təhlili» (A.Vəliyev, nam. dis., 2006), «Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşmasında valideyn- uşaq münasibətlərinin rolu» və başqa elmi-kütləvi əsərləri buna misal göstərmək olar.

«Məktəbəqədər yaşlı uşaqlarda həssaslığın təzahür xüsusiyyətləri», «Məktəbəqədər yaşlı uşaqlarda intelektual hisslərin inkişaf etdirilməsinin forma və metodları», «Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri», «Məktəbə hazırlığın psixodiaqnostikası», «Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi» (M.F.Axundov, 1998), «Uşağın məktəbə hazırlanması» (A.Kazımov, 1977), «Məktəbəqədər yaşlı uşaqlarda milli hisslərin formalaşdırılması», «Məktəbəqədər yaşlı uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşmasına şifahi xalq yaradıcılığı nümunələrinin təsiri»(X.Səlimxanova, nam. dis., B., 1989), «Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası» (Y.Kərimov, 1997) adlı əsərlərdə isə məktəbəqədər yaşlı uşaqların təlim- tərbiyəsinin psixoloji problemləri, uşaqların məktəbə psixoloji hazırlığı, psixi inkişafın diaqnostikası, bir yaşdan altı yaşa qədər uşaqların psixoloji səciyyəsi və digər məsələlər şərh olunur. Valideynləri, müəllim və tərbiyəçiləri maraqlandıran bir sıra məsələlər bu əsərlərdə qaldırılır və onların çoxu uğurlu həll olunur ki, bunun da çox böyük əhəmiyyəti vardır.

Fərəhli haldır ki, son dövrlərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Yaş və pedaqoji psixologiya kafedrasında məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşması problemləri» geniş şəkildə öyrənilməyə başlanmışdır. (Z.Səlimova,K.Mehdiyeva, K.Həsənquliyeva. Q.Rəhimova, S.Heydərova və başqaları). S.Heydərovanın "Uşaq şəxsiyyətinin formalaşmasında Azərbaycan xalq nağılları və atalar sözlərinin rolu" adlı namizədlik dissertasiyasını bu sahədə ən uğurlu addım saymaq olar.

Bu qısa məlumatdan aydın oldu ki, XX əsrdə Azərbaycanda məktəbəqədər təhsilin psixoloji problemləri

üzrə xeyli işlər görülmüş, sanballı tədqiqatlar aparılmışdır. Tədqiqat zamanı məlum oldu ki, XX əsrdə Azərbaycanda digər yaş dövrlərinə nisbətən, kiçik məktəb yaşı dövrü psixoloji baxımdan daha çox diqqət mərkəzində olmuşdur. Kiçik məktəb yaşlı şagirdlərin təlim fəaliyyətinin psixoloji problemlərinə aid 15-dən çox doktorluq, 100-dən çox namizədlik, yüzlərlə monoqrafiya, elmi kütləvi əsərlərin, məsələlərin həsr olunması dediklərimizə bariz nümunədir. Bu sahədə Bakı Dövlət Universitetinin Ümumi psixologiya, Sosial və pedaqoji psixologiya kafedralarının (B.H.Əliyev, K.R.Əliyevanın), eksperimental psixologiya elmi tədqiqi laboratoriyasının, (B.H.Əliyev, R.Cabbarov) uzun illərdir ki, fəaliyyət göstərən ixtisasladırılmış dissertasiya şurasının (sədr. B.Əliyev, elmi katib R.Cabbarov) fəaliyyətini xüsusi ilə qeyd etməliyik. XX əsr və XXI əsrin ilk onilliklərində Azərbaycanda məktəbəqədər təhsilin psixoloji problemlərinin öyrənilməsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya, Yaş və pedaqoji psixologiya kafedralarının (Ə.Əlizadə, Ə.Baxşəliyev) da xüsusi payı var. Hal-hazırda da Azərbaycanda bu sahədə müxtəlif istiqamətli işlər görülür. Azərbaycan Dövlət Pedaqoji Universitetinin yaş və pedaqoji psixologiya kafedrasının əməkdaşları «Uşaq psixologiyası» fənni üzrə dərslik hazırlayıb nəşrə təqdim etmişlər. Bir sözlə, XX əsrdə Azərbaycanda uşaq psixologiyası üzrə tədqiqatlar demək olar ki, kifayət qədər çoxdur. Lakin hələ də bir sıra tədqiq olunmalı məsələlər qalmaqdadır.

Müxtəlif yaş dövrlərində psixi inkişafın qanunauyğunluqlarını, təhsilin təşkilinin psixoloji problemlərini, təhsil və müəllim şəxsiyyəti və digər məsələləri öyrənən

pedaqoji psixologiya sahəsində aparılan tədqiqatlar və onların inkişaf istiqamətləri həmişə psixoloqların diqqət mərkəzində olmuşdur. Bu tədqiqatlar içərisində yaş mərhələləri üzrə aparılan işlər, tədqiqlər daha çox diqqəti cəlb edir. Müxtəlif yaş dövrlərində (məktəbəqədər, kiçik məktəbli, yeniyetmə, gənclik və s.) psixi inkişafın əsas qanunauyğunluqları öyrənilmiş və bu istiqamətdə təhsilə psixoloji xidmət sahəsində müəllim və tərbiyəçilərə kömək edilmişdir. Problem həddindən artıq məsuliyyətli və çoxcəhətlidir. Azərbaycanda təlim fəaliyyəti ilə bağlı kiçik məktəb yaşlı şagirdlərin psixoloji xüsusiyyətlərinin öyrənilməsi ilə bağlı tədqiqatların tarixi xülasəsini vermək məqsədə müvafiqdir. Qeyd etməliyik ki, XX əsr və XXI əsrin  ilk onilliyindən başlayaraq Azərbaycan psixoloji fikir tarixində kiçik məktəb yaşlı şagirdlərin təlim - tərbiyəsinin psixoloji problemlərinə aid xeyli tədqiqatlar aparılmışdır.

b)Kiçik məktəb yaşlı şagirdlərin təlim fəaliyyətinin psixoloji problemləri ilə bağlı aparılan tədqiqatlar və onların müasir vəziyyəti

Kiçik məktəb yaşı dövrü I - III sinifləri əhatə edir. Bu yaş dövrü üçün əsas xarakterik əlamət təlim fəaliyyətidir. XX əsr Azərbaycan psixoloji fikir tarixində kiçik məktəb yaşlı şagirdlərin təlim fəaliyyətinin psixoloji problemlərinə aid xeyli tədqiqatlar aparılmış və bununla da həmin yaş dövründə təlimin səmərəlilik yolları barədə müəllimlərə, valideynlərə metodik yardım edilmişdir.

Məlumdur ki, uşaq məktəbə daxil olmaqla onun həyatında bir sıra psixoloji dəyişiliklər baş verir. Yeni kollektiv, tanış olmayan uşaqlarla ünsiyyət qurmaq, müəllimlərlə qarşılıqlı münasibətlər, özünün hərəkət,

rəftar və davranışlarını məktəbin daxili qaydaları əsasında həyata keçirmək və başqa hallar uşaqların həm davranışında, həm də təlim fəaliyyətində psixoloji çətinliklər yaradır. Birinci sinifə gələn uşaqlar təlim vərdişlərinə malik deyillər. Onlarda oxu və yazı vərdişləri demək olar ki, yoxdur. Təcrübəli müəllimlər bunu nəzərə alaraq çox təmkinlə onlarda belə vərdişləri inkişaf etdirməli və bununla da təlimə müəyyən qədər yardım etməlidirlər.

Araşdırmalar göstərdi ki, XX əsr və XXI əsrin ilk onilliyində Azərbaycanda təhsildə psixoloji xidmət probleminə ciddi fikir verilmiş və bu iştiqamətdə dünya səviyyəli əsərlər yazılmış, dərsliklər nəşr edilmiş və dissertasiyalar müdafiə olunmuşdur. XX əsrdə Azərbaycanda psixoloji fikir tarixində kiçik məktəb yaşlı şagirdləri təlim fəaliyyətində idrak proseslərinin və fərdi psixi xassələrin rolu, onun inkişaf qanunauyğunluqları, öyrənmə və onun strukturu və kiçik məktəb yaşlı şagirdlərin təlim prosesində qarşılaşdıqları psixoloji çətinliklər, onların təlim materiallarını mənimsəmə imkanları, əməyə psixoloji hazırlıqları və digər məsələlər öyrənilmiş və müəllimlərə əməli kömək göstərilmişdir. Azərbaycanda kiçikməktəb yaşlı şagirdlərin ünsiyyət və nitqinin spesifik inkişaf xüsusiyyətləri, lüğət ehtiyatı və onun zənginləşdirilməsinin psixoloji qanunauyğunluqları, ana dilini mənimsənlməsində qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları, ikidilliyin (blinqivizmin) psixoloji probemləri və s. məsələlər ətraflı öyrənilmişdir. F.Ə.İbrahimbəyov, M.Hacıyevin, S.H.Hacıyevin, M.R.Abbasovun, M.Ə.Həmzəyevin, R.M.Rəsulovım, Ş.M.Babayevin, M.M.Əbdülovun, N.S.İbrahimxəlilovanın bu

sahədəki xidmətlərini xüsusilə qeyd etməliyik. Azərbaycan psixoloqları bu problemlə hələ 1930-1931-ci illərdən maraqlanmış və bu sahəyə aid bir neçə elmi-metodik məqalələr yazmışlar. İlk eksperimental tədqiqatlar F.Ə.İbrahimbəyov, M.Hacıyev, S.H.Hacıyev, M.R.Abbasov və b. tərəfindən aparılmışdır.

Kiçik məktəb yaşlı şagirdlərdə ana dilini öyrənməyin psixoloji problemləri və lüğət ehtiyatının inkişafına aid ilkeksperimental tədqiqatlar isə Azərbaycanda M.Hacıyev tərəfindən aparılmışdır. Azərbaycan Respublikası EAK-nın həqiqi üzvü, əməkdar elm xadimi, professor A.O.Makovelskinin rəhbərliyi ilə müdafiə etdiyi «Təlim prosesi ilə əlaqədar olaraq I sinif azərbaycanlı şagirdlərdə söz ehtiyatının inkişafı» (Bakı, 1951) adlı dissertasiyasında müəllif birinci sinif azərbaycanlı uşaqlarda lüğət ehtiyatının zənginləşdirilməsi qanunauyğunluqlarını aşkar etmiş və a tövsiyyələr vermişdir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, I, II, III sinif azərbaycanlı siniflərdə lüğət ehtiyatının inkişaf dinamikasını Ş.S.Ağayevin rəhbərliyi ilə təxminən 20-21 ildən sonra M.Ş.Əbdülov öyrənmişdir. O, «Kiçik məktəblilərdə lüğət ehtiyatının və şifahi vərdişlərinin inkişaf dinamikası» (Bakı, 1973) adlı namizədlik dissertasiyasında I-II sinif şagirdlərində minimum fəal lüğət ehtiyatını müəyyən etmiş, həmin söz ehtiyatının şagirdlərin şifahi nitqində sistemini təhlil etmiş, onun kəmiyyət və keyfiyyətinin inkişaf dinamikasını aşkar etmiş, müəllim, tərbiyəçi və valideynlərlə bu sahədə metodiki yardım göstərmişdir.

M.Ş.Əbdülovun həmin tədqiqatı Azərbaycan və ittifaq psixoloqları tərəfindən yüksək qiymətləndirilmişdir. Nitq psixologiyası üzrə dünya şöhrətli rus psixoloqu N.İ.Jinkin dissertasiya işinə rəy yazmış və onun əhəmiyyəti haqqında maraqlı fikir söyləmişdir.

Nitq probleminin Azərbaycanda tədqiqi ən çox M.Ə.Həmzəyevin yaradıcılığı ilə bağlı olmuşdur. M.Ə. Həmzəyev 1950-ci ildən başlayaraq professor Ə.K.Zəkuyevin rəhbərliyi ilə Azərbaycan dilinin mənimsənilməsinin psixoloji qanunauyğunluqlanın öyrənmiş və uğurlu nəticələr əldə etmişdir. Onun bu sahədə əldə etdiyi nəticələr «İbtidai məktəbin II sinif şagirdlərində samitlər üzrə düzgün yazı vərdişlərinin təşəkkül etməsi və inkişafının psixoloji xüsusiyyətləri» (Bakı, 1965) adlı namizədlik, «Azərbaycan dili orfoqrafiyası və durğu işarələrinin mənimsənilməsi psixologiyası» (Bakı, 1968) adlı doktorluqdissertasiyalarında, bir sıra elmi kütləvi əsərlərində, «III-IV sinif şagirdlərinin orfoqrafiyanın mənimsənilməsinə dair» (Bakı, 1961), «Yazı təliminin bəzi məsələləri» (Bakı, 1961), «Durğu işarələrinin mənimsənilməsi psixologiyasına dair» (Bakı, 1963), «Şagirdlərin düzgün yazı vərdişlərinə yiyələnmə xüsusiyyətləri» (Bakı, 1964) adlı monoqrafiyalarında öz əksini tapmışdır.

M.Ə.Həmzəyevin rəhbərliyi ilə kiçik yaşlı məktəblilərdə nitqin inkişaf xüsusiyyətlərinin öyrənilməsi davam etdirilmiş və bir sıra əsərlər yaranmışdır. Belə ki, onun rəhbərliyi ilə Ş.M.Babayev «İbtidai sinif şagirdlərinin sintaktik anlayışları mənimsəmə imkanları» (Bakı, 1969), N.S.İbrahimxəlilova «Kiçik məktəblilərdə ümumiləşdirmə bacarığının inkişafı» (Bakı, 1972)

mövzusunda namizədlik dissertasiyalarını müdafiə etmişlər.

Fikri məqsədin müxtəliflik səviyyəsinə görə fərqlənən şagirdlərdə müxtəlif şəkildə təsir edir.

Aşağı sinifdəki bütün şagirdlər qrammatik materialları eyni dərəcədə müvəffəqiyyətlə ümumiləşdirə bilmirlər. Bəzi şagirdlərin ümumiləşdirmələrində fraqmantarlıq, generalizasiya hadisəsi özünü göstərir, bəziləri isə dəqiq ümumiləşdirirlər. Şagirdlərin biri yalnız konkret materialı ümumləşdirə bildiyi halda, başqası həm konkret, həm də mücərrəd qrammatik materialı asanlıqla ümumiləşdirir.

Hər cür işdə olduğu kimi, ümumiləşdirmə bacarığının yaranmasında da mübahisələrin rolu böyükdür. Bu və ya digər qayda və anlayışı mənimsəyərək müvafiq yazılı və şifahi mümarislərdən istifadə olunması qrammatik ümumiləşdirmə bacarığının yaranmasını asanlaşdırır, onun səmərəli xarakter daşımasına səbəb olur.

1. Tədqiqatların təhlilindən aydın oldu ki, yaş və pedaqoji psixologiya sahəsində aparılan tədqiqatlar içərisində ana dilinin mənimsənilməsinin psixoloji qanunauyğunluqlarının öyrənilməsi xüsusi yer tutur. Bu da təsadüfi deyil. Çünki ana dilini səlis öyrənmədən, bu dilin qrammatik qayda-qanunlarını bilmədən milli şagirdlərdə nitqi, təfəkkürü inkişaf etdirmək çətindir. Göründüyü kimi, bu problemlər üzrə silsilə tədqiqatlar aparılmış, onun müxtəlif cəhətlərini əhatə edən əsərlər, monoqrafiyalar yazılmışdır. Son illərdə Azərbaycan dilinin dövlət dili statusu alması və daha geniş şəkildə tətbiq edilməsi bu sahəyə marağı daha da

artmışdır. Elmin başqa sahələrində olduğu kimi, psixolinqvistikada, psixologiyada Azərbaycan dilinin həm azərbaycanlılar, həm də qeyri-millətdən olan vətəndaşlar tərəfindən öyrənilməsinin psixoloji problemlərinə aid yeni-yeni əsərlərin meydana gəlməsinə böyük ehtiyac var. Bu iş isə hələlik Azərbaycan respublikasının psixologiyasında ləng gedir. Kompleks tədqiqatlar, demək olar ki, son 10-15 ildir ki aparılmır. Nitqin mənimsənilməsinin psixo-fizioloji problemi isə tamamilə unudulub.

Azərbaycanda xarici dillərin mənimsənilməsinin psixoloji problemləri ilə bağlı xeyli tədqiqat işləri aparılmışdır. Bu əsərlərdən B.F.Voroninin, C.H.Səmədovun, İ.M.Novruzovun, E.O.Feyzullayevanın, A.Ə.Quliyevin, namizədlik dissertasiyalarını göstərmək olar. Bu səpgidə aparılan tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, ikinci dilin mənimsənilməsi zamanı nitqin inkişafında mühüm dəyişikliklər əmələ gəlir. Bu, bir tərəfdən ana dili, digər tərəfdən, ikinci dil üzrə nitq fəaliyyətinin daha da zənginləşməsi və təkmilləşməsinə səbəb olur.

Tədqiqat zamanı məlum oldu ki, Azərbaycan psixoloqları kiçik məktəb yaşlı şagirdlərin təlim prosesində idrak proseslərinin inkişafına aid daha çox araşdırmalar aparmışlar. Bu da məktəblə psixologiyanın arasında sıx əlaqə yaratmağa təsir göstərmişdir.

Qeyd edilən dövrdə uşaqların yaş xüsusiyyətlərinin psixologiyası ilə yanaşı, müxtəlif yaş dövrlərində ayrı-ayrı idrak proseslərinin öyrənilməsinə də xüsusi diqqət yetirilmişdir.

Kiçik məktəbli psixologiyasında diqqət problemi mühüm yer tutur. Bu məsələ ilkdəfə Ə.K.Zəkuyevin «Dərsdə uşağın diqqətinin təşkili» adlı məqaləsində və Ə.Əlizadə «Uşaqlarda diqqətin tərbiyə edilməsi» (1962) adlı kitabında öyrənilmişdir.

Ə.K.Zəkuyev dərs prosesində diqqətin rolu, inkişafı və tərbiyəsi yolları göstərilir. Ə.Ə.Əlizadə isə diqqətin inkişaf xüsusiyyətlərini təcrübə əsasında şərh edir. Müəllimlərin diqqətini cəlb edir.

Kiçik məktəb yaşlı şagirdlərin təlim fəaliyyətində qavrayışın inkişaf və tərbiyəsi məsələsi Ş.S.Ağayevin «Fikri məqsədin xarakterində asılı olaraq görmə qavrayışının dinamikası», İ.Ə.Seyidovun «Azərbaycan ibtidai məktəbinə aid ana dilinin orfoqrafiyasının mənimsənilməsinə səhvləri görmə qavrayışının təsiri məsələsinə dair» (Bakı, 1954), İ.A.Fərəcovun «Təlim materiallarının qavranılşması sahəsində IV-V sinif şagirdləri arasında fərdi fərqlər» namizədlik dissertasiyalarında ətraflı tədqiq olunmuşdur. Bu tədqiqatlar bir silsilə kimi bir-birini tamamlamışdır. «Fikri məqsədin xarakterindən fərqli olaraq görmə qavrayışının dinamikası» adlı namizədlik dissertasiyasında Ş.S.Ağayev qavrayış probleminin tədqiqi sahəsində görkəmli xarici psixoloqlardan V.K.Ananyev, A.N.Leontyev, A.A.Smirnov rəhbərliyi altında aparılan tədqiqatları təhlil edir, V.Ştern, E. Meyman və başqalarının tədqiqatlarına tənqidi yanaşır, K.D.Uşinski, Y.A.Komenskinin əsərlərində qavrayış probleminin qoyuluşunu nəzərdən keçirir və şərh edir. Bu tədqiqatda A.O.Makovelskinin təbirincə desək, təlim üçün çox əhəmiyyətli nəticələr əldə edilmişdir. Müəllif

göstərir ki, kiçikməktəblilərin qavrayışı dəqiqləşdirilmiş məqsədlərdən irəli gələn ümumi məqsədlər prosesində daha səmərəli - tam, dəqiq və dərin olur.

İ.Ə.Seyidov «Azərbaycan ibtidai məktəbinə aid ana dilinin orfoqrafiyasının mənimsənilməsinə səhvləri görmə qavrayışının təsiri məsələsinə dair» adlı dissertasiyasında Azərbaycan dilində sözlərin yazılmasının mənimsənilməsində buraxılan nöqsanların aradan qaldırılması yollarını öyrənmişdir. O müəyyən etmişdir ki, müvafiq sözlərin yazılmasının mənimsənilməsində şagird tərəfindən buraxılan səhvlərin təkrar (yəni yazı işinin yoxlanılmasından sonra) görmə qavrayışının təsiri müxtəlif ola bilər.Müəllif sübut etmişdir ki, I-IIsinif şagirdləri təkrar qavrayış zamanı səhvləri möhkəmləndirmirlər, əksinə qarşıdakı məqsəddən asılı olaraq, sözlərin qavranılmasını daha da dəqiqləşdirə bilirlər. Əgər səhv vaxtında göstərilərsə, onda şagird öz səhvini dərk edir və sözün düzgün yazılmasını asan mənimsəyir.

Kiçik məktəb yaşlı şagirdlərin təlim-tərbiyəsində hafizənin özünəməxsus yeri var. Bunu nəzərə alaraq Azərbaycan psixoloqları kiçikməktəblilərin hafizəsinin xüsusiyyətlərini ətraflı öyrənmiş və bu problemə bir neçə elmi-kütləvi əsərlər, monoqrafiya, beşdən artıq namizədlik dissertasiyası, bir neçə məqalələr həsr etmişlər. 1920-ci illərdən başlayaraq bu problemin tədqiqi BXMŞ-i nəzdindəki psixologiya laboratoriyasında başlanmışdır. Həmin laboratoriyanın əməkdaşı A.A.Perelman ixtisasca psixoloq olmasa da, tibbi psixologiya sahəsində bir neçə məqalələrin və 1927-ci il Bakıda nəşr olunan «Hafizənin funksiyası və onun

potologiyası» adlı kitabın müəllifidir. Həmin kitabda hafizənin mahiyyəti, onun növləri, yaddasaxlama prosesinin təbii, fizioloji şərtləri, yaddasaxlama, yaddasaxlamanın biliklərin mənimsənilməsində rolu və digər məsələlər şərh olunur. Bu kitab kiçik məktəb yaşlı şagirdlərin hafizəsinə aid olmasa da, həmin dövrdə hafizə sahəsində gələcək tədqiqatlar üçün, zənnimizcə, istiqamətverici amillərdən olmuşdur. Azərbaycanda əsasən psixologiya, fəlsəfə tarixçisi kimi tanınan professor Ə.K.Zəkuyev də kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində hafizənin inkişaf və tərbiyəsi ilə bağlı tədqiqatlar aparmışlar. Onun «Uşaq hafizəsinin möhkəmliyi üçün əyaniliyin əhəmiyyəti», «Hafizənin tərbiyə edilməsi», «Uşaq hafizəsi inkişafının bəzi xüsusiyyətləri» adlı məqalələrində təlim materiallarının səmərəli yaddasaxlanılmasının psixoloji yolları göstərilmiş, müəllim və tərbiyəçilərin diqqəti bu sahədə vacib olan cəhətlərə yönəldilmişdir. Mənimsəmə prosesində təlim materiallarının xüsusiyyətləri, şəxsiyyətin maraq və tələbləri, qavrayış, diqqət və təfəkkürün də inkişafı müəyyən rol oynayır. «Musiqi hafizəsinin psixoloji təbiəti» ağır dissertasiyada N.S.Lutoxina hafızənin öyrənilməsi sahəsində V.M.Teplovun xüsusi xidmətlərini qeyd etməklə, Revaş və Kovaçın tədqiqatlarını tənqidi təhlildən keçirir və musiqi hafizənin eksperimental tədqiqi əsasında belə fikir sübut edir ki, musiqi hafizəsi anadangəlmə fitri qabiliyyət olmayıb, məktəbəqədər və məktəb yaşlı uşaqlarda düzgün təşkil edilmiş təlim-tərbiyə prosesində inkişaf edir. Musiqi hafizəsi əsasən musiqi eşitmə və qavrama qabiliyyəti ilə əlaqədar olub,

musiqi fəaliyyəti prosesində müəllimin rəhbərliyi altında formalaşır.

Azərbaycanda hafizə sahəsində eksperimental tədqiqatlar ardıcıl olaraq A.U.Məmmədov tərəfindən aparılmışdır. O, 1965-ci ildə müdafiə etdiyi «I-IV sinif şagirdlərində məntiqi hafızənin bəzi xüsusiyyətləri» adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. Dissertasiyada tədris materiallarının yadda saxlanılmasında mücərrədləşdirmənin rolu, mücərrədləşdirməyə təsir göstərən amillər, mücərrədləşdirmə əməliyyatından asılı olaraq məntiqi hafizənin müxtəlif yaş dövrlərində təzahür xüsusiyyətləri müsahibə, müşahidə, eksperiment, fəaliyyət məhsullarının təhlili metodlarının köməyilə öyrənilmiş, məktəb təcrübəsi üçün lazımi bir sıra tövsiyyələr verilmişdir.

İbtidai məktəb şagirdlərində Azərbaycanda təfəkkürün tədqiqi sahəsində Azərbaycan psixoloqları böyük müvəffəqiyyətlər qazanmışlar. Bu sahədə Azərbaycanda ilkaddım A.O.Makovelski, Ə.K.Zəkuyev tərəfindən atılsa da, məktəbəqədər yaş dövründən başlayaraq tələbəlik dövrü də daxil olmaqla bütün yaş dövrlərininə inkişaf dinamikasının öyrənilməsi probleminin ardıcıl tədqiqi ilə Ə.S.Bayramov məşğul olmuşdur. O, 1954-1955 - ci illərdən başlayaraq əməkdar elm xadimi, professor Ə.K.Zəkuyevin rəhbərliyi ilə təfəkkürün öyrənilməsinə başlamış və tədqiqlərini əvvəldən axıra qədər təlim - tərbiyə işi ilə vəhdət halında davam etdirmiş, uğurlu nəticələr əldə etmişdir.

Böyüyən gənc nəsildə təfəkkürü tərbiyə etmək həmişə və bu gün də ümumitəhsil və peşə məktəbi haqqında islahatın qarşıya qoyduğu ən ciddi problemdir.

Məntiqi təfəkkürə malik olmaq şagirdlərin müstəqil düşünmələrini, fikirlərini kifayət qədər əsaslandıra bildiklərini, özünün və başqalarının fikir və mülahizələrinə ciddi surətdə tənqidi yanaşmağı bacarmalarını nəzərdə tutur. Bu da təbiidir. Çünki, müstəqillik və tənqidilik təfəkkürün əsas canını təşkil edir. Bu da başlıca olaraq, təlim prosesində əmələgəlib inkişaf edir. Təlimdə başlıca cəhət şagirdlərdə müstəqil və tənqidi təfəkkürün qabiliyyətinin inkişafına nail olmaqdır.

Ə.S.Bayramov təfəkkürün müstəqillik və tənqidilik sahəsində çoxillik tədqiqat və təcrübələrini «təfəkkürün müstəqillik və tənqidiliyinə görə III-IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri» adlı namizədlik və «Kiçik məktəb yaşlı şagirdlərdə əqli keyfiyyətlərin inkişaf dinamikası» adlı doktorluq dissertasiyasında, «Şagirdlərdə təfəkkürün inkişaf», «Şagirdlərdə təfəkkür müstəqilliyinin inkişafı və tərbiyəsi» (Bakı, 1964), «Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri» adlı monoqrafiyasında bir sıra məqalələrində, məruzə və tezislərində ümumiləşdirilmişdir. Müəllifın bütün əsərlərini təhlil etmək imkanımız olmadığı üçün onun namizədlik, doktorluq dissertasiyaları və monoqrafiyaları üzərində qısa da olsa dayanmaq istərdik.

Müəllif namizədlik dissertasiyasında ibtidai məktəb şagirdlərində təfəkkürün və tənqidçiliyin təzahür əlamətlərini dürüst müəyyənləşdirmək üçün əvvəlcə məsələnin tarixinə nəzər salır. Təfəkkür sahəsində müəyyən fikir söyləmiş alimlərdən İ.P.Pavlovun, S.İ.Rubinşteynin, İ.M.Şoroxovanın, A.R.Luriyanın, A.N.Leontyevin, A.A.Lyublinskayanın əsərlərinə diq-

qət yetirilir. Problemlə əlaqədar olaraq Azərbaycanda aparılmış tədqiqatların tənqidi təhlilini verir.

Tədqiqatda əsas məqsəd müstəqillik və tənqidilik sahəsində III-IVsinif şagirdlərində fərdi xüsusiyyətlərin dinamikasını, fərdi xüsusiyyətlərini yaradan amillərin müstəqillik və tənqidiliyinin tərbiyə olunması yollarını öyrənməkdir. Bu məqsədlə müəllif dəqiq tədqiqat metodikası hazırlamış və həmin metodikaya əsaslanaraq Bakı şəhərinin 44 və 7 saylı məktəblərinin III-IVsiniflərində 80 nəfərə yaxın şagird üzərində tədqiqat işi aparmışdır. Müəllif dərsdə iştirak edib müşahidələr aparmış, 3000-dən artıq müəyyənləşdirici və öyrədici eksperiment keçirmişdir. Bu eksperimentlərə əsaslanaraq müəllif III-IV sinif şagirdlərində müstəqillik və tənqidiliyin təzahür xüsusiyyətlərini, inkişaf və tərbiyə olunması yollarını öyrənmiş və maraqlı elmi nəticələr əldə etmişdir.

Müəllif göstərir ki, müstəqillik və tənqidilik kimi mühüm əqli keyfiyyətlərin inkişafı qeydinə qalan hər bir müəllim təlim materiallarının təkcə məzmuna deyil, həm də onun şərhinə, müqayisə və ümumiləşdirmələrə, şagirdlərin nəticə çıxarmalarına fikir verməlidir. Şagirdlərin təfəkkür fəallığı qeydinə qalmaq lazımdır. Şagirdlər daim düşündürücü suallar qarşısında qalmalıdırlar. Dissertasiyada III-IV sinif şagirdləri arasında müstəqillik və tənqidilik sahəsində fərdi fərqlər olması aşkar olunmuş, təlim-tərbiyə prosesində həmin keyfiyyətlərin inkişaf etdirilməsi yolları göstərilmişdir. Müəllif tədqiqat obyekti olaraq seçdiyi siniflərin şagirdlərini hələ məktəbə gəldikləri ilkgünlərdən, birinci sinifdən öyrənməyə başlamışdır. Bunu ikinci

sinifdə davam etdirmiş, topladığı materialları III-IV siniflərdə apardığı əsas tədqiqat materialları ilə müqayisə etmişdir. Beləliklə, müəllif tədqiqat obyektini dinamikada, inkişaf halında, təlim-tərbiyə prosesində öyrənmişdir. Müəllif təfəkkürün və tənqidiliyinin şagird şəxsiyyətinin ümumi inkişafı ilə əlaqədar olduğunu göstərir. Təfəkkürün müstəqillik və tənqidilik sahəsindəki fərdi fərqlərini bilmək mürəkkəb təlim-tərbiyə işində müəllimə mühüm yardım göstərir. Ona görə də müəllifin əldə etdiyi orijinal nəticələrin həm nəzəri, həm də əməli əhəmiyyəti vardır. «Şagirdlərdə təfəkkürün inkişafı», «Şagirdlərdə təfəkkürün müstəqilliyinin inkişafı və tərbiyəsi», «Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri»(15) adlı əsərində Ə.S.Bayramov müasir psixologiya elminin qarşısında mühüm bir məsələ kimi duran təlimə əqli inkişaf arasındakı münasibət məsələsinə daha geniş yer verir. Müasir psixologiyada psixi inkişaf və təlim probleminə müxtəlif baxımlar nıövcuddur. Ə.S.Bayramov apardığı tədqiqatlara əsaslanaraq təlim prosesinin səmərəli təşkilinin uşaqların əqli inkişafına təsirinin yol və vasitələrini göstərir. O, haqlı olaraq göstərir ki, hər cür təlim uşaqların inkişafetdirici təsir göstərmir. Müəllif görkəmli rus psixoloqu L.S.Vıqotskinin məşhur nəzəriyyəsinə istinad edərək inkişafetdirici təlimin xarakterini şərh edir. Təlim hələ yetkinləşməmiş psixoloji funksiyalarına imkan yaradır, onu lazimi istiqamətə yönəldir. Məhz bu nöqteyi-nəzərdən L.S.Vıqotski əqli inkişafın ikisəviyyəsinin olduğunu göstərirdi. Birinci aktual, inkişaf səviyyəsidir. Bu səviyyədə olan uşaqların müəyyən tapşırıqları müstəqil olaraq

yerinə yetirirlər. İkinci səviyyə üçün xarakterik cəhət odur ki, uşaq ona verilmiş tapşırıqları müstəqil deyil, yalnız köməkçi suallar, misallar, nümunələr əsasında həll edə bilirlər. L.S.Vıqotski bunu inkişafın yaxın zonası adlandırmışdır. Təlim prosesində məhz belə isə, o aktual inkişaf səviyyəsinə keçir. Başqa sozlə, təlim uşaqların idrak qabiliyyətlərini o dərəcədə inkişaf etməlidir ki, artıq müəyyən dövrdən sonra onların özləri lazimi biliyi müstəqil olaraq mənimsəməyə qadir olsunlar, köməyə o qədər də möhtac olmasınlar. Ə.S.Bayramov, L.S.Vıqotskinin həmin nəzəriyyəsinə istinad edərək təlim prosesinin bu xüsusiyyətləri ilə bağlı olan cəhətləri, birinci növbədə kiçik yaşlı məktəblilərin əqli inkişaf xüsusiyyətlərini aşkar etmişdir.

«Şagirdlərdə təfəkkür müstəqilliyinin inkişafı və tərbiyəsi» adlı əsəri təfəkkürün müstəqilliyinə həsr olunmuşdur. Burada birinci növbədə təfəkkür müstəqilliyinin mahiyyəti, əqli inkişafda mövqeyi şərh olunmuşdur. Əsərdə həmçinin kiçikməktəb yaşlı şagirdlərin təfəkkürünün müstəqilliyinin xüsusiyyətləri, həmin keyfiyyətin inkişaf etdirilməsi yolları göstərilmişdir. Müəllifin fikrində təlim prosesində şagirdlərin təfəkkürünün müstəqilliyinin qayğısına qalan müəllim birinci növbədə onların təsəvvür və baxış dairəsini genişləndirməlidir. Təsəvvür və baxış dairəsi geniş, müstəqil surətdə düşünmək qabiliyyəti olan şagird həyata açıq gözlə baxır. Hadisələri düzgün qiymətləndirə bilər. Kitabda yeni materialın müəllimlər tərəfindən şərhi zamanı təfəkkürün müstəqilliyini inkişaf etdirməyin yollarında ətraflı izah olunur. Müəllif belə bir nəticəyə gəlir ki, yeni dərsin izahı zamanı şagirdlərin fikir

fəallığını artırmaq, təfəkkür müstəqiliyinə formalaşdırmaq üçün ziddiyiyyətli vəziyyət yaratmaq üsulları da çox əhəmiyyətlidir. Belə olduqda şagirdlər ziddiyyətdən çıxış yolu axtarmağa daha fəal surətdə qoşulur və müəyyən nəticəyə gəlir. «Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri» adlı monoqrafiyasında Ə.S.Bayramov məktəbəqədər yaşlı uşaqlarda təfəkkürün inkişafında o cümlədən əqli keyfiyyətlərin təzahür xüsusiyyətlərinə müəyyən qədər yer versə də, əsas diqqəti ibtidai sinif şagirdlərində təfəkkürün və tənqidiliyinin təzahür xüsusiyyətlərinin hərtərəfli təhlilinə yönəltmişdir. Müəllif kiçikməktəblinin təfəkkür müstəqilliyinin və tənqidiliyinin yollarını ətraflı göstərmişdir. Müəllif tədqiq etdiyi hər hansı bir məsələni dərindən işıqlandırmaq üçün onun tarixini ətraflı şəkildə izah edir. Ə.S.Bayramov təfəkkür sahəsində burjua psixoloqlarının tədqiqatlarının elmi tənqidini verir və rus psixoloqlarından L.S.Vıqotskinin, P.P. Blonskinin, Y.A.İvanovskinin, S.FJuykovun, M.N.Şardakovun və başqalarının tədqiqatını ümumiləşdirib,təhlil etmişdir. Ə.S.Bayramov bu əsərlə məsələnin tədqiqi tarixindən danışarkən, istər inqilabdan əvvəl və istərsə də inqilabdan sonrakı dövrdə Azərbaycanda təfəkkürün tədqiqi sahəsində görülmüş işlərə müəyyən qədər yer vermişdir. Ə.S.Bayramov, F.Köçərlinin, Z.Göyüşovun, A.O.Makovelskinin, Ə.K.Zəкuyevin, F.İbrahimbəyovun, Ş.S.Ağayeyin, Z.M.Mehdizadənin, A.M.Məmmədovun, Ə.Ə.Əlizadənin və başqalarının qarşıya qoyulan problemlə əlaqədar tədqiqlərini yeri gəldikcə təhlil edir.

Ə.S.Bayramov eksperimental materiallar və qabaqcıl müəllimlərin iş təcrübəsi əsasında müəllimin şagirdlərdə müstəqilik və tənqidiliyi inkişaf etdirmək üçün istifadə etməsi zəruri olan yol və vasitədir də müəyyənləşdirmişdir. Ə.S.Bayramov qeyd edir ki, «Təlim prosesində şagirdlərdə əqli keyfıyyətlərin inkişafı, əgər bir tərəfdən, materialın məzmunundan, məntiqi quruluşundan asılıdırsa, digər tərəfdən təlim üsullarından, şagirdlərin həmin materialı necə və hansı qaydalarla mənimsəməsindən asılıdır.

Şagirdləri fəallaşdırmaq, onlarda hər hansı bir təlim mətninə tənqidi münasibət oyatmaq üçün hər şeydən əvvəl, təlim prosesində onların müstəqilliyinin təzahürünə geniş imkan vermək lazımdır.

"...Şagirdlərin təfəkkürünün tənqidiliyini tərbiyə etmək üçün şagirdlərdə öz yoldaşlarının fikir və rəylərinə, tənqidi yanaşmaq vərdişi yaratmaq lazımdır, onlarda konstruktiv tənqidi, yəni öz fikir və rəylərinə iş və rəftarlarına tənqidi münasibət bəsləməyə inkişaf etdirmək lazımdır".

Ə.S.Bayramov belə bir nəticəyə gəlir ki, kiçikməktəb yaşlı şagirdlərin böyük əksəriyyətində qarşıya ümumi məqsəd qoyularkən idrak obyektlərinə tənqidi münasibət bəsləmək, onları ciddi surətdə nəzərdən keçirmək, ona müxtəlif tərəfdən yanaşmaq bacarığı hələ zəif olur. Uşaqların hamısı yox, yalnız bəziləri kənar göstəriş yardımı almadan tənqidi surətdə düşünə bilir. Tənqidilik qabiliyyəti ibtidai sinif şagirdlərində mövcuddur. Lakin onun təzahür və inkişaf etdirilməsi üçün qarşıya ümumi xarakterli məqsədin qoyulması heç də kifayət deyildir. Həmin imkanı gerçəkliyə

çevirməkdən ötrü başqa vasitələrə, daha konkret məqsədlərə əl atmaq lazımdır. Müəllif daha sonra qeyd edir ki, «İbtidai sinif şagirdləri müstəqil və tənqidi düşüncə qabiliyyətinə malik olsalar da, hələ ciddi surətdə təsir altına düşürlər və başlıca olaraq tələb edilən şeyləri yerinə yetirtməyə səy göstərirlər».

Təfəkkürün müstəqillik və tənqidiliyinə görə kiçikməktəblilərin bir-birindən nə dərəcədə fərqlənməsini dəqiq təhlili də böyük əməli əhəmiyyət kəsb edir. Bu cəhətdən müəllif aşkar etdiyi fərqləri cəlb edir. Müəllif bir cəhətə xüsusi diqqət yetirir ki, təfəkkürün müstəqillik və tənqidiliyi bütün şagirdlərdə eyni dərəcədə inkişaf etmədiyi kimi onun təlim prosesində təzahürü də eyni deyildir. Müəllif bu cəhətdən kiçikməktəbliləri üç qrupa bölür: birinci qrup məsələnin öhdəsindən başlıca olaraq qarşıya ümumi məqsədlər qoyularkən gələ bilən, kənar sövq olmadan müstəqil düşən və idrak obyektlərinə tənqidi münasibət bəsləyən şagirdləri daxil edir. İkinci qrup şagirdlər isə qarşıda duran vəzifələrin konkret şəkildə müəyyənləşdirilməsinə onlardan nə tələb edildiyini anlatmağa ciddi ehtiyac duyurlar. Üçüncü qrup şagirdlər isə qarşıya konkret xarakterli məqsəd qoyulduqda belə, istənilən nəticəni əldə edə bilmirlər.

Kiçik məktəblilərdə mücərrəd təfəkkürün inkişafı Ə.Ə.Qədirovun diqqətini cəlb etmişdir. O, məktəblilərdə mücərrəd təfəkkürün inkişaf dinamikasını izləmiş, bu problemə aid namizədlik və doktorluq dissertasiyaları, monoqrafiya, məqalələr və s. həsr etmişdir. Ə.Ə.Qədirovun bu sahədə apardığı uzun illik elmi tədqiqatların nəticəsi «Kiçik məktəb yaşlı məktəblilərdə mücərrədləşdirmənin inkişafı» adlı namizədlik

dissertasiyasında ümumiləşdirilmişdir. Yeniyetmələrdə hərbi – vətənpərvərlik hissinin inkişaf xüsusiyyətləri», «Kiçик məktəb yaşlı şagirdlərin həmyaşıdları ilə qarşılıqlı münasibətlərinin emosional xüsusiyyətləri» (nam.dis.Baкi, 2004), «Gənc müəllimlərin pedaqoji fəaliyyət prosesində qarşılaşdıqları çətinliklərin psixoloji təhlili» (C.Alıyev, nam.dis.1998), «Kiçik məktəb yaş dövründə cinsi fərqlərin psixoloji xüsusiyyətləri» (A.Səlimova, nam.dis.Bakı, 2005) və digər namizədlik dissertasiyalarında isə kiçik məktəb yaşlı şagirdlərin təlimini müxtəlif psixoloji problemləri təhlil olunur və müəllimlərin diqqəti təlimə təsir göstərən psixoloji məqamlara cəlb olunur.

Kiçik məktəblilərdə təxəyyülün inkişafı və tərbiyəsi əsasən Ə.Əlizadə tərəfindən tədqiq edilmişdir. Onun «şagirdlərin yaradıcı təxəyyül fəaliyyətində analiz və sintez proseslərinin xüsusiyyətləri» adlı namizədlik dissertasiyası da həmin problemin öyrənilməsinə aiddir. Dissertasiyada təxəyyül fəaliyyətində təhlil və tərkib xüsusiyyətləri, onların inkişafını şərtləndirən amillər, IV-VI siniflərdə şagirdlərin yaradıcı təxəyyülünün xüsusiyyətləri ətraflı təhlil olunur.

IV-VI siniflərdə şagirdlərdə yaradıcı təxəyyül fəaliyyətində analiz və sintezin qarşılıqlı əlaqəsini, onların təfəkkürlə qarşılqlı əlaqələrini öyrənmək dissertasiyanın əsas məqsədini təşkil edir. Müəllif problemlə bağlı məsələlər haqqında aydın təsəvvür yaratmaq məqsədi ilə yaradıcı təxəyyülün tədqiqi tarixinə nəzər salır. Xarici ölkə psixoloqlarının nəzəriyyələrini təhlildən keçirir. Rus ədəbiyyatında təxəyyülə aid tədqiqatlar araşdırılır. Azərbaycan psixoloqlarının bu

sahədəki fikirlərinə istinad olunur. Müəllif göstərir ki, IV-VI sinif şagirdlərinin yaradıcı təxəyyülü müxtəlif xüsusiyyətlərinə görə fərqlənsə də onların arasında ümumi cəhətlər də çoxdur. IV-VI sinif şagirdləri şəkil çəkdirmək üçün hazırlıq işi aparmışlar. Onlar fikrən yaratdıqları yeni təxəyyül surətlərini əsasən şəklin çəkilməsi prosesində dəqiqləşdirirlər. Bu başlıca olaraq səhvlərin islahı yolu ilə həyata keçirilir. Yaradıcı təxəyyülün hər bir inkişaf səviyyəsində analiz və sintez prosesləri özünəməxsus şəkildə üzə çıxarır.

Dissetasiyada təxəyyül fəaliyyətində təhlil və tərkibin həmin xüsusiyyətləri və onların inkişafını şərtləndirən amillər, IV-VI sinif şagirdlərində yaradıcı təxəyyülün xüsusiyyətləri və s. məsələlər ətraflı təhlil olunur. Şagirdlərin yaradıcılıq fəaliyyətində təhlil və tərkibin üç səviyyəsi müəyyən olunur:

I səviyyə - Vasitəsiz analiz
II səviyyə - Kobud analiz
III səviyyə - Produktiv analiz
I səviyyə - Elementar sintez
II səviyyə - Natamam sintez
III səviyyə - Produktiv sintez

Dissertasiya Azərbaycanın adlı-sanlı alim və psixoloqlarından olan Ə.K.Zəkuyev, F.Ə.İbrahimbəyov, M.Ə.Həmzəyev, A.S.Abdullayev, M.S.Məhərrəmov, M.S.Nəcəfov, D.N.Uznadze adına Gürcüstan institutunun direktoru, prof. A.S.Pranqişvili, həmin inistitutun professoru V.Q.Norakidze, Nizami adına Daşkənd Pedaqoji İnstitutunun psixologiya kafedrasının müdiri, professor P.İ.İvanov və başqaları tərəfindən yüksək qiymətləndirilmişdir.

Ə.Ə.Əlizadə bu sahədə elmi axtarışlarını davam etdirərək «Şagirdlərdə təxəyyülün inkişaf və tərbiyəsi», «Şagirdlərdə yaradıcılıq fəaliyyətinin psixologiyası», «Şagirdlərin təxəyyül fəaliyyətində analiz və sintez bacarığının inkişaf xüsusiyyətləri haqqında», «Şagirdlərin konstruktiv fəaliyyətində yaradıcı təxəyyülü tərbiyə etməyin bəzi xüsusiyyətləri haqqında», «Şagirdlərin yaradıcı təxəyyülünün inkişafında vərdişlərin rolu məsələsinə dair», «IV sinif şagirdlərinin fəaliyyətində təxəyyülün təfəkkürlə qarşılıqlı əlaqəsinə dair», «Şagirdlərin yaradıcı fəaliyyətində təxəyyüllə vərdişlərin qarşılıqlı əlaqəsi haqqında», «Şagirdlərdə öz yaradıcı fəaliyyətinə tənqidi münasibətlərinin xüsusiyyətləri», «I sinif şagirdlərində bərpaedici xüsusiyyətləri və başqa məsələləri» tezislərini yazmışdır. «Şagirdlərdə təxəyyülün inkişaf və tərbiyəsi» (1962), adlı kitab üç fəsildən ibarətdir. Birinci fəsil təxxəyülün mahiyyəti, onun fızioloji əsasları və ümumi qanunauyğunluqlarının təhlilinə həsr olunmuşdur. Təxəyyül haqqında oxucularla düzgün anlayış yaratmaq məqsədi ilə müəllif onun növləri haqqında da müəyyən məlumat vermişdir. Təxəyyül və gerçəklik», «Təxəyyül surətlərinin yaradılması prosesi», «Təxəyyül prosesində təfəkkür və nitqin rolu», «Təxəyyülün hisslərlə əlaqəsi», «Təxəyyül və əmək fəaliyyəti» kimi başlıqlardan şərh olunmuş materiallar təxəyyülün insan fəaliyyətindəki əhəmiyyətini aydın şəkildə başa düşməyə imkan verir. Təxəyyül xarici aləmi özünəməxsus şəkildə əks etdirir. Bir idrak prosesi olmaq etibarilə təxəyyül mahiyyətini aydınlaşdırmaq üçün müəllif, hər şeydən əvvəl, onun ger-

çəkliklə əlaqəsini şərh etmişdir. O göstərir ki, təxəyyül surətləri nə qədər əfsanəvi olursa-olsun, onların əsasını maddi aləmdə mövcud olan cism və hadisələr təşkil edir. Lakin, hər bir təxəyyül surəti, maddi gerçəklik əsasında təşəkkül tapsa da, o, insanın keçmişdə qavradığı cisim və hadisələrin sadəcə olaraq xatırlanması yolu ilə yaranmır. Bədii, elmi və texniki fəaliyətin özünəməxsus vəzifə və xüsusiyyətləri olduğu üçün alimin yazıçının, şagirdlərin yeni təxəyyül surətləri yaratmaq üsulu bir-birindən fərqlənir. Lakin buna baxmayaraq, fəaliyyət sahələrində təxəyyül surəti yaratmaq mexanizmi eynidir. Kitabda məhz bu baxımdan təxəyyülün üsul və tərzləri haqqında geniş məlumat verilməsi də təqdirəlayiqdir.

Ə.Əlizadə təxəyyülün inkişaf və tərbiyəsinə aid fikirlərini ümumiləşdirərək «Təxəyyül» (psixoloji etüdlər) adlı kitabında vermişdir. Müəllif, çoxillik təcrübələrinə, habelə eksperimental tədqiqatlarına əsaslanaraq kitabda təxəyyülün ümumi-nəzəri, tarixi məsələlərini ümumdünya psixoloqlarının nəzəri problemləri səviyyəsində şərh etmişdir. Kitabda həmçinin müasir psixologiya obraz psixologiyası, təxəyyül və iradə inkişaf xüsusiyyətləri öz şərhini tapır.

Azərbaycanda eksperimental psixologiyanın inkişafı məhz bu yaş dövrü ilə bağlı olmuşdur. Kiçik yaşlı məktəblilərin əməyə psixoloji hazırlığı (Ş.S.Ağayev, K.S.Əbilov), nitqinin (M.Ə.Həmzəyev, Ş.Babayev, N.İbrahimxəlilova), şəxsiyyətinin (Ə.S.Bayramov, Ə.Əlizadə) diqqətinin (E.M.Quliyev), qavrayışının (Ş.S.Ağayevin), hafizənin (A.U.Məmmədov), təfək-

kürünün (Ə.S.Bayramov), təxəyyülün (Ə.Əlizadə) hisslərinin (Q.E.Əzimli, N.A.Cavadov) inkişafına aid aparılmış eksperimental tədqiqatlar dediklərimizə əyani sübutdur. Lakin məktəb islahatının ləng yerinə yetirildiyi, məktəblilərin təlimə marağının зetgedə azadlığı bir dövrdə aparılmış tədqiqatlar dövrün tələbini ödəmir. Kiçik yaşlı məktəblilərdə təlimə maraq və meylin yaranması, onlarda əxlaqi hisslərin tərbiyəsi, xüsusi ilə milli ruhda böyüməsləri bu gün diqqəti cəlb edən problemlərdəndir.

Kiçik məktəb yaşlı şagirdlərin təlim fəaliyyətində iradənin maraqların, temperamentin, xarakter və qabiliyyətlərin yeri, təşəkkülü və inkişaf xüsusiyyətləri də həmişə Azərbaycan psixoloqlarının diqqət mərkəzində olmuşdur.

Azərbaycan psixoloqları öz yaradıcılıqlarında kiçik yaşlı məktəblilərin təlim və əmək fəaliyyətinin psixoloji xüsusiyyətlərinin tədqiqinə geniş yer vermişlər. Azərbaycanın psixoloqları kiçikməktəb yaşlı şagirdlərin şəxsiyyətinin formalaşmasının psixoloji qanunauyğunluqlarını, təlimə verilən marağın yaranmasının, müəllim - şagird münasibətlərini, idrak imkanlarını öyrənmiş və təlim - tərbiyə prosesini günün tələbləri səviyyəsində qurmaq işində müəllimlərə, valideynlərə, elmi metodiki yardım göstərmişlər. Şəxsiyyətin formalaşmasının psixoloji qanunauyğunluqlarına, təlim maraqlarına, kiçik məktəb yaşlı şagirdlərin təlim fəaliyyətinin psixoloji problemlərinə aid dünya səviyyəli tədqiqatlar aparmış və bu istiqamətdə valideynlərə, müəllimlərə əməli kömək göstərmişlər.

Təkcə onu demək kifayətdir ki, Azərbaycanda kiçik məktəb yaşlı şagirdlərin psixoloji keyfiyyətlərinin öyrənilməsinə yüzdən artıq elmi kütləvi əsər, əllidən çox namizədlik və ondan artıq doktorluq dissertasiyaları həsr olunmuşdur. Kiçik məktəb yaşlı şagirdlərin təlim-tərbiyə fəaliyyətinin psixoloji problemləri ilə bağlı 20-dən artıq doktorluq (Ş.S.Ağayev, (936), Ə.Bayramov (1938), Ə.Əlizadə (944), M. Həmzəyev (945), Ə.Qədirov (947), S.Seyidov (956), N.Muxtarova (953), B.Əliyev (939) və b.) 50-dən çox namizədlik, xeyli miqdarda məqalə, elmi kütləvi əsərlərin, monoqrafiyaların (Ş.S.Ağayev, Ə.Bayramov, Ə.Əlizar, M.Həmzəyev, Ə.Qədirov, Q.Əzimli və b.) yazılması təhsilin psixoloji problemlərini Azərbaycan psixoloqlarının diqqətinin bariz nümunəsidir. Onu da xüsusi ilə vurğulamaq istəyirəm ki, bütün yaş dövrlərinə nisbətən kiçik məktəbyaşlı şagirdlərin psixoloji xüsusiyyətlərinin öyrənilməsinə daha çox diqqət yetirilmiş və yetirilməkdədir. Azərbaycan psixoloqları bu sahədəki ənənələrinə sadiq qalaraq kiçik məktəblilərin təlim – tərbiyəsinin psixoloji problemləri ilə bağlı son illərdə xeyli tədqiqatlar aparmışlar.

c)Yeniyetməlik və gənclik yaşı dövrünün psixoloji xüsusiyyətlərinin tədqiqi və onların gələcək inkişaf perspektivləri

XX və XXI əsrin ilk on illiyində Azərbaycanda yeniyetməlik və gənclik dövrünün psixoloji problemlərinə, xüsusi ilə yeniyetmə və gənclərin İslam əxlaqı baxımından tərbiyəsinə və təliminə ciddi fikir verilmişdir.

Yeniyetmə və gənclərin təlim-tərbiyəsində, bir şəxsiyyət kimi həyata hazırlığında maraq proseslərinin (duy-

ğular, qavrayış, hafizə, təfəkkür, təxəyyül, hisslər, iradi keyfiyyət) fərdi psixi xassələrin (temperament, xarakter və qabiliyyət) böyük rolu vardır. Yeniyetmə və gənclərin müstəqil düşüncə tərzinə malik olmaları, onların daim yaradıcılıq axtarışları, vətənpərvərlik hiss ruhunda formalaşması onların şəxsiyyət üçün əsas amillərdir. Azərbaycan psixoloqları həm öz əsərlərində və həm də tərcümə etdikləri bir çox kitablarda müasir İran cəmiyyətində yeniyetmələrin özünəməxsus psixoloji xüsusiyyətləri təhlil olunur və bir sıra elmi tövsiyyələr verilir.

Tədqiqat zamanı məlum oldu ki, XX əsrdə və XXI əsrin ilk on illiyində Azərbaycan psixoloji fikir tarixində yeniyetmə və gənclərin şəxsiyyətinin müxtəlif istiqamətləri üzrə eksperimentlər aparmış və müasir Azərbaycan yeniyetmə və gənclərinin bəşəri keyfiyyətlərə yiyələnməklə yanaşı, milli ruhda formalaşmalarına ciddi fikir verilmişdir.

Bu əsərlərdə XX əsr Azərbaycan psixoloji fikir tarixində yeniyetmə və gənclərin psixoloji xüsusiyyətləri ilə bağlı onlarla doktorluq, elmi kütləvi əsərlər, dərslik və dərs vəsaitləri, tezis və məqalələr yazılmış və bu yolla da həmin yaş dövrlərində tərbiyə, təhsil problemlərinə psixoloji yardım göstərilmişdir.

Bu sahəyə həsr olunmuş bir sıra tədqiqat işlərində yeniyetmələrin təlim – tərbiyəsində, onların bir şəxsiyyət kimi formalaşmasında cinsi xüsusiyyətlərin, etnik milli hisslərin ("Azərbaycan ailəsində qız tərbiyəsinin etnopsixoloji xüsusiyyətləri"(S.Hacıyeva. nam.dis. 2007), "Azərbaycan ailəsində oğlan – qız tipli münasibətlərin etnopsixoloji xüsusiyyətləri" (S.Orucova. nam.dis.2007), nəzərə alınması konkret faktlarla təhlil olunur.

Yeniyetmələrin təlim – tərbiyəsi, bu sahədə qarşıya çıxan psixoloji çətinliklər, və onların aradan qaldırılması yolları, "Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili"(R.Cabbarov, Nam.Dis. 2007), "Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim – şagird münasibətlərinin rolu"(N.Əliyeva, Nam. Dis. 2008), "Yeniyetmə qızların şəxsiyyətinin etnopsixoloji xüsusiyyətləri" (R.Qarayeva.nam.dis.2010), ("Müasir şəraitdə yeniyetmələrin asosial davranışının təzahür xüsusiyyətləri və onların tənziminin psixoloji problemləri" (G.Əhmədova nam.dis. 2007)), "Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim – şagird münasibətlərinin rolu" (H.Əliyev. nam.dis. 2008),"Gənc əsgərlərin hərbi xidmətdə adaptasiyası prosesinin tədqiqi" (E.Əliyeva, 2008), "Gənclərin mənəvi inkişafında bəzi sosial – psixoloji cəhətləri" (M.Mustafayev.nam.dis 2005)) Azərbaycan psixoloqlarının müasir tədqiqatlarının ana xəttini təşkil edir.

Yeniyetməlik yaşı dövrü kiçik məktəb yaşlı dövrü ilə erkən gənclik dövrü arasında keçid təşkil etdiyindən onu «Keçid dövrü», «çətin yaş dövrü», «böhran dövrü» adlandırırlar. Bu dövrdə yetkinlik və əks cinsə marağın təşəkkülü, özünü yaşlı adam kimi aparmaq cəhdi, mənlik və əxlaqi şüurun formalaşması, əmək tərbiyəsi və peşə yönümü və s. kimi yeni psixoloji xüsusiyyətlər özünü daha qabarıq göstərir.

Təlim-tərbiyə prosesində həmin xüsusiyyətlərin mahiyyətini nəzərə alaraq 1960-cı illərdən başlayaraq Azərbaycanda təlim və tərbiyəyə aid tədqiqatlar aparılmış, xeyli məqalələr, elmi-kütləvi əsərlər, monoqrafiyalar yazılmışdır. Bu sahədə Ə.Əlizadənin müstəsna xidmətləri var. Ə.Əlizadənin «Yoldaşlıq və dostluq

tərbiyəsi», «Ailədə uşaqların cinsi tərbiyəsi» (Bakı, 1968), «Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi» (Bakı, 1986) adlı kitabları və «Yeniyetmələrdə hərbi vətənpərvərlik hissinin inkişaf xüsusiyyətləri», «Yeniyetmələrin mənəvi keyfiyyətlərin təşəkkülündə inam və dini etiqadların rolu», «Yeniyetmələrin cinayət işləri üzrə məhkəmə psixoloji ekspertizası problemləri», Yeniyetmənin özünü-dərketmədə prosesin psixoloji təhlili», «Yeniyetmələrin mənəvi tərbiyəsində cinsi xüsusiyyətlərin nəzərə alınmasının psixoloji əsasları»(G.Əliyeva. nam. dis. 1996) adlı namizədlikdisertasiyaları bu gün də müəllim və valideynlərin zəruri əsərlərindən birinə çevrilmişdir.

«Yoldaşlıq və dostluq tərbiyəsi»  adlı əsərdə yeniyetmələrdə dostluq və yoldaşlıq hisslərinin inkişafı, başvermə səbəbləri, bu əxlaqi keyfiyyətlərin tərbiyə olunması yolları həyatı misallarla, nümunələrlə təhlil olunur, tərbiyədə vacib olan əməli təkliflər irəli sürülür. «Ailədə uşaqların cinsi tərbiyəsi» adlı  əsərdə Azərbaycan psixologiyasında ilkdəfə olaraq cinsi tərbiyə fəlsəfəsi, tibbi, pedaqoji və psixoloji istiqamətlərdə təhlil olunur. Müəllif əsərdə ən çox psixoloji istiqamətə fikir verərək göstərir ki, cinsi tərbiyə nəinki yeniyetmələri əməyə ictimai fəaliyyətə, həm də onları bir şəxsiyyət kimi həyata hazırlayır. Cinsi tərbiyəyə təsir göstərən ailə mühiti, məktəb, onları əhatə edən digər münasibətlər sistemi də psixoloji ustalıqla təhlil edilir. Müəllif sankivalideynlərlə, müəllimlərlə üzbəüz oturub onlarla söhbət edir, övladlarını yaxşı tərbiyə etmək üçün onlara məsləhət verir. Bəzən adət-ənənələrin mənfi təsiri misallarla göstərilir. Müəllif məhəbbət hissinin, inkişaf hissinin, inkişaf prosesini nəzərdən keçirərək onun üç səviyyəsini ayırd edir: 1)

rəğbət hissi; 2) ilkməhəbbət; 3) cinsi məhəbbət. Əsərdə hər üç proses psixoloji təhlildən keçirilir və valideynlərin, xüsusilə anaların diqqəti bu mühüm tərbiyə işinin vacib cəhətlərini yönəldir.

Müəllif rəğbət hissinin birdən-birə əmələ gəlmədiyini, onu zahiri və mənəvi gözəlliklə əlaqəsini, rəğbət hissinin məhəbbətə çevrilməsi şəraitini, hər cür rəğbət hissinin məhəbbətlə nəticələnmədiyini, ilk məhəbbətlə cinsi məhəbbət arasındakı fərqli cəhətləri, məhəbbətini təlim-tərbiyə prosesinə təsirini, valideyn, müəllim və tərbiyəçilərin belə bir dövrdə uşaqlar üzərində nəzarət və rəhbərliyi təşkil etməsi yollarını izah edib, müvafiq nəticələr çıxarır.

Yeniyetməlik yaşı dövründə şagirdlərin şəxsiyyətinin formalaşması, bir sıra sosial davranışların yaranmasının psixoloji səbəbləri təlim fəaliyyətinə maraqların yaranması, peşə seçmə və digər problemlər psixoloqlarımızın maraq dairəsində olmuşdur.

«Yeniyetmələrin özünüdərketmə prosesinin psixoloji təhlili» adlı tədqiqatda yeniyetmələrdə özünüdərketmənin təzahür formaları, onun formalaşma xüsusiyyətləri psixoloji mexanizmləri elmi şəkildə şərh olunur. Müəllif belə bir nəticəyə gəlir ki, yeniyetmələrdə özünüdərketmənin pozitiv inkişafı, onların qarşısında duran və öz həllini gözləyən problemlərin kəmiyyətindən və xarakterik cəhətlərindən də asılıdır. Bir sıra tədqiqatcıların fikrincə, təlim fəaliyyətinin gərgin təşkil edilməsi, yeniyetmələrə verilən tələblərin artması da qeyri-adekvat özünüqiymətləndirmənin yaranmasına təsir göstərən amillərdəndir. Qızları daha çox sağlamlıq və valideynləri ilə münasibətlər, oğlanları isə sosial və psixoloji münasibətlər narahat edir.

Adətən yeniyetməlik yaş dövründə özünüdərketmə stabilləşir, lakin müxtəlif amillər onun sabitliyinə ciddi təsir göstərir.

Yeniyetmələrdə özünüdərkin inkişafını hər şeydən əvvəl, dərsin müasir üsullarla təşkili, təlim prosesinə yaradıcı yanaşma sayəsində müsbət istiqamətə yönəltmək olar.

Yeniyetmələrdə adekvat özünüdərketmə və pozitiv özünüqiymətləndirmə üçün ailə münasibətlərinin normallığı mühüm əhəmiyyətə malikdir. Ailədaxili münasibətlərin xoşbəxtlik səviyyəsindən, tipindən, sosial-iqtisadi vəziyyətindən, konfliktli və ya demokratik olmasından asılı olaraq, yeniyetmələrdə özünüqiymətləndirmə müsbət və mənfi yönümdə inkişaf edir. Xüsusilə burada milli mentalitetin, etnik sterotipin və yönəlişlərin rolu danılmazdır.

Yeniyetməlik yaş dövrünün böhranlı xarakteri yeniyetmə şəxsiyyətinin formalaşmasında müstəqil əhəmiyyətə malik proseslərdə, o cümlədən, özünüdərketmədən yan keçməmişdir. Məhz bunun nəticəsində bu yaş dövrünü özünüdərkin və mənlik şüurunun formalaşmasında ən böhranlı dövr kimi təqdim edirlər.

Azərbaycan psixoloqları bir ənənə olaraq tədqiq etdikləri problemləri konkret yaş dövrləri ilə bağlasalar da, yeri gəldikcə psixikanın inkişaf dinamikasını daha aydın öyrənmək üçün onları başqa dövrlərlə də əlaqələndirmişlər. Məsələn, ünsiyyət və nitqin (M.Həmzəyev, Ş.Babayev), diqqətin (Ə.Zəkuyev, Ş.Ağayev, Ə.Əlizadə) qavrayışın(Ş.Ağayev, A.Fərəcov), hafizənin (A.Məmmədova, təfəkkürün (Ə.Bayramov, Ə.Qədirova), təxəyyülün (Ə.Əlizadə), hisslərin (Məhərrəmov, Q.E.Məhərrəmov) inkişaf və tərbiyəsi əsasən kiçik məktəb yaşı dövründə

daha ətraflı tədqiq edilməklə yanaşı, həmin tədqiqatlarda yeniyetməlik yaşı dövrü də diqqət mərkəzində olmuşdur. Son illərdə yeniyetməlik dövrünün psixoloji problemləri daha çox işlənməkdədir.

Azərbaycanda gənclik dövründə yaradıcılığın psixoloji məsələlərini ətraflı surətdə işiqlandıran, bununla da bədii əsərlərin psixoloji təhlilinə istiqamət verən əsərlər azdır. Buna görə də Azərbaycan psixoloqlarından M.S.Məmmədovun, Ş.S.Ağayevin, Ə.S.Bayramovun və Ə.Əlizadənin, T.Mustafayevin belə bir problemi tədqiq etmələri təqdirəlayiqdir.

İlk gənclik dövründə şagirdlərdə ədəbi bədii yaradıcılıq özünəməxsus xüsusiyyətlərə malik olur ki,onlar təlim prosesində nəzərə alınmalıdır. Bu yaş dövründə hafizə və təxəyyülün inkişafı ilə yanaşı, obrazların yaradılması, eləcədə azad fantaziya böyük rol oynamağa başlayır. Xəyal güclü şəkildə inkişaf edir. O, zaman və məkan hüdudundan kənarda sonsuz və nəhayətsiz, qeyri-aydın və fantastik olur. İlkgənclik dövründə oğlanlar və qızlar təbiət lövhələrində, incəsənət əsərlərində özlərinin şəxsi hiss və həyacanlarının əks-sədasını axtarırlar. Onlar təbiət hadisələrində, insanlar, əşyalar da estetk cizgilər görürlər ki, bunları ilk heç kəs görə bilmir.

Ədəbi yaradıcılıqla məşğul olan məktəblidə müşahidəçilik, həssaslıq, təbiətə, insanlara məhəbbət, biliyə həvəs kimi cəhətləri tərbiyə edir, onun xarakterində, temperamentində, ətraf aləmə münasibətində müsbət keyfiyyətlər yaradır. Məktəblilərin təlim-tərbiyəsi işində ədəbi-yaradıcılıq qabiliyyətinin böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq Ə.Əlizadə ədəbiyaradıcılıq qabiliyyətinin tərkib hissələrindən müşahidəçilik, gerçəkliyin poetik

qavrayışı, surət, hiss və hərəkət hafızəsi, yaradıcı təxəyyül, obrazlı təfəkkür, lüğət ehtiyatının zənginliyi və ifadəli dili, söz assosiasiyalarının zənginliyi və s. məsələlər üzərində ətraflı dayanmış,onların əsas xüsusiyətlərini elmi surətdə izah edir etmişdir.

Erkən gəncliyin hələ açılmamış psixoloji sirrləri çoxdur. Erkən gəncliyin psixologiyası ilə əlaqədar tədqiqatları qüvvətləndirmək və onları daha sanballı elmi əsər səviyyəsinə çatdırmaq lazımdır. Son dövrlərdə ali məktəb psixologiyasına aid də Azərbaycanda müəyyən tədqiqatlar aparılmışdır. Ali məktəb psixologiyası spesifik xüsusiyyətlərə malik olan ali təhsil illərində tələbə şəxsiyyətində baş verən psixoloji dəyişikliklərin qanunauyğunluqlarını öyrənir, müəllim-tələbə münasibətlərinin psixoloji məsələlərini aydınlaşdırır. Ali məktəb psixologiyası tələbə şəxsiyyətinin formalaşmasını, onlarda ictimai-siyasi təfəkkürün, əxlaqi hisslərin, fəal həyat mövqeyinin yaratmasının psixoloji problemlərini öyrənir. Elmin bu yeni sahəsi Azərbaycan psixoloqlarının da diqqətini cəlb etmişdir. Buraya, ilknövbədə, Bakı Dövlət Universitetinin psixologiya kafedrasında professor Ə.S.Bayramovun rəhbərliyi ilə aparılmış tədqiqatları aid etmək olar. Onun redaktorluğu ilə üç tematik məcmuə- «Tələbənin idrak fəalliyyəti və şəxsiyyətinin təşəkkülü» (Bakı, 1981), «Təlim-tərbiyə prosesində şəxsiyyətin fəallaşdırılmasının xüsusiyyətləri, yol və vasitələri» (Bakı, 1984), «Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri» (Bakı, 1985) hazırlanmış və Azərbaycan Dövlət Universitetinin nəşriyyatı vasitəsilə çap olunmuşdur.

Tələbənin peşə keyfiyyətləri, xüsusilə pedaqoji institutları bitirən tələbələrin müəllimlik peşəsinə yiyələn-

mələri həmişə pedaqoji psixologiyanın aktual problemlərindən biri olmuşdur. «Təlim prosesində tələbələrin peşə praktik fəallığının artırılmasının psixoloji məsələlərinə dair» (Ə.S.Bayramov) adlı məqalədə də bu məsələ haqqında danışılır. Tələbənin ixtisas fəaliyyətinə praktik hazırlığı psixoloji baxımından təhlil olunur.

Q. Əzimli, Ə.Baxşəliyev, C. Alıyev, M. Əbdulov, E. Quliyev və başqaları Azərbaycanda yeniyetməlik və Gənclik yaşı dövrünün psixoloji problemlərinin tədqiqindən danışarkən Bakı Dövlət Universitetinin psixologiya kafedralarının (B.Əliyev, K. Əliyeva, R. İbrahimbəyova) Eksperimental psixologiya elmi tədqiqat laboratoriyasının (B. Əliyev, R. Cabbarov) rolunu xüsusi ilə qeyd etməliyik. Burada gənc və istedadlı alim, AMEA – nın üxbir üzvü, prof. B.Əliyevin əməyi daha təqdirəlayiqdir. G.Əhmədova, E.Məmmədova, R.Cabbarov, M.Mustafayev və onlarla başqaları onun rəhbərliyi ilə namizədlik dissertasiyalarını müdafiə etmişlər.

Gənclik dövründə təfəkkür müstəqilliyi onun əsas funksiyalarını (tənzimedici, evristik və s.) müəyyən etməyə imkan verir. Təfəkkür müstəqilliyinin strukturuna gəldikdə isə burada əsas ikikomponent (idrak ziddiyyətlərini müəyyən etməyə hazırlıq vəziyyəti kimi və iradi müstəqillik) müəyyən edilmişdir.

Prof. Ə.S.Bayramov çoxillik müşahidə və eksperimentlərinə əsaslanaraq ilk gənclik yaşı dövrünün psixoloji portretini vermiş, onların düşüncə tərzini, xarakter xüsusiyyətlərini aça bilmişdir. Əsər bu gün də tələbələr tərəfindən oxunaqlı bir əsər kimi qiymətləndirilir. Gənclik və özünütərbiyə haqqında söhbət adlı kitab da tədqiq etdiyimiz problem baxımından da böyük əhəmiyyət kəsb edir.

Son illərdə yeniləşmiş Azərbaycanda gənclərimizdə özünü göstərən yeni psixoloji fikir, siyasi və ictimai dünyagörüşünün formalaşması xüsusiyyətlərinə xüsusi diqqət yetirmişdir. Buraya «Tələbə-gənclərin şəxsiyətlərinin strukturunda cinsi fərqlərin xüsusiyyətləri» (L.Qurbanova, nam. dss. Bakı, 2006), «Gənclərin mənəvi inkişafının bəzi sosial – psixolojicəhətləri» (M.Mustafayev, nam.diss. Bakı, 2006) adlı namizədlikdissertasiyalarında isə gənclərin şəxsiyyətinin formalaşmasının bu və ya digər xüsusiyyətləri təhlil olunur.

Azərbaycan psixoloqları konkret olaraq bu sahəyə bir neçə elmi-kütləvi əsərlər, məqalələr də həsr etmişlər. Bu sahəyə Ş.S.Ağayevin «Gənclərin mədəni davranışı», Ə.Bayramovun «Gənclərin özünütərbiyəsi haqqında» (Bakı, 1961), «Gənclik və özünütərbiyə haqqında söhbət», «Özünütərbiyə haqqında» (Ə.S.Bayramov, Bakı, 1972) adlı əsərləri qeyd edilməlidir. Bu əsərlərdə tərbiyənin mahiyyəti, tərbiyəyə təsir göstərən psixoloji amillər ətraflı şəkildə şərh olunur.

## Mövzu-11
## Pedaqoji psixologiya üzrə aparılan tədqiqatlar.

Ailə cəmiyyətin əsasını təşkil edir. O, ictimai təcrübənin toplanması, mənimsənilməsi və gələcək nəslə verilməsi prosesində iştirak edir. Ailə adamlara davranış mədəniyyəti, adət - ənənənə öyrədir. Ailənin ən mühüm sosial funksiyalarından biri böyüməkdə olan nəsli tərbiyə etməkdir. Bu sahədə də Azərbaycan psixoloqları öz sözlərini demiş və gənclərin ailə həyatına hazırlığının psixoloji məsələlərini göstərmişdir.

Yeniyetməlik və gənclik yaşında şəxsiyyətə xas olan bir sıra yeni keyfiyyətlər formalaşır. Bu dövrdə bu və ya digər mənəvi, sosial – psixoloji keyfiyyətlərin inkişafı və tərbiyəsi şagirdlərin təlimə münasibətində özünü göstərən psixoloji anlar Azərbaycan psixoloqlarının yaradıcılığında öz əksini tapır.

a) Pedaqoji psixologiyası üzrə aparılan tədqiqatlar

Tərbiyə problemi çox qədim bir tarixə malikdir. Tərbiyəyə aid ilk psixoloji fikirlər Azərbaycan xalqının təfəkkür qaynaqlarında (Atalar sözləri, nağıllar və bayatılar, hikmətli ifadələr, tapmacalar, lətifələr, laylalar, qarğışlar, qaya və daş rəsmləri, arxeoloji qazıntılar və s.), dini təsəvvürlərində (zərdüştlük, islam və s.) dahi şəxsiyyətlərin yaradıcılığında (X.Şirvani, N.Gəncəvi, N.Tusi, M.Fizuli, A.Bakıxanov və b.) öz əksini tapır. Tarixə qısa da olsanəzər salsaq daha aydın mənzərənin şahidi olarıq. Tərbiyəyə aid psixoloji fikirlər Qədim Yunan alimlərindən Falesin (e.ə. VII-VI), Pifaqorun (e.ə VI), Heraklit (e.ə. VI-V), Hipokratın (e.ə. 460-370), Sokratın (e.ə. 469-399) Platonun (e.ə. 428- 348),

Aristotelin (e.ə. IV) Avstriya psixoloqu Z.Freydin (1856 - 1939), İsveçrə psixoloqu J.Piajenin (1896-1894), Alman psixoloqu V.Şternin (1871-1938), Amerika psixoloqu M.Midin (1901-1978), Alman psixoloqu K.Vundtun (1879 - 1963), Fransız mütəfəkkiri J.J.Russonun (XVII əsr) və yüzlərlə digər dahilərin əsərlərində rast gəlirik. Bütün bunlar göstərir ki, gələcəyimizin qarantı olan gənc nəslin əsl vətəndaş kimi tərbiyə alıb cəmiyyətə qovuşması pedaqoq və psixoloqların həmişə diqqət mərkəzində olub və bu gün də onların diqqətini cəlb etməkdədir. Psixologiya elmində isə bu sahə ilə ən çox tərbiyə psixologiyası məşğul olur.

Tərbiyə psixologiyası pedaqoji psixologiyanın əsas sahələrindən biri olub tərbiyənin təşəkkülü, inkişafı və formalaşmasının qanunauyğunluqlarını öyrənir. Tərbiyə şəxsiyyətin formalaşmasına yönəlmiş xüsusi fəaliyyət sahəsidir. Bu prosesdə əsas vəzifələrdən biri şəxsiyyətin inkişaf edib təkmilləşməsidir. Tərbiyə hər bir cəmiyyətin başlıca vəzifələrindən biridir. Tərbiyə psixologiyası eyni zamanda şəxsiyyətin strukturu, əlamət və keyfiyyətləri, onun xassələrinin dəqiqləşdirilməsi məsələlərini də öyrənir. Tərbiyə psixologiyası tərbiyə edənlə tərbiyə olunanların qarşılıqlı münasibətlərinə də fikir verməyi vacib sayır. Şəxsiyyətin, o cümlədən tərbiyənin göstəriciləri, keyfiyyətləri, davranışın ixtiyarilik səviyyəsi, özünüdərk, özünəzarət, özünüqiymətləndirmə, məcburiyyət olmadandüzgün və əxlaqlı davranmaq tərbiyə psixologiyasının əsas vəzifələrindəndir.Tərbiyədə əsas problemlərdən biri özünütərbiyədir. Şəxsiyyətin özünütərbiyəsinin də psixoloji əsasları bu elm sahəsinin mövzusuna daxildir. Şagirdlərin əxlaq tərbiyəsinin psixoloji əsasları, «Çətin»

uşaqlarla işin psixoloji məsələləri, şəxsiyyətin əxlaqi - iradi sahəsini, əxlaqi və mənlik şüurunun, əxlaqi təsəvvür, anlayış və hisslərinin, adətlərin, başqa adamlara, özünə münasibətinin və digər məsələlərin psixoloji mexanizmlərini açmaqda tərbiyə psixologiyası böyük əhəmiyyətə malikdir. Bir sözlə tərbiyə psixologiyası şəxsiyyətin formalaşmasının psixoloji mexanizmlərini öyrənir.

Tərbiyə psixologiyasının cəmiyyətdəki mövqeyini nəzərə alaraq Azərbaycanda və İrandabu sahəyə aid xeyli tədqiqatlar aparılmışdır.

XX əsrdə Azərbaycanda pedaqoji psixologiyanın tərkib hissəsi olan tərbiyə psixologiyası üzrə aparılmış tədqiqatlar digərləri ilə müqayisədə fərqli xarakter daşımağa başladı.

Bildiyimiz kimi pedaqoji psixologiya üç bölmədən ibarətdir; təlim, tərbiyə və müəllim psixologiyası. Azərbaycan psixoloqları bu günə qədər öz yaradıcılıqlarının bu sahəyə xüsusi diqqət yetirməkdədirlər. «Yaxşı oxumağın sirri», «Təlim psixologiyasının bəzi məsələləri» (M.Ə.Həmzəyev, Ş.Babayev, N.M.Şükürova, Bakı, 1965), «Yaş və pedaqoji psixologiya» (Ə.Abdullayev, A.Məmmədov, Ə.Bayramov, Bakı, 1981), «Müasir dövrdə təlimin aktual psixoloji problemləri» (Ə.S.Bayranıov, 1981), «Əlifba təliminin bəzi psixoloji məsələləri» (R.M.Rəsulov), «Müasir təlim metodlarının psixoloji məsələləri haqqında» (Ə.Əlizadə», «Təlim probleminin psixologiyası» (Z.M.Mehdizadə) adlı məqalələr məhz bu niyyətlə yazılmışdır. Həmin əsərlərdə təlimin təşkilinin müxtəlif psixoloji məsələləri izah olunur, əsas psixoloji anlara diqqət yetirilir. Xalq maarifi milli təhsil konsepsiyasının prinsiplərinə uyğun olaraq elmi xarakter daşımalı, iqtisa-

diyyat, texniki tərəqqi, mədəniyyət nailiyyətləri əsasında daim təkmilləşdirilməlidir. Bu tələbi ödəmək məqsədi ilə müəyyən işlər görülmüş, maarifin gələcək inkişaf perspektivlərinin psixoloji əsasları tədqiq edilmişdir. Tərbiyənin keyfiyyətini yüksəltmək, elmlərin əsasına мöhkəm yiyələnmək, şagirdlərin ideya-siyasi və əxlaq tərbiyəsini yaxşılaşdırmaq və digər məsələlər araşdırılmışdır.

Qeyd etdiyimiz kimi pedaqoji psixologiyanın əsas bölmələrindən biri də tərbiyə psixologiyasıdır. Tərbiyə psixologiyası tərbiyə prosesinin təşkilinin qanunauyğunluqlarını, şəxsiyyətin formalaşması xüsusiyyətlərini öyrənir.

Əvvəla onu qeyd etmək lazımdır ki, Azərbaycanda tərbiyə elm və mədəniyyət mədəniyyətinin ana xəttini təşkil edir. Azərbaycan etnopsixologiyası, etnopedaqogikası, bənzərsiz adət ənənələrimiz əsrlərin qərinələrin qaynağında həmişə böyük tərbiyə məktəbi olmuşdur». Azərbaycanın görkəmli alim və mütəfəkkirləri, pedaqoq və psixoloqları, maarifçiləri həmin xalq təfəkkürü qaynaqlarından bəhrələnərək həmişə gənc nəslin tərbiyəsinə diqqət yetirmişlər.

XX əsr Azərbaycan psixoloji fikir tarixində tərbiyə psixologiyası üzrə xeyli işlər görülmüşdür. Azərbaycan psixoloqları gənc nəslin milli, hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasını bu günün ən vacib problemi kimi qəbul edir və yaradıcılıqlarında bu məsələyə ciddi fikir verirlər. Bunları təxminən də olsa aşağıdakı kimi qruplaşdırmaq olar:

I. Tərbiyənin ilk qaynaqlarının araşdırılması: (M.C.Məhərrəmov, Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev, Ə.Qədirov, B.Əliyev, S.Seyidov, Ə.Baxşəliyev, R.Əliyev, İ.Sultanova, U.Şiriyeva və başqaları)

II. Tərbiyənin təşəkkülü və inkişafının metodoloji problemlərinin tədqiqi. M.Məhərrəmov, Ş.S.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, R.Əliyev, B.Əliyev, S.Seyidov, Ə.Baxşəliyev, R.Cabbarov və b.)

III. Tərbiyənin formalaşmasında etnopsixoloji məsələlərin nəzərə alınması probleminin öyrənilməsi (Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev, R.Əliyev, B.Əliyev, Ə.Baxşəliyev, İ.Sultanova və b.)

IV. Tərbiyənin nəzəri - tarixi problemlərinin tədqiqi (Ə.Bayramov, Ə.Əlizadə, B.Əliyev, S.Seyidov, Ə.Baxşəliyev, R.Əliyev, Q.Əzimli və b.)

V. Təhsil, şəxsiyyət, tərbiyə problemlərinin eksperimental tədqiqi (B.Əliyev, R.Cabbarov və b.)

VI. Əmək, tərbiyə və inkişaf problemləri (Ş.S.Ağayev, K.Əbilov, Z.Aslanova vəb.)

VII. Tərbiyədə cinsi xüsusiyyətlərinin nəzərə alınması (Ə.Əlizadə və bu məktəbin davamçıları)

Ailə cəmiyyətin əsasını təşkiledir. O, ictimai təcrübənin toplanması, mənimsənilməsi və gələcək nəslə verilməsi prosesində iştirak edir. Ailə adamlara davranış mədəniyyəti, adət-ənənə öyrədir. Ailənin ən mühüm funksiyalarından biri böyüməkdə olan nəsli tərbiyə etməkdir. Bu sahədə də Azərbaycan psixoloqları öz sözlərini demiş, valideynlərə kömək məqsədilə maraqlı əsərlər yazmışlar. «Ailə həyatının etikası və psixologiyası» (Ə.Əlizadə, A.Abbasov, 1989), «Ailə pedaqogikasının müasir problemləri» (S.Quliyev, 2005), «Ailədə uşaqların oyunlarına rəhbərlik» (M.Həmzəyev, 1965) və başqalarını buna misal göstərmək olar.

Ailə tərbiyədə əsas məktəbdir. Hər şey ailədən başlayır. Ailədə sağlam mənəvi - psixoloji iqlim, qarşılıqlı

inam, hörmət, etibar olanda uşaqların şəxsiyyətinə hörmət etdikdə əsl tərbiyəyə nail olmaq olar. Azərbaycanın görkəmli pedaqoq və psixoloqu S.M.Quliyevin dediyi kimi:

- «Valideynlər uşaqlara əxlaq normaları ilə əlaqədar verdikləri təbləl追də heç cür yumşaqlılığa və dəyişkənliyə yol verməməlidirlər.

- Valideynlər uşaqlarını tərbiyə edərkən adətlərin gücündən geniş istifadə etməlidirlər. O uşaqlardan nə istəyir, nə tələb edirsə, onun üzərində möhkəm durması onu şüurlu surətdə təkrar etməyə məcbur etdirməlidir.

- Valideynlər tərbiyə məqsədilə övladlarının qarşısında qoyduğu əxlaqi tələbləri, onların yaşlarını nəzərə alaraq verməli və tez - tez dəyişdirməməlidirlər. Əks halda bu uşaqların şıltaqlığına səbəb ola bilər».

Azərbaycan psixoloqları XX əsrin ikinci yarısından başlayaraq bu sahəyə diqqəti daha çox artırmış, tərbiyənin formalaşmasının psixoloji problemlərinə aid sanballı əsərlər yazmışlar. Bunlardan aşağıdakıları xüsusi ilə qeyd etmək lazımdır. «Gənclik və özünü tərbiyə haqqında söhbət», «Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri», «Psixoloji etüdlər», «Psixoloji düşüncələr», «Etik psixologiya məsələləri», «Uşaqların mədəni davranış və adətlərin tərbiyəsi», «Gənclərin mədəni davranışı», «Yoldaşlıq və dostluq tərbiyəsi», «Tərbiyənin elmi pedaqoji əsasları», «Psixi inkişaf və tərbiyənin müasir problemləri», «Tərbiyə psixologiyası», «Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları», «Yaş və pedoqoji psixologiyanın müasir problemləri», «Pedoqoji psixologiya», «Psixologiya» (M.Həmzəyev və S.Seyidovun

redaktorluğu ilə, 2007), və başqalarını buna misal göstərmək olar.

Bir cəhəti xüsusi ilə qeyd etmək lazımdır ki, adını çəkdiyimiz bu əsərlərdə tərbiyə-psixologiyasının metodologiyası və metodikası şəxsiyyətin formalaşmasının psixoloji mexanizmləri, məktəbəqədər, kiçik məktəbli yaşlı uşaqların, yeniyetmə və gənclərin tərbiyəsində milli-etnik hisslərin, adət-ənənələrin rolu aydınlaşdırılır və tərbiyə haqqında klassik və yeni psixoloji nəzəriyyələr təhlil olunur. Tərbiyədə özünügörmə, nəzarət, özünüdərk, özünüqiymətləndirmə, mən konsepsiyası ətraflı misallarla şərh olunur ki, bunun da təlim-tərbiyə işində böyük əhəmiyyəti vardır. Qeyd etməliyik ki, tərbiyə psixologiyasına aid Azərbaycanda bir neçə doktorluq («Əmək, tərbiyə və inkişaf», «Yaradıcılığın sosial psixologiyası», «Psixologiya və bədii ədəbiyyatda şəxsiyyətin tipologiyası problemi» (K.Qurbanova, 2005), «Şəxsiyyətin yaradıcı potensialının formalaşmasını psixoloji problemləri», Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji problemləri» və yüzlərlə namizədlik dissertasiyaları («Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim - şagird münasibətlərinin rolu» (H.Əliyeva 2008), «Tərbiyəçinin ünsiyyət üslubunun məktəbəqədər yaşlı uşaqların qarşılıqlı münasibətlərinə təsiri», «Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili» yazılmışdır.

Azərbaycanda tərbiyə psixologiyası üzrə tədqiqatların aparılmasında Bakı Dövlət Universitetinin psixologiya kafedrasının (B.Əliyev), həmin kafedranın nəzdində fəaliyyət göstərən «Eksperimental psixologiya» elmi - tədqiqat laboratoriyasının (B.Əliyev, R.Cabbarov), Universitetdə 90-cı illərdə fəaliyyətə başlayan və böyük

uğurlara imza atan ixtisaslaşdırılmış dissertasiya şurasının (sədr B.Əliyev, katib R.Cabbarov), Azərbaycan Dövlət Pedaqoji Universitetinin psixologiya kafedraların (Ə.Əlizadə, Ə.Baxşəliyev), Azərbaycan Dillər Universitetinin psixologiya kafedrasının (S.Seyidov) Azərbaycan Təhsil Problemləri İnstitutunun psixologiya laboratoriyalarının (S.Qasımov, R.Əliyev, L.Əmrahlı) və digər ali məktəblərin psixologiya kafedralarının xüsusi rolu olmuşdur.

Azərbaycanda tərbiyə psixologiyasının müasir vəziyyəti onun gələcək inkişafı haqqında işıqlı proqnozlar verməyə imkan yaradır. «Tərbiyənin demoqrafik problemləri» (H.Əlizadə, 27), «Əsrin meqomeylləri», «Pedaqoji psixologiya» və başqa onlarla əsərləri buna misal göstərmək olar. «Pedaqoji psixologiya» adlı birinci kitab təxminən 200 səhifəni əhatə edir. Kitab müəllifləri dünya psixoloqlarının bu sahədəki son nailiyyətlərinə, Azərbaycan mili mənəvi dəyərlərinə, tərbiyə psixologiyasına aid son tədqiqatlara əsaslanaraq tərbiyə psixologiyası haqqında çox geniş və hərtərəfli elmi məlumatlar vermişlər. Burada tərbiyə psixologiyası həm Azərbaycan və həm də dünya səviyyəsində aparılmış psixoloji qaynaqlar əsasında şərh olunur. «Şəxsiyyət psixologiyasının tərbiyə effektləri», «H.Əliyev dövrün əzəmətli fəlsəfi, sosioloji və pixopedaqoji problemləri, Azərbaycançılıq konsepsiyası», «Mədəniyyət və təhsil», «Müasir Azərbaycan pedaqogikasının tərbiyə konsepsiyası», «Azərbaycan pedaqoji psixologiya aktual problemləri», kimi problemlərin yüksək səviyyədə şərh edilməsi kitabın məziyyətlərindəndir. Kitab XX və XXI əsrlərdə Azərbaycan

psixoloji fikir tarixinə dəyərli töhfə kimi qiymətləndirilməlidir.

Tərbiyə psixologiyası problemi Azərbaycanda nəşr olunmuş dərsliklərdə də ("Psixologiya" (1964), "Psixologiya" (1968), "Yaş və pedaqoji psixologiya" (1974), "Psixologiya" (2007), "Pedaqoji psixologiya" (2010), "Pedaqoji psixologiya" (2005), "Uşaq psixologiyası" (2005),"Uşaq psixologiyası" (2011), "Azərbaycan milli mənəvi dəyərlərin sosial-psixoloji mahiyyəti" (2011) öz əksini tapmışdır.

e)Təhsildə psixoloji xidmətlə bağlı Azərbaycanda aparılan tədqiqatlar

Təlim psixologiyasının nəzəri - tarixi problemləri, təlim və psixi inkişaf, əlaqəsi öyrənmənin psixoloji əsasları, təlim motivləri, təlim və şəxsiyyətlərarası qarşılıqlı münasibətlər, təlimin fərdiləşdirilməsi, humanistləşdirilməsi, təhsilin idarə olunmasının psixoloji məsələləri, təhsil və şəxsiyyət və digər problemlər Azərbaycan və İran psixoloji fikir tarixində diqqət mərkəzində duran problemlərdəndir. Qloballaşan dünyada elm və mədəniyyətlərin, təhsilin bir – birinə yaxınlaşması, xüsusi ilə İran və Azərbaycanda təhsilin qərbə inteqrasiyası bu problemi daha da aktuallaşdırır. Təhsil sisteminə psixoloji xidmət geniş və zəngin inkişaf tarixinə malik olub, hər bir xalqın o cümlədən İran və Azərbaycanın təhsil və psixologiyasını özündə əks etdirir. Bu problem birinci növbədə onların – təfəkkür qaynaqlarında tarixi şəxsiyyətlərin yaradıcılığında, dini təsəvvürlərində təşəkkül tapmış və sonralar sistemləşdirilərək ayrıca elm kimi formalaşmışdır. Yunan alimlərindən Platonun, Aristotelin, Vundtun yaradıcılıqlarında pedaqoji psixoloji effektlər önəmli yerlərdən

birini tuturdu. 1957-ci ildə Y.A.Komenskinin «Böyük didaktika» əsəri 1868-1869-cu ildə K.D.Uşinskinin «İnsan tərbiyə predmeti kimi» əsəri 1876-cı ildə, P.F.Karteçevin «Pedaqoji psixologiya» kitabı, L.S.Vıqotskinin «Pedaqoji psixologiya» kitabı nəşr olundu. Bu əsərlər təhsidə psixoloji xidmət probleminə bir təkan verdi. Sonradan J.JPiaje, V.Vallon, V. Ştern, P.P.Blonski və yüzlərlə başqaları bu sahədə uğurlu addım atdılar. Azərbaycan (A.O.Makovelski, Ə.K.Zəkuyev, M.Məhərrəmov, Ş.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev və b.) psixoloqları da bu sahədə mühüm işlər gördülər.

XX əsrdə Azərbaycan psixoloji fikir tarixində də təhsilin psixoloji problemlərinin öyrənilməsinə xüsusi fikir verilmişdir.

XX əsrdə Azərbaycanda təlim psixologiyası üzrə апарылан tədqiqatları şərti də olsa aşağıdakı şəkildə qruplaşdırmaq olar;

I. Azərbaycan şifahi xalq yaradıcılığı nümunələrində (nağıllar, atalar sözləri və zərb məsəllər, bayatılar, nəğmələr, tapmacalar, laylalar, alqışlar, qarğışlar, dastanlarda, oyunlar və s), dini təsəvvürlərdə, tarixi şəxsiyyətlərin yaradıcılığında, təlim psixologiyasına aid psixoloji tədqiqatlar; (A.O.Mokovelski, M.C.Məhərrəmov, Ə.Bayramov, Ə.Əlizadə, B.Əliyev, Q.E.Əzimli, Ə.Baxşəliyev, R.Əliyev, İ.Sultanova, L.Əmrahlı, N.Rzayeva və b)

II. Təlim psixologiyasının nəzəri-tarixi problemlərinin öyrənilməsi: (Ə.K.Zəkiyev, S.Hacıyev, Ş.S.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev, B.Əliyev, S.Seyidov, P.Cabbarov, Ə.Baxşəliyev, Q.Əzimli və b.)

III. Psixologiyanın müxtəlif sahələri üzrə yazılmış dərsliklərdə təlim psixologiyasına aid problemlərin qoyuluşu. (M.Məhərrəmov, Ş.S.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, M.Ə.Həmzəyev, Ə.Qədirov, S.Seyidov, B.Əliyev, R.Əliyev, L.Əmrahlı, və b.).

IV.Tərbiyə, təhsil, şəxsiyyət problemləri ilə bağlı aparılan psixoloji tədqiqatlar. (Ş.S.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, H.Əlizadə, Q.Əzimli, Ə.Qədirov, M.Ə.Həmzəyev, A.Məmmədov, B.Əliyev, İ.Seyidov, R.Əliyev, Ə.Baxşəliyev, R.Cabbarov və b.)

V.Psixoloji biliklərin məktəb təcrübəsinə tətbiqi istiqamətlərində aparılan tədqiqatlar. (M.Abbasov, S.Hacıyev, M.Hacıyev, Ş.S.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev, Ə.Qədirov, B.Əliyev, İ.Məmmədov, S.Seyidov, R.Əliyev və b.)

VI.Namizədlik və doktorluq dissertasiyaları səviyyəsində təlim psixologiyasının tədqiqi (Ş.S.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev, Ə.Qədirov, A.Məmmədov, Q.Əzimli, B.Əliyev, S.Seyidov, K.Əliyeva, E.Şəfiyeva, R.Qədirova, S.Məcidova və b.)

VII.Pedaqoji təmayüllü dövri mətbuatda, habelə elmi - kütləvi xarakterli əsərlərdə təlim psixologiyasının öyrənilməsi. (M.Abbasov, S.Hacıyev, M.Hacıyev, Ş.S.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, M.Həmzəyev, Ə.Qədirov, B.Əliyev, İ.Məmmədov, S.Seyidov, R.Əliyev və b.)

VIII.Təhsil problemlərinin milli-etnik xüsusiyyətlərinin nəzərə alınması sahəsində aparılan tədqiqatlar (M.C.Məhərrəmov, Ş.S.Ağayev, Ə.Bayramov, Ə.Əlizadə, M.Ə.Həmzəyev, B.Əliyev, S.Seyidov, R.Əliyev, L.Əmrahlı, İ.Sultanova, H.Rzayeva və b).

XX əsrin 30-40-cı illərində Azərbaycanda milli psixoloji kadrların az olmasına baxmayaraq yenə də bu sahəyə aid xeyli əsərlər yazılmışdır. «Körpə uşağın tərbiyəsi» (A.O.Makovelski, 1940), «Uşaq inkişafının ana rəhimli dövrü» (A.O.Makovelski, 1931), «Uşaqlarda diqqətin inkişafı» (A.O.Makovelski, 1940) adlı elmi-kütləvi xarakterli əsərlər və bir neçə namizədlik dissertasiyaları «Böyük məktəbəqədər yaşlı Azərbaycanlı uşaqlarda lüğət ehtiyatının inkişafı» ( ), «Musiqi hafızəsinin psixoloji təbiəti» ( ), «İbtidai məktəbin I-II sinif şagirdlərində idrak maraqlarının inkişafı» ( ), «Təmin prosesi ilə əlaqədar olaraq I sinif Azərbaycan şagirdləri də söz ehtiyatını inkişafı» ( ) və onlarca başqaları məhz bu illərdə yazılmışdır.

Artıq XX əsrin 50-60-cı illərində bu sahədə daha geniş tədqiqatlar aparılmağa başlandı. Bir neçə elmi – kütləvi əsərlər- «Yaxşı oxumağın sirri» ( ), «Uşaq psixologiyası məsələlərinə dair» ( ), «Şagirdlərdə əqli keyfıyyətlərin inkişaf xüsusiyyətləri» ( ). «Əmək, tərbiyə və inkişaf» ( ), «Şagirdlərdə təxəyyülün inkişafı» ( ) və yüzlərcə bu qəbildən əsərlər işıq üzü gördü. Bu əsərlərdə təlim psixologiyasının mahiyyəti, təlimdə psixi xüsusiyyətlərin nəzərə alınması, təlim və təfəkkür, təlim və təxəyyül və digər problemlər şərh olunur və dünya psixoloqlarının bu sahədəki ideyaları Azərbaycana gətirilirdi.

1960-70-ci illərdə artıq Azərbaycanda peşəkar psixoloqlar ordusu (Ş.S.Ağayev; Ə.Bayramov, M.Həmzəyev, Ə.Əlizadə, Ə.Qədirov, A.Məmmədov, Q.Əzimov və başqaları) formalaşmağa başladı.

Artıq bu illərdə təlim psixologiyası üzrə kəmiyyət və keyfiyyətcə daha sanballı əsərlər yazılırdı. «Yaxşı oxumağın sirri», «Təlim psixologiyasının bəzi məsələləri» (M.Həmzəyev və başqaları, 1975), «Təlim psixologiyası və müasir dərs»,«Şagirdlərdə yaradıcı fəaliyyətin psixologiyası», «Kiçik məktəb yaşlı şagirdlərdə mücərrəd təfəkkürün inkişafı»adlı əsərlərdə və onlarla doktorluq dissertasiyalarında (Ş.S.Ağayev, M.Həmzəyev, Ə.Əlizadə, Ə.Qədirov və b.), çoxlu sayda namizədlik dissertasiyalarında (K.Əbilov, Q.Əzimov, İ.Fərəcov, İ.Məmmədov, Ş.Babayev, M.Əbdülov, A.Məmmədov və b.) təlim psixologiyasının nəzəri, tarixi və metodoloji problemləri psixologiya elminin son nailiyyətləri əsasında yüksək elmi səviyyədə şərh olunurdu.

1980-1990cı və müstəqillik illərində psixologiya o cümlədən onun xüsusi bir sahəsi olan təlim psixologiyası üzrə tədqiqatlar yeni bir vüsət aldı.

Belə ki, Azərbaycan psixoloqları məktəbəqədər yaş dövründən başlamış, gənclik yaşı dövrü də daxil olmaqla bütün yaş mərhələlərində təlimin formalaşmasının psixoloji qanunauyğunluqlarına aid dünya əhəmiyyətli əsərlər yazmışlar.

Azəbaycan psixoloqları əvvəlki illərdə olduğu kimi son dövrlərdə də təlim psixologiyasına xeyli sanballı əsərlər («Uşaqların məktəbə hazırlığınını psixoloji məsələləri», «Yeni pedaqoji təfəkkür», «İstedadlı uşaqlar», «Yaş və pedaqoji psixologiya məsələləri» (M.Həмzəyev, 2003) «Şəxsiyyətə yeni baxış nəzəriyyəsi», «Müasir Azərbaycan məktəbinin psixoloji problemləri», «Xəmsə»də yaş və pedaqoji psixologiya məsələləri», «Əsrin meylləri:

psixolo meyllər», «Təlimin psixoloji məsələləri», «J.Piajenin nəzəriyyəsinin təlim fəaliyyəti üçün əhəmiyyəti haqqında», «Yaş və pedaqoji psixologiyanın müasir problemləri» «Şagird şəxsiyyətinin formalaşdırılmasında milli xüsusiyyətlərin nəzərə alınması», «Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları», «Məktəbə psixoloji xidmətin əsasları», «Psixoloji xidmətin əsasları» və b.) yazmış və təlimin səmərəli təşkili sahəsində müəlimlərə, valideynlərə əməli kömək göstərmişlər.

XX əsrdə Azərbaycan psixoloji fikir tarixində təlim psixologiyası ilə tədqiqləri araşdırarkən məlum oldu ki, ən çox işlənən bu sahədir. İyirmiyə yaxın doktorluq, yüzdən artıq namizədlik disertasiyalarının, iki yüzə yaxın iri həcmli monoqrafiyaların minlərlə elmi kütləvi əsərlərin, məqalələrin yazılması dediklərimizə əyani sübutdur. Azərbaycan psixoloqları tədqiq etdikləri bütün sahələrdə az da olsa bu problemə toxunmuşlar. Bu isə Azərbaycan psixoloqlarının təhsil siyasətinə yaxından kömək etmələrinin bariz nümunəsidir. Burada çox maraqlı eksperimentlər aparılırdı. Laboratoriyanın elmi işçisi V.Vadimov 300-ə qədər şagird üzərində eksperiment aparmış və şagirlərdə peşə qabiliyyətlərini müəyyənləşdirmişdir. O, yeniyetmələrdə ümumi peşə keyfiyyətləri ilə bərabər, sırf fərdi peşə keyfiyyətlərinin də aşağıdakı kimi ayırd etmişdir: l.Diqqət; 2. Diqqətin həcmi; 3. Konstruktiv düşüncə; 4. Görmə hafızəsi; 5. Görmə duyğusu; 6. Diqqətin gərginliyi; 7. Sağ əlin dəqiq hərəkəti; 8. Məntiqi təfəkkür və s. 1926-cı ildə laboratoriyada aparılan tədqiqatların nəticəsi kimi «Yeniyetmənin hərəkət sahəsinin istehsalat təlimi sisteminin təsiri məsələsinə dair» adlı kitab nəşr

olunur. 1931-ci ildə isə indiki Azərbaycan Təhsil Problemləri İnstitutunda təlim - tərbiyə işlərinə pedaqoji — psixoloji kömək məqsədi ilə dörd laboratoriya (pedaloji əmək, pedaqoji, psixoloji) yaradıldı. Sonralar pedoloji laboratoriya ləğv edildi. İndi instututda həmin laboratoriyaların ənənələrini iki laboratoriya (psixologiya və yaş fiziologiyası və ekskursiv təlim: davam etdirir. 1959-1974-illərdə isə Bakının 31 saylı məktəbində psixologiya laboratoriyası fəaliyyət göstərmişdir. (M.Ə.Həmzəyev, Z.Mehdizadə).

Azərbaycanda təlim psixologiyası üzrə eksperimental tədqiqatlarınaparılmasında Bakı Dövlət Universitetinin (B.H.Əliyev, K.R.Əliyeva), Azərbaycan DövlətPedaqoji Universitetinin (Ə.Əlizadə, Ə.Baxşəliyev), Azərbaycan Dövlət DillərUniversitetinin (S.Seyidov), Bakı Slavyan Universitetinin psixologiya kafedraları əməkdaşlarının əməyi xüsusi ilə qeyd edilməlidir.

Azərbaycanda təhsildə psixoloji xidmətdən danışarkən Bakı Dövlət Universitetində fəaliyyət göstərən dissertasiya şurasının və «Eksperimental psixologiya» elmi - tədqiqat laboratoriyasının fəaliyyəti xüsusi ilə qeyd edilməlidir. 1994-cü ildən fəaliyyət göstərən həmin şurada (sədr AMEA-mn müxbir üzvü, prof. B.H.Əliyev, katib R.Cabbarov), təlim psixologiyasına aid ondan artıq doktorluq və 50-yə yaxın namizədlik dissertasiyası müdafiə olunmuşdur. Eksperimental psixologiya laboratoriyasının (rəhbər prof. B.H.Əliyev) tədqiqat dairəsi isə çox genişdir. Burada aparılan tədqiqatlar iri həcmli əsərlərlə həyata vəsiqə alıb. Belə əsərlərdən biri də çapdan çıxmış

«Təhsildə şəxsiyyət problemi» (1996) adlı qiymətli tədqiqat əsəridir.

Kitabda Azərbaycanın təhsil siyasəti ilə bilavasitə əlaqədar olan bir sıra problemlər (Heydər Əliyev və təhsil siyasətinə bir baxış, təhsilin psixoloji məzmunu, təlim situasiyaları və dərs, müəlimin dərs hazırlığının psixoloji məsələləri, müəlim - şagird münasibətləri, təhsildə şəxsiyyət yanaşılmasının psixoloji məsələləri, təhsildə şəxsiyyətin özünü gerçəkləşdirməsi, təhsil və psixoloji sağlamlıq problemi və s.) öz əksini tapır. Kitabda ilk dəfə olaraq təhsildə şəxsiyyətə yanaşma səviyyələri göstərilir. Müəlliflərin fikrincə təhsilin səmərəliliyi naminə aşağıdakı psixoloji şərtlər gözlənilməlidir. «Əvvəla təhsil mühiti inteqrativ əlaqədə götürülməli, konkret təhsil şəraitinin şəxsiyyətin formalaşmasına göstərdiyi təsir mexanizmi ayırd edilməldir.

İkincisi, şəxsiyyət kimi formalaşma, əqli cəhətdən formalaşmadan təhsil işçiləri tərəfindən fərqləndirilmir.

Üçüncüsü, şagird və tələbənin şəxsiyyət kimi formalaşması üçün zəruri olan özünütəsdiqə və gerçəkləşdirməyə təlim prosesində şərait yaradılmır.

Dördüncüsü, təlim materillarının, onların tədrisi metodikasının şəxsiyyətlə bağlılığına hər tərəfli diqqət yetirilmir.

Beşincisi, sosial-iqtisadi şəraitin dəyişilməsi fonunda təhsildə uzun illərdən bəri yığılıb qalmış psixoloji məsələlər həll edilməmiş qalır. Qeyd etməliyik ki, bu cəhətlər birbaşa şəxsiyyətin formalaşması ilə vəhdətdə qırılmaz əlaqədədir».

Azərbaycanda müasir təlim psixologiyasına aid aparılan ilk tədqiqatlar daha ürəkaçandır. «Əsrin

meqomeylləri», «Pedaqoji psixologiya», «Yaş və pedaqoji psixologiyanın əsasları» (M.Həmzəyev, 2003), «Yaş və pedaqoji psixologiyanın müasir problemləri», «Müasir Azərbaycan məktəbinin psixoloji problemləri» (54), «Təhsildə şəxsiyyət problemi», «Tələbə – müəllim münasibətlərinin təlim prosesinə təsiri» (B.Əliyev, 1998), «Yeni tip müəllim hazırlığına dair» (B.Əliyev, 2008), «Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması» adlı əsərlər və yüzlərlə digər tədqiqatlar dövrümüzə bariz nümunədir. «Pedaqoji psixologiya» (I kitab) şərh etdiyimiz problem baxımından daha çox diqqət cəlb edir. Kitabda XX əsr Azərbaycan psixoloji fikir tarixində ilk dəfə olaraq təlimin psixoloji problemləri (pedaqoji psixologiyanın ilk qaynaqları, pedaqoji psixologiyanın mövzusu, vəzifələri, üsulları, «Psixoloji xidmət və onun Azərbaycanda inkişafı» müəllimin psixoloji xüsusiyyətləri, təlim psixologiyasının prioritet problemləri, «Öyrənmənin texnologiyası», «Məktəbdə əsrin texnoloji qaynaqları» və digər problemlər yüksək elmi səviyyədə şərh olunur. Cəsarətlə deyə bilərik ki, Azərbaycan müəllimləri, psixoloqları, o cümlədən qonşu xalqların müəllim və tərbiyəçiləri təlimin istənilən problemlərinə aid materialı bu əsərdən ala bilər. Məktəbin işıqlı yolu həmişə enişli – yoxuşlu olub. O, enişli yolda özünün, necə deyərlər, intibah ömrünü yaşayıb. Məktəb bu gün iki yolun ayrıcındadır. Bu yolayrıcı əslində iki pedaqoji sistemi pedaqoji təfəkkür tərzini və üslubunu səciyyələndirir. Sistemli «Ənənəvi didaktika» və ya «ənənəvi pedaqoji sistem» ikinci pedaqoji sistem isə «yeni pedaqoji təfəkkür» «müasir təhsil konsepsiyası» kimi səciyyələndirir. Kitabdan müəllim və tərbiyəçilər,

pedaqoq və psixoloqlar, magistr doktorantlar, tələbələr geniş istifadə edirlər. Kitab həm dərslik həm də çox qiymətli bir tədqiqat əsəri kimi yüksək dəyərləndirilməlidir. Azərbaycanda mili psixologiya sahəsində respublikanın pedaqoqlarından Ə.Seyidovun, M.Mehdizadənin, M.Muradxanovun, N.Kazımovun, H.Əhmədovun, A.Mehrabovun, N.Muxtarovun, Ə.Talıbovun, Ə.Ağayevin, S.Quliyevin, R.Mürsəqulovanın, Ş.Əliyevanın xidmətləri xüsusilə qeyd edilməlidir.

Yuxarıda adlarını çəkidiyimiz bu və ya digər tarixi qanunauyğunluqlar Azərbaycan psixoloqlarını fəaliyyətinə bir stimul olmuş və onları yeni - yeni əsərlər yazmağa ruhlandırmışdır.

Tədqiqat göstərdi ki, Azərbaycan psixoloqları əvvəlki ənənələrə sadiq qalaraq müasir dövrdə də təlimin müxtəlif sahələrinə aid xeyli tədqiqatlar aparmış və bu yolla da təhsilə müxtəlif istiqamətlərlə kömək göstərmişlər. «Yeni pedaqoji təfəkkür», «Pedaqoji psixologiya», «Müasir Azərbaycan məktəbinin psixoloji problemləri», «J.Piajenin nəzəriyyəsinin təlim fəaliyyəti üçün əhəmiyyəti haqqında», «Müəllim – tələbə münasibətlərinin təlim prosesinə təsiri» (B.Əliyev, 1998), «Əqli keyfiyyətlərin formalaşmasında etik milli amillərin rolu» (Beynəlxalq elmi konfransın tezisləri» (B.Əliyev, 1992), «Yeni tip müəllim hazırlığına dair» (B,Əliyev, Beynəlxalq konfransın materialları, 2007), «Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması», «İstedadlı uşaqlar», «Psixoloji xidmətin əsasları», «Xəmsədə yaş və pedaqoji psixologiya məsələləri və yüzlərlə belə əsərləri buna misal göstərmək olar.

q) müəllim şəxsiyyətinə verilən tələblərlə bağlı Azərbaycan psixoloqlarının tədqiqatları

Pedaqoji psixologiyanın öyrəndiyi sahələrdən biri də müəllim şəxsiyyəti ilə bağlı problemlərdir. Təbii ki, təlimdə heç bir yeni texnologiya, kompyuter müəllimi, onun şəxsiyyətini, təsir dairəsini əvəz edə bilməz. Bununla belə o, yeni texnologiyalara bələd olmalıdır.

Müəllim psixologiyanı bilməlidir. Psixologiyanı bilmədən müəllim şagird kollektivini, təlim-tərbiyə prosesini idarə edə bilməz. Psixoloji hazırlığa malikolan müəllim uşaqlarda biliyə həvəs oyadır, oxumağın yollarını öyrədir. Təəssüflər olsun ki, belə müəllimlərimiz hələlik azdır.

Məktəbdə psixoloji xidməti yaxşılaşdırmaq üçün müəllim gündəlik psixoloji ədəbiyyatları izləməli, psixologiyanın son, elmi nailiyyətlərini məktəb təcrübəsinə tətbiq etməyi bacarmalı, şagirdlərin hər yaş dövrünün psixoloji qanunauyğunluqlarını bilməli, praktiki psixologiyanın əsas sahələrindən olan psixodiaqnostika, psixoproqnostika və idarəetmə psixologiyasının imkanlarından istifadə etməlidir.

Şagirdlərin ictimai-siyasi, mənəvi tərbiyəsində təzahür edən pedaqoji-psixoloji faкtorlar və həmin faktorardan təlim-tərbiyə prosesində istifadə etmək imkanlarının üzə çıxarılması da bu baxımdan vacib cəhətlərdəndir.

Müəllimlər bir şagirdin biliyinin xarakterini, məsələn, həmin biliklərin sistemli, ümumiləşdirici, möhkəm və davamlı olmasını: ayrı-ayrı təlim fəaliyyəti üzrə ehtiyat biliklər və onlardan istifadə etmək bacarığını, təlim materiallarını mənimsəmə imkanlarını, hazırda onun təlimə münasibətinin motivləri və onların ierarxik xüsusiyyətlərini, təlim işində hiss, emosional xarakterini və s.

dərindən öyrənib gündəlik məktəb təcrübəsinə tətbiq etsə, bu, işə daha çox kömək edər.

Təlim prosesi elə qurulmalıdır ki, şagirdlərdə müstəqil bilik əldə etmək, informasiyaları seçmək bacarığı artıq onların həyat məqsədinə çevrilsin.

Bunun üçün hər bir müəllim və tərbiyəçi təlim materiallarının mənimsənilməsinin mexanizmlərini bilməli və işində həmişə həmin anlara fikir verməlidirlər.

Şagirdlərdə təlimə qarşı istək və arzu, maraq, meyl yaradılmalıdır. Təlimdə formalizm və əzbərçiliyə yol verilməməlidir. Şagirdlər öyrəndiyi təlim materiallarını düzgün anladıqda onları təfəkkür süzgəcindən keçirərək həyat hadisələri ilə müqayisə edib, praktiki və elmi fəaliyyətlərində ondan geniş istifadə edirlər.

Müəllimini təlim fəaliyyətindəki rolu Azərbaycan psixoloqlarının diqqət mərkəzində olmuşdur. Təlimdə müəllimin yeri, mövqeyi, onun peşə qabiliyyətləri, bilik, bacarıq və vərdişləri, siyasi və ictimai – sosial fəallığı pedaqoq və psixoloqları həmişə maraqlandırmışdır. Müasir müəllim kim olmalıdır. Onun psixpedaqoji portreti, şəxsi keyfiyyətləri, təlim – tərbiyədə mövqeyi, şagirdlərlə, tələbələrlə ünsiyyət üslubu qiymətləndirmə mövqeyi, nüfuzu, şagirdlər arasında etimad qazanması və digər məsələlər Azərbaycan psixoloqlarının araşdırmalarında az da olsa öz əksini tapır.

Azərbaycan psixoloji fikir tarixində də müəllim psixologiyasının öyrənilməsinə xeyli elmi kütləvi əsərlər, məqalələr həsr olunmuşdur. Bir çox dərsliklərdə isə konkret olaraq təlim prosesində müəllimin şəxsiyyətinə verilən tələblər təcrübə və mövqeyindən şərh olunur. «Pedaqoji psixologiya», «Pedaqoji psixologiya» digər dərsliklərdə müasir Azərbaycan müəlliminin psixoloji

portreti inandırıcı boyalarla təsvir olunur. Artıq XX əsri yola sadıq. XXI əsrin ilk onilliyi də arxada qalmaqdadır. İndiki dövr elm və texnikanın surətlə inkişaf mərhələsidir. Zamanın surətli inkişafına cavab verən, yeni pedaqoji təfəkkür sahibi olan müəllim ordusuna ciddi ehtiyac var. Bu günün müəllimi 30-40 il bundan əvvəlki biliklər və zamanın tələbləri ilə ayaqlaşa bilməz. Bu günün müəllimi necə olmalıdır? «Hansı yeni psixoloji keyfiyyətlərə, bacarıq və vərdiş-lərə malik olmalıdır? Onun şagirdlərlə, tələbələrlə, valideynlərlə münasibətləri hansı səviyyədə olmalıdır? Müəllim nüfuzu necə qazanılır? Müəllim və valideyn əlaqələri hansı formada qurulmalıdır? Müəllimin təlim prosesində psixoloji roluna bu və digər dərəcədə aydınlıq gətirən dəyərli əsərlər yazılmışdır ki, onlardan bu gün geniş istifadə etmək olar: Bu əsərlər sırasında «Gənc müəllimin pedaqoji faliyyəti prosesində qarşılaşdıqları çətinliklərin psixoloji təhlili» (C.Alıyev, nam. Dis. 1998), «Müəllimin psixologiya sahəsində hazırlıq səviyyəsinin yüksəldilməsi (Ə.Əlizadə, 1966), «Müəllim – tələbə münasibətlərinin təlim prosesinə təsiri» (B.Əliyev, 1988), «Yeni tip müəllim hazırlığına dair» (B.Əliyev, Beynəlxalq konfrans, 2007) və s. göstərə bilərik.

## Mövzu-12
## Əmək psixologiyası üzrə aparılan tədqiqatlar.

Suveren Azərbaycan Respublikasının yarandığı bir şəraitdə gənclərin əmək tərbiyəsi daim aktuallıq kəsb edir. Əmək hər bir insanın əsas fəaliyyət meyarıdır. Bu meyarın formalaşması məktəb yaşlarından başlayır. Ona görə də məktəblilərdə peşəyönümünün təşəkkülü, əmək vərdişlərinin formalaşması məsələləri psixoloqları maraqlandırmışdır. Azərbaycan psixoloqları əmək psixologiyası problemlərinin elmi tədqiqinə hələ ilk illərdən başlamışlar.

Respublikamızda əmək psixologiyası üzrə ilk tədqiqata 1924-cü ildə Azərbaycan Neft Birliyinin peşə-texniki təhsili şöbəsindən başlanmışdır. 1919-1927-ci illərdə həmin problem üzrə F.Ə. İbrahimbəyov, V.M. Vadimov və başqaları maraqlı tədqiqatlar aparmışlar. F.Ə. İbrahimbəyovun Bakı şəhəri texniki peşə məktəbləri şagirdləri üzərində apardığı psixotexniki tədqiqlər (Bakı, Tibb jurnalı, 1925, №1) bu baxımdan diqqəti cəlb edir. Müəllif texniki peşə məktəblərinə gələn şagirdlərin peşə hazırlığı, maraq və meylini, seçdikləri peşə üzrə bilik, bacarıq və vərdişlərini öyrənməyi qarşısına məqsəd qoymuş və buna qismən nail olmuşdur. O, xarici ölkə və yerli psixoloqların metodikalarından istifadə edərək, hər bir peşə üçün fiziki hazırlıqla yanaşı, sırf psixoloji keyfiyyətləri də (diqqətin düzgün paylanmasını, hafizəni, müşahidəçilik qabiliyyətlərinin inkişafını, ritmikliyi, şəraitə uyğunlaşmanın olmasını) öyrənmişdir. Müəllif 1924-1925-ci tədris illərində Azneftin peşə oriyentasiyası eksperimental laboratoriyasında 350 şagird üzərində fərdi və kollektiv təcrübələr

apararaq, şagirdlərdə ümumi və fərdi peşə keyfiyyətləri aşkar etmişdir.

Ümumi keyfiyyətlərə:

1. Diqqət.
2. Diqqətin Həcmi.
3. Konstruktiv düşüncə.
4. Görmə hafizəsi.
5. Görmə duyğusu.

Fərdi keyfiyyətlərə:

1. Əl əzələlərinin gücü.
2. Zərbənin dəqiqliyi.
3. Əllərin cəldliyi.
4. Sağ əlin hərəkəti.
5. Diqqətin gərginliyi.
6. Məntiqi təfəkkür aiddir.

XX əsrin birinci onilliyindən başlayaraq əmək psixologiyası xeyli inkişaf etmiş, bu sahədə yeni tədqiqat əsərləri nəşr olunmağa başlamışdır. 1926-cı ildə V.Vadimovun "Yeniyetmənin hərəkət sahəsinə istehsalat təlimi sisteminin təsiri məsələlərinə dair" maraqlı tədqiqi, Azərneftbirliyi nəzdindəki laboratoriyanın fəaliyyətinin nəticələri kimi çap olundu.

Azərbaycanda əmək psixologiyasının inkişafında Ş.S. Ağayevin, K.S. Əbilovun, İ.N. Məmmədovun, İ.Ə. Fərəcovun və başqalarının xidmətləri daha çox olmuşdur. Problemin tədqiqi tarixinə ardıcıllıq baxımından yanaşsaq, bu sahədə ilk namizədlik dissertasiyası F.Ə. İbrahimbəyovun rəhbərliyi ilə K.S. Əbilov tərəfindən yazılmışdır. "Kiçik yaşlı məktəblilərdə əməksevərliyin inkişafı" (Bakı, 1964) adlı həmin dissertasiyada əməyin insan həyatında rolu, kiçik yaşlı məktəblilərdə əməksevərliyi təşəkkülü,

inkişafı, tərbiyəsi yolları inandırıcı faktlarla təhlil olunur, bir sıra qiymətli fikirlər irəli sürülür. Dissertasiyada şagirdlərdə əməksevərliyi göstərən psixoloji çalarlar, səviyyələr aşkar edilir. Müəllif apardığı təcrübələrə əsasən müəyyənləşdirir ki, əməksevər şagirdlər kənar işlərlə məşğul olmur, onlar iş üçün darıxırlar. Onlar öz əməklərinin əhəmiyyətini müxtəlif nöqteyi-nəzərdən dərk edirlər. Həmin şagirdlər üçün ən xarakterik cəhət əməyin həm özü, həm də ətrafdakılar üçün böyük əhəmiyyətə malik olmasını dərk etmələridir. Bu şagirdlər həm özü, həm də ətrafdakılar üçün işləyirlər. Dissertasiyada kiçik yaşlı məktəblilərdə əməksevərliyin təşəkkülünün üç mərhələsi ayırd edilir. Birinci mərhələ ayrı-ayrı işlərin yalnız sözdə, sevincdə başlamasıdır. Əməksevərliyin inkişafının ikinci mərhələsində sözlə iş, hisslə fəaliyyət arasında bir uyğunluq yaranır və şagirdin əməksevərliyi yalnız sözdə deyil, həm də fəaliyyətdə təzahür edir. Üçüncü mərhələ az-çox çətinliklərlə bağlı olan mərhələdir. Bu mərhələdə şagird əməyi nəinki sözdə sevir, onu həm də həyata keçirir. O, həm də əmək prosesinin çətinliklərini və maneələrini dəf etməyi bacarır. Belə şagirdlər əməyin nəticəsini dərk edirlər. əsərdə kiçik məktəb yaşlı şagirdlərdə inkişaf dinamikası göstərilməklə yanaşı, həmin keyfiyyətin tərbiyə edilməsi yolları da açıqlanır. Müəllif tədqiqatlarını davam etdirmiş, əmək psixologiyasının nəzəri və təcrübi məsələlərinə aid xeyli maraqlı əsərlər ("Kiçik məktəblilərdə əməksevərliyin inkişafı", "Şagirdlərin əmək fəaliyyətinin quruluşu ilə əlaqədar fəaliyyət nəzəriyyəsində verilən bəzi düzəlişlər", "Fəaliyyət nəzəriyyəsində bəzi dəqiq olmayan cəhətlər haqqında", N. Tusi

adına ADPU-nun elmi əsərləri, 1973, №3, 1977, №3, №5 və başqaları) yazmışdır.

Bu problem üzrə ardıcıl tədqiqatçılardan biri də Ş.S. Ağayevdir 1965-ci ildən başlayaraq əməyə psixoloji hazırlığın əsas problemləri üzrə tədqiqat aparmış, "Əmək prosesində talantın inkişaf etdirilməsi" (Bakı, 1961), "Əmək, tərbiyə və inkişaf" (Bakı, 1967) adlı əsərlərini yazmışdır. Əmək psixologiyası üzrə respublikamızda ilk doktorluq monoqrafiyası olan "Əmək, tərbiyə və inkişaf" adlı əsər əmək psixologiyası sahəsində ilk uğurdur. Əsərdə əməyin insan həyatında rolu, əmək fəaliyyəti, əmək fəaliyyətinin xarakterik xüsusiyyətləri, əmək və şüur, şüurun əmələ gəlməsində əməyin rolu, şüurun ictimai-tarixi inkişafının bəzi məsələləri, əmək və ictimai şərait və başqa problemlər ətraflı izah edilir. Müəllif əmək fəaliyyətinin nəzəri problemlərini şərh edərkən bu sahədə geniş tədqiqatlar aparan rus psixoloqlarından A.A. Smirnovun, A.N. Leontyevin, B.K. Ananyevin, B.M. Teplovun əsərlərində yaradıcılıqla faydalanır. əsərdə göstərilir ki, fəaliyyət insan yaşayışı üçün ən başlıca və zəruri şərtdir.

İnsan fəaliyyəti həmişə şüurlu xarakter daşıyır. İnsan nə edəcəyini, öz məqsədinə hansı yollarla nail olacağını, bu yollardan ən səmərəli olanını seçməyi qabaqcadan düşünür və sanki gərgin zehni eksperimentdən sonra işə girişir, fəaliyyətə başlayır. İnsanın şüurluluğu nə qədər yüksək olursa, onun işi və fəaliyyəti də bir o qədər təsirli olar. Belə adam heç zaman çətinliklər qarşısında diz çökməz, müvəqqəti məğlubiyyət onu sarsıtmaz, həmişə qələbəyə böyük inamla baxar. Monoqrafiyada fəaliyyətin ümumi nəzəri məsələləri bu səpgidə elmi əsaslarla şərh olunur. Bu gün müstəqil Azərbaycan Respublikası üçün ən

vacib şərtlərdən biri olan əmək tərbiyəsi üzərində geniş dayanılır. Əmək fəaliyyətinin mahiyyəti inandırıcı faktlarla göstərilir. Əmək fəaliyyəti bütün yaş dövrləri üçün xarakterikdir. Əmək fəaliyyəti həmişə konkret məqsədlə bağlı olur. Əməyə şüurlu münasibət bəsləməyən adam şəxsiyyət kimi formalaşa bilməz. Əməyə aid olan bu və ya buna bənzər digər xüsusiyyətlərin təhlili monoqrafiyada öz əksini tapmışdır.

Monoqrafiyanın ana xəttini təşkil edən ikinci bölmədə uşaq və yeniyetmələrin, böyük məktəblilərin, gənclərin əməyə şüurlu münasibətinin təşəkkülü və formalaşmasının psixoloji problemləri, əməyə psixoloji hazırlığın mahiyyəti, indikatorları eksperimental tədqiqatlar və müşahidələr əsasında şərh olunur.

Kitabda maraqlı bölmələrdən biri də kiçik yaşlı məktəblilərin əməyə psixoloji hazırlıq məsələləridir. Şagirdləri əməyə hazırlamaq problemlərini düzgün izah etmək, bu barədə məktəb işinə kömək etmək məqsədi ilə müəllif ümumtəhsil orta məktəblərində bir neçə variantda eksperimentlər aparmış və əməyə psixoloji hazırlığın əsas meyarlarını öyrənə bilmişdir. Onun fikrincə, şagirdləri əməyə psixoloji cəhətdən hazırlamaq, hər şeydən əvvəl, onlarda bu haqda düzgün təsəvvürlər yaratmaq, onları əmək ruhunda elə tərbiyə etməyi tələb edir ki, əməklə məşğul olmaq onların əqidəsinə, inamına, xarakterinə keçsin.

Əsərdə qeyd olunur ki, "...fəaliyyətə hazırlıq, hər şeydən əvvəl, insanın həyata, dəyişmiş həyat şəraitinə, yəni cəmiyyətin qurulmasına hazırlığından ibarət olub, insanın psixi həyatının bütün cəhətlərini əhatə edir" (səh. 97). Bu isə indiki dövr üçün ən ümdə cəhətlərindən biridir.

Müstəqil Azərbaycan Respublikasının inkişafı naminə vicdanla işləyə bilən, həm fiziki, həm də zehni əməyə qabil olan şüurlu və yüksək elmli adamların hazırlanması gənc nəslin əməyə psixoloji cəhətdən hazırlanmasının özəyini təşkil edir və bu işə kiçik yaşlardan başlamaq tələb olunur. Müəllif də məsələyə bu baxımdan yanaşır. Məktəbəqədər yaş dövründən başlayaraq bu mühüm problemə ciddi fikir verilməsini tövsiyə edərək göstərir ki, "Uşaqları əməyə psixoloji cəhətdən hazırlamaq üçün müəllimlər, tərbiyəçilər həm onların əməyə hazır olmasını göstərən əlamətləri, indikatorları, həm də psixoloji hazırlıq üçün zəruri olan üsulları  və ona təsir göstərən amilləri dərindən bilməlidirlər" (səh. 99). Uşaqları əməyə psixoloji cəhətdən hazırlamaq üçün tərbiyə işi elə qurulmalıdır ki, uşaqlarda dövrümüzün ən vacib, ən nəcib əxlaqi keyfiyyətləri tərbiyə olunsun, onlarda cəmiyyətin xeyrinə olan əmək adəti yaranmış olsun.

Şagirdlərdə əməyə qarşı belə münasibətlər yaratmaq üçün onlarda düzgün əmək və peşə təsəvvürləri yaradılmışdır. Belə təsəvvürlərin yaradılması yollarını müəyyənləşdirmək üçün o, respublikamızın məktəblərində təcrübələr aparmışdır. Həmin eksperimentlər əsasında şagirdlərdə peşə təsəvvürlərinin yaranmasını və fərqləndirici xüsusiyyətlərini aşkar etmişlər.

Müəllifin fikrincə, "Üçüncü və dördüncü sinif şagirdlərində peşə təsəvvürlərində zahiri fərqləndirici əlamətlər arxa plana keçir, təsəvvürləri dəqiqləşir... Üçüncü və dördüncü sinif şagirdlərinin peşə təsəvvürlərində nəzərə çarpan yeni cəhətlərdən biri də bilavasitə fəaliyyət dairəsindən uzaq olan peşə təsəvvürlərinin yaranmasıdır" (səh.

112). Kitabın məziyyətlərindən biri də əməyə psixoloji hazırlığın indikatorlarının dəqiqləşdirilməsidir.

Müəllifin göstərdiyi kimi, uşaqları əməyə psixoloji cəhətdən hazırlamağın əsas indikatorları uşağın bütün inkişaf dövrləri üçün tamamilə eyni ola bilməz. Burada bir sıra fərqlər özünü göstərir. Bu problem müəllifin etiraf etdiyi kimi, xüsusi tədqiqat tələb edir. Buna görə də o, konkret olaraq ibtidai məktəb şagirdlərinin əməyə psixoloji hazırlığının əsas indikatorlarını aşağıdakı kimi göstərmiş və təhlil etmişdir:

a) uşağın sözü ilə işinin vəhdəti. Əgər uşaq işləmək, kömək etmək barədə dediklərini, əmək haqqında söylədiklərini hökmən öz əməli ilə təsdiq edirsə, bu onun artıq əməyə hazır olduğunu göstərir;

b) kollektiv üçün, cəmiyyət üçün, xalq üçün işləmək meylinin kök salması;

Əməyə psixoloji cəhətdən hazırlıq məhz şəxsi şüurlu fəaliyyət arasındakı vəhdətin kollektiv işdə də təzahür etməsindən ibarətdir. Bunu müəllif şəxsi fəaliyyət dairəsinin kollektiv fəaliyyət dairəsinə keçirilməsi kimi ifadə etmişdir.

c) əyləncədən dərhal və sözsüz olaraq ciddi işə keçmək, bu hər şeydən əvvəl, özünü oyundan dərsin icrasına asanlıqla keçiddə göstərir.

d) təmənnasız, əvəzsiz işləməyi bacarmaq;

e) səylə işləmək və s. Səylə çalışmaq-müstəqil, müntəzəm və məhsuldar işləməklə ifadə olunur.

Bu indikatorlar ilk dəfə məhz Ş.S. Ağayev tərəfindən öyrənilmişdir. Bu isə müəllimlərə, valideyn və başqa tərbiyəçilərə uşaqların əmək tərbiyəsi sahəsində nəyə nail

olacaqlarını aydın göstərir və təlim-tərbiyə işinə istiqamət verir.

Əməyə psixoloji hazırlığın təzahür xüsusiyyətlərindən biri də səylilikdir. Səy-tapşırığı mütəşəkkil, müntəzəm surətdə və məhsuldarlıqla yerinə yetirməkdə ifadə olunur. Əsərdə bu problemə də müəyyən qədər yer verilir və səyin tərbiyəsi yolları göstərilir. İnsanın bir şəxsiyyət kimi formalaşmasında onun fərdi müstəsna rolu vardır. Elə bu məqsədlə də monoqrafiyada qabiliyyətlərin inkişafında əməyin yeri inandırıcı, həyati misallarla göstərilir.

“Qabiliyyət...həmişə fəaliyyətlə əlaqələndirilir. İnsanın qabil olub-olmadığını yalnız onun məşğul olduğu fəaliyyət əsasında müəyyən etmək mümkündür... Qabiliyyət nəinki fəaliyyət prosesində meydana çıxır, həm də həmin fəaliyyət prosesində inkişaf edir, təkmilləşir. Buna görə də fəaliyyət prosesi qabiliyyətin yaranması üçün əsas mənbə sayılır” (səh. 155). əmək prosesi şəxsiyyətin psixi inkişafına istiqamət verir. Onu cilalayır. Məsələn, temperamentin sanqvinik, melanxolik, fleqmatik tipləri fəaliyyət prosesində tərbiyə edilə bilər. Kitabda həmin temperament növlərinin tərbiyəsi üçün bəzi məsələlər verilir ki, bunun da təlim üçün böyük əhəmiyyəti vardır. Qeyd olunur ki, fleqmatik və melanxolik temperamentli şagirdlərdən, belə şagirdlərə daha çox hərəkət, cəldlik tələb edən əmək növləri məsləhət görülməlidir.

Xarakterin tərbiyəsində əmək prosesinin rolu, əməksevərlik mühüm xarakter əlaməti kimi, əmək, peşəseçmə və s. məsələlər də əsərdə yüksək sənətkarlıqla izah olunmuşdur.

Monoqrafiyada fəaliyyətin strukturu, yaranma şəraiti, növləri, xüsusiyyətləri elmi ardıcıllıqla şərh edildikdən

sonra prosesin müxtəlif dinamikası göstərilmişdir. Hər bir yaş dövründə əməksevərliyin fərqli cəhətləri aşkar edilmişdir.

Müəllif qeyd edir ki, məktəbəqədər yaş dövründə əmək fəaliyyəti epizodik, təsadüfi xarakter daşıyır... Kiçik məktəblilərin əməyində şüurluluq öz ifadəsini onda tapır ki, onlar məktəbəqədər yaşlı uşaqlardan fərqli olaraq əmək məşğələlərinin, başqa sözlə, əmək fəaliyyətinin məqsədini, icra edilməsinin qaydalarını, əldə olunacaq nəticələri daha aydın dərk edirlər. Lakin əsas diqqət ona yetirilir ki, I-II sinif şagirdlərində əməyə davamlı münasibət zəif, III-IV sinif şagirdlərində isə bu münasibət nisbətən davamlı olur. Yeniyetməlik yaşı dövrünün sonuna yaxın ictimai-faydalı əmək həm məzmunca zənginləşir, həm də formaca təkmilləşir. Gənclərin faydalı əməyi isə daha təsirli, əhatəli, yüksək ideyalılığı ilə fərqlənir.

Əsərdə əməyin beləcə müxtəlif yaş dövrlərində təzahür xüsusiyyətləri təhlil olunur və hər yaş dövründə əməksevərliyin tərbiyəsi yolları göstərilir. Ş.S. Ağayevin "əmək, tərbiyə və inkişaf" adlı bu monoqrafiyası inandırıcı psixoloji eksperimentlər əsasında yazılmışdır. Əsər həm nəzəri, həm də praktiki aktuallıq kəsb edir.

Müəllif fəaliyyət sahəsində mövcud olan nəzəriyyələri ümumiləşdirərək öz elmi fərziyyəsini vermişdir. Digər cəhətdən orijinal metodikalar əsasında əməksevərliyi şagirdlərdə tərbiyə etmək üçün konkret yollar göstərmişdir ki, bunun da respublikamızda xalq maarifinin inkişafında böyük rolu vardır.

"Səyin psixologiyası" (İ. Məmmədov, Bakı, 1973) adlı namizədlik dissertasiyası da təhlil olunan problem baxımından diqqəti cəlb edir. Dissertasiyada səyi müəy-

yən edən başlıca komponentlər təhlil edilir, ibtidai sinif şagirdlərində səyin əsas komponentlərinin təşəkkülü, onlar arasında qarşılıqlı əlaqələri göstərilir.

Şagirdlər arasında səyliliyə görə tipoloji xüsusiyyətlər ayırd edilir. Səy bütün siniflərdə fəaliyyətin təzahürü və vacib bir həlqəsi tək tapşırıqların müntəzəm, mütəşəkkil və məhsuldar icrasında görünən ümdə xüsusiyyət kimi təzahür edir. Şagirdlər I, II, III siniflərdə tapşırıqların icra keyfiyyətlərinə görə 3 qrupa bölünürlər:

I. Məhsuldarlığı tam idarə edə bilənlər.

II. Məhsuldarlığı qismən idarə edə bilənlər.

III. Məhsuldarlığı idarə edə bilməyənlər.

Bu qrupların hər birinin onlar üçün xarakterik olan xüsusiyyətləri əsərdə ətraflı şəkildə öz əksini tapmış və müvafiq olaraq I qrup şagirdləri yüksək səyli, II qrup şagirdləri orta səyli, III qrup şagirdləri isə zəif səylilər adlandırılmışdır. Öyrədici eksperimentə əsaslanaraq müəllif belə bir nəticəyə gəlir ki, "Zəif səyli şagirdlərdə səyliliyin orta və yüksək inkişaf səviyyələrini təşəkkül etdirmək olar".

Əmək prosesini səy göstərmədən təsəvvür etmək olmaz. Ona görə də müəllifin səy tərbiyəsi ilə əlaqədar çıxardığı nəticələr əməyin səmərəli təşkili işində də böyük əhəmiyyətə malikdir.

Məlumdur ki, gənclərin müəyyən bir peşəni seçməsinə tələbatlarla yanaşı, onların sərvət meyli və mənəvi idealları da çox mühüm təsir göstərir. Hər hansı bir adam əgər bu və ya digər peşəni seçərkən həmin peşənin ictimai-iqtisadi, sosial-mənəvi mahiyyətini düzgün başa düşüb, onu düzgün qiymətləndirsə, həmin peşə onun gələcək həyat tərzini səmərəli və maraqlı edər. M.V.

Vəliyev namizədlik dissertasiyasında peşə oriyentasiyasına ciddi təsir göstərən sərvət meylini, mənəvi idealın təşəkkülü prosesinin mexanizmini və inkişaf xüsusiyyətlərini öyrənərək maraqlı nəticələr əldə etmişdir. Son zamanlar pedaqoji institut tələbələrinin müəllimlik peşəsini seçməsi xüsusiyyətləri, həmin peşəni seçməkdə mənəvi sərvət və idealların rolu, təhsil müddətində tələbələrin öz peşələrinə alışmaları və digər məsələlərin eksperiment səviyyədə öyrənilməsi Azərbaycan psixologiyasında müsbət hal kimi qiymətləndirilməlidir. Pedaqoji institut tələbələrini təhsil müddətində öz peşələrinə alışmalarının pedaqoji bilik, bacarıq və vərdişlərə yiyələnmə xüsusiyyətləri Z. Orucovun "Pedaqoji institut tələbələrinin peşə adaptasiyasının xüsusiyyətləri" (Moskva, 1987) adlı namizədlik dissertasiyasında və başqa məqalələrində öz əksini tapmışdır. Bu əsərdən çıxarılan nəticələr müəllim peşəsinin düzgün seçilməsində və gələcək müəllimlərin düzgün tərbiyə edilməsində çox faydalıdır.

Azərbaycanda isə F.İ.İbrahimbəyov və B.M.Vadimov və başqaları çalışmışlar Bu sahədə ən çox F.Ə.İbrahimbəyov, Ş.S.Ağayev, K.S.Əbilov, İ.Fərəcov, Z.Orucov, İ.Məmmədov, Z.Aslanova və digər alimlərin əsərləri diqqəti cəlb edən tətqiqatlardır.

Müasir dövrdə bu sahə üzrə aparılmış tədqiqatlar da diqqəti cəlb edir. Bunlara misal olaraq Azər Mustafayevin "Birgə fəaliyyət şəraitində şəxsiyyətlərarası davranışın dinamikası", Hikmət Məmmədovun "Menecment psixologiyası təşkilatlarda səmərəli fəaliyyətin əsası kimi" adlı və s. bu kimi tədqiqat işlərini göstərə bilərik.

## Mövzu-13
## Hüquq, hərbi, tibbi və xüsusi psixologiya üzrə aparılan tədqiqatlar.

Azərbaycanda digər sahələri nisbətən hüquq psixologiyasına aid tədqiqatlar azlıq təşkil edir. XX əsrin əvvəllərində bu sahəyə aid bir neçə kiçik jurnal məqalələri nəşr olunmuşdur. XX əsrin 70-ci illərindən bu sahəyə aid aparılan tədqiqatlar qısa bir müddətdə geniş miqyas almışdır. 1976-cı ildə ilk dəfə olaraq Azərbaycanda "Hüquq psixologiyası" (Ə.Bayramov, Ə.Əlizadə, İ.Seyidov, C.Təhmasib ) dərsliyi nəşr olundu.

Daha sonra Ə.S.Bayramov, Ə.Əlizadə, S.Təhmasib, İ.Ə.Seyidov və başqaları bir sıra elmi – kütləvi əsərlər, dərslik və dərs vəsaitləri nəşr etdirdilər. Bunlar da gələcəkdə həmin sahə üzrə aparılacaq tədqiqatlara bir təkan verdi.

"Hüquq psixologiyası" adlı dərslikdə ilk dəfə olaraq Azərbaycanda hüquq psixologiyasının mövzusu, vəzifələri, mahiyyəti və bir sıra sahələri haqqında məlumat verilmişdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, uzun fasilədən sonra, yəni 2011-ci ildə B.H.Əliyevin, K.R.Əliyevanın, R.Cabbarovun birgə müəlliflərіilə "Hüquq Psixologiyası"(475) çapdan çıxmışdır. Kitabda hüquq psixologiyasının mövzusu, müstəqil Azərbaycan Respublikasında hüquq psixologiyasıın qarşısında duran vəzifələr ətraflı misallarla şərh olunur. Oxucuya təqdim olunan bu tədris vəsaiti materialların məntiqi izahi ilə hüquq psixologiyası məsələrinin bütün cəhətlərini əks etdirir. Burada hüquq psixologiyasının tətbiqi məsələlərinə, eləcə də psixoloji ekspertiza ilə əlaqədar bəzi cəhətlərə xüsusi diqqət yetiril-

mişdir. Odur ki, həmin vəsaitdən nəinki universitetin hüquq fakultəsi tələbələri, həm də hüquq mütəxəssisləri, eləcə də tərbiyə işi ilə məşğul olan miliş orqanlarının işçiləri dəfəallığını artırır.

Təqdiqat zamanı məlum oldu ki, Azərbaycanda hüquq psixologiyası üzrə aparılan tədqiqatlar AMEA-nın müxbir üzvü millət vəkili, psixologiya elmləri doktoru professor Bəxtiyar Həmzə oğlu Əliyevin adı ilə bağlıdır. Onun "Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizyası problemləri" (1998) adlı doktorluq disertasiyasında və çox saylı fundamental monoqrafiyalarında hüquq psixologiyasına aid nəzəri və praktiki problemlər öz həllini tapmışdır.Bu onu ki, B.H. Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquq psixologiyası üzrə məktəb formalaşıb. Onun bilabasitə rəhbərliyi ilə Azərbaycanda bir neçə elmi kütləvi əsərlər, məqalələr, namizədlik dissertasiyaları yazılmışdır.

"Hüquq psixologiyası hüquq və psixologiya elmlərinin qovşağında, yaxud müştərək sahələrinin olması zəminində meydana çıxmışdır. Belə ki, hər iki elmlər sisteminin əsas obyekti insandır. İnsanın rəftar və davranışının daxili psixoloji səbəblərini bilmək hüquq işçisinin öz işinin öhdəsindən bacarıqla gəlməsinə çox kömək edir. Çünki insanı bu və ya digər hərəkətə, əmələ, rəftara və davranışa təhrik edən səbəb mütləq onun beynindən gəlib keçir, başqa sözlə, hər hansı bir qəbahətin, yaxud cinayət əməlinin, qanun pozuntularının başqa səbəbləri ilə yanaşı, ciddi psixoloji səbəbləri olur. Həmin səbəblərin aşkar edilməsi onlara qarşı vaxtında profilaktik tədbirlərə əl atmağı asanlaşdırır. Bundan əlavə, məhkəmə və hüquq işçisinin insan psixologiyasına lazımınca bələd olmaması,

onu nəzərə almaması, çox ciddi, bəzən də asanlıqla düzələ bilməyən səhvlərə də gətirib çıxarır. Nəzərdən qaçırmaq olmaz ki, cəmiyyətdə qanun pozuntusu, yaxud ayrı-ayrı hallarda baş verən cinayət halları sosial zəmindən daha çox psixoloji əsasda, şəxsin daxil olduğu müəyyən qrupun kifayət qədər yetkin təsirə malik olmamasından və ya şəxsin özünün şüur səviyyəsinin məhdudluğundan, ictimai həyat normalarını pozmasından törəyə bilər".

Bu sətirlər psixologiya elmləri doktorları Əkbər Bayramov və Bəxtiyar Əliyevin "Təhsil" nəşriyyatında yenicə çapdan çıxan "Hüquq psixologiyası" kitabına yazılan ön sözdən götürülüb. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tövsiyyəsi ilə ali məktəblər üçün dərslik kimi nəzərdə tutulan bu sanballı nəşr ali məktəblərin hüquqşünaslıq və psixologiya ixtisasları üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulsa da, ondan müvafiq sahələrdə çalışan praktik işçilər də istifadə edə bilərlər.

On yeddi fəsildən ibarət nəşrdə əsasən hüquq psixologiyasının əsas problemləri və vəzifələri, metodologiyası, şəxsiyyətin psixoloji xüsusiyyətləri, sosializasiyası və hüquqi şüurun formalaşması, kriminal psixologiya, yetkinlik yaşına çatmayanların və yeniyetmələrin cinayət davranışının psixoloji məqamları, cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizanın nəzəri-metodologiya əsasları, islah psixologiyası, məhkumların islah edilməsi və onlara psixoloji təsir üsulları, habelə hüquqazidd davranışla mühafizə sahəsində psixologiyanın tətbiqi məsələləri araşdırılır.

Müəlliflərin qeyd etdiyi kimi, insan probleminin mürəkkəbliyini şərtləndirən əsas amillərdən biri də icti-

mai həyatın inkişafına tərbiyəvi təsir göstərən vasitələrin ciddi surətdə dəyişməsidir. "Əgər biz müasir ictimai həyatın ən ümdə xüsusiyyətlərinə diqqət yetirsək, ilk növbədə, nəzərimizi cəlb edən cəhət onun dinamikliyi olacaqdır. Çünki ictimai həyatın dinamikliyi yalnız sürətlə artan elmi-texniki tərəqqidə deyil, həm də ictimai münasibətlərin, başqa ictimai həyat hadisələrinin çevikliyində özünü büruzə verir".

Kitabın annotasiyasında vurğulanır ki, hüquq psixologiyasının əsas məsələləri ümumi və sosial psixologiyanın əsasları ilə birlikdə dərsliyin məzmun xəttini təşkil edir. Qeyd etmək lazımdır ki, nəşrin bu cür tərtibi həm ali məktəblərdə hazırlanan mütəxəssislərə, həm də hüquq praktikasında çalışanlara ümumi və psixoloji biliklər aşılamağa və həmin bilikləri öz fəaliyyətində tətbiq etməyə imkan yaradır.

İmamverdiyeva M. "Suisidal davranışın təşəkkülünün psixoloji xüsusiyyətləri", Səməndərova A. "Cəzanın sosial – psixoloji məsələləri" və s. dissertasiya işləri hüquq psixologiyasının müasir dövrdə də inkişaf etdiyini və ona olan marağın daha da artdığını göstərməkdədir.

Xüsusi patoloji psixologiya ümumi psixologiyanın bir sahəsi olub, beyin qüsurları zamanı təşəkkül tapan psixi pozuntuların qanunauyğunluqlarını öyrənir.

Beyin fəaliyyətinin pozulması ilə bağlı yaranan hər bir xəstəlik insan şüuruna, onun fəaliyyətinin strukturuna, sinir sisteminin iş rejiminə, qavrayışına, hafizəsinə, təfəkkürünə, təxəyyülünə və hisslərinə mənfi təsir göstərir. Psixi xüsusiyyətlərin pozulmasının şəxsiyyətin həyat fəaliyyətində əngəllər törətdiyini nəzərə alaraq psixoloq-

larımız həmin sahə üzrə xəstəliklərin aradan qaldırılmasına aid konkret tədqiqatlar aparmışlar.

Bu problem həm xarici ölkə psixoloqlarının və həm də Azərbaycan psixoloqlarının diqqət mərkəzində olmuşdur.

Leninqrad (Sankt-Peterburq) psixologiya məktəbinin ilk banilərindən olan V.M.Bexterev, L.S. Vıqotski, A.İ. Uxtomski, Moskva psixoloqlarından S.S. Korsakov, F.V. Bassin, B.V. Zeyqarnik, R.Y. Levina, Azərbaycan psixoloqlarından F.Ə.İbrahimbəyov, M.R. Abbasov, S.H. Hacıyev, A.A. Perelman bu sahədə ilk təşəbbüsçülər olmuşlar. Leninqradda (V.M. Baxterov), Kazanda (S.S. Korsakov), Moskvada (A.A. Tokarski), Bakıda (F.Ə. İbrahimbəyov, A.A. Perelman) xüsusi psixologiya üzrə xüsusi laboratoriyalar təşkil olunmuşdur. Həmin laboratoriyalarda xüsusi eksperimental metodikalar əsasında müxtəlif psixi xüsusiyyətlərin pozulmasının səbəbləri öyrənilmiş və bu xəstəliklərin üsulları göstərilmişdir.

1920-1930-cu illərdə L.S. Vıqotski və onun əməkdaşları nitq və təfəkkürün inkişafı və patologiyası sahəsində geniş tədqiqatlar aparmışlar. Bir qrup tədqiqatlarda isə (A.R. Luriya, V.M. Koqan, M.S. Lebidinski) nitq nöqsanlarının, xüsusilə afaziyanın əsas sindromlarının psixoloji təhlili verilirdi. 1920-1930-cu illərdə patoloji psixologiyaya aid tədqiqatlar öz əksini psixonevrologiya, psixogigiyena, psixoprofilaktika istiqamətləri üzrə aparılan işlərdə də tapırdı. Həmin illərdə bir çox sənaye müəssisələrində, tibb institutlarında, ali məktəblərdə psixonevroloji institutlar, laboratoriyalar açılır, ruhi və əsəb xəstəliklərinin müalicəsinə xüsusi fikir verilirdi. Bu illərdə Azərbaycanda da psixonevrologiya institutu açılmış və

həmin institutun nəzdində patoloji-anatomiya laboratoriyaları təşkil olunmuşdur. Bu laboratoriyaların qarşısında duran əsas məqsədlərdən biri ruhi və əsəbi xəstəliklərin anatomik-fizioloji əsaslarının öyrənilməsi, xəstə və sağlam adamlarda psixi xüsusiyyətlərin fərqli cəhətlərinin aşkar edilib müalicə üsullarının tətbiq edilməsi olmuşdur. Həmin vaxtlarda yerli kadrlara böyük ehtiyacı nəzərə alaraq institutun nəzdində bir illik kurslar da təşkil olunmuşdur. Kurslarda sənaye, psixotexnika və tibb müəssisələri üçün kadrlar hazırlanırdı. Kurslarda anatomiya, fiziologiya fənləri ilə yanaşı tibbi psixologiya da tədris olunurdu. Xüsusilə xəstəliklərin müalicəsində psixofizioloji metodun tətbiqi məsələlərinə böyük əhəmiyyət verilirdi. Kurslarda, həmçinin yaş fiziologiyasına, uşaq və yeniyetmələrdə zehni yorğunluğun, əqli inkişafın öyrənilməsinə, eksperimental psixologiyaya daha çox saatlar ayrılırdı.

Haqqında danışdığımız problem üzrə Bakı Dövlət Universitetində də xeyli işlər görülmüşdü. Universitetdə uzun müddət ruhi və əsəb xəstəlikləri klinikası fəaliyyət göstərmiş və orada eksperimental xarakterli tədqiqatlar aparılmışdır. Onu da demək lazımdır ki, patoloji psixologiyaya aid aparılan eksperimental tədqiqatları respublikamızda təbliğ etmək üçün universitetdə “Nəzəri və praktiki tibb jurnalı”nda nəşr olunmuşdur. Jurnalda Azərbaycanda patoloji psixologiyaya aid aparılan tədqiqatlar nəşr olunur və həmin tədqiqatlardan istifadə yolları göstərilirdi. Jurnalda əsasən xəstə adamlarda təfəkkür və nitq proseslərinin, hafizə və təxəyyülün pozulması halları və bunların aradan qaldırılması yollarına aid materiallara geniş yer verilirdi. “Epileptik psixika və onun seksual şərti”

(A.M. Yevlaxov, 1921, II hissə, №1-3), “Mania” (V.İ. Rudnev, 1930, IV hissə, №1), “Ruhi xəstəliklər” (V.İ. Rudnev, 1930, IV hissə, №2) və başqa məqalələr (1921, III hissə, №5; II hissə, №1-3; 1930, IV hissə, №2) həmin məqsədlə yazılmışdır. Epilepsiya xəstəliyi qıcolma tutmaları və bir sıra psixi pozğunluqlarla xarakterizə olunur. Bu xəstəlik zamanı şəxsiyyətdə maraq zəifləyir, dünyagörüşü, inam azalır, əqli keyfiyyətlərin gedişində də qüsurlar olur. Epilepsiyaya aid olan həmin məqalədə bu xəstəliyin təzahür əlamətləri, profilaktikası və müalicəsi yolları göstərilir. “Mania” adlı məqalədə isə həmin xəstəliyin əlamətləri və yaranma səbəbləri izah olunur. Məqalədə qeyd olunur ki, belə xəstələr başqalarının əhval-ruhiyyəsi ilə hesablaşmır, gülür, qəhqəhə çəkir, rəqs edir, oxuyur, onun diqqəti davamsız olur. Belə xəstələrdə özünü böyütmə ideyaları müşahidə olunur. Xəstə söyləyir ki, o, çox gözəldir, hamıdan sağlam və güclüdür. Müəllif klinikalarda xüsusi təcrübələr aparmış və həmin eksperimentlərə əsasən mania xəstəliyinə tutulmuş adamlarda şəxsiyyət və özünüdərketmə, təxəyyül hiss, şüur, əqli nəticə, təfəkkür və başqa psixi proseslərin inkişaf xüsusiyyətlərini izləmiş və çox maraqlı nəticələr əldə edilmişdir. O, xəstəliyin psixofizioloji cəhətlərini öyrənərək bu qənaətə gəlir ki, belə xəstələrin bütün psixi fəaliyyətində pozğunluq yaranır. Oyanma güclü olur. Əhvalın düşkünlüyü səbəbsiz, qəm-qüssə ilə ifadə olunur.

Depressiv (melanxolik) temperament tipli onlar üçün daha xarakterikdir. Görmə, eşitmə halyusinasiyaların xəstələri davranışını kobudcasına pozur. Şüur və özünüdərketmə tez-tez pozulur. Hərəkət və davranışları avtomatik xarakter daşıyır. Məqalədə xəstəliyin başqa psixofizioloji

xüsusiyyətləri də ətraflı izah olunur. 1920-1930-cu illərdə Azərbaycanda patoloji psixologiya sahəsində aparılan tədqiqatlar rus və digər qonşu respublikaların alimlərinin diqqətini cəlb etmiş və bu hal Moskvada nəşr olunmuş "SSRİ-də psixologiya elmi" (1960, II hissə, səh. 464) adlı fundamental əsərdə öz əksini tapmışdır.

F.Ə. İbrahimbəyov, S.H. Hacıyev, A.M. Yevlaxov, A.A. Perelman o dövrlərdə patopsixologiya sahəsində tədqiqatlar aparan alimlərdin önündə gedirdilər. A.A.Perelmanın 1923-1927-ci illə arasında Azərbaycan Dövlət Universitetinin xətti ilə iki eksperimental kitabı ("Qrafik təsvir təcrübəsindən", Bakı, 1923; "Hafizənin funksiyaları və onun patologiyası", Bakı, 1927) nəşr olundu. Həmi kitablarda psixi xəstəliyə tutulmuş adamlarda nitqin xüsusiyyətləri, yaddasaxlama qabiliyyəti, huşsuzluq, unutma halları və digər məsələlər eksperimental şəkildə izah olunur, valideynlərin, həkim və müəllimlərin, adamların diqqəti bəzi psixoloji anlara yönəldilir.

1940-1950-ci illərdə, xüsusilə müharibə dövründə qorxu hissi ilə əlaqədar yaranan psixi xəstəliklərin müalicə yollarına aid müəyyən tədqiqat işləri aparılmışdır. Azərbaycanın görkəmli psixoloqlarından olan F.Ə. İbrahimbəyovun bu sahədə diqqətəlayiq xidmətləri olmuşdur. O, müharibə illərində tez-tez hərbi xəstəxanalarda olur, ruhi və əsəb xəstəliklərinə tutulmuş adamlarla intensiv müalicə əməliyyatı aparırdı. F.Ə. İbrahimbəyovun bu sahədə xeyli eksperimental tədqiqatları da vardır. "Hiperemosiyaların tədqiqi metodikası", "Tipik reaksiyalar haqqında", "Kəmağıllıların sinkretik təfəkkürü haqqında", "Şəxsiyyətin patopsixologiyası haqqında meyllər" adlı məqalələri dediklərimizə əyani sübutdur. Müharibə illərində patop-

sixologiya sahəsində Azərbaycan psixoloqlarının fəaliyyəti rus psixoloqlarının da diqqətini cəlb etmiş və yeri gəldikcə əsərlərində ("Voprosı psixoloqii" jurnalı, 1975, №2) buna xüsusi yer vermişlər.

1950-ci illərdən sonra patopsixologiya sahəsində bir neçə kiçik həcmli eksperimental əsərlər (M.R. Abbasov), "Təlim-tərbiyə prosesində nitq nöqsanlarının islahı" (Bakı, 1948), bir neçə namizədlik dissertasiyaları ("Baş-beynin alın hissəsinin zədələnməsi zamanı fikri fəaliyyətin pozulmasının analizinə dair" (S.H. Hacıyev, Moskva, 1947), "Kəkələyən uşaqlarda ixtiyari diqqətin xüsusiyyətləri" (E.M.Quliyev, Moskva, 1968), "Köməkçi məktəblərin şagirdlərində məkan istiqamətlərinin təcrübi inkişafı" (M.Q. Abbasov), Moskva, 1978) yazılmışdır.

"Baş-beynin alın hissəsinin zədələnməsi zamanı fikri fəaliyyətin pozulmasının analizinə dair" adlı namizədlik dissertasiyasının müəllifi S.H. Hacıyev uzun müddət bu sahədə tədqiqat aparmış, patopsixologiya üzrə məşhur rus psixoloqu A.R.Luriyanın rəhbərliyi ilə həmin əsəri yazıb tamamlamışdır. Baş-beynin alın hissəsi zədələnən xəstələr fikri fəaliyyətini düzgün istiqamətləndirə bilmir və müəyyən səhvlərə yol verirlər. Dissertasiyada həmin səhvlərin yaranmasının psixoloji mexanizmləri öyrənilmiş və tibbi psixologiya elmi üçün maraqlı nəticələr əldə olunmuşdur.

S.H. Hacıyevin eksperimental tədqiqatı Azərbaycan və rus mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilmişdir. Moskvada nəşr olunan onlarca əsərlərdə, monoqrafiyalarda, məqalələrdə, xüsusilə "Alın hissəsi və psixi proseslərin idarə olunması" (A.R. Luriyanın və E.D. Xomskoyun redaktorluğu ilə Moskva, 1966, səh. 618-641) adlı fundamental kitabda S. Hacıyevin namizədlik disser-

tasiyasının böyük bir hissəsi nəşr olunmuşdu. E.M. Quliyev kəkələyən uşaqlarda ixtiyari diqqətin xüsusiyyətlərini izləmiş və maraqlı bir eksperimental əsər yazmışdır. M.Q. Abbasovu isə tədqiqatında köməkçi məktəblərin şagirdlərində məkan qavrayışının inkişaf xüsusiyyətlərini öyrənmişdir. Elmi axtarışlar göstərir ki, Azərbaycanda 1920-ci illərdən başlayaraq patopsixologiya sahəsində az da olsa iş aparılmışdır. Bir neçə elmi-kütləvi əsərlər, dissertasiyalar yazılmışdır. lakin görülən işlər bugünkü elmi-texniki tərəqqi dövründə tələbləri ödəmir. Son 30-40 ildə patoloji psixologiyaya aid eksperimental tədqiqat aparılmayıb. Bu vəziyyəti ancaq həmin sahə üzrə elmi kadrların olmaması və laqeydliyimizlə də əlaqələndirmək olar. Patoloji psixologiya insanın yalnız intellektual fəaliyyətini deyil, həm də qabiliyyətinin pozulması səbəblərini, şəxsiyyətin emosional-iradi və motivasiya sisteminin patoloji təzahürünün xüsusiyyətlərini və digər psixi problemləri öyrənir. Müxtəlif xarakterli psixi xəstəliklərin diaqnostikasının dəqiqləşdirilməsində də patoloji psixologiyanın əhəmiyyəti çoxdur. Ağıl zəifliyi, psixi xəstəliklərin müxtəlif normalarında insan qavrayışının, hafizəsinin, təfəkkürünün, təxəyyül və hisslərinin pozulması özünəməxsus xarakterə malik olur. Bu göstərilən istiqamətlərdə keçmiş ittifaqda, eləcə də qonşu respublikalarda maraqlı tədqiqatlar aparılmış və bu sahədə yüksək ixtisaslı mütəxəssislər hazırlanmışdır. Lakin bizdə isə hələlik həmin problemlər üzrə tədqiqatlar aparılmır və buna şərait də yoxdur. Güman edirik ki, suveren Azərbaycan Respublikasında elmin başqa sahələrində olduğu kimi, patoloji psixologiya üzrə də yeni-yeni tədqiqatlar

yaranacaq, milli kadrların hazırlanmasına diqqət artırılacaqdır.

Son illərdə respublikamızda bu vəziyyət necədir? Xüsusi psixologiyaya olan ehtiyac necə ödənilir? Bu və ya buna bənzər suallara cavab axtarıb tapmaq bir qədər çətindir.

Açıq etiraf etmək lazımdır ki, əvvəllərdən, yəni hələ XX əsrin başlanğıcında bizdə bu sahə çox zəif inkişaf edib. Psixoloq mütəxəssislər olmadığına görə bu sahənin inkişafına həkimlər, pedaqoqlar və fizioloqlar kömək etmişlər.

Son illərdə vəziyyət nisbətən yaxşılaşsa da, hələ də eksperimental psixoloji tədqiqatlar çox azdır. Bəzi dərsliklərdə, elmi-kütləvi əsərlərdə, məqalələrdə xüsusi psixologiyaya aid bəzi problemlərə toxunulub.

Son illərdə gənc və ümidverici psixoloq E. Şəfiyevanın bu sahədəki xidmətləri xüsusi təqdirəlayiqdir. "Klinik psixologiya" (2002), "Uşaqlarda anomal psixi inkişaf" (1997) adlı dərslik və dərs vəsaitlərini, "Yeniyetmələrdə aqressiv davranış və sui-qəsd" (E. Şəfiyeva, "Psixologiya" j. №2, 2000), "Psixofiziologiya" (E. Şəfiyeva, 1998), "Müasir xüsusi psixologiyanın bəzi inkişaf istiqamətləri" (E. Şəfiyeva, H.Əliyevin 75 illiyi ilə əlaqədar keçirilən konfrans, 1998) məqalə və tezisləri buna misal göstərmək olar. Elnarə Şəfiyeva respublikamızda ilk dəfə olaraq xüsusi psixologiyanın müxtəlif sahələri barədə geniş məlumat verir. Uşaqlarda psixi pozuntuların ümumi qanunauyğunluqlarını, əqli gerilik və onların təzahür formaları, şəxsiyyətin formalaşmasının psixologiyası və digər problemləri elmi şəkildə açıqlayır. Biz inanırıq ki, E.

Şəfiyeva bu sahədə tədqiqatlarını davam etdirəcək və uğurlu nəticələr əldə edəcəkdir.

"Psixiatriya" (N. İsmayılov, 1992), "Tibbi psixologiya və psixoterapiya" (N.İsmayılov, F. İsmayılov, 2002) adlı kitabları da diqqəti cəlb edir. B kitablarda xüsusi psixologiya sahəsində nəzəri metodoloji əhəmiyyətə malik olan dəyərli, fundamental bir əsərdir. Xüsusi psixologiyaya aid olan bütün problemlər, demək olar ki, bu kitabda öz əksini tapır. Diqqəti çəkən cəhət odur ki, dərslikdə psixoproseslərin, fərdi psixi xassələrin, hissi emosional halların pozulmasının səbəbləri və psixokorreksiyası elmi-praktiki cəhətdən geniş izah olunur.

XX əsrdə Azərbaycanda xüsusi psixologiyanın inkiafında prof. S.Ə.Qasımovun xüsusi xidmətləri olmuşdur. Respublika Təhsil Problemləri İnstitutunun professoru S.Qasımov özünün "Ana dili dərslərində kar uşaqların surdodidatik materiallar əsasında nitqinin inkişafı" (Bakı, 1994) adlı doktorluq dissertasiyasında, "Xüsusi məktəblərdə ana dilinin tədrisi metodikası" (2002), "Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası" (2004), "Anomal uşaqların ana dilinin mənimsəmələrinin xüsusiyyətləri" (1998), "Sağlamlığı məhdud olan uşaqlara ana dilinin öyrədilməsi problemləri" (2003), "Defektoloji terminlərin izahlı lüğəti" (2002), "Xüsusi məktəblərə uşaqların seçilməsinin bəzi xüsusiyyətləri" (1996), "Xüsusi məktəblərdə nitqin inkişafı" (2000) adlı əsərlərində və yüzdən artıq elmi-metodiki məqalələrində defektologiya və loqopediyanın elmi-nəzəri məsələlərini işləyib hazırlamış, məktəbəqədər, məktəb yaşlı anomal uşaqlarda psixi xüsusiyyətlərin pozulması səbəblərini, onların psixokorreksiyasını, uşaqlarda nitqin inkişaf

problemlərini faktiki materiallarla şərh edir. Respublikamızda ilk dəfə olaraq Səməd müəllim defektologiya və loqopediyaya aid yüzdən artıq terminlərin psixoloji-pedaqoji izahını verir ki, bu da ən xeyirxah işdir. O, defektologiyanın, loqopediyanın ən aktual problemlərini seçir və respublikamız üçün vacib olan məsələləri şərh edib valideyn və tərbiyəçilərə çatdırır. Onun əsərlərində kor və zəif eşidən, lal və əqli cəhətdən geridə qalan uşaqların psixo-pedaqoji məsələləri praktiki cəhətdən izah olunur. Bir neçə maraqlı təcrübələr nümayiş etdirilir. Azərbaycanda kliniki psixologiya sahəsində çalışan müəllimlər, valideynlər həmin əsərlərdən xeyli bəhrələnmiş və bu gün də onlardan öyrənirlər. "Fiziki və psixi cəhətdən zəif inkişaf etmiş ibtidai sinif şagirdlərinin təhsilinə kompleks köməyin təşkili yolları" (İradə Quliyeva, 1999), "Loqopediya" (S. Sadıqov, 2006), "Loqopediyanın nəzəri və praktik məsələləri" (T. Ağayeva, S. Əliyeva, 2000) kimi dərslik və dərs vəsaitlərində də bu problem ətraflı şərh edilir.

İlk dəfə olaraq qədim Şərq və Avropa ölkələrində, o cümlədən dünyada, Azərbaycanda bu sahəyə aid dəyərli fikirlər irəli sürülmüşdür. Qədim Yunanıstan alimlərindən olan Anaskimandr, Anaksimen, Hipokrat, Aristotel və başqaları şəxsiyyətin fəaliyyətində özünü göstərən psixi pozuntuların səbəblərinə aid dəyərli fikirlər irəli sürürdülər. Bu sahədə böyük tədqiqatların müəllifi H.İsmayılov göstərir ki, «Alikmeon Kortonski» ilk dəfə olaraq görmə sinirlərini kəşf etdi və onun beyinlə əlaqəsini göstərdi. Alikmeon Kortonski sübut edirdi ki, eşitmə, qoxu duyğularının da beyində mərkəzləri vardır, onların vasitəsi ilə bizim təsəvvürlərimiz və bilik ehtiyatlarımız yaranır.

Bu illərdə Azərbaycanda da psixonevrologiya institutu açılmış və həmin institutun nəzdində patoloji – anatomiya laboratoriyaları təşkil olunmuşdur. Bu laboratoriyaların qarşısında duran əsas məqsədlərdən biri ruhi və əsəbi xəstəliklərin anatomik – fizioloji əsaslarının öyrənilməsi, xəstə və sağlam adamlarda psixi xüsusiyyətlərin fərqli cəhətlərinin aşkar edilib müalicə üsullarının tətbiq edilməsi olmuşdur.

Son illərdə gənc və ümidverici psixoloq E.Şəfiyevanın bu sahədəki xidmətləri xüsusi ilə təqdirəlayiqdir. «Klinik psixologiya» (2002), «Psixofiziologiya» (1998), «Uşaqlarda anomal psixi inkişaf» (1997) adlı dərslik və dərs vəsaitlərini, «Yeniyetmələrdə aqressiv davranışı və sui-qəsd» (E.Şəfiyeva, «Psixologiya» j. №2, 2002), «Psixofiziologiya» (E.Şəfiyeva, 1998), «Müasir xüsusi psixologiyanın istiqamətləri» (E.Şəfiyeva, H.Əliyevin 75 illiyi ilə əlaqədar keçirilən konfrans, 1998) məqalə və tezislərini buna misal göstərmək olar. Elnarə Şəfiyeva respublikamızda ilk dəfə olaraq xüsusi psixologiyanın müxtəlif sahələri barədə geniş məlumat verir. Uşaqlarda psixi pozuntuların ümumi qanunauyğunluqlarını, əqli gerilik və onların təzahür formaları, şəxsiyyətin formalaşmasının psixologiyası və digər problemləri elmi şəkildə açıqlayır. Biz inanırıq ki, E.Şəfiyeva bu sahədə tədqiqatlarını davam etdirəcək və uğurlu nəticələr əldə edəcəkdir.

«Psixatriya» (N.İsmayılov, 1992), «Tibbi psixologiya və psixoterapiya» (N.İsmayılov, F.İsmayılov, 2002) adlı kitabları da diqqəti cəlb edir. Bu kitablarda xüsusi psixologiya sahəsində nəzəri metodoloji əhəmiyyətə malik olan dəyərli, fundamental bir əsərdir. Xüsusi psixologiyaya aid olan bütün problemlər.

Demək olar ki, bu kitabda öz əksini tapır. Diqqət çəkən cəhət odur ki, dərslikdə psixoproseslərin, fərdi psixi xassələrin, hissi emosional halların pozulmasının səbəbləri və psixokorreksiyası elmi – praktiki cəhətdən geniş şərh olunur.

Çox fərəhli haldır ki, son zamanlarda Azərbaycanda hərbi psixologiya üzrə tədqiqatlara da müəyyən qədər yer verilmişdir. Bu sahədə gənc və istedadlı psixoloq E.Şəfiyevanın xidmətləri xüsusi qeyd edilməlidir.

Onun "Zabit hazırlığının sosial – psixoloji problemləri" adlı doktorluq dissertasiyası respublikamızda psixologiya elminin perspektiv inkişafını təmin edə biləcək yeni nəzəri müddəaları özündə əks etdirən müstəqil tədqiqat işi xüsusilə qeyd edilməlidir. Tədqiqat işində ilk dəfə olaraq kursantlar sosial – psixoloji tədqiqat obyekti olmuşdur. Bu tədqiqat işində zabit hazırlığı üçün xüsusi əhəmiyyət kəsb edən şəxsiyyət xüsusiyyətləri, sosial – psixoloji keyfiyyət və əlamətlər öyrənilmişdir. Təklif edilən yeni şəxsiyyət konsepsiyasının altı komponentinin hər birinin zabitin xidməti fəaliyyəti üçün əhəmiyyəti araşdırılmışdır. Tədqiqat nəticəsində əvvəlki tədqiqatlarda olmayan yeni zabit şəxsiyyətinin təşəkkül modeli verilmişdir. Zabit hazırlığı üçün sosial – psixoloji treninqlərin və digər praktik psixoloji iş üsullarının əhəmiyyəti göstərilmişdir.

Öz müstəqillik və azadlığına qovuşmuş Azərbaycan Respublikası qarşısında duran ən mühüm vəzifələrdən biri milli ordumuzda müasir dövrün tələblərinə uyğun xidmət edə biləcək zabit heyətini formalaşdırmaqdır. Bu prosesin əsas hədəflərindən biri də zabit şəxsiyyətini formalaşdırmaq üçün onun hazırlığı zamanı müşahidə olunan sosial – psixoloji problemləri aradan qaldırmaqdır. Çünki,

zabit şəxsiyyətinin formalaşması, hərbidə onun idarəedici, tərbiyəedici qüvvə kimi rolunun müəyyənləşməsi, xalqı, milləti, vətəni qarşısında öz borcunu yerinə yetirməsi, həmişə döyüşə hazır olması onun təlim və təhsil dövrü aldığı psixoloji hazırlıqdan, müşahidə olunan sosial- psixoloji problemlərin vaxtlı – vaxtında həllindən çox asılıdır. Faktlar göstərir ki, müasir cəmiyyətimizdə zabit hazırlığı prosesində əsaslı dəyişikliklərə nail olmaq üçün onların təlim - tərbiyəsində psixoloji həllinə xüsusi diqqət yetirmək vacibdir. Sistemli və müntəzəm aparılan psixoloji hazırlıq zabitin uğurlu xidməti fəaliyyətini təmin edir.

## Mövzu-14
## Sosial psxiologiya üzrə aparılan tədqiqatlar.

Balabəyova İ.Ş "Yeniləşmə şəraitində sosial – psixoloji münasibətlərin formalaşmasının xüsusiyyətləri" , M.Həsənova "C.Cabbarlı əsərlərinin sosial – psixoloji təhlili və onun şagird şəxsiyyətinin formalaşmasında rolu", E.Əhmədova "Destruktiv davranışın sosial – psixoloji aspektləri", E.Abbasov "Məşqçinin fəaliyyətinin sosial – psixoloji təhlili", Qurbanov R. "Keçid dövründə yadlaşmanın sosial – psixoloji aspektləri", F. Məmmədov "Dil akkultrasiyası prosesinin ali səviyyəsində şəxsiyyətin psixoloji strukturu", K.Kazımova "S.Ə.Şirvaninin ədəbi irsində etnik – psixoloji xüsusiyyətlərin əks etdirilməsi problemi", İ.Mirzəyev "Posttravmatik sterslərin sosial – psixoloji təhlili", N.Rzayeva " Azərbaycan maarifçiliyinin psixoloji konsepsiyası", Abbaszadə N. "Deviant davranışa meylli yeniyetmə qızların sosal – psixoloji xüsusiyyətləri", Mamayeva N. "Siyasi lider şəxsiyyətinin formalaşmasının sosial – psixoloji xüsusiyyətləri" və s. Psixoloqlar tədqiq etdikləri dissertsiya işləri ilə sosial psixologiya sahəsində uğurlu addımlar atmışlar.

Azərbaycan psixoloji fikir tarixində sosial psixologiya və şəxsiyyətin psixoloji problemlərinin tədqiqi həmişə qadın psixoloqlarımızın diqqət mərkəzində olmuşdur. "Müasir Azərbaycan qadının psixoloji xüsusiyyətləri" (A.Musayeva nam.dis. 2010), "Azərbaycanın cənub zonasında ailə konfliktləri və onların psixoloji təhlili" (K.Şiriyeva, nam. Dis. 1998), "Deviant davranışa meylli yeniyetmə qızların sosial-psixoloji xüsusiyyətləri" (N.Abbaszadə nam. Dis. 2007), "Psixosomatik xəstələrin psixo-

sosial korreksiyası" (E.Əhmədova, nam. Dis. 2010), "İbtidai istintaqda dindirmənin psixoloji məsələləri" (Y.Vəliyeva, nam.dis. 2006), "Destruktiv davranışın sosial-psixoloji münasibətlərin formalaşması xüsusiyyətləri" (Balabəyova İ. Nam.dis. 2006), "Müasir şəraitdə tənhalığın sosial-psixoloji problemləri" (Cabbarova L. Nam. Dis. 2002), "Həddi buluğa çatmayan məhkumların sosial-psixoloji tipləri" (Məcidova S.M. 1985), "Cəzanın sosial-psixoloji məsələləri" (Səməndərova A. nam. dis. 2004), "Yeniyetmə qızların şəxsiyyətinin etnopsixoloji xüsusiyyətləri" (Qarayeva R. nam.dis. 2010), "Molla Nəsrəddin jurnalında xalq və müəyyən sosial qruplara xas olan səciyyəvi etnik psixoloji xüsusiyyətlərin inikası" (Sadıqova M. nam.dis. 2002), "Susidal davranışın təşəkkülünün psixoloji xüsusiyyətləri" ( İmamverdiyeva M. nam. dis. 2011), "Erkən gənclik qruplarında sosial persepsiyanın etnopsixoloji xüsusiyyətləri" (Hüseynova G.Q. nam. dis. 1995), "Cəfər Cabarlının əsərlərinin sosial-psixoloji təhlili və onların şagird şəxsiyyətinin formalaşmasında rolu" (Həsənova M. nam. dis. 2011), "Siyasi lider şəxsiyyətinin formalaşmasının sosial-psixoloji xüsusiyyətləri" (Mamayeva N. Nam. Dis. 2008), "Siyasi proseslərdə milli psixologiya amili" (Priyeva E. nam. dis. 2006), "Azərbaycan ailəsində qız tərbiyəsinin etnopsixoloji xüsusiyyətləri" (Hacıyeva S. nam. dis. 2007), "Azərbaycanlı uşaq və yeniyetmələrin milli identikliyinin inkişafının sosial-psixoloji xüsusiyyətləri" ( Qədirova R. dok. dis. 2008), "Yeniyetmələrin cinayətləri işləri üzrə məhkəmə-psixoloji ekspertizası problemləri" (Əhmədova E., 2004), "Sosial-psixoloji tiplər (69),", "Psixologiya və bədii ədəbiyyatda şəxsiyyətin psixologiyası problemi"

(G.Məmmədova dok. dis. 2006), “Zabit hazırlığının sosial-psixoloji problemləri” (Şəfiyeva E. dok.dis. 2008), “Şəxsiyyətin yaradıcı potensialının formalaşmasının psixoloji xüsusiyyətləri” (K.Əliyeva, dok. dis. 2008) adlı namizədlik və doktorluq dissertasiyalarını buna misal göstərmək olar.

## Mövzu-15
## Azərbaycanın ilk psixoloqları və psixologiya elmləri doktorları

Azərbaycanda elmi psixologiyanın inkişaf edib formalaşması XX əsrin birinci on illiyinə təsadüf edir.

1919-cu ildə Bakı Dövlət Universitetinin, 1921-ci ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsis edilməsi, bir sıra psixologiya laboratoriyalarının, elmi-tədqiqat müəssisələrinin açılması bu sahədə dönüş yaratdı.

1920-ci ildən başlayaraq respublikamızda yerli psixoloji kadr hazırlığına xüsusi fikir verildi. Rusiyadan, Türkiyədən Azərbaycana psixoloqlar dəvət olundu. A.O.Makovelski (Kazan), N. İsmət, M. Tofiq, Mühiddin (Türkiyə), B.B.Komarovsk, A.D. Qulyayev (Moskva) belə psixoloqlardandır. Həmin psixoloqlarla yanaşı Azərbaycanda yerli psixoloji kadrlar da hazırlanırdı. Çox keçmədi ki, Azərbaycanda Ə.K. Zəkuyev, F.Ə. İbrahimbəyov, M.C. Məhərrəmov, S. Hacıyev, M. Abbasov, V.Mustafayev, M. Hacıyev, Z. Mehdizadə, A.K. Abdullayev, M. Mustafayeva kimi psixoloqlar yetişdi.

XX əsrin birinci yarısında Azərbaycanda psixologiya elminin inkişafı məhz bu alimlərin adı ilə bağlıdır.

1950-ci illərdən başlayaraq Azərbaycan psixologiya elminə yeni ümidverici nəsil gəldi. Ş.S. Ağayev, Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, M.Ə. Həmzəyev, Ə.Ə. Qədirov, İ.Ə. Seyidov, R.M. Rəsulov, K.S. Əbilov, Q.E. Əzimli, Ə. Abdullayev, N. Cavadov, A.U. Məmmədov, T. Mustafayev, Ş. Babayev, M. Əbdülov, Ə. Fərəcov və başqaları. Adlarını çəkdiyimiz psixoloqlar bir tərəfdən elmi-tədqiqat

işi aparır, digər tərəfdən psixologiyanın inkişafına kömək edirdilər.

XX əsrin ikinci yarısında Azərbaycan psixologiyanın inkişafı, taleyi isə məhz bu orta nəslin nümayəndələrinin yaradıcılığı ilə bağlı olmuşdur.

A.O. Makovelski 1884-cü il iyul ayının 22-də, indiki Belarusiya Respublikasının Qrodno şəhərində ziyalı ailəsində anadan olmuşdur. Qrodno klassik gimnaziyanı bitirdikdən sonra 1902-ci ildə Kazan Universitetinin tarix-filoloji fakültəsinə daxil olmuş və 1907-ci ildə həmin fakültəni birinci dərəcəli diplomla qurtarmışdır. A.O.Makovelski Universitetdə əla oxuduğuna görə elmi şuranın qərarı ilə fəlsəfə kafedrasında müəllim kimi saxlanmışdır. A.O. Makovelski müəllimlik fəaliyyətinə hələ universitetdə tələbə olarkən başlamışdır. O, həmin illərdə çox da böyük həcmdə olmayan "Kateqoriyalar haqqında məntiqi təlim" adlı əsər də yazmışdır.

1920-ci ildə A.O. Makovelski Azərbaycan Xalq Komissarlığı tərəfindən Bakıya dəvət olundu. O, bu dəvəti məmnuniyyətlə qəbul etmiş və o ildən başlayaraq taleyini Azərbaycan Respublikası ilə bağlamış, ömrünün sonuna qədə bu sahədə əqidəsini dəyişməmişdir. Onun əsas fəaliyyəti Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur.

A.O. Makovelski 1920-ci ildən başlayaraq Bakı Dövlət Universitetində çalışmış, fəlsəfədən, psixologiyadan mühazirələr oxumuş, bu sahədə kadr hazırlığına rəhbərlik etmişdir.

A.O. Makovelskinin fəaliyyət dairəsi çox geniş olmuşdur. O, əsasən fəlsəfə sahəsində çalışmış, bu sahədə xeyli tədqiqatlar aparmış, dərslik yazmış, monoqrafiyalar, elmi-kütləvi əsərlər, məqalələr nəşr etdirmişdir. Bununla

yanaşı onun Azərbaycan Respublikasında başqa elmlər sahəsində xidmətləri az olmamışdır. Biz ancaq onun fəaliyyətinin psixologiya ilə bağlı sahəsini qismən də olsa işıqlandırmaqla kifayətlənəcəyik.

A.O. Makovelski Azərbaycanda yerli psixoloji kadrların hazırlanmasında xeyli iş görmüşdür. Bir neçə il bu sahəyə rəhbərlik etmişdir.

Respublikamızda ilk psixoloqlardan sayılan, Azərbaycan üçün bir neçə görkəmli psixoloq yetişdirən Ə.K. Zəkuyevin də bir alim kimi inkişaf edib formalaşmasında A.O. Makovelskinin əməyi çox olmuşdur. A.O. Makovelski Yaxın və Orta Şərq, Yunan fəlsəfəsini yaxşı bildiyinə görə Ə.K. Zəkuyevin bu istiqamətdəki tədqiqatlarına kömək etmiş, 1947-ci ildə indiki BDU-da müdafiə etdiyi "IX-XI əsrlərdə Şərqdə psixoloji nəzəriyyələr tarixindən" adlı doktorluq dissertasiyasının rəsmi opponenti olmuşdur. Yeri gəlmişkən demək lazımdır ki, A.O. Makovelski Ş.S. Ağayevin "Əmək, tərbiyə və inkişaf" (Bakı, ADU, 1967), Ə.S. Bayramovun "Kiçik məktəb yaşlı şagirdlərdə əqli keyfiyyətlərin inkişaf dinamikası" (Bakı, ADU, 1967) adlı doktorluq dissertasiyasının da müdafiəsinə kömək göstərmişdir.

A.O. Makovelski 1920-ci ildən 1960-cı ilə qədər Bakı Dövlət Universitetində psixologiya kafedrasına rəhbərlik etmişdir. Bu kafedra bir neçə il pedaqogika və məntiq kafedraları ilə birlikdə fəaliyyət göstərmişdir.

1946-47-ci tədris ilindən başlayaraq ümumtəhsil orta məktəblərdə psixologiyanın tədrisi haqqında xüsusi qərar qəbul olunmuşdur. Bu qərardan sonra 1948-ci il iyul ayında indili BDU-da, filologiya fakültəsi yanında məntiq-psixologiya kafedrası yaradıldı. A.O. Makovelski

kafedraya rəhbər təyin olundu. Az müddət içərisində kafedra üzvlərinin sayı 1 nəfərə çatdırıldı; bir nəfər professor (A.O. Makovelski), iki nəfər dosent, iki nəfər müəllim, altı nəfər aspirant.

1920-1960-cı illər ərzində bilavasitə A.O. Makovelskinin rəhbərliyi ilə psixologiya üzrə M.R. Abbasov "Nizami Gəncəvinin psixoloji görüşləri" (Bakı, APİ, 1945), M.C. Məhərrəmov "Səciyyə haqqında psixoloji nəzəriyyə" (Bakı, ADU, 1947), M.N. Mustafayeva "Böyük bağça yaşlı azərbaycanlı uşaqlarda söz ehtiyatının inkişafı" (Bakı, APİ, 1949), S. Hələtai "Taqi Eraninin psixoloji görüşləri" (Bakı, APİ, 1965), M.C. Hacıyev "Təlim prosesi ilə əlaqədar olaraq birinci sinif azərbaycanlı şagirdlərdə söz ehtiyatının inkişafı" (Bakı, APİ, 1951), İ.Ə. Seyidov "Azərbaycan ibtidai məktəbində ana dilinin orfoqrafiyasının mənimsənilməsinə səhvləri görmə qavrayışının təsiri məsələsinə dair" (Bakı, APİ, 1954), N.S. Lutoxina "Musiqi hafizəsinin psixoloji təbiəti" (Bakı, ADU, 1946) və onlarca başqaları göstərilən problem üzrə namizədlik dissertasiyalarını müdafiə etmişlər.

A.O. Makovelski həm də bir təşkilatçı kimi də respublikamızda fəaliyyət göstərmişdir. 1929-cu ildə Azərbaycan Dövlət elmi Şurası təşkil olunur. A.O.Makovelski əvvəlcə həmin şuranın katibi, sonra isə elmi-pedaqoji bölmənin sədri təyin olunmuşdur. 1930-31-ci illərdə Qiyabi Pedaqoji İnstitutun direktoru vəzifəsində çalışmışdır. A.O. Makovelskinin fəaliyyəti dövrünün bir hissəsi AETPİ (indiki AETPEİ) ilə bağlıdır. O, 1931-1940-cı illərdə həmin institutda işləmiş və psixologiya üzrə tədqiqat işləri aparmışdır.

A.O. Makovelski yaradıcılığının bütün dövrlərində xarici ölkələrlə, xüsusilə Yaxın və Orta Şərq alimləri ilə, həm də ölkə daxilindəki respublikaların (Rusiya, Orta Asiya respublikaları və başqaları) alimləri ilə sıx elmi əməkdaşlıq etmiş, onların mütərəqqi ideyalarının Azərbaycanda yayılmasına ciddi cəhd göstərmişdir.

O, 1913-cü il iyul ayında iki il müddətində xarici ölkələrə elmi ezamiyyətə göndərilmişdir. 1913-1914-cü tədris ilində o, Berlin və Münhenin elmi kitabxanalarında olmuş Sokrata qədərki fəlsəfəyə aid əsər üzərində çalışmışdır. Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar A.O. Makovelski Rusiyaya qayıtmış və elmi ezamiyyətinin ikinci ilini Moskva və Peterburqda keçirmişdir.

A.O. Makovelski Türkmənistana dəvət edilərkən 1933-cü ilin birinci yarısından Türkmənistan Pedaqoji İnstitutunda və Türkmənistan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda məşğələlər aparmışdır. A.O. Makovelski mütəmadi olaraq Moskva, Sankt-Peterburq, Kiyev, Rostov, Tbilisi şəhərlərində elmi ezamiyyətdə olmuş, Azərbaycan psixoloqlarını həmin şəhərlərdə təbliğ etmişdir.

A.O. Makovelski 1921-ci ildə Azərbaycan Dövlət Universitetində "Sokrata qədərki, fəlsəfə" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Əsər həm rəsmi opponentlər, həm də elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. Bu əsər yunan və latın mənbələrinin dərindən öyrənilməsinə, rus, fransız, ingilis, alman, və italyan dillərində elmi ədəbiyyatdan geniş surətdə istifadə edilməsinə, məsələlərin qoyuluşunda yekdilliyə görə, həmin dövrdə yalnız Rusiya üçün deyil, Avropa elmi üçün də yenilik idi.

A.O. Makovelski bu əsərdə qədim Yunanıstan Milet məktəbinin materialistlərinin əsərlərindən parçaları, həmçinin bu filosofların həyatı haqqında materialları yunan dilindən rus dilinə tərcümə etmişdir.

Əsərdən psixikanın dialektik baxımdan anlaşılmasına aid xeyli material götürmək olar və həmin materiallar da o dövr üçün böyük əhəmiyyət kəsb etmişdir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, 1940-41-ci illərdə müəllifin "Sokrata qədərki fəlsəfə" sahəsindəki fikirlərini tamamlayan iki hissədən ibarət (Sofistlər, I-II buraxılış, B., 1940-1941-ci illər) əsərləri nəşr olunmuşdur.

A.O. Makovelski yarım əsrlik bir dövrdə Azərbaycan psixoloqlarını beynəlxalq aləmdə ittifaq mətbuatında, nüfuzlu elmi məclislərdə layiqincə təmsil etmişdir. A.O.Makovelski Yunan və Şərq fəlsəfəsində psixoloji ideyaları öyrənib Azərbaycanda yaymaqlaniki mühüm iş görmüşdür. O, bir tərəfdən Şərq aləmi ilə Azərbaycan arasında əlaqə yaratmış, həmin xalqların mütərəqqi ideyaları ilə azərbaycanlıları tanış etmiş, digər tərəfdən Azərbaycan elminin, mədəniyyətinin qədimliyini, saflığını bütün dünyaya tanıtmağa kömək etmişdir. "Demokritin etik və siyasi görüşləri" (M.Ə. Rəsulzadə adına ADU-nun elmi əsərləri, 1941, I hissə), "Bendikt Spinoza və psixologiya tarixində onun yeri" ("Voprosı psixoloqii" j., 1958, №5) adlı əsər və məqalələr məhz bu məqsədi güdmüşdür.

A.O. Makovelski mərkəzi mətbuatda həmişə fəal çıxış etmiş, Azərbaycanda psixoloji fikrin inkişafının təbliğinə kömək göstərmişdir.

M.F. Axundovun siyasi-fəlsəfi əsərləri ("Sovetskaya nauka", 1940, №3), "Məntiq bir elm kimi necə olmalıdır" ("Voprosı filosofii" j., 1951, №2) və başqa məqalələrini

(“Voprosı filosofii” j., 1957, №3; “Voprosı psixoloqii”, 1958, №5, “Voprosı filosofii”, 1961, №12) bu na misal göstərmək olar.

Qabaqcıl rus alimlərindən N.Q. Çernişevskinin (Azərbaycan SSRİ EA əsərləri, 1953, №6), V.Q. Belinskinin (“Bak. raboçii”, 1945, №11) psixoloji fikirlərini öyrənmişdir. Psixologiya qurultayında, beynəlxalq konqreslərdə, Zaqafqaziya psixoloqlarının konfranslarında da A.O. Makovelski yaxından iştirak etmişdir. 1957-ci ildə Daşkəsəndə keçirilən Şərqşünasların birinci ümumittifaq konfransında, Zaqafqaziya xalqlarının siyasi, fəlsəfi, psixoloji fikirlərinin inkişafına böyük təsir göstərmiş, 1959-cu ildə Tbilisidə, 1960-cı ildə Yerevanda, 1962-ci ildə Bakıda keçirilən konfranslarda A.O. Makovelski “Avesta”da psixika və psixologiya problemlərinin qoyuluşuna və həllinə aid maraqlı məruzələrlə çıxış etmişdir. A.O.Makovelski zərdüştlüyün müqəddəsi külliyatı sayılan Avestada psixoloji araşdırmalarını davam etdirmiş, 1960-cı ildə Bakıda “Avesta” adlı əsərin çap etdirmişdir. Alimlər belə hesab edirlər ki, Avestanın tərkib hissələri b.e.ə. I minilliyin birinci yarısında formalaşmağa başlamışdır. Lakin, onun bəzi hissələri e.ə. ikinci minilliyə aiddir. Qədim dövrdə və orta əsrlərdə Avesta etiqadları və mərasimləri Orta Asiya, İran və Azərbaycan vilayətlərində geniş yayılmışdır. Eramızın birinci minilliyinin ikinci yarısında Arşakilər dövründə Avestanın müəyyən hissəsi yazılmağa başlamışdır. Avestanın əlyazmalarının ən qədimi 13-cü əsrə, ən yaxın isə XIV əsrə aiddir. Dövrümüzdəki Avestanın aşağıdakı hissələri çatmışdır. Yaşıtlar “ehtiram”, “mədh”-müxtəlif Allahlara həsr olunmuş himndualar.

Müəllifi peyğəmbər Zərdüşt sayılan Qatlar ("Himnlər", "Mahnılar" və başqaları da bura daxildir).

Bir çox xalqların, o cümlədən Azərbaycanın tarixini, mədəniyyətini, ictimai-psixoloji təsisatını, adət-ənənələrini, mifik təfəkkürünü öyrənməkdə "Avesta" mühüm mənbədir.

Avestada insan təfəkkürünün, ağıl və zəkasının qüdrəti ön planda verilir. Xeyir və Şər qüvvələri göstərir və bu qüvvələrin mübarizəsində xeyirin qələbə çalması qanuniləşdirilir.

A.O. Makovelski həmin əsərində "Avesta"nın yaranması, "Avesta"da sosial-iqtisadi, coğrafi məsələlərin qoyuluşu, dünyagörüşü, əxlaq, mənəviyyat, hüquq və insanlığın tarixi və digər psixoloji problemləri elmi şəkildə təhlil edir. Azərbaycan xalqının psixoloji fikrinin çox dərindən gələn köklərinə diqqəti yönəldir. Azərbaycan millətinin əxlaq və mənəviyyatının paklığı, təmizliyi bir daha sübuta yetirilir.

Kitab 1960-cı ildə yazılıb. Ola bilsin ki, əsər həmin dövrdə diqqəti az cəlb edib. Azərbaycan xalqının milli özünüdərkinə, öz soykökünə qayıtdığı indiki dövrdə aktuallıq kəsb edir. Bütün dünyada milli münasibətlərin kəskinləşdiyi müasir dövrdə bu əsər zamanın tələbləri ilə səsləşir. Erməni millətçilərinin Azərbaycan xalqına qarşı düşmənçilik siyasətinin qanlı müharibələrə çevrildiyi indiki dövrdə gənclərimizdə millilik ruhunun tərbiyə olunmasında, torpaq, millət təəssübkeşliyi aşılanmasında kitab bu gün də aktuallığını itirmir.

A.O. Makovelski psixologiyanın ümumi nəzəri məsələlərinə, yaş psixologiyası və pedaqoji psixologiyaya aid də müəyyən əsərlər yazmışdır. "İbtidai insanların

təfəkkürü" (Kazan, znanie sila. 1920), "Dil və təfəkkürün qarşılıqlı əlaqəsi haqqında" (Azərb. SSRİ EA, 1952), "Psixika və şüur" ("Zaqafqaziya psixoloqları" konfransının tezisləri, Bakı, 1962), "Beyin və təfəkkür" ("Təbliğatçı", 1945, №8) adlı əsər və məqalələrdə insanın idrak fəaliyyəti haqqında ümumi məlumat verilir, dil və təfəkkürün qarşılıqlı əlaqələri təhlil olunur. A.O. Makovelski təlim və tərbiyənin psixoloji problemlərinə aid həm özü tədqiqatlar aparıb və həm də bu sahə üzrə aparılan xeyli tədqiqatlara rəhbərlik etmişdir.

"Psixoloji" (Bakı, 1929), "Körpə uşaqların tərbiyəsi" (Bakı, 1940), "Təlim-tərbiyədə stimul problemi" (Bakı, 1936), "Valideynlərə nə üçün pedaqoji savad lazımdır" (Bakı, 1940), "İradə tərbiyəsi haqqında valideynlər nəyi bilməlidirlər" (Bakı, 1940), "Təlim-tərbiyənin psixoloji əsasları" (Bakı, 1940) adlı elmi-kütləvi əsərlərini, qəzet və jurnal məqalələrini buna misal göstərmək olar. "Pedaqoji" kitabı 1929-cu ildə nəşr olunub, 206 səhifədən ibarətdir.

Kitabda pedalojinin bir "elm" kimi meydana gəlməsi, onun əhəmiyyəti, uşaqların inkişafı və tərbiyə edilməsində pedaloji biliklərdən istifadə qaydaları şərh olunur. Kitabda yaş dövrlərinə də münasibət bildirilir. Müəllif hər bir yaş dövrünün psixoloji xarakteristikasını verir, həmin yaş dövrlərində valideynlərin, müəllim və tərbiyəçilərin uşaqlarla davranmaq yollarını göstərir. Pedalojinin xüsusi metodları şərh olunur.

Aydın məsələdir ki, uşaq öz-özünə inkişaf etmir. Uşağın bir şəxsiyyət kimi inkişaf edib formalaşmasında irsiyyət və mühitin rolu inkar edilməzdir. Kitabda məhz bu məsələyə ətraflı diqqət yetirilir, irsiyyət və mühitin, ictimai quruluşun, təlim-tərbiyənin rolu göstərilir. Kitabda

diqqəti cəlb edən cəhətlərdən biri də “Şəxsiyyət və diqqət”, “Uşağın diqqəti və maraq”, “İdrak və ehtiras”, “Yaddaş”, “Xəyal”, “Nitq” kimi psixi xüsusiyyətlərin elmi səviyyədə izah olunmasıdır. Əlbəttə, 1936-cı ilə qədər pedaloji elminə münasibət dəyişməmişdir. Yəni, o, Qərbi Avropadan keçmiş bir nəzəriyyə kimi ölkəmizdə hakim idi. Ona görə də kitabda həmin nəzəriyyələr hakim mövqe tutur və uşağın taleyində irsiyyətin roluna daha geniş yer verilir. Pedaqogika tərbiyə işində əsas elm kimi şərh olunur. Bu gün də həmin məsələ bir qədər müəmmalı görünür. Pedalogikaya münasibətin dəyişməsi hiss edilir. Lakin, bu fikirlər hələlik elmi təsdiqini almadığı üçün konkret bir fikir demək çətindir.

Kitabda həmçinin uşaqların əxlaqi, mənəvi cəhətdən tərbiyəsi, onların fəaliyyət prosesində inkişafı, temperamenti, xarakteri onlar arasında cinsi fərqlər və bunların nəzərə alınması və s. məsələlər də şərh olunmuşdur. Kitabın ikinci nəşri 1931-ci ildə olmuşdur. Həmin dövr üçün bu kitabın da böyük əhəmiyyəti olmuşdur.

A.O. Makovelski AETRİ-də (indiki AETPEİ) işlərkən “Vərdişlərin inkişafı”, “Yaradıcı təxəyyülün tərbiyəsi” (AETPİ arxivi, fond I, siyahı vahidi 16, səh. 1-39) problemləri üzrə elmi-tədqiqat işləri aparmış və həmin dövrdə məktəblərimizə kömək göstərmişdir.

**Ə.K.Zəkuyev(1888-1967)**

XX əsrdə Azərbaycanda psixologiya elminin inkişaf edib formalaşmasında əməkdar elm xadimi, professor Ə.K. Zəkuyevin böyük xidmətləri olmuşdur.

Ə.K. Zəkuyev 1888-ci ildə Dağıstan mahalının Kumux kəndində yoxsul ailəsində anadan olmuşdur. İbtidai təhsilini öz kəndlərində almış, orta təhsilini isə Həştərxan şəhərində bitirmişdir. Ə.K. Zəkuyev 1919-cu ildə İstanbul Universitetinin tarix-filoloji fakültəsini psixologiya, fəlsəfə şöbəsinə daxil olmuş, 1921-22-ci tədris ilində həmin şöbəni birinci dərəcəli diplomla qurtarmışdır. Universiteti bitirdikdən sonra o, Bakıya gəlmiş, 1922-31-ci illərdə pedaqoji texnikumda psixologiyadan dərs demiş, 1930-1938-ci illərdə indiki AETPEİ-də baş elmi işçi olmuşdur. 1926-cı ildən eyni zamanda Ə.K. Zəkuyev Bakı Dövlət Universitetində pedaqogika fakültəsində fəlsəfə tarixindən mühazirələr oxumuşdur. O, təxminən 1933-cü ilə kimi universitetdə çalışmış, psixologiya elminin inkişafına, onun tədris keyfiyyətinin yaxşılaşdırılmasına xeyli əmək sərf etmişdir. Ə.K. Zəkuyevin pedaqoji fəaliyyətinin xeyli hissəsi indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin psixologiya kafedrasına dosent vəzifəsinə təyin olunmuş, bir neçə il orada işlədikdən sonra, 1943-cü ildən 1960-cı ilə qədər psixologiya kafedrasına rəhbərlik etmişdir 1960-cı ilin sentyabrından Ə.K.Zəkuyev ömrünün sonuna Azərbaycan Respublikası EA-nın fəlsəfə institutunda fəaliyyət göstərmişdir. Bu müddət ərzində Ə.K. Zəkuyev Azərbaycan Respublikası üçün yüksək ixtisaslı psixoloji kadr hazırlığına kömək etmiş və Azərbaycan psixoloqlarını bir çox elmi məclislərdə təmsil etmişdir.

Azərbaycan Respublikasının adlı-sanlı psixoloqlarından sayılan Ş.S. Ağayev (1954), Ə.S. Bayramov (1959), M.Z.Həmzəyev (1955), Ə.Ə. Əlizadə (1962), A.U. Məmmədov (1965), İ.A.Fərəcov (1968) və başqaları Ə.K. Zəkuyevin rəhbərliyi ilə namizədlik dissertasiyalarını müdafiə etmiş və istedadlı psixoloq kimi formalaşmışlar.

Ə.K. Zəkuyevin elmi-pedaqoji fəaliyyəti olduqca geniş və hərtərəflidir. Onun yaradıcılığında ən diqqət yetirilən sahə psixologiya tarixi ilə bağlı aparılan tədqiqatlardır. O, həmin tədqiqatlarda Azərbaycanda, xaricdə, xüsusilə Yaxın və Orta Şərq ölkələrində psixoloji fikirlərin təşəkkülü, inkişaf edib formalaşması barədə məlumat vermiş və bəzi psixoloji cərəyanları tənqidi təhlildən keçirmişdir.

Alimin qonşu respublikalar ilə sıx elmi əməkdaşlığı olmuşdur.

Ə.K. Zəkuyev ərəb əlifbasını yaxşı bildiyinə görə Şərq aləmi ilə, oranın elm və mədəniyyəti ilə daha yaxından maraqlanmış və bu istiqamətdə psixologiya tarixi ilə bağlı bir sıra araşdırmalar aparmışdır.

Bizim eradan bir neçə yüz il əvvəl Şərq ölkələrində (xüsusilə, Çində, Misirdə, Hindistanda və b.) böyük inkişaf dövrü başlanmışdır. Həmin illərdə Şərqdə elmi biliklərə söykənən yeni nəzəriyyələr yarandı. Həmin ideyaların əsasını isə istehsalat fəaliyyəti və maddi mədəniyyətə əsaslanan fikirlər təşkil edirdi. İstehsalla bağlı hərəkətlərin inkişafı yeni bir tarixi formasiyanı-quldarlıq quruluşu dövlətini yaratdı. Bu dövrdə bir sıra mifik təsəvvürlər, xüsusilə insanın ruhi aləminin ölməzliyi haqqında dini etiqadlar yarandı. Bununla yanaşı Şərqdə ruhun yaranmasının təbii əsasları haqqında da bəzi fikirlər

irəli sürülürdü. Belə bir fikir irəli sürülürdü ki, orqanizm xarici mühitdən asılı olaraq yaşayır, ruh isə orqanizmdən asılıdır.

IX-XI əsrlərdə Şərqdə istehsalatın qüvvətlənməsi, ticarətin artması və buna müvafiq olaraq elm və mədəniyyətin canlanması dövrü kimi qiymətləndirilirdi. Bu dövrdə Şərqdə böyük tarixi şəxsiyyətlər yaşamış və öz dühaları ilə ulduz kimi parlamışlar.

Əl-Nəzzam, İbn-Sina, Bəhmənyar, N. Tusi belə alimlərdən olmuşlar. Şərq fəlsəfəsində hissi idrakla əqli mərhələlər fərqləndirilir. Şeylərin zahiri cəhətlərinin duyğular vasitəsilə qavranıldığı, onların mahiyyətinin isə əqli səviyyədə, məntiqin köməyi ilə dərk edildiyi göstərilir.

Şərq fəlsəfəsində bu və ya buna bənzər digər mütərəqqi fəlsəfi, psixoloji ideyaların öyrənilməsi və Azərbaycanda təbliğ edilməsi Ə.K. Zəkuyevə nəsib olmuşdur. Ə.K. Zəkuyev Yaxın və Orta Şərq fəlsəfəsində psixoloji nəzəriyyələrin ardıcıl tədqiqatçısı olmuşdur.

Onun "IX-XI əsrlərdə Şərqdə fəlsəfi və psixoloji nəzəriyyələrin tarixindən" (Bakı, 1947) adlı doktorluq dissertasiyası, "Bəhmənyarın fəlsəfi görüşləri" (Bakı, 1958), "İbn-Sinanın psixologiyası" (Bakı, 1958), "Orta əsrlərdə ərəb dillərin məntiq tarixindən" (Bakı, 1971) adlı kitabları, onlarla elmi-kütləvi əsərləri, məsələn: "Ərəb filosoflarının ağıl haqqında görüşləri", "İbn-Sinanın psixoloji təlimində bəzi materialist tendensiyalar haqqında", "Qədim Yunanıstanda və romada psixoloji fikrin inkişafı", "Nəsrəddin Tusinin psixoloji görüşləri", "Yaxın və Orta Şərqdə ərəbdili psixologiyası", "Orta əsrlərdə Yaxın Şərqdə psixoloji fikrin inkişafının bir sıra xüsusiyyətləri", "XI-XIII əsrlərdə Yaxın Şərq psixologiyasında idrak və

təfəkkür haqqında" həmin problemin öyrənilməsinə həsr olunmuşdur. Ə.K. Zəkuyev 1 oktyabr 1947-ci ildə indiki M.Ə. Rəsulzadə adına Bakı Dövlət Universitetinin böyük elmi şurasında həmin dövrdə rektor vəzifəsində işləyən əməkdar elm xadimi, professor A.Qarayevin sədrliyi ilə "IX-XI əsrlərdə Şərqdə fəlsəfə və psixoloji nəzəriyyələrin tarixindən" adlı doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Əsər həmin dövrün görkəmli alimləri, dissertasiyanın rəsmi opponentləri, akademik A.O.Makovelski, akademik şərqşünas Y.E. Bertels, professor B.B. Komarovski, professor Ə. Sultanlı tərəfindən yüksək qiymətləndirilmişdir. Dissertasiya iki hissədən ibarətdir. Birinci hissənin mərkəzində dahi alim, filosof, psixoloq, Şərq fəlsəfəsinin görkəmli nümayəndəsi Əl-Nəzzam duru. Əl-Nəzzam IX əsrdə fəlsəfənin mərkəzində, ən mütərəqqi fəlsəfi cərəyanların başında dayanırdı. Alimlərin dediyinə görə, Əl-Nəzzamın yazılı əsəri ortalığa çıxmayıb.

Lakin, bu çətinlik Ə.K. Zəkuyev qorxutmamışdır, o, ərəb məxəzlərini izləmiş, Əl-Nəzzamın fəlsəfi psixoloji görüşlərini, ideyalarını sistemləşdirmişdir. Çox ziddiyyətli olan bu fəlsəfi-psixoloji nəzəriyyələri doğuran ictimai, tarixi səbəbləri aydınlaşdırmaqla bərabər, müəllif Əl-Nəzzam fəlsəfəsinin Şərqdə Və Qərbi Avropada təsir dairəsini izləmiş, çox əhəmiyyətli fəlsəfi-psixoloji müqayisələr aparmışdır.

İkinci hissənin çətinlikləri nisbətən azdır. Çünki, müəllif tədqiqatını konkret mənbələr üzərində qura bilmişdir. Ibn-Sina insan psixikasının yaranmasının tibbi şərtlərinə, yaranmasının qanunauyğunluqlarına, emosiyalara aid maraqlı fikir söyləmiş və bu günlə səsləşən fərziyyələr irəli sürmüşdür. Ə.K. Zəkuyev İbn-Sinanın

psixoloji görüşlərini bu nöqteyi-nəzərdən qiymətləndirmişdir. İbn-Sinanın psixoloji görüşlərində olan ziddiyyətlər də müəllifin diqqət mərkəzində olmuşdur. İbn-Sinanın heyvan psixikası ilə insan psixikası arasındakı keyfiyyət fərqini görürdü. Bu nəzəriyyə primitiv olsa da təkamül yaxınlaşır. İbn-Sinanın baş-beyin qabığında psixikanın lokalizasiyası qanununu izah edir. Hər bir psixi hadisənin yaranma mexanizmi haqqında dəqiq təsəvvür yaradırdı. İbn-Sina bir çox hallarda dəqiq idrak nəzəriyyəsini materialist mövqedən şərh etsə də insan ağlının, təfəkkürünün ruhla əlaqələrinin izahında idealist mövqedən çıxış edirdi.

Ə.K. Zəkuyev zəngin təcrübə və biliyə malik olan bir alim kimi, hər iki şəxsiyyətin psixologiyasındakı ideyaları saf-çürük edir, həmin dövr üçün vacib olan bəzi məqamları parlaq şəkildə nəzərə çarpdırırdı. Alimin Yaxın və Orta Şərq ölkələrində psixoloji nəzəriyyələri öyrənib Azərbaycanda onu təbliğ etməklə, respublikamızla həmin ölkələr arasında elmi əlaqə yaradıb və həm də ümumdünya elm tarixinə Şərq psixologiyası haqqında dəyərli məlumat verib. Məhz buna görədir ki, həmin dövrdə Ə.K. Zəkuyev əsərləri Şərqşünas alimlərin (A.O. Makovelski, M.Rədifli və başqaları) diqqətini cəlb etmişdir.

Azərbaycanda psixologiya sahəsində aparılan işləri şərti olsa da müqayisə etsək, görərik ki, yaş və pedaqoji psixologiya üzrə eksperimental tədqiqatlar daha üstünlük təşkil edir. Bu işlə də Ə.K. Zəkuyevin xidməti daha çox olmuşdur. O, bir tərəfdən yaş və pedaqoji psixologiya üzrə aparılan tədqiqatlara rəhbərlik etmiş, digər tərəfdən özü də həmin sahəyə aid tədqiqatlar aparmışdır. 1930-1940-cı illərdən başlayaraq respublikamızın pedaqoji təmayüllü

mətbuatında onun müəllim və tərbiyəçilərə kömək məqsədi ilə bir neçə silsilə məqalələri nəşr olunub. “Uşağın diqqəti haqqında” (Keçmiş APİ-nin elmi əsərləri, 1935, №1), “Dərsdə şagirdlərin diqqətini təşkil etmək haqqında” (“Müəllimə kömək”, 1940, №9), “Şagirdlərdə diqqətsizliyin səbəbləri” (“Azərbaycan məktəbi”, 1945, №5) adlı məqalələrdə dərs prosesində diqqətin mahiyyəti və səmərəli təşkili yolları psixoloji baxımdan təhlil olunur.

“Uşaq hafizəsinin möhkəmliyi üçün əyaniliyin əhəmiyyəti” (“Müəllimə kömək”, 1940, №1), “Hafizənin tərbiyə edilməsi” (“Müəllimə kömək”, 1943, №2), “Uşaq hafizəsinin inkişafının bəzi xüsusiyyətləri” (“Azərbaycan məktəbi”, 1944, №2-3) adlı məqalələrdə isə tədris materiallarının öyrənilməsi və yaddasaxlanılmasının psixoloji yolları açıqlanır.

Təlim materiallarının düzgün dərk olunmasında təfəkkür prosesi müstəsna əhəmiyyət kəsb edir. Çünki, şagirdlər müxtəlif fənlərə aid məfhumları düzgün anlamasa, onları ümumiləşdirib müəyyən bir məntiqi nəticəyə gələ bilməsə, o, təlimdə müvəffəqiyyət qazana bilməz. Ə.K. Zəkuyev “Məntiqi təfəkkürün tətbiqi və tərbiyəsi haqqqında” (“Azərbaycan məktəbi”, 1945, №1), “Məktəbəqədər və məktəb yaşlı uşaqlarda təfəkkürün inkişafı” (keçmiş APİ-nin Elmi əsərləri, 1946, №1) adlı məqalələrdə, məhz bu problemlərə toxunur, təfəkkürün inkişafı xüsusiyyətlərini diqqəti yönəldir.

Həmin dövrdə Azərbaycan dilində psixoloji ədəbiyyat olduqca az olmuşdur. Təlimin psixoloji məsələlərinə aid demək olar ki, elmi-kütləvi əsərlər, məqalələr yazılmırdı.

Adlarını çəkdiyimiz məqalələr bu gün, informasiya bolluğunda qəribə görünsə də, alimin yaşadığı dövrdə olduqca böyük əhəmiyyət kəsb etmişdir.

Ə.K. Zəkuyevin yaradıcılıq dairəsi çox genişdir. Respublikamızda psixoloji xidmətin bütün sahələrində onun əməyi hiss olunur. 1920-1965-ci illər arasında onun bilavasitə iştirakı ilə Azərbaycanda bir neç

Psixologiya dərslikləri, dərs vəsaitləri, psixologiya üzrə lüğətlər nəşr olunub.

Azərbaycanda elmi psixologiya XX əsrin 20-30-cu illərində formalaşmağa başlamışdır. Bu illərdən başla-yaraq respublikamızda psixologiya elminə maraq artır, yeni kadrlar hazırlanır və bir sıra psixoloji terminlər təkmilləşirdi. 1958-ci ildə Ə.K.Zəkuyevin rəhbərliyi ilə hazırlanan "Pedaqogika və psixologiya terminlər lüğəti" (Ş.S. Ağayev, Ə.Y. Seyidov, M.Ə. Muradxanov) adlı çox dəyərli tədris vəsaiti bu baxımdan çoz böyük əhəmiyyətə malik olmuşdur.

1960-1961-ci illərdə ilk dəfə olaraq Azərbaycan dilində iki hissədən ibarət psixologiya dərsliklərinin (Ə.K. Zəkuyev, A.K. Abdullayev, Ş.S. Ağayev, M.Mustafayev) nəşr olunmasında da Ə.K. Zəkuyevin böyük əməyi olmuşdur. 1964-cü ildə isə bu dərsliklərdən fərqli olaraq, mükəmməl bir dərslik nəşr olunmuşdur.

XX əsrin 50-ci illərində respublikamızda milli psixoloji kadrlar olduqca az idi. Odur ki, həmin dövrdə psixoloq kimi formalaşıb fəaliyyət göstərən alimlərimizə, daha çox ehtiyac var idi. Həm də, əsas məsuliyyət onların üzərinə düşürdü. Ə.K. Zəkuyev də belələrindən idi.

Ə.K. Zəkuyev həm respublikamızda milli psixoloji kadrların inkişafına kömək edir, elmi-psixoloji tədqiqatları

istiqamətləndirir, digər tərəfdən, Azərbaycan psixoloqlarının digər respublika psixoloqları ilə elmi əməkdaşlığına çalışırdı.

Çünki, Ə.K. Zəkuyev dərk edirdi ki, Azərbaycan psixoloqları xarici ölkə psixoloqları ilə elmi əməkdaşlıq etməsə, istənilən müvəffəqiyyətə nail ola bilməz. Ona görə də Ə.K. Zəkuyevin yaradıcılığının böyük bir sahəsi bu problemə həsr olunmuşdur. O, vaxtaşırı keçmiş SSRİ və dünya psixoloqları ilə görüşür, onların elmi məclislərində iştirak edir, mütərəqqi ideyalarını Azərbaycanda təbliğ edir və tədqiq edirdi. "K.D. Uşinski diqqət prosesi haqqında", "Rusiya pedaqoji psixologiyanın inkişafında K.D. Uşinskinin rolu", "İ.P. Pavlov psixika və psixologiya haqqında", "Rusiyada imperialist psixologiyanın inkişafında N.Q. Çernişevskinin rolu", "P.E.Lestqaftın psixoloji görüşləri" adlı məqalələri məhz bu məqsədlə yazılmışdır.

Ə.K. Zəkuyev həmçinin respublikamızda psixologiya tarixçisi kimi də müəyyən işlər görmüşdür. O, həm XX əsrə qədərki dövrdə və həm də, XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafına aid tədqiqatlar aparmış və bu barədə mötəbər psixoloji məclislərdə, mətbuatda çıxış etmişdir. Müəllifin 1960-cı ildə nəşr etdirdiyi "Azərbaycanda 40 ildə psixologiyanın inkişafı" adlı məqaləsi bu sahədə ən uğurlu addımlardan biri olmuşdur.

Ə.K. Zəkuyev ilk dəfə olaraq Azərbaycanda psixologiya elmi sahəsində aparılan tədqiqatları sistemləşdirmiş və qısa təhlilini vermişdir.

Ə.K. Zəkuyev yorulmaq bilmədən Azərbaycan psixologiya elmi sahəsində aparılan tədqiqatları sistemləşdirmiş, on nəfərdən artıq psixologiya elmləri namizədi

hazırlamış, beş iri həcmli ancaq psixologiyaya aid monoqrafiya, dörd psixologiya dərsliyi yazmışdır.

Ə.K. Zəkuyev Azərbaycan psixologiya məktəbinin ilk banilərindən olmuşdur. O, XX əsrin ilk on illiyindən başlayaraq, 1960-cı illərə qədər Azərbaycanda psixologiya elmini təbliğ etmişdir.

Ə.K. Zəkuyev keçmiş SSRİ-də eləcə də xarici ölkələrdə, psixologiyaya aid yüksək elmi məclislərdə, məruzə və tezislərlə çıxış etmişdir.

Ə.K. Zəkuyev yorulmaq bilmədən Azərbaycan psixoloqları ilə xarici ölkə psixoloqları arasında qarşılıqlı əməkdaşlıq yaratmağa çalışmışdır.

O, 1940-cı ildə Kiyevdə, 1943-cü ildə Maxaçqalada, 1946-cı ildə keçmiş SSRİ PEA-da, 1947-ci ildə Moskvada, 1953-cü ildə Daşkəsəndə, pedaqogika-psixologiya elmlərinin aktual problemlərinə həsr edilmiş elmi-nəzəri konfranslarda iştirak etmişdir.

1955-ci ildə Moskva şəhərində Psixologiya İnstitutunda ümumittifaq psixoloqlarının geniş iclası keçirilmişdir. Ə.K. Zəkuyev bu mötəbər məclisdə də məruzə ilə çıxış etmişdir.

1959-cu ildən başlayaraq, müntəzəm olaraq keçmiş SSRİ psixoloqlarının qurultayları keçirilməyə başlamışdır. Həmin vaxtdan 1968-ci ilə kimi SSRİ psixoloqlarının üç qurultayı keçirilmiş və Ə.K. Zəkuyev o qurultaylarda iştirak etmişdir.

Ə.K. Zəkuyev Zaqafqaziya psixoloqlarının yaradıcılıq əlaqələrinin möhkəmləndirilməsinə xeyli əmək sərf etmiş və onların bütün elmi məclislərinin əməli iştirakçısı olmuşdur.

O, eyni zamanda 1959-cu ildə Tbilisidə, 1960-cı ildə Yerevanda, 1962-ci ildə Bakıda, 1965-ci ildə yenə Tbilisi şəhərlərində keçirilən psixologiya konfranslarında məruzə və tezislərlə çıxış etmişdir.

Ə.K. Zəkuyev həmişə həm Azərbaycan Respublikasının mətbuatında və həm də, keçmiş SSRİ-nin mötəbər, nüfuzlu (“Voprosı psixoloqii”, “Voprosı filosofii”) jurnallarında, psixologiyanın müxtəlif problemlərinə aid xeyli məqalələr çap etdirmişdir.

Ə.K. Zəkuyev yorulmaq bilmədən yazıb-yaradan, işləyən bir alim olmuşdur. O, respublikamızda psixologiya elminin inkişafı üçün çox işlər görmüşdür. Onun Azərbaycanda yaratdığı psixologiya məktəbi bu gündə öz bəhrəsini verir.

Professor Ə.S. Bayramov, professor Ə.Ə. Əlizadə, professor A.U. Məmmədov və başqaları həmin məktəbin layiqli davamçıları kimi fəaliyyət göstərirlər. Əminik ki, Ə.K. Zəkuyevin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

## F.Ə.İbrahimbəyov(1901-1985)

Azərbaycan psixologiya elminin inkişaf edib formalaşmasında F.Ə.İbrahimbəyovun böyük xidmətləri olmuşdur. F.Ə.İbrahimbəyov 1901-ci ildə Azərbaycanın qədim və zəngin şəhərlərindən biri olan Şamaxıda anadan olmuş və ilk təhsilini də orada almışdır. O, 1920-ci ildə Bakıya gəlmiş, indiki Azərbaycan Tibb Universitetinə daxil olmuş və 1925-ci ildə universiteti bitirərək həkimlik peşəsinə yiyələnmişdir. F.Ə. İbrahimbəyov elə həmin ildən Bakıda

həm həkim, həm də psixoloq kimi fəaliyyətə başlamışdır. Alimin yaradıcılıq fəaliyyəti haqqında, sistemli təsəvvür yaratmaq üçün onun psixiatr-həkim sahəsindəki işlərini ön planda verməк məqsədə müvafiqdir. O, 1926-cı ildən başlayaraq, psixi xüsusiyyətlərin pozulması ilə bağlı insanda yaranan xəstəliklərin nəzəri məsələlərini öyrənmiş, digər tərəfdən həmin xəstəliklərin müalicə olunmasına köməklik göstərmişdir. O, müharibədən əvvəlki illərdə Azərbaycan Tibb Universitetinin psixiatriya kafedrasında çalışmış və həmin dövrlərdə "Hiperemosiyaların tədqiqi metodikası", "Tipik reaksiyalar haqqında", "Şəxsiyyətin pato-psixologiyası haqqında meyllər", "Məhkəmə psixiatriya ekspertizasının qərarları baxımından əsəbi xəstənin sıxıntıdan sonrakı vəziyyəti", "Nizaminin psixiatriya haqqında fikirləri", "Psixi vəziyyətdən çıxmanın faktoru haqqında" adlı məqalələri yazmağa müvəffəq olmuşdur. F.Ə. İbrahimbəyov Böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər) hərbi xəstəxanalarda çalışmış və əsgərlərin qələbəyə inamının psixoloji məsələlərini öyrənmişdir. Onun Böyük Vətən müharibəsi illərindəki fəaliyyəti o dövrdə yüksək qiymətləndirilmiş və keçmiş SSRİ-nin məşhur psixoloqu A.A. Smirnovun "Psixologiya Böyük Vətən müharibəsi illərindən" adlı məqaləsində xüsusi ilə qeyd olunmuşdur. F.Ə. İbrahimbəyov dinc quruculuq illərində də bu sahədə fəaliyyətini dayandırmış, mütəxəssislərə lazımi məsləhətlər vermişdir. O, respublikamızda psixologiya tarixinin bilicisi kimi, nəzəriyyəçi psixoloq, biliqivizm sahəsində yeganə tədqiqatçı, psixiatr, əsl ziyalı kimi tanınmış alimlərdən olmuşdur. O, eyni zamanda Azərbaycanda eksperimental psixologiyanın yaradıcılarındandır. 1926-cı ildə indiki ADU-da eksperimental

psixologiya laboratoriyası təşkil etmiş və bu sahədə aparılan tədqiqatlara rəhbərlik etmişdir. Onun, yeniyetmələrin müxtəlif peşələrə yiyələnməsinin psixoloji xüsusiyyətlərini öyrənilməsi sahəsində apardıqları tədqiqatlar da xüsusi əhəmiyyətə malikdir. O, bu məqsədlə 1926-cı ildə "Azneftin" nəzdində psixotexnika laboratoriyası təşkil etmiş və orada maraqlı tədqiqatlar aparmışdır. F.Ə.İbrahimbəyovun fəaliyyətinin bir sahəsi 1931-ci ildə təşkil edilmiş Azərbaycan Elmi_tədqiqat Pedaqogika İnstitutu ilə bağlı olmuşdur.

1931-ci il iyul ayında Azərbaycan Respublikası Xalq Komissarlığı qərarı ilə institutun nəzdində psixologiya, psixotexnika, pedalogiya laboratoriyasına uzun müddət F.Ə. İbrahimbəyov başçılıq etmişdir. O, burada uşaqların əməyə hazırlığının psixoloji problemlərinə, xarici dillərin mənimsənilməsinin psixoloji məsələlərinə aid dəyərli tədqiqatlar aparmış və ümumtəhsil məktəblərinə əməli kömək edən əsərlər yazmışdır. F.Ə. İbrahimbəyovun elmi-psixoloji fəaliyyətinin əsas hissəsi, indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti və Azərbaycan Dillər Universiteti ilə bağlı olmuşdur. F.Ə. İbrahimbəyov bu universitetlərdə işgüzar bir kollektiv yaratmış və xarici dillərin mənimsənilməsində qarşıya çıxan çətinliklərin psixoloji problemlərini öyrənmişdir. O, əsasən respublikamızda rus dili təliminin tədrisi keyfiyyətinin yaxşılaşdırılması, bu dili ana dilindən fərqləndirən psixoloji xüsusiyyətlər, dili öyrənərkən qarşıya çıxan çətinliklərin psixoloji əsasları və bunların aradan qaldırılması yolları, qeyri-rus məktəblərində rus dilinin öyrənilməsinin ümumi qanunauyğunluqları və s. məsələləri tədqiq etmişdir. "İkidillilik, onun forması və fərdi fərlərə görə təsnifatı", "Qeyri-rus mək-

təblərində rus dili təliminin bir sıra məsələləri", "Milli məktəblərdə rus dili təliminin psixoloji əsasları haqqında", "Nitqin qavranılmasının seçiciliyi və dilin tədrisi", "Yeni dilin ana dilindən fərqləndirilməsinin nitqdə inkişaf etdirilməsi üsulu" və onlarca başqa əsərləri buna parlaq misaldır. Bu tədqiqatlarda nitqin inkişafı problemi sırf psixoloji planda öyrənilmiş, şagirdlərin bu prosesdə rast gəldikləri xarakterik çətinliklər araşdırılmışdır.

F.Ə. İbrahimbəyov həm Azərbaycanda, həm də Qərbi Avropa ölkələrində, Yaxın və Orta Şərqdə psixoloji fikrin öyrənilməsinə böyük maraq göstərmişdir.

F.Ə. İbrahimbəyov uzun müddət Azərbaycan Respublikasında psixoloqlar cəmiyyətinə rəhbərlik etmiş, psixoloqlarımızın niyyətini təbliğ və tədqiq etmişdir. "Azərbaycan klassik ədəbiyyatında psixoloji məsələlər" ("Zaqafqaziya psixoloqlarının II konfransının materialları", 1960), "Azərbaycan klassiklərinin əsərləri psixologiya tarixi üçün mənbə kimi" ("M.F. Axundov adına Azərbaycan Dövlət Rus dili və ədəbiyyatı İnstitutunun elmi əsərləri", 1962), XVI buraxılış, "Zaqafqaziya psixoloqlarının III onfransından sonrakı dövrdə Azərbaycanda psixologiyanın inkişafı" ("Zaqafqaziya psixoloqlarının IV konfransının materialları", Tbilisi, 1965), "Sovet Azərbaycanında psixologiyanın inkişafı" ("Voprosı psixoloqii" j., 1967, №5), "Azərbaycanda ictimai psixologiya üzrə tədqiqlər", "Xaricdə sosial psixoloji tədqiqlər" ("Zaqafqaziya psixoloqlarının V konfransının materialları", 1970), "Azərbaycan psixologiya elminin inkişafı" ("Voprosı psixoloqii" j., 1972, №6), "Tarixi psixologiya və şəxsiyyətin dəyişməsi səviyyələri" ("Zaqafqaziya psixoloqlarının VI konfransının materialları", Bakı, 1974), "Psixoloji

fikir tarixində "Şərq-Qərb" problemi" ("Zaqafqaziya psixoloqlarının VII konfransının materialları", 1977), "Müxtəlif tarixi dövrlərdə xırda mədəniyyətlərin bir-birinə keçməsi və qarşılıqlı faydalanmasının psixoloji tədqiqi", "Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri", (Bakı, ADU-nun nəşri, 1985) adlı məqalələr, nüfuzlu psixologiya qurultaylarında, konfranslarındakı məruzələr, alimin bu sahədə zəngin təcrübəyə, elmi biliklərə malik olmasını açıq-aydın sübut edir. Bu məsələlərin hər birindəki fikirlər, irəli sürülən yeni fərziyyələr, nəticələr olduqca əhəmiyyətli və maraqlıdır. Bunların üzərində geniş dayanmaq, onları təhlil etmək əsərin həcmi baxımından çətindir.

Lakin onun milli psixologiyaya aid fikrinə az da olsa toxunmaq istərdik.

Müəllif əsərlərində Azərbaycanda ibtidai icma quruluşundan başlayaraq, psixika haqqında yaranan fikirlərə toxunaraq, məsələləri etno-psixoloji baxımdan təhlil edir.

O, mövcud psixoloji ədəbiyyatlara, özünün çoxillik təcrübəsinə, tarixi materiallara əsaslanaraq, Azərbaycan xalqının ilk inam yeri olan, zərdüşt dininin psixoloji mahiyyətini açır, həmin fikrin Qərbi Avropa psixologiyasında necə əks olunmasını şərh edir. Müəllif inandırıcı faktlar əsasında Azərbaycan alimlərinin, klassiklərinin bu təlimin təsiri ilə yazdığı əsərləri göstərir. A.A. Bakıxanovun, M.Ş.Vazehin, M.F. Axundovun bu səpgidə əsərləri qısa da olsa təhlil olunur. Alman alimi Hegelin fəlsəfi təliminin Zərdüşt dininin təsiri altında formalaşması da məqalədə qeyd olunur.

Məqalədə buddizm və Qərbi Avropa psixologiyası məsələləri də təhlil olunur. Buddizm eramızdan əvvəl VI əsrdə Hindistanda patriarxal tayfa quruluşunun dağılması

və quldarlıq quruluşunun bərqərar olmasını əks etdirən dini təlim kimi meydana çıxmışdır. Eramızdan əvvəl, bu din Hindistanda hakim din elan edilmiş, sonradan onun sərhədlərindən çıxaraq dünya dinlərindən birinə çevrilmişdir.

Buddizmin məzmununu şeylərin təbiəti və idrakın yolu haqqında təlimlər təşkil edir. Buddizmin, şeylərin təbiəti haqqındakı təlimində, materialist meylli fikirlər və kortəbii dialektika ünsürləri olmuşdur. Bu təlimə görə, dünya şeylərini təşkil edən "Xırda hissəciklər" ("Draxmilar") vardır ki, bunlar psixi və maddi aləmin bütün hissələrinə nüfuz edir, bunlar hər an alovlanıb sönərək hərəkət edirlər.

Məqalədə bu təlimin təsiri ilə Amerika Birləşmiş Ştatları, Yaponiya, Hollandiya və başqa ölkələrdə yaranmış psixoloji nəzəriyyələr barədə də məlumat verilir.

Respublikamızda yüksək ixtisaslı psixoloji kadr hazırlığında da F.Ə.İbrahimbəyovun əməyi az olmamışdır. O, özünün yüksək ensiklopedik biliyinə arxalanaraq Azərbaycanda çoxdilliliyə yiyələnmənin, psixoloji problemləri ilə məşğul olmuş və bu sahədə elmi məktəb yaratmışdır. Onun bilavasitə köməyi və rəhbərliyi ilə K.S. Əbilov (Bakı, 1964), C.H. Səməndov (Tbilisi, 1979) namizədlik dissertasiyalarını müdafiə etmişdir.

Azərbaycanda psixologiya üzrə doktorluq dissertasiyalarını müdafiə edən Ş.S.Ağayev (Bakı, 1967), Ə.S. Bayramov (Bakı, 1967), M.Ə. Həmzəyev (Bakı, 1968), Ə.Ə. Qədirov (Bakı, 1974), Ə.Ə. Əlizadə (Bakı, 1975) və başqaları F.Ə.İbrahimbəyovun köməyindən faydalanmışlar. Bununla yanaşı F.Ə. İbrahimbəyov psixologiya üzrə

bir çox aspirantın, dissertantın rəsmi opponenti və məsləhətçisi olmuşdur.

Azərbaycanda psixologiya elminin nailiyyətlərini xarici ölkələrdə təbliğ etməkdə, psixoloqların xarici ölkənin alimləri ilə yaradıcılıq əlaqələrini genişləndirməkdə, F.Ə.İbrahimbəyovun xüsusi xidmətləri olmuşdur. O, 1926-cı ildən 1985-ci ilə qədər mütəmadi olaraq, bu sahədə fəaliyyət göstərmiş və uğurlu nəticələrə nail olmuşdur. F.Ə.İbrahimbəyov xarici dilləri yaxşı bildiyi üçün bir çox xarici ölkə psixoloqları ilə yaxından əlaqə saxlamış, onların bütün tədbirlərinin əməli iştirakçısı olmuşdur. 1931-ci ildə keçmiş Leninqradda (indiki Sankt-Peterburqda) xarici ölkə psixoloqlarının birinci psixotexnika qurultayı keçirilmişdir. Bu qurultaya görkəmli alimlər, psixoloqlar dəvət olunmuşdur. Belə mötəbər bir məclisdə F.Ə. İbrahimbəyov "Milli-testlər probleminə dair" məruzə etmiş və alimlərin diqqətini cəlb etmişdir. Həmin ildə Moskva şəhərində ümumdünya psixotexniklərin VII beynəlxalq konqresi keçirilmiş və orada da F.Ə. İbrahimbəyov "Əqli keyfiyyətlərin sözlərin iştirakı olmadan tədqiqi üsuluna dair" məruzəsi dinlənilmişdir. O, həmçinin dünya psixoloqlarının XVIII (Moskva, 1966; XIX, London, 1969; X , Tokio, 1972) konqreslərində də iştirak etmişdir.

Keçmiş SSRİ psixoloqlarının bir neçə konfransları, qurultayları keçirilmiş və alimlər müxtəlif problemlər ətrafında fikir mübadiləsi aparmışlar. 1940-cı ildə Moskva şəhərində psixiatriya konfransı keçirilmiş və orada F.Ə.İbrahimbəyov iştirak etmişdir. 1959-cu ildən başlayaraq rus və başqa xarici ölkə psixoloqlarının demək olar ki, bütün qurultaylarında (I, Moskva, 1959; II Sankt-

Peterburq, 1963; III Kiyev, 1968; IV Tbilisi; V Moskva, 1977; VI Moskva, 1963) Fuad müəllim iştirak edərək fikir və mülahizələrini söyləmişdir.

Zaqafqaziya psixoloqlarının konfransında (I Tbilisi, 1959; II-1960; III-Bakı, 1962; IV-Tbilisi 1965; V-1970; VI-Bakı, 1974; VII-Tbilisi, 1977; VIII-1980; IX-Bakı, 1983) məruzə və tezislərlə çıxış etmişdir. O, xarici ölkələrdə çıxan psixoloji mətbuatda da ("Psixonevrologiya", Moskva), 1920, №1, 1936, №2; "Voprosı psixoloqii" j., 1967, №5, 1972, №6 ) çıxış etmiş və Azərbaycan psixologiya elmini təbliğ etmişdir.

Psixologiyanın tədrisi sahəsində də F.Ə. İbrahimbəyovun xüsusi yeri vardır. 1935-ci ildə Rus psixoloqu K.N. Kornilovun Azərbaycan dilinə tərcümə edilmiş "Psixologiya" dərsliyinin elmi redaktoru, 1964-cü ildə isə azərbaycan dilində nəşr olunmuş "Psixologiya" dərsliyinin əsas müəlliflərindən biri Fuad müəllimdir. F.Ə.İbrahimbəyov səmimi, qayğıkeş və təvazökar müəllim olmuşdur. O, bir neçə il Bakının ümumtəhsil orta məktəblərində müəllim işləmişdir. 1926-cı ildən başlayaraq M.Ə. Rəsulzadə adına ADU-da, indiki ADPU-da, Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda psixologiyadan mühazirələr oxumuş, neçə-neçə tələbənin qəlbində əbədi həkk olunmuşdur. F.Ə. İbrahimbəyovun tələbələri, aspirantları həmişə onun mühazirələrindən razı qaldıqlarını söyləyir və onun müəllimlik sənətinə pərəstiş edirlər.

Azərbaycanda eksperimental psixologiyanın inişafında F.Ə. İbrahimbəyov gərgin əmək sərf etmişdir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, dünya üzrə eksperimental psixologiyanın əsasını qoyan V. Vundt və Q. Fexner olmuşlar. V. Vundt 1861-ci ildə, birinci dəfə

olaraq eksperimental psixoloji tədqiqatlar aparmaq üçün sadə cihaz hazırlamışdır. 1879-cu ildə isə, o dünyada birinci olaraq Leyspiq şəhərində psixoloji laboratoriya Rusiyada V.M. Bexterev tərəfindən yaradılmışdır.

Azərbaycan psixoloqları xarici ölkələrdə eksperimental psixologiya sahəsində təcrübələrlə tanış olub, onlarla sıx əlaqə saxlayaraq, respublikamızda bu sahədə müəyyən nailiyyətlərə nail olmuşlar. Belə ki, 1921-ci ildə ilk dəfə, Azərbaycan Dövlət Universitetində, eksperimental psixologiya laboratoriyası yaradılmışdır. Həmin laboratoriyanın təşkilatçısı F.Ə. İbrahimbəyov ora müxtəlif psixoloji cihazlar alıb gətirmiş və gələcək tədqiqatların bünövrəsini qoymuşdur.

XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlayaraq, xarici ölkələrdə əməyin elmi-psixoloji təşkilinə xüsusi fikir verilmişdir.

1921-ci ildə, Rusiyanın paytaxtı Moskva şəhərində, əməyin elmi təşkili üzrə birinci Ümumrusiya konfransı keçirilmişdir. Konfransın əsas təşkilatçısı V.M.Bexterev olmuşdur. Konfransda, əməyin elmi təşkilinin psixoloji məsələlərinə aid bir neçə məruzələr dinlənilmişdir. Bu hadisədən sonra, Moskvada, Leninqradda və digər iri şəhərlərdə psixo-texniki laboratoriyalar yaradıldı. Həmin laboratoriyalardan biri də 1923-cü ildə Bakıda "Azneft" birliyinin peşə-texniki təhsil şöbəsində təşkil edilmişdir. Laboratoriyada, əməyə psixoloji hazırlığın problemləri, peşə hazırlığı, peşə üçün lazım olan bilik, bacarıq və vərdişlərin tərbiyə edilməsi yollarına aid maraqlı tədqiqatlar aparılmışdır. 1924-1925-ci illərdə F.Ə. İbrahimbəyov V.M.Vadimov və başqaları laboratoriyada çalışmış və tədqiqatlar aparmışlar. 1926-cı ildə respublikamızda ilk

dəfə olaraq “Yeniyetmənin hərəkət sahəsinə istehsalat təliminin təsiri məsələsinə dair” (V.M.Vadimov) tədqiqat əsəri, laboratoriyanın fəaliyyətinin məntiqi nəticəsi kimi çap olundu. Əsər respublikamızda eksperimental psixologiyaya aid ilk tədqiqat idi. Laboratoriyanın əməkdaşları dövrü mətbuatda da tez-tez çıxış edir, tədqiqatların elmi nəticələri ilə oxucuları tanış edirdilər.

1927-ci ildə Moskvada əmək psixologiyası üzrə eksperimental tədqiqatları genişləndirmək, bu sahədə əmək müəssisələrinə əməli kömək məqsədi ilə Ümumdünya psixotexnika cəmiyyəti yaradıldı. Sonralar bu cəmiyyət tətbiqi psixologiya və psixotexnika cəmiyyəti adlandırılır. Rus psixoloqlarından A.K.Barusk, S.Q. Gellerşteyn, N.D. Levitov, P.A. Rudik, C.Y.Sırkin və başqaları bu prosesdə fəal iştirak etmişlər. Azərbaycan psixoloqları bu prosesdə də rus psixoloqları ilə əlaqə saxlamış və 1928-1929-cu illərdə Bakıda tətbiqi psixologiya və psixotexnika cəmiyyəti yaratmışlar. Q.Smışlyayev, A.O. Makovelski, Ə.K. Zəkuyev, F.Ə.İbrahimbəyov bu sahədə ilk təşəbbüsçülər idilər. Bu cəmiyyətin məqsədi, psixoloji təcrübələr vasitəsilə, yeniyetmə və gənclərdə əmək vərdişlərinin, bacarıqlarının qanunauyğunluqlarını aşkara çıxarmaq, əməyin psixofizioloji imkanlarını öyrənmək idi. Bu məqsədlə də Bakıda, 6 təcrübi psixoloji laboratoriya yaradılmışdır. (Azərbaycan Dövlət Arxivi, fond 5, op. 5, saxlama vahidi 16, səh 1-2).

F.Ə. İbrahimbəyov Azərbaycan psixologiya elminin inkişaf simvoludur. O, nadir ensiklopedik biliyə malik olan psixoloqdur.

1991-ci il yanvarın 29-da Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda F.Ə.İbrahimbəyovun 90 illik

yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilmişdir.

Konfransda respublikamızın adlı-sanlı psixoloqları (Ə.S. Bayramov, Ə.Ə.Əlizadə, M.Ə. Həmzəyev, R.M. Rəsulov və başqaları), digər mütəxəssislərin (F.Köçərli, Z. Verdizadə, A. Sultanov və başqaları) onun haqqında dedikləri fikirlər bunu bir daha təsdiq edir.

Professor Ə.S. Bayramov F.Ə. İbrahimbəyovun elmi-psixoloji fəaliyyətini təhlil edərək yazır: "...elmimizin tarixinə nəzər salarkən ilk növbədə xalqımızın görkəmli alim-psixoloqu və psixiatr Fuad İbrahimbəyovun orijinal şəxsiyyəti, nadir istedadı, hərtərəfli yaradıcılıq əzmi insanın gözləri önündə bütün əzəməti ilə canlanır. Fuad müəllimin elmi yaradıcılığına nəzər salarkən böyük iftixar hissi ilə demək olar ki, psixologiya elminin bir sıra ən vacib sahələrinin respublikamızda inkişafı məhz onun adı ilə bağlıdır. Eksperimental psixologiyanın inkişafı da məhz belə sahələrdən biridir".

Azərbaycanın görkəmli psixoloqlarından sayılan professor Ə.Ə. Əlizadə "F.Ə.İbrahimbəyov: dünyagörüşü və şəxsiyyəti" adlı məqaləsində göstərir ki, "F.Ə.İbrahimbəyov XX yüzilliyin görkəmli psixoloqlarından biridir. O, 30-cu illərin əvvəllərində dünya şöhrəti qazanmışdı. 1931-ci ildə onun orijinal testinin beynəlxalq dünya konqresində bəyənilib qəbul edilməsi təkcə gənc psixoloqun deyil, bütövlükdə Azərbaycan psixologiyasının fərəhli uğuru idi.

...60-cı illər F.Ə. İbrahimbəyovun yaradıcılığının məhsuldar dövrüdür. O, elm təşkilatçısı kimi respublikada psixoloji fikrin inkişafında xüsusi ilə mühüm rol oynayır. Respublikamızın psixoloqları bir tərəfdən böyük elmi məclislərdə çıxış edilər, eyni zamanda respublikamızda

elmi məclislər keçirilir və bu məclislərdə ölkənin görkəmli psixoloqları bilavasitə iştirak edirlər. F.Ə. İbrahimbəyov hər hansı elmi problemi rüşeym halında görə bilir və onun proqnozunu verə bilirdi”.

F.Ə. İbrahimbəyov Azərbaycan psixologiya elminin qurultaylarda, konqreslərdə iştirak etməklə və mətbuatdakı çıxışları ilə dünya miqyasına çıxarmışdır. F.Ə.İbrahimbəyov XX əsr Azərbaycan psixologiya tarixində əbədi yer olan bir şəxsiyyətdir. O, gənc tədqiqatçıların əlindən tutur, onlara elmin axtarış yollarını göstərirdi. Əminik ki, indiki və gələcəkdə yetişən psixoloqlar F.Ə. İbrahimbəyovun nəzəri irsindən faydalanacaq və onun elmi məktəbinin layiqli davamçıları olacaqdır.

F.Ə. İbrahimbəyov təbiətən mülayim, təvazökar, qayğıkeş bir şəxsiyyət idi. Mən hər dəfə onunla görüşəndə ondan məsləhətlər alanda elmdə yeni bir cəhəti öyrənirdim.

**M.Məhərrəmov(1909-1970)**

Azərbaycanda elmi psixologiyanın inkişaf edib formalaşmasında böyük xidmətləri olan M.C. Məhərrəmov 1909-cu ildə məktəb, musiqi və gözəllik şəhəri olan Şuşada anadan olmuşdur. O, Şuşa birinci dərəcəli “Nərimaniyyə”, sonra da Mustafa Quliyev adına ikinci dərəcəli məktəbi bitirmiş və 1928-ci ildə Azərbaycanın Kürdüstan Qəzası Kəlbəcər dairəsinin Qılıclı kənd birinci dərəcəli məktəbində 18 yaşında müəllimlik fəaliyyətinə başlamışdır.

M.C. Məhərrəmov iki il burada müəllim işlədikdən sonra, yenidən Şuşaya qayıdır və orada yeddiillik mək-

təbdə 1935-ci ilə kimi dərs deyir. 1934-1935-ci tədris ilində M.C. Məhərrəmov təhsilini artırmaq üçün Bakıya gəlir, indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəb-pedaqoji şöbəsinə daxil olur və oranı əla qiymət-lərlə qurtarır. İnstitutu bitirdikdən sonra o, bir müddət indiki Biləsuvar rayonunda müəllim, sonra isə Rayon Xalq Maarif şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

M.C. Məhərrəmov 1938-1941-ci illərdə, Azərbaycan Xalq Maarif Komissarlığı Ali məktəblər idarəsində inspektor, 1941-1942-ci illərdə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunda əvvəlcə tədris işləri üzrə di-rektor müavini, sonra direktor vəzifəsində işləmişdir. M.C. Məhərrəmov 1944-cü ilə qədər Azərbaycan Xalq Maarif Komissarlığında müxtəlif vəzifələrdə çalışmışdır.

M.C. Məhərrəmov 1944-cü ildən başlayaraq, taleyini psixologiya elmi ilə bağlamış, ömrünün sonuna qədər (1970) bu sahədə çalışmış və uğurlu nəticələr əldə etmişdir.

M.C. Məhərrəmov 1944-cü ildə indiki Bakı Dövlət Universitetinin psixologiya üzrə aspiranturasına daxil olmuş, əməkdar elm xadimi, akademik A.O. Makovels-kinin rəhbərliyi ilə 1947-ci ildə universitetin böyük elmi şurasında “Səciyyə haqqında psixoloji nəzəriyyələr” mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

Dissertasiyada xarakter haqqında ümumi məlumat verilmiş, xarakter haqqında nəzəriyyələr ətraflı təhlil olunmuşdur.

XX əsr Azərbaycan psixologiya tarixində o, ilk dəfə olaraq xarakter haqqında olan nəzəriyyələri təhlil etmiş, özünün tənqidi mülahizələrini söyləmiş və xarakterin

formalaşması və tərbiyə olunması yollarını aydın şəkildə açıqlamışdır.

1946-cı ildə indiki Bakı Dövlət Universitetində baş müəllim, 1949-cu ildən isə dosent vəzifəsində çalışmışdır. 1958-ci ildən universitetin məntiq-psixologiya kafedrasına müdir təyin edilmişdir. Həmin kafedra 1960-cı ildən yenidən təşkil edilərək pedaqogika-psixologiya kafedrası adlandırılmışdır. M.C. Məhərrəmov 1970-ci ilə kimi həmin kafedraya rəhbərlik etmişdir.

1960-1970-ci illərdə respublikamızda psixoloji kadrların hazırlanmasında da M.C. Məhərrəmovun böyük xidmətləri olmuşdur. O, respublikanın ali məktəblərində, tədris müəssisələrində çalışan 40-dan artıq müəllim-elmi işçinin, aspirant və dissertantın müdafiə etməsində elmi rəhbər, məsləhətçi, rəsmi opponent kimi iştirak etmişdir. Bu gün Azərbaycanda psixologiya elminin ağsaqqalı sayılan əməkdar elm xadimi, professor Ə.S. Bayramovun, professor Ə.Ə. Əlizadənin rəsmi opponenti olmuş, dos. S. Həlatəinin (1965), professor Q.E. Əzimlinin (1970), dos. T.Dadaşovun (1972), dos. N.A. Cavadovun (1974), dos. B. Rzayevin (1991) elmi rəhbəri olmuşdur.

Bununla yanaşı o, universitetin pedaqogika-psixologiya kafedrasına rəhbərlik etdiyi dövrdə kafedranın yaxından köməyi ilə üç nəfər (Ş.S. Ağayev, M.Ə.Həmzəyev, Ə.S. Bayramov) doktorluq dissertasiyası müdafiə etmişdir.

XX əsr Azərbaycan psixologiya tarixində xalq maarifinin inkişafı ilə bağlı tədqiqatlar xüsusi yer tutur.

Bu problem M.C. Məhərrəmovun da elmi-psixoloji fəaliyyətində qırmızı xətt kimi özünü göstərir. "Məktəblilərin iradəsini tərbiyə etmək haqqında" (Bakı, 1953),

“İradə tərbiyəsinin yolları” (Bakı, 1961), “uşaqlarda iradi nöqsanları necə aradan qaldırmalı” (Bakı, 1964), “Məktəblilərin xarakterini tərbiyə etmək haqqında” (Bakı, 1967), “Yaxşı oxumağın sirri” (Bakı, 1965) adlı kitabları və yüzlərlə qəzet, jurnal məqalələrini buna misal göstərmək olar.

Azərbaycan Respublikasında xalq maarifinin inkişafını psixologiyadan kənarda təsəvvür etmək çətindir. Bu mürəkkəb və məsuliyyətli işdə isə, M.C. Məhərrəmov ön cərgədə gedən psixoloqlardan olmuşdur. O, 1946-cı ildən başlayaraq respublikamızın müxtəlif dövrü mətbuatında təlimin səmərəli təşkilinin psixoloji məsələlərinə aid yüzdən artıq məqalə çap etdirmiş və müəllimlərə bu işdə xeyli kömək göstərmişdir. “Eyni zamanda iki sinifdə dərs aparmaq haqqında“ (“Azərbyacan məktəbi, 1948, №3”), “Təlim prosesində hafizənin fəaliyyətini düzgün təşkil etmək yolları”, (“Azərbaycan məktəbi”, 1948, №5), “Uşağın psixi inkişafı bəzi xüsusiyyətləri haqqında” (“Azərbaycan məktəbi”, 1948, №6), “Şagirdi öyrənmək və ona pedaqoji xarakteristika tərtib etmək haqqında” (“Azərbaycan məktəbi”, 1950, №1), “Şagirdlərdə vərdiş və adətlər tərbiyəsinin psixoloji məsələləri” (“Azərbaycan məktəbi”, 1954, №3), “İdrak maraqlarının təlim prosesində rolu və inkişaf etdirilməsi haqqında” (“Azərbaycan”, 1959, №11) və başqa məqalələri buna misal göstərmək olar. M.C. Məhərrəmov respublikamızda xalq maarifinin inkişafında psixologiyanın yeri və mahiyyəti, təlimin optimallaşdırılmasının psixoloji problemlərinə aid fikir və mülahizələrini, çoxillik təcrübəsini, eksperimentlərini ümumiləşdirərək, bu gün də əhəmiyyətli olan silsilə əsərlər yazmışdır.

Məlumdur ki, iradə insanın həyat və fəaliyyətində, eləcə də təlim-tərbiyə prosesində böyük əhəmiyyət malikdir. Bunu nəzərə alaraq, Məhərrəmovun bir sıra məqalələrində, üç silsilə kitabında iradi prosesin mahiyyətini, inkişaf qanunauyğunluqlarını açıqlamış, onun təlim üçün əhəmiyyətini və tərbiyə olunması yollarını göstərmişdir. Müəllim qeyd edir ki, "İradənin inkişafı və tərbiyə edilməsi vəzifəsi, cəmiyyətin fəal üzvü olan şəxsiyyətin ümumi inkişafı və təşəkkül etməsi ilə sıx və qarşılıqlı vəhdətdə həyata keçirilir. İradənin inkişafının özünəməxsus xüsusiyyətləri vardır. Tərbiyəçi uşaq iradəsinin bu xüsusiyyətlərini bilməli, bunlardan müsbət xasiyyət və təsirə malik olanlarının daha da möhkəmləndirilməsinə, uşaq iradəsi inkişafında baş verə biləcək nöqsanlı halların kök salmayaraq, uşaq böyüdükcə aradan qaldırılmasına fəal təsir göstərməlidir". Kitabda iradi proseslər geniş təhlil olunur. İradi keyfiyyətlərin təşəkkülü və inkişafı inandırıcı misallarla göstərilir.

"Yaxşı oxumağın sirri" (Bakı, 1965) adlı kitabda isə təlim prosesində maraqların rolunda danışılır. Təlimin mənimsənilməsində psixi proseslərin (duyğu, qavrayış, hafizə, təfəkkür, təxəyyül, hisslər və b.) yeri inandırıcı faktlarla göstərilir. Müəllifin fikrincə "Uşağın yaxşı oxumağı, onun təlimə münasibətini düzgün formalaşmasından çox asılıdır. Müəllim uşağın hafizəsinin, təfəkkürünün inkişafı qayğısına qalmaqla yanaşı, ona münasibətində də psixoloji anları gözləməlidir. Uşağa bir şəxsiyyət kimi yanaşmalı, hörmət və tələbkarlıq vəhdətdə götürülməlidir. Adlarını çəkdiyimiz kitab və məqalələrdən, müəllimlərimiz və tələblərimiz bu gün də bəhrələnirlər".

Azərbaycanda psixoloji fikrin inkişafı çox qədim tarixə malikdir. XX əsr Azərbaycan psixologiyasının qaynaqları şifahi xalq yaradıcılığı nümunələri, dini görüşlərimiz, maddi-mənəvi abidələrimiz, klassiklərin yaradıcılığı olmuşdur.

M.C. Məhərrəmovun yaradıcılığında bu problemlər də araşdırılmışdır. O, bu sahədə uzun illər tədqiqat aparıb xalqımızın psixi və psixi hadisələr haqqında qədim təsəvvürlərini folklor materialları əsasında aşkara çıxarmış, həmçinin Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Süleyman Rəhimov kimi görkəmli mütəfəkkirlərin şair və yazıçıların psixoloji fikirlərini öyrənib elm aləminə təqdim etmişdir.

XX əsrdə respublikamızda elmi psixologiyanın inkişaf tarixinə aid olan onun müəyyən əsərləri var. “Azərbaycan Sovet psixologiyası 40 ilə”, “Zaqafqaziya psixoloqlarının III-IV konfransları”, “S.M. Kirov adına ADU-nun psixologiya kafedrası” adlı məqalələri buna misal göstərmək olar.

Azərbaycanda psixologiya bir fənn kimi hər ümumi təhsil, orta məktəblərdə və həmçinin ali məktəblərdə tədris edilmiş və hal-hazırda da bu proses davam etdirilir. M.C. Məhərrəmovun respublikamızda psixologiya fənninin tədrisi keyfiyyətinin yaxşılaşdırılması sahəsindəki fəaliyyəti də təqdirəlayiqdir. O, respublikamızın müxtəlif ali məktəblərində, psixologiyadan mühazirələr oxumuş, həmin fənni tələbələrə dərindən öyrətmiş və sevdirmişdir. O, bu sahədə gərgin əmək sərf edərək, bir neçə elmi-metodik məqalə, (“Orta məktəbdə psixologiyanın tədris üsuluna dair” “Azərbaycan məktəbi”, 1954, №10) xeyli

tədris vəsaiti ("Orta məktəbdə psixologiyanın tədris üsuluna dair qeydləri", Bakı, 1955; "İzahlı psixoloji lüğət" (Bakı, 1960), "Psixologiya oçerkləri" (I hissə, 1960, II hissə, 1961) və bu gün də tələbələrimiz tərəfindən istifadə olunan "Psixologiya" (Bakı, 1968) dərsliyini yazmışdır.

Bildiyimiz kimi psixologiya 1946-47-ci tədris ilindən 1953-54-cü tədris ilinə kimi, ümumtəhsil orta məktəblərində xüsusi bir fənn kimi tədris olunmuşdur.

M.C. Məhərrəmov bu sahədə də xeyli iş görmüşdür. O, həm bir çox orta məktəblərdə olmuş, orada dərs deyən müəllimlərə metodik yardım göstərmiş və həm də bu sahədə bir neçə tədris vəsaiti hazırlamışdır. "Orta məktəbdə psixologiyanın tədrisi üsullarına dair" (1955), "İzahlı psixoloji lüğət" adlı əsərlər bu məqsəd üçün yazılmışdır.

Alimin tələbələrindən olan professor Ə.Ə. Əlizadə həmişə M.C. Məhərrəmovun dərsdə çox ciddiliyindən maraqlı mühazirə oxumasından razılıq hissi ilə danışır. Onun müəllimlik qabiliyyətini yüksək qiymətləndirir.

Azərbaycan psixologiya elminin inkişaf istiqamətlərindən biri də alimlərimizin xarici ölkə psixoloqları ilə yaradıcılıq əlaqələri saxlamalarıdır.

M.C. Məhərrəmov uzun müddət bu prosesin təkanvericisi olmuş, müxtəlif xarici ölkələrdə Azərbaycan psixologiya elmini təbliğ etmişdir.

Aydındır ki, Azərbaycanda XX əsrdə psixologiyanın inkişafı keçmiş SSRİ ilə əlaqədar olmuşdur. Bu inkaredilməz tarixi faktdır. Ona görə də M.C. Məhərrəmov həmin dövrdə keçmiş SSRİ psixoloqlarının bütün tədbirlərinin əməli iştirakçısı olmuşdur.

M.C. Məhərrəmov həmin ittifaq psixoloqlarının birinci (Moskva, 1959), ikinci (Leninqrad, 1963), üçüncü (Kiyev, 1968) qurultaylarında məruzə və tezislərlə iştirak etmiş və həmişə qurultay iştirakçılarının rəğbətini qazanmışdır. M.C. Məhərrəmov eyni zamanda Zaqafqaziya psixoloqlarının ənənəvi konfranslarının (Tbilisi, 1959), II (Yerevan, 1960), III (Bakı, 1962), IV (Tbilisi, 1965), (Yerevan, 1970) həm təşkilatçısı vəə həm də iştirakçısı olmuşdur.

M.C. Məhərrəmov bir alim kimi psixoloqların elmi əməkdaşlığına böyük qiymət verirdi. O, Azərbaycanda psixologiya elminin əsas inkişafını qarşılıqlı əməkdaşlıqda, faydalanmaqda görürdü. Ona görə də, M.C. Məhərrəmov xarici ölkələrin qabaqcıl pedaqoq və psixoloqlarının yaradıcılıqlarının Azərbaycanda təbliğinə var qüvvəsi ilə çalışırdı. O, rus pedaqoq və psixoloqu K.D. Uşinskinin, A.S. Makarenkonun, N.K.Krupskayanın psixologiyaya aid qiymətli fikirlərini öyrənmiş və Azərbaycanda onu təbliğ etmişdir.

M.C. Məhərrəmov rus və başqa xarici dillərdən Azərbaycan dilinə psixoloji əsərlər, dərsliklər və dərs vəsaitləri tərcümə etmişdir. K. Kornilovun, A.A. Smirnovun, B.M. Teplovun ali məktəblər üçün "Psixologiya" dərsliyi (Bakı, 1948), B.M.Teplovun orta məktəblər üçün "Psixologiya" dərsliyi (Bakı, 1952), S. Hacıyevin "Psixologiya haqqında söhbət" (Bakı, 1954) adlı elmi-kütləvi əsərlər onlarca başqa məqalələri (B. Elkoninin "Kiçik məktəblinin təfəkkürü", "Azərbaycan məktəbi", 1951, №3-4), "Tərbiyədə sözün rolu haqqında" (L.A. Levşin, "Azərbaycan məktəbi", 1958, №7) onun tərcüməçilik fəaliyyətinin məhsuludur.

M.C. Məhərrəmovun elmi-psixoloji fəaliyyətinin xalq maarifinin inkişafından kənarda təsəvvür etmək çətindir. O, yazdığı dərsliklərdən başlamış xırda məqalələrə qədər bütün yazılarında təlimin təşkilinin psixoloji problemlərini ətraflı göstərmiş və müəllimlərə dəyərli tövsiyələr vermişdir.

XX əsrin ikinci yarısında artıq Azərbaycanda xarici ölkələr tərəfindən tanınan rəğbətlə qarşılanan psixologiya məktəbi yarandı. İri həcmli monoqrafiyalar, əsərlər, dərsliklər, namizədlik və doktorluq dissertasiyaları yazıldı. Azərbaycan psixoloqları xarici ölkə alimlərinin bütün məclislərinin iştirakçısı oldu. Xarici ölkə səviyyəsinə çıxa bilən alimlər, psixoloji tədqiqatlar yarandı.

Bu işdə Azərbaycanın ilk psixoloqları A.O. Makovelski, Ə.K. Zəkuyev, F.Ə.İbrahimbəyov, M.C. Məhərrəmov, onların yolunu layiqincə davam etdirən Ş.S.Ağayev, Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, M.Ə. Həmzəyev, Ə.Ə. Qədirov və başqaları daha fəal iştirak etmişlər.

Ona görə də Azərbaycanın ilk psixoloqları və yaxud ilk psixologiya elmləri doktorları haqqında danışılarkən, onların adları hörmətlə çəkilməli, yaradıcılıqlarına dönə-dönə qayıdılmalıdır. Bunu onların Azərbaycan psixologiyasına verdiyi töhfələri, elmi-metodoloji əsərləri, bütövlükdə psixoloq, insanlıq və müəllimlik fəaliyyəti tələb edir.

## Azərbaycanın ilk psixologiya elmləri doktorları Ş.S.Ağayev ( 1926-1968)

1960-cı illərdən sonra Azərbaycan psixologiya elminin inkişafında yeni bir canlanma yarandı. Bu dövrdə psixologiya elminə ümid verən gənclər gəlirdi. Bunlar yorulmaq bilmədən psixologiya elmini öyrənir və eyni zamanda bu elmin gələcək inkişafı üçün əllərindən gələni əsirgəmirdilər.

Ş.S. Ağayev, Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, M.Ə. Həmzəyev, Ə.Ə. Qədirov belə gənclərdəndirlər. Həmin alimlər doğurdan da onlara olan etimadı doğrultdular və psixologiya elmləri doktorları kimi yüksək elmi səviyyəyə yüksələrək öz elmi məktəblərini yaratdılar.

XX əsrin 50-ci illərindən başlayaraq bu günə qədər Azərbaycanda psixologiya elminin inkişafında nə yaxşı cəhət varsa, mübaliğəsiz demək lazımdır ki, onların adı ilə bağlıdır. Bütün bunları nəzərə alaraq biz məhz bu psixoloqların yaradıcılığına müraciət etməyi məqsədə müvafiq saydıq.

XX əsr Azərbaycan psixologiya məktəbinin ən görkəmli nümayəndələrindən biri də prof. Ş.S. Ağayevdir.

O, Azərbaycan elm tarixində görkəmli alim, təvazökar insan, əsl psixoloq kimi tanınmışdır.

Ş.S. Ağayev 1926-cı ildə Şamaxı şəhərində müəllim ailəsində anadan olmuşdur. Altı yaşında ailəsi ilə birlikdə Bakıya gəlmiş, orta təhsilini Bakı şəhərində almışdır.

Ş.S. Ağayev 1948-49-cu tədris ilində indiki ADPU-da psixologiya ixtisası üzrə aspiranturaya daxil olmuşdur.

1954-cü ildə “Fikri məqsədin xarakterindən asılı olaraq təlim prosesində görmə qavrayışının dinamikası”

mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, psixologiya elmləri namizədi adını almışdır.

1967-ci ildə isə "Əmək, tərbiyə və inkişaf" adlı doktorluq dissertasiyası müdafiə edərək elmlər doktoru adını almışdır. Ş.S. Ağayev nadir istedada malik olan alim-psixoloq, təşkilatçı rəhbər idi.

O, uzun müddət ADPU-nun tədris işləri üzrə prorektoru, 1963-cü ildən 1970-ci ilə qədər isə rektoru olmuşdur. O, 1963-cü ildən 1975-ci ilə kimi həmin universitetin psixologiya kafedrasına rəhbərlik etmişdir.

XX əsrdə Azərbaycanda milli psixoloji kadrların hazırlanmasında Ş.S. Ağayevin böyük xidmətləri olmuşdur.

Bu gün respublikamızda fəaliyyət göstərən psixoloqların əksəriyyətinin elmi rəhbəri, məsləhətçisi, rəsmi opponenti Ş.S. Ağayev olmuşdur. M. Əbdülov (1972), Ə.Baxşəliyev (1973), İ. Məmmədov (1972), Z. Orucov (1985) və başqaları onun rəhbərliyi ilə namizədlik dissertasiyalarını müdafiə etmişlər. O, onlarla dissertasiyaların elmi məsləhətçisi, rəsmi opponenti olmuş və neçə-neçə elmlər doktorlarının hazırlanmasına kömək etmişdir.

Ş.S. Ağayevin psixologiya kafedrasına rəhbərlik etdiyi dövrdə milli kadrların yetişməsinə qayğı ilə yanaşmışdır. Həmin dövrdə Q. Əzimli "Kiçik məktəb yaşlı şagirdlərdə hörmət hissinin inkişafı və tərbiyəsi" (Bakı, 1970), N. Cavadov "I-IV sinif şagirdlərində həya hissinin inkişafı" (1974) adlı namizədlik dissertasiyalarını müdafiə etmişlər. Kafedrada beş doktorluq dissertasiyası (Ş.S. Ağayev, Ə. Bayramov, M.Həmzəyev, Ə. Qədirov, Ə.

Əlizadə) hazırlanmış və müxtəlif illərdə müdafiə olunmuşdur.

Respublikamızda psixologiya üzrə müdafiə olunan namizədlik dissertasiyalarının əksəriyyəti bu kafedranın adı ilə bağlıdır. Belə ki, APRDƏİ-nin psixologiya kafedrası üzvlərindən K. Əbilov (1964) və T. Mustafayev (1965), ADU-nun pedaqoji-psixologiya kafedrası üzvlərindən C. Təhmasib (1965), S. Hələtai (1965), T.Dadaşova (1970), F. Hüseynov (1972) və başqaları öz namizədlik dissertasiyalarını həmin kafedranın köməyi ilə müdafiə etmişlər.

Keçmiş SSRİ-nin müttəfiq respublikalarından gələn alimlərə də Ş.S. Ağayev kömək etmişdir. Moskvadan B.F. Voroni (1969), Tacikistandan R.E. Ustoyev (1972) və onlarca başqaları onun köməyi ilə namizədlik dissertasiyalarını müdafiə etmişlər.

1963-1975-ci illərdən bu günə qədər indiki ADPU-nun psixologiya kafedrası Azərbaycanda eksperimental psixologiyanın inkişafı mərkəzi olmuşdur.

Yaş və pedaqoji psixologiya, əmək psixologiyası, sosial psixologiya və digər problemlərə aid tədqiqatlar məhz burada aparılmışdır.

XX əsrdə Azərbaycanda aparılmış psixoloji tədqiqatların çoxu xalq maarifinin inkişafı ilə bağlı olmuşdur.

Psixoloqlarımız bütün yaş dövrlərində məktəblilərin mənimsəmə imkanlarını, təlimə maraq və meyllərini, təlim materiallarının yadda saxlanılmasının qanunauyğunluqlarını, müəllim-şagird münasibətlərini və digər problemləri öyrənmiş və bununla da xalq təhsilinin inkişafına xeyli kömək göstərmişlər. Bu psixoloqlar içərisində Ş.S. Ağayevin özünün xüsusi yeri var.

Ş.S. Ağayev yaradıcılığının əsas hissəsini təlim psixologiyasının müxtəlif problemlərinin öyrənilməsi təşkil edir. O, respublikamızın dövrü mətbuatında müntəzəm çıxış edir, təlimin müxtəlif psixoloji problemlərinə aid müəllimlərə tövsiyə verirdi.

“Təlim prosesində siqnal sistemlərinin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri” (V.İ.Lenin adına APİ-nin əsərləri, 1958, V c.), “Dərsdə marağın təşkili və inkişaf etdirilməsi”, “Təlim prosesində həndəsi məfhumların mənimsənilməsi haqqında”, “Dərsdə diqqətin təşkili və tərbiyəsi”, “Şagirdlərdə ədəbi yaradıcılıq və qabiliyyətlərin inkişaf etdirilməsi haqqında”, “Uşaq psixologiyası məsələlərinə dair” (Bakı, 1966), “Ailədə uşaqların nitqinin inkişaf etdirilməsi” (Bakı, 1962), “Gənclər arasında psixoloji-pedaqoji təbliğat” adlı əsər və məqalələri buna misal göstərmək olar. Bu elmi-kütləvi əsərlərlə yanaşı o, daha sanballı tədqiqatlar aparmış və 1950-ci illərdən başlayaraq eksperimental psixologiyanın inkişafında öz sözünü demişdir.

Aydındır ki, təlim prosesində qavrayışın böyük rolu vardır. Problemin aktuallığını nəzərə alan prof. Ş.S. Ağayev ilk dəfə olaraq ibtidai məktəbdə qavrayışın xüsusiyyətlərini ətraflı tədqiqata cəlb etmişdir. “Fikri məqsədin xarakterindən asılı olaraq görmə qavrayışının dinamikası” adlı namizədlik dissertasiyasında Ş.S. Ağayev qavrayış probleminin tədqiqi sahəsində görkəmli xarici psixoloqlardan B.K.Ananyev, A.N. Leontyev, A.A. Smirnov, B.M. Teplov, S.A. Rubinşteynin rəhbərliyi altında aparılan tədqiqatları təhlil edir, V. Ştern, Meyman və başqalarının tədqiqatlarına tənqidi yanaşır. K.D. Uşinski, Y.A. Komenskinin əsərlərində qavrayış probleminin qoyuluşu-

nu nəzərdən keçirir və şərh edir. Bu tədqiqat A.O. Makovelskinin təbirincə desək, təlim üçün çox əhəmiyyətli nəticələr-qavrayışın fikri məqsədin xarakterindən asılılığını eksperimental şəkildə əsaslandıran hökmlər bilavasitə təlimi yaxşılaşdırmağa yönəlmişdir.

Ş.S. Ağayevin tədqiqat istiqamətlərindən biri də kiçik məktəb yaşlı şagirdlərin əməyə psixoloji hazırlığı problemidir. O, bu problemə aid bir sıra silsilə məqalələr yazmış və dövri mətbuatda çıxış etmişdir. "Səy tərbiyəsi", "Fəaliyyətin psixoloji təhlili", "Əmək prosesində şagirdlərin temperamentinin tərbiyəsi", "Şagirdləri əməyə hazırlamağın əsas indikatorları", "Şagirdləri kommunist əməyinə hazırlamaq məktəbdə ideya-siyasi tərbiyənin əsasıdır" adlı əsər və məqalələr dediklərimizə əyani sübutdur.

Ş.S. Ağayevin təlim prosesində əməyə psixoloji hazırlığın problemlərinə aid apardığı eksperimental tədqiqatları ümumiləşdirərək doktorluq dissertasiyası kimi müdafiə etmiş, "Əmək, tərbiyə və inkişaf" adlı monoqrafiyasında və digər elmi-kütləvi əsərlərində vermişdir.

Kitabda əməyin insan həyatında rolu, əmək fəaliyyətinin xarakterik xüsusiyyətləri, əmək və şüur, şüurun əmələ gəlməsində əməyin rolu, şüurun ictimai-tarixi inkişafının bəzi məsələləri, əmək və ictimai şərait və başqa problemlər ətraflı izah edilir. Müəllif əmək fəaliyyətinin nəzəri problemlərini şərh edərkən bu sahədə geniş tədqiqatlar aparan rus psixoloqlarından A.A. Smirnovun, A.N. Leontyevin, B.K.Ananyevin əsərlərindən yaradıcılıqla faydalanır. O, respublikamızda ilk dəfə olaraq fəaliyyətinin əhəmiyyətini, quruluşunu geniş şəkildə şərh etmişdir. Kitabda qeyd olunur ki, "İnsan fəaliyyəti həmişə şüurlu xarakter daşıyır. İnsan nə edəcəyini, öz məqsədinə hansı

yollarla nail olacağını, bu yollardan ən səmərəli olanını seçməyi qabaqcadan düşünür və sanki gərgin zehni eksperimentdən sonra işə girişir, fəaliyyətə başlayır. İnsanın şüurluluğu nə qədər yüksək olarsa, onun işi və fəaliyyəti də bir o qədər səmərəli, bir o qədər təsirli olar. Belə adam heç zaman çətinliklər qarşısında diz çökməz, müvəqqəti məğlubiyyət onu sarsıtmaz, həmişə qələbəyə böyük inamla baxar" (səh. 90).

Kitabın maraqlı bölmələrindən biri də kiçik yaşlı məktəblilərin əməyə psixoloji hazırlıq məsələləridir. Şagirdlərin əməyə hazırlamaq problemini düzgün izah etmək, bu barədə məktəb işinə kömək etmək məqsədi ilə müəllif ümumtəhsil orta məktəblərində bir neçə variantla eksperimentlər aparmış və əməyə psixoloji hazırlığın əsas meyarlarını öyrənə bilmişdir. Onun fikrincə, şagirdləri əməyə psixoloji cəhətdən hazırlamaq üçün hər şeydən əvvəl, onlarda bu haqda düzgün təsəvvürlər yaratmaq lazımdır.

Əsərdə qeyd olunur ki, "fəaliyyətə hazırlıq, hər şeydən əvvəl insanın həyata, dəyişilmiş həyat şəraitinə, yeni cəmiyyətin quruluşuna gətirib çıxarır" (səh. 97). Bu isə indiki dövr üçün ən ümdə cəhətlərdən biridir. Müstəqil Azərbaycan Respublikasının gələcək taleyi olan uşaq və yeniyetmələrin əmək fəallığından çox asılıdır. Müəllif də məsələyə bu baxımdan yanaşır. Məktəbəqədər yaş dövründən başlayaraq bu mühüm problemə ciddi fikir verilməsini tövsiyə edir və göstərir ki, "Uşaqların əməyə psixoloji cəhətdən hazır olması üçün müəllimlər, tərbiyəçilər, onların əməyə hazırlığının əsas indikatorlarını bilməli və bu istiqamətdə iş aparmalıdır".

Bu indikatorlar ilk dəfə məhz Ş.S. Ağayev tərəfindən aşağıdakı kimi verilmişdir;

a) uşağın sözü ilə işinin vəhdəti. Əgər uşaq işləmək, kömək etmək barədə dediklərini, əmək haqqında söylədiklərini hörmət və əməli ilə təsdiq edirsə, bu onun artıq əməyə hazır olduğunu göstərir.

b) kollektiv üçün, cəmiyyət üçün, xalq üçün işləmə meyli. Əməyə psixoloji cəhətdən hazırlıq məhz şəxsi fəaliyyətin gedişatı ilə vəhdətdə götürülür.

c) əyləncədən dərhal, və sözsüz olaraq ciddi işə keçmək. Bu hər şeydən əvvəl, özünü oyundan dərsin icrasına asanlıqla keçiddə göstərir.

d) təmənnasız, əvəzsiz işləməyi bacarmaq.

e) səylə işləmək.

Monoqrafiyada fəaliyyətin strukturu, yaranma şəraiti növləri, xüsusiyyətləri elmi ardıcıllıqla şərh edildikdən sonra prosesin müxtəlif dinamikası göstərilmişdir. Hər bir yaş dövründə əməksevərliyin fərqli cəhətləri aşkar edilmişdir.

Müəllif qeyd edir ki, məktəbəqədər yaş dövründə əmək fəaliyyəti epizodik, təsadüfi xarakter daşıyır. Kiçik məktəblilərin əməyində şüurluluq öz ifadəsini onda tapır ki, onlar məktəbəqədər yaşlı uşaqlardan fərqli olaraq əmək məşğələlərinin, başqa sözlə əmək fəaliyyətinin məqsədini icra edilməsini, qaydalarını əldə olunacaq nəticələri daha aydın dərk edirlər. Lakin əsas diqqət ona yetirilir ki, I-II sinif şagirdlərində əməyə davamlı münasibət zəifdir. III-IV sinif şagirdlərində isə bu münasibət davamlı olur.

Yeniyetməlik yaş dövrünün sonuna yaxın ictimai-faydalı əmək həm məzmunca zənginləşir, həm də formaca

təkmilləşir. Gənclərin faydalı əməyi isə daha təsirli, əhatəli, yüksək ideyalılığı ilə fərqlənir.

Əsərdə əməyin beləcə müxtəlif yaş dövrlərində təzahür xüsusiyyətləri təhlil olunur və hər yaş dövründə əməksevərliyin tərbiyəsi yolları göstərilir. Ş.S. Ağayevin "Əmək, tərbiyə və inkişaf" adlı bu monoqrafiyası inandırıcı psixoloji eksperimentlər əsasında yazılmışdır. Əsər həm nəzəri və həm də praktik cəhətdən aktuallıq kəsb edir. Müəllif fəaliyyət sahəsində mövcud olan nəzəriyyələri ümumiləşdirərək öz elmi fərziyyəsini vermişdir. Digər cəhətdən orijinal metodikalar əsasında əməksevərliyi şagirdlərdə tərbiyə etmək üçün konkret yollar göstərmişdir ki, bunun da respublikamızda xalq maarifinin inkişafında böyük rolu vardır.

Prof. Ş.S. Ağayevin "Uşaqlarda mədəni vərdiş və adətlərin tərbiyəsi" (1961) adlı kitabında valideynlər tərəfindən uşaqlarda mədəni vərdiş və adətlərin formalaşdırılması zərurətindən bəhs olunur. Çünki insanların gündəlik yaşayışında mədəni vərdiş və adətlər çox böyük yer tutur.

Müəllif qeyd edir ki, insanın həyatında mühüm rol oynayan bu vərdişlərin bir çoxu uzun müddət təkrar olunduqda adətə çevrilə bilər. Adətləri də vərdişlər kimi insan bir gərginlik sərf etmədən, bir növ avtomatik şəkildə icra edir. Lakin, adətlərin vərdişlərdən fərqi vardır. Adətlər insanın elə iş hərəkətlərinə deyilir ki, bunlar insanın ehtiyacına, tələbatına çevrilmiş olur. Müəyyən şəraitdə, insanın bu iş və hərəkətləri icra etmədən dura bilmir, icra etmədikdə isə insanda daxili bir narazılıq hissi əmələ gəlir. Ona görə insan adət etdiyi işi nə cür olursa-olsun yerinə yetirməyə çalışır. Məsələn, əgər adam yeməkdən qabaq

əlini yumağa adət etmişsə, o, hər bir şəraitdə yeməkdən qabaq əlini yumağa çalışacaqdır.

Müəllif şəxsi münasibətlərdən çıxış edərək göstərir ki, mədəni vərdiş və adətlərin bir qismi də əmək fəaliyyəti ilə əlaqədardır.

Əmək sahəsində ən mühüm mədəni adət ümumin xeyrinə çalışmaq adətidir. Əmək fəaliyyətində vaxta, materiala, adətə qənaət çox mühümdür. Əməklə əlaqədar mədəni vərdiş və adətlərə özünəxidmət adətləri də daxildir. Uşaqları öyrətmək lazımdır ki, öz işlərini başqalarına gördürməsinlər. Hər işi özləri görməyə çalışsınlar.

Müəllif qeyd edir ki, uşaqları məişət əməyinə adət etdirməklə biz onları belə zərərli adətdən-valideynini, yoldaşlarını öz xeyrinə işlətmək adətindən çəkindiririk.

Mədəni adətlər gündəlik yaşayışda, ev şəraitində öz ifadəsini tapmalıdır. Ev şəraitində uşağın mədəni vərdiş-ləri, hər şeydən əvvəl, bütün ailə üzvləri ilə hörmətcil rəftarda özünü göstərməlidir. Uşaq bütün ailə üzvlərinə hörmət etməlidir. Yeməklə əlaqədar olan mədəni vərdiş və adətləri də uşaqlıqda aşılamaq lazımdır.

Mədəni vərdiş və adətlərin bir hissəsi qonaqlıqla bağlıdır. Uşaqları kiçik yaşlarından bu cür adətlərə aşılamaq lazımdır. Əvvəla, dəvət olunmayan yerə getmək mədəniyyətsizlikdir. Dəvət olunduqda gedib-getməməyi qəti bildirmək lazımdır ki, çağıran adam nigaran qalmasın.

Valideyn qonaqlıqda şad, gümrah olmaq, özünü hamı ilə bərabər aparmağı da uşaqlarda kiçik yaşlarından aşılamalıdır.

Psixologiyanın tədrisi sahəsində prof. Ş.S. Ağayevin böyük xidmətləri olmuşdur.

Prof. Ş.S. Ağayev 1950-ci illərdən başlayaraq 1975-ci ilə qədər respublikamızın müxtəlif ali məktəblərində psixologiyadan mühazirələr oxumuş, gözəl insan, əsl müəllim kimi tələbələrin rəğbətini qazanmışdır. Onun mühazirələrindən doymaq olmurdu. Nitqi rəvan və fikri aydın idi.

Ş.S. Ağayevin mühazirəsi həmişə açıq şəkildə keçirdi. Yəni onun mühazirələrində kafedra əməkdaşları, aspirantlar, dissertantlar da həvəslə iştirak edirdilər.

O, həm də psixologiya üzrə dərsliklərin, dərs vəsaitlərinin proqramlarının hazırlanmasında bir müəllif kimi fəal iştirak edirdi.

1960-cı illərdə ali məktəb psixologiyası üzrə dərsliklərin nəşrinə diqqət daha da artmışdır. 1960-61-ci illərdə iki hissədən ibarət psixologiya dərsliyi (Zəkuyev Ə.K., Abdullayev A.K., Ağayev Ş.S., Mustafayev M., "Psixologiya" I hissə, 1960, II hissə 1961) nəşr edildi. Hər iki dərslikdə o, əsas müəllif kimi iştirak etmişdir.

Ş.S. Ağayevin iştirakı ilə 1964-cü ildə ümumi psixologiyaya aid daha sanballı dərslik nəşr edilmişdir. Uzun müddət tələbələrimiz həmin dərslikdən istifadə etmişlər.

Respublikamızın pedaqoji institutlarında və universitetlərində uzun illərdir ki, yaş və pedaqoji psixologiya fənni tədris olunur. Bu sahəyə aid Ş.S. Ağayevin iştirakı ilə 1974-cü ildə "Yaş və pedaqoji psixologiya məsələləri" və 1977-ci ildə "Yaş və pedaqoji psixologiya" adı altında dərsliklər nəşr olunmuşdur.

Ş.S. Ağayev həmişə Azərbaycan psixoloqlarının xarici ölkə psixoloqları ilə elmi əməkdaşlığına kömək etmişdir. Azərbaycan psixoloqları humanist ideyaların, bəşəri duyğuların, yoldaşlığın, dostluğun carçıları olmuşdur.

Onlar bütün millətlərin o cümlədən, Zaqafqaziya xalqlarının alimləri ilə psixoloqları ilə elmi əməkdaşlığa səy etmiş, onlardan faydalı cəhətləri əxz etmiş və eyni zamanda öz köməklərini əsirgəməmişlər. Həqiqət naminə demək lazımdır ki, alimlərimiz arasında belə qarşılıqlı elmi yaradıcılıq əlaqələri hər iki tərəf üçün faydalı olmuşdur. Gəlin tarixi faktlara diqqət yetirək. Dünya psixologiya elminə Gürcüstan psixologiya məktəbi görkəmli nümayəndələr verib. Elə nümayəndələr ki, bu gün də onların ideya və nəzəriyyələri psixoloji tədqiqatların ana xəttini təşkil edir. Belə elm nümayəndələrindən biri də Gürcüstan psixologiya məktəbinin yaradıcısı və inkişaf etdiricisi olan D.N. Uznadzedir. Azərbaycan psixoloqları yaradıcılıqlarının bütün mərhələlərində D.N. Uznadzenin və onun davamçılarının əsərlərinə müraciət etmiş və onlarla elmi əməkdaşlıq etmişlər. Azərbaycan psixoloqlarından A.O. Makovelski, Ə.K. Zəkuyev, S.H. Hacıyev, F.Ə. İbrahimbəyov, M.C. Məhərrəmov bu prosesdə ilk addım atanlardandır. Həmin alimlərin əsərlərindən Gürcüstan psixologiya məktəbi nümayəndələrinin əsərlərindən xeyli iqtibaslar gətirilir və onlara ehtiram göstərilir.

Aydındır ki, 1920-40-cı illərdə Azərbaycanda eksperimental psixologiya laboratoriyaları olduqca az idi. Təşkil edilmiş laboratoriya və kafedralarda isə psixoloji tədqiqatlar üçün cihaz və digər vəsait tapılmırdı. Bu sahədə kadr hazırlığına ciddi ehtiyac vardır. Bütün bunları nəzərə alaraq Azərbaycan psixoloqları ölkə alimləri ilə yanaşı Zaqafqaziya psixoloqları ilə də bu barədə əlaqə yaratmışlar.

1948-1949-cu illərdə, indiki ADPU-nun aspirantlarından Ş.S. Ağayev, İ.Ə.Seyidov eksperimental psixolo-

giya üzrə tədqiqatlarını tamamlamaq, bu sahədə də qarşılıqlı fikir mübadiləsi aparmaq üçün Gürcüstan Elmlər Akademiyasının Psixologiya İnstitutuna ezam olunmuşdur.

Onlar məşhur gürcü psixoloqlarından olan D.N. Uznadze və B.X.Xaçapuridzenin rəhbərliyi ilə xüsusi kurs keçmiş və bu sahədə lazımi tədqiqatçılıq vərdişi qazanmışlar.

Gürcüstan psixologiya məktəbi nümayəndələrindən olan K.N. Uznadze, B.X.Xaçapuridze, R.Q. Natadze, A.S. Praikişvili, Ş.A. Nadiraşvili, A.A. Alxazişvili, N.B. İmedadze və başqaları Azərbaycan psixoloqları ilə həmişə elmi əməkdaşlıq etmiş və bir-birinə əməli kömək göstərmişlər.

Bir qaya olaraq, Zaqafqaziya psixoloqları yerli kadrların inkişafına, elmi biliklərin təbliğinə, dissertasiyaların müdafiələrinə həmişə qarşılıqlı qayğı göstərmişlər.

APRDİ-nun aspirantı İ.M. Novruzov APXDİ-nun aspirantı C.H. Səməndov 1979-cu ildə, BDU-nun müəllimi M.V. Vəliyev 1984-cü ildə, Naxçıvan Dövlət İnstitutunun müəllimi Q.Ə. Quliyev 1984-cü ildə BDU-nun müəllimi O.F. Kərimov 1987-ci ildə, indiki ADPU-nun aspirantı Z.M. Aslanova 1985-ci ildə Gürcüstan psixoloqlarının köməyi ilə Tbilisidə namizədlik dissertasiyalarını müdafiə etmişlər. İ.M Novruzovun rəsmi opponenti professor O.İ. Qobidze, C. Səməndovun rəsmi opponentləri psixologiya elmləri doktoru A.A. Alxazaşvili psixologiya elmləri namizədi N.V. İmedadze, M.V. Vəliyevin rəsmi opponenti Q.İ. Beçereşvili, O.F.Kərimovun rəsmi opponentləri N.V. İmedadze, D.Ş. Kardenanedze, Z.M.Aslanovanın rəsmi opponenti isə A.Q. Bainduraşvili olmuşlar. Azərbaycan psixoloqları Gürcüstan və digər qonşu respublika psixo-

loqlarının köməyindən faydalandıqları kimi, özləri də yeri gəldikcə bu sahədə onlara kömək etmişlər.

Zaqafqaziya psixoloqlarının elmi-yaradıcılıq əlaqələri formalarında və yubiley iclaslarında vaxtaşırı aktual-psixoloji problemləri birgə müzakirə etmələridir. Burada həmçinin, Zaqafqaziya psixoloqları bir-birləri ilə şəxsi tanış olur və dostlaşırlar. Belə məclislərdə psixoloqlar bir növ yaradıcılıq hesabatı verir, bir-birlərinin elmi səriştələrinə bələd olurlar. Zaqafqaziya psixoloqlarının birinci elmi-nəzəri konfransı 1959-cu ildə Tbilisi şəhərində çağırılmışdır. Bu konfrans Azərbaycan, Gürcüstan psixoloqlarının ilk elmi yaradıcılıq konfransı idi. Bu konfrans əsrlərlə bir-birilə min tellərlə bağlı olan Zaqafqaziya psixoloqlarının elmi əməkdaşlığı sahəsində güclü amillərdən biri kimi özünü göstərdi. Konfransa psixoloqlarla yanaşı fizioloqlar, filosoflar, psixiatrlar dəvət olunmuşdu. Konfransın əsas məqsədi Zaqafqaziya respublikalarında aparılan elmi-tədqiqat işlərinin vəziyyəti ilə tanış olmaq, onların gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək idi. Həmin konfransda çıxış edən Ş.S. Ağayevin "Fəaliyyətin psixoloji təhlili" adlı məruzəsi konfrans iştirakçıları tərəfindən rəğbətlə qarşılanmışdır.

Zaqafqaziya psixoloqlarının III konfransı 1962-ci ildə Bakıda keçirilmişdir. Bu konfransda Zaqafqaziya psixoloqları ilə yanaşı Moskvanın tanınmış psixoloqlarından D.A. Oşinin, Y.N. Kobanova-Miller, D.N. Boqayavlenski, Özbəkistandan T.İ. İvanov və eləcə də digər respublika psixoloqları iştirak etmişlər.

Konfransda 43 elmi məruzə dinlənilmişdir ki, bunun da 18-i Azərbaycan psixoloqları tərəfindən hazırlanmışdır.

Həmin konfransda prof. Ş.S. Ağayev qavrayışla bağlı məruzə etmişdir.

Tbilisidə keçirilə IV Zaqafqaziya psixoloqlarının konfransında 54 məruzə dinlənilmişdir. Bunlardan 19-u Azərbaycandan, 17-i Gürcüstandan təqdim olunmuşu. Konfransın pedaqoji psixologiya və yaş psixologiyasına aid bölməsində daha çox məruzələr dinlənilmişdir. Prof. Ş.S. Ağayev "Keçid yaşında yorğunluq və iradə" adlı məruzəsi rəğbətlə qarşılanmışdır. Zaqafqaziya psixoloqlarının V konfransı 1970-ci ildə, VI konfransı isə 1974-cü ildə Bakıda İndiki Bakı Dövlət Universitetində keçirilmişdir. Konfransda əvvəlki məclislərə nisbətən xeyli gənc tədqiqatçılar cəlb olunmuşdu. Əmək psixologiyası bölməsində Ş. Ağayev məruzə etmişdir.

1957-ci ildə Tbilisidə Zaqafqaziya respublikalarının fiziologiya kafedralarının birgə elmi-nəzəri konfransı keçirilmişdi. Həmin konfransda fizioloqlarla yanaşı respublikamızın psixoloqlarından Ş.S. Ağayev "V sinif şagirdlərində həndəsi təsəvvürlərin inkişafı" mövzusunda məruzə etmişdir.

Bir şeyi qeyd etmək lazımdır ki, XX əsrdə Azərbaycanda psixoloji fikir tarixi dünya psixoloji fikir tarixi ilə əlaqədar olmuşdur.

Azərbaycanda psixoloji fikri peşəkar psixoloqlar inkişaf etdirmişdir.

Bu işdə prof. Ş.S. Ağayev xüsusi əmək sərf etmişdir. Prof. Ş.S. Ağayevin elmi-psixoloji fəaliyyəti çox geniş olmuşdur. Psixologiya tarixində, psixologiyanın ümumi nəzəri məsələlərinə aid onun tədqiqatları bu gün də əhəmiyyətini itirməmişdir.

Prof. Ş.S. Ağayev ən çox respublikamızda xalq maarifinin inkişafı ilə bağlı tədqiqatlar aparmışdır. O, bu sahəyə aid namizədlik və doktorluq dissertasiyası həsr etmişdir. Ona yaxın kitab, elmi-kütləvi əsərlərini bu sahəyə sərf edib. Prof. Ş.S.Ağayev ibtidai məktəb şagirdləri üçün yazılmış dərsliklərin əsas müəlliflər heyətində iştirak etmişdir. Respublikamızda yüksək ixtisaslı milli psixoloji kadrların hazırlanmasında onun əməyi təqdirəlayiqdir.

1996-cı ildə indiki ADPU-da Ş.S. Ağayevin 70 illik yubileyi böyük təntənə ilə qeyd edildi. Yubileydə respublikamızın adlı-sanlı alimləri, professor B.İ. Ağayev, A.M.Qurbanov, S. İmanov, Ə. Əlizadə və onlarca başqaları iştirak edirdilər.

Bu yubiley mərasimində alimin elmi fəaliyyətinə el məhəbbətinin nə qədər yüksək olduğu bir daha nümayiş etdirildi.

Bu gün Azərbaycanda çalışan bir neçə psixoloq-pedaqoq onun əməyindən bəhrələnmişdir. Prof. Ş.S. Ağayevin keçdiyi həyat yolu yaradıcılıq diapazonu gələcək alimlərimiz üçün bir örnəkdir. Onun xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

**Ə.S. Bayramov**

XX əsrdə Azərbaycanda elmi psixologiyanın inkişaf edib formalaşmasında, milli psixoloji kadrların hazırlanmasında psixologiya elmləri doktoru, əməkdar elm xadimi professor Ə.S. Bayramovun böyük xidmətləri olmuşdur.

Bayramov Əkbər Salman oğlu 1930-cu ildə Azərbaycan Respublikası Ağdam rayonunun Şıxvənd kəndində anadan olub.

O, 1938-ci ildə Ağdam rayonunun Şıxvənd kəndinin 7 illik məktəbinin birinci sinfinə qəbul olmuş, 1945-ci ildə oranı qurtarmışdır. Elə həmin ildə Ağdam Pedaqoji Texnikumunun I kursuna daxil olmuş, 1949-cu ildə oranı bitirmişdir.

1949-1950-ci tədris illərində S.M. Kirov adına Azərbaycan Dövlət Universitetinin məntiq və psixologiya şöbəsinə qəbul olunub. Oranı 1954-cü ildə bitirmişdir. Elə həmin ildə də S.M. Kirov adına ADU-nun Elmi Sovetinin qərarı ilə V.İ. Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun nəzdində psixologiya ixtisası üzrə aspiranturaya daxil olmuşdur. 1957-ci ildə oranı bitirmişdir. Eyni zamanda o, 1957-ci ildən V.İ. Lenin adına APİ-də pedaqogika və psixologiya kafedrasında psixologiya müəllimi kimi fəaliyyət göstərmişdir. O, bacarıqlı və işgüzar olmuşdur. Tez bir zamanda psixologiya elminin sirlərinə bələd olmuş və respublika pedaqoji ictimaiyyətinin dərin hörmətini qazanmışdır. O, öz üzərində müntəzəm işləyən və yorulmaq bilməyən tədqiqatçıdır. Ə.S. Bayramov 1959-cu ildə "Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III-IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri" adlı namizədlik və 1968-ci ildə "Kiçik məktəb yaşlı şagirdlərdə əqli keyfiyyətlərin inkişaf dinamikası" adlı doktorluq dissertasiyasını müdafiə etmişdir. Ə.S. Bayramov uzun müddət indiki ADPU-nun psixologiya kafedrasında fəaliyyət göstərmişdir. 1970-ci ildən bu günə qədər isə BDU-nun psixologiya kafedrasına başçılıq edir.

Ə.S. Bayramovun bir psixoloq kimi yaradıcılıq imkanları çox genişdir. O, psixologiyanın müxtəlif sahələri üzrə tədqiqatlar aparmış və uğurlar qazanmışdır. Eksperimental psixologiya, psixologiya tarixi, şəxsiyyət və

hüquq psixologiyası, yaş və pedaqoji psixologiya, bədii yaradıcılığın psixologiyası və digər sahələri buna misal göstərmək olar.

O, 1960-cı illərdən bu günə qədər Azərbaycanda psixologiya üzrə milli kadrların hazırlanmasına yaxından kömək etmiş, iyirmi beş nəfərə yaxın psixologiya elmləri namizədi (M. Vəliyev, O. Kərimov, R. İbrahimbəyova, L. Süleymanova, Ə.Kazımzadə, Z. Vesova, R. Cavadov, İ. Allahverdiyava və başqaları), səkkiz nəfər psixologiya elmləri doktoru (Ə. Əlizadə, Ə. Qədirov, S. Seyidov, Ə. Baxşəliyav, B.Əliyev və başqaları) yetişdirmişdir.

XX əsrdə Azərbaycanda psixologiya elminin inkişafına bir sıra amillər təsir etmişdir. Bu faktorlardan, ən başlıcası alimlərimizin xarici ölkə psixoloqları ilə yaradıcılıq əlaqələri saxlamasıdır.

Ə.S. Bayramov bu sahədə də xeyli iş görmüşdür. O, bir tərəfdən keçmiş SSRİ-nin bir sıra respublikalarının ali məktəblərində mühazirələr oxumuş, digər tərəfdən dərslik və dərs vəsaitlərinin tərcüməsinə kömək etmişdir.

1959-cu ildən başlayaraq, Zaqafqaziya psixoloqlarının ənənəvi konfransları keçirilmişdir. Bu konfranslar, həmin regionun və həm də digər keçmiş ittifaq psixoloqlarının yaradıcılıq əlaqələrində mühüm mərhələ olmuşdur.

Professor Ə.S. Bayramov, həmin elmi məclislərin çoxunun keçirilməsinə rəhbərlik etmiş və həm də iştirakçısı olmuşdur. Zaqafqaziya psixoloqlarının I konfransı 1959-cu ildə Tbilisi şəhərində, II konfransı 1960-cı ildə Yerevanda keçirilmişdir. Zaqafqaziya psixoloqlarının III konfransı isə, 1962-ci ildə Bakıda keçirilmişdir.

Konfransda dinlənilən 48 məruzədən, 18-i Azərbaycan psixoloqlarının payına düşür. Konfransda Ə.S. Bay-

ramov “Kiçik məktəbyaşlı şagirdlərdə idrak fəaliyyətinin formalaşdırılması haqqında” məruzə etmiş və konfrans iştirakçılarının marağına səbəb olmuşdur.

Tbilisidə keçirilən IV Zaqafqaziya psixoloqlarının konfransında 54 məruzədən, 19-u Azərbaycan psixoloqları tərəfindən təqdim olunmuşdur. Ə.S. Bayramov bu konfransda da fəal iştirak etmiş və “Kiçik məktəblilərin təfəkküründə fərdi fərqlərin tədqiqinə dair” adlı məruzə ilə çıxış etmişdir.

Zaqafqaziya psixoloqlarının V elmi-nəzəri konfransı, 1970-ci ildə (Yerevan), VI konfransı isə, 1974-cü ildə Bakıda indiki Bakı dövlət Universitetində keçirilmişdir.

Zaqafqaziya psixoloqlarının VII elmi-nəzəri konfransı 1977-ci ilin fevral ayında Tbilisi şəhərində çağırılmışdır. Konfransda bir sıra problemlərə aid 30-a yaxın məruzə və tezis təqdim edilmişdir. Professor Ə.S. Bayramov psixologiyanın ümumi məsələlərinə, sosioloji psixologiya, psixologiya tarixinə və s. problemlərə aid məruzə ilə çıxış etmişdir.

1964-cü ildə, Özbəkistanda keçmiş Sovet respublikasının yaradılmasının 40 illiyi münasibətilə elmi-nəzəri konfrans keçirilmişdir. Ə.S. Bayramov konfransda “İbtidai məktəb şagirdlərində təfəkkür sahəsində fərdi fərqlərin bəzi xüsusiyyətləri” barədə məruzə ilə çıxış etmişdir.

Elmi dünyagörüşünün formalaşmasında, vətənpərvərlik və milli qürur hissinin tərbiyə edilməsində, kütləvi informasiya vasitələrinin rolu əvəzsizdir. Bunu nəzərə alaraq, respublikamızın psixoloqları müntəzəm olaraq, xarici mətbuatda Azərbaycanda psixologiya elminin spesifik inkişaf xüsusiyyətləri haqqında elmi məqalələrlə çıxış

etmiş və bu yolla Azərbaycan psixoloqlarının elmi məktəblərlə əməkdaşlığını da davam etdirmişlər.

Azərbaycan psixoloqlarının nailiyyətlərinin xarici mətbuatda nəşr işini, Ə.S.Bayramov müvəffəqiyyətlə davam etdirir. Onun "Voprosı psixoloqii", "Psixoloqiçeskii jurnal" və başqa jurnallarda psixologiyanın müxtəlif problemlərinə aid dərc olunmuş məqalələri buna parlaq misaldır.

Professor Ə.S. Bayramov, Azərbaycanın böyük şair və mütəfəkkiri İmadəddin Nəsiminin ("Voprosı psixoloqii", 1976, №1), inqilabçı-demokrat, filosof-yazıçı M.F.Axundovun ("Voprosı psixoloqii", 1973, №2) yaradıcılığında psixoloji konsepsiyaları öyrənmiş və həmin tədqiqatlarla xarici mətbuatda çıxış etmişdir. Xüsusilə onun şəxsiyyətin mənəvi təkmilləşməsində özünü qiymətləndirmə və özünü təqdim yeri, mahiyyəti və təzahür xüsusiyyətləri barədəki məqalələri ("Voprosı psixoloqii", 1979, №5) bu baxımdan təqdirəlayiqdir. Ə.S. Bayramov 1970-ci ildən başlayaraq, Azərbaycanda psixologiya elminin inkişaf tarixinə aid məsələlərə yeri gəldikcə diqqət yetirmişdir. Müəllifin Azərbaycanda psixologiya elminin inkişaf istiqamətləri və perspektivləri barədə yazdığı məqalələr "Psixoloqiçeskii jurnal"da (1961, II hissə,№ 4) və "Voprosı psixoloqii" (1967, №5) jurnalında dərc olunmuşdur. Eləcə də onun, "Tələbə-gənclərdə mənəvi idealın təşəkkül xüsusiyyətləri" adlı məqaləsinin Novosibirskidə nəşri bunu bir daha sübut edir.

Respublikamızın keçmişi ilə bilavasitə bağlı, xalqın milli adət-ənənələrini, dini, ictimai, fəlsəfi görüşlərini özündə əks etdirən bu tədqiqatlar, həmişə xarici ölkə psixoloqlarının diqqətini cəlb etmişdir.

1975-ci ildə, Moskvada akademik A.A. Smirnovun “SSRİ-də psixologiya elminin inkişafı və müasir vəziyyət” adlı kitabı nəşr olunmuşdur.

Adını çəkdiyimiz bu elmi-tədqiqat əsərində Azərbaycanın görkəmli psixoloqu Ə.S. Bayramovun adı çəkilir, tədqiqatçılıq fəaliyyətindən danışılır.

1975-ci ildə, Rostov şəhərində təfəkkürün müstəqilliyinə aid nəşr olunmuş monoqrafiyada (L. Rostovskaya) Azərbaycan psixoloqu Ə.S. Bayramovun təfəkkür sahəsində apardığı tədqiqatlara yüksək qiymət verilir. Onun “Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri” (Bakı, 1967) adlı monoqrafiyasının, namizədlik və doktorluq dissertasiyasının adları çəkilir, onlardan bir elmi mənbə kimi istifadə edilir. “Yeddi yaşlı uşaqların məktəb təliminə psixoloji hazırlığı haqqında” (M.Zufarova) adlı namizədlik dissertasiyasında Ə.S. Bayramovun tədqiqatlarından istifadə edilmişdir.

Bununla bərabər Litva EA-nın fəlsəfə, psixologiya və hüquq institutu tərəfindən, 1990-cı ildə nəşr olunmuş “Etik” adlı biblioqrafik lüğətə, Ə.S. Bayramov etika sahəsində qiymətli əsərləri olan bir mütəxəssis kimi daxil edilmişdir.

Azərbaycan psixoloqları keçmiş SSRİ psixoloqlarının qurultaylarında da fəal iştirak etmişlər.

1923-24-cü illərdə, bir-birinin ardınca iki belə psixinevroloji qurultay keçirilmişdi.

İkinci qurultay 1924-cü ildə Petroqradda (Sankt-Peterbutqda) çağırılmışdır.

1959-cu ildən başlayaraq, keçmiş SSRİ psixoloqlarının qurultayları çağırılmağa başladı. I qurultay

1959-cu il iyun ayının 29-dan iyulun 4-nə kimi Moskvada keçirilmişdir.

İkinci qurultay isə, 1963-cü ildə Sankt-Peterburq şəhərində keçirilmişdir. Ə.S.Bayramov, qurultayın yaş və pedaqoji psixologiya bölməsində "Kiçik yaşlı məktəb-lilərin təfəkkür müstəqilliyi və tənqidiliyinin tədqiqi" mövzusunda maraqlı məruzə etmişdir.

III qurultay 1968-ci ildə Kiyevdə, IV qurultay isə 1971-ci ildə Tbilisidə keçirilmişdir.

V qurultay, 1977-ci ilin iyunun 27-dən iyulun 2-nə qədər Moskva şəhərində keçirilmişdir. Fəaliyyət və psixi proseslər bölməsinə Ə.S. Bayramov sədrlik etmiş və böl-mənin materiallarının çap olunması işində fəaliyyət göstərən redaksiya heyətinin üzvü olmuşdur. Həmin bölməyə aid materiallarda da onun tezisləri nəşr olunmuşdur.

Azərbaycan psixoloqlarının əsərlərinin xarici dillərdə nəşri xarici ölkə psixoloqlarının Azərbaycan psixoloq-larının nailiyyətlərinə diqqəti artırmışdır. Macar alimi Molanar İştvan namizədlik dissertasiyasında Azərbaycan psixoloqu Ə.S.Bayramovun təfəkkür sahəsindəki tədqiqat-larında bəhrələndiyini bildirir. Xüsusilə onun "Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III-IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri" (Bakı, 1959) adlı namizədlik disser-tasiyasına geniş yer verir.

Hindistan Mədrəsə Universitetinin psixologiya departamenti Ə.S. Bayramovun məşhur şair "İmadəddin Nəsiminin psixoloji fikirlərinin tədqiqinə dair", "Voprosı psixoloqii" (1976, №1) jurnalında nəşr olunan məqaləsini yüksək qiymətləndirmişdir.

Azərbaycanda elmi psixologiyanın inkişaf edib formalaşmasında, həmin ixtisas üzrə dərsliklərin də böyük rolu olmuşdur.

Azərbaycan psixoloqları ali və orta məktəblərdə psixologiyanın tədrisinə ciddi fikir vermiş, dərslik və metodik ədəbiyyatların hazırlanmasına, nəşrinə, müəllim və tərbiyəçilərə çatdırılmasına məsuliyyətlə yanaşmışlar. Respublikamız üçün psixologiya dərsliyi və dərs vəsaitlərinin hazırlanması işində professor Ə.S.Bayramov da xeyli əmək sərf etmişdir.

1964-68-ci illərdə, ümumi psixologiyaya aid iki dərslik nəşr edilmişdir. Uzun müddət Azərbaycan Dövlət Universitetinin və respublikamızın pedaqoji institutlarının tələbələri həmin dərslikdən istifadə etmişlər. Ə.S. Bayramov və başqalarının əməyi sayəsində 1964-cü ildə "Psixologiya" dərs vəsaiti nəşr edildi. Bu kitabda psixologiyanın mövzusu, sahələri, vəzifələri, üsulları, psixikanın inkişafı, şəxsiyyətin idrak fəaliyyəti (duyğular, qavrayış, hafizə, təfəkkür, təxəyyül), hissi-iradi cəhəti (hisslər və iradə), fərdi psixoloji xüsusiyyətləri (temperament, xarakter, qabiliyyətlər) və digər məsələlər şərh olunmuşdur.

1981-82-ci illərdə, rus dilindən Azərbaycan dilinə tərcümə edilmiş, "Ümumi psixologiya" dərsliyi təhlil etdiyimiz, haqqında danışdığımız problem baxımından daha təqdirə layiqdir. Ə.S. Bayramov, bu dərsliyin nəşr edilməsində yaxından iştirak etmişdir. O, bu dərsliyin elmi redaktorudur.

Ümumi psixologiya üzrə, tərcümə dərsliyi ilə yanaşı son zamanlar müasir tələblərə uyğun olan orijinal dərslik nəşr etmək meyli qüvvətlənmişdir. Bunun nəticəsidir ki,

1989-cu ildə Ə.S. Bayramovla, Ə.Ə. Əlizadənin Azərbaycan dilində yeni "Psixologiya" dərsliyi nəşr edilmişdir.

Psixologiya elminin son nailiyyətləri əsasında yazılmış bu dərslikdə psixologiyanın mövzusu, keçmişi, bu günü, gələcək inkişaf perspektivləri elmlər sistemində tutduğu mövqeyi, mahiyyəti, cəmiyyətdə onun vəzifələri, quruluşu, sahələri, tədqiqat metodları aydın, səlis dildə şərh olunur.

Pedaqoji institutlarda və universitetlərdə yaş və pedaqoji psixologiyanın tədrisi ilə əlaqədar bu sahə üzrə dərslik və tədris vəsaitləri yaratmaq həmişə diqqət mərkəzində olmuşdur.

"Yaş və pedaqoji psixologiya", III hissə 1981-ci ildə nəşr edilmişdir. Prof. Ə.S.Bayramov bu dərsliyin əsas müəlliflərindən biridir.

Ümumi, yaş və pedaqoji psixologiyanın tədris vəziyyətini yaxşılaşdırmaq məqsədilə, psixoloqlarımız laboratoriya və seminar məşğələlər üçün də vəsait, metodik göstəriş hazırlamışlar. "Psixologiyadan laborator məşğələlər" adlı tədris vəsaiti Ə.S. Bayramov və başqaları tərəfindən 1981-ci ildə nəşr olunmuşdur. Bu tədris vəsaitində psixikanın inkişafı, şəxsiyyətin özünüqiymətləndirməsi, diqqət, nitq, duyğular, qavrayış, hafizə, təfəkkür, təxəyyül, temperament və xarakterə aid təcrübələr təhlil edilmişdir.

Respublikamızda hüquq sahəsində çalışan mütəxəssislərin, həmçinin tələbə və aspirantların ehtiyacını nəzərə alaraq, 1974-cü ildən başlayaraq, Azərbaycan dilində "Məhkəmə psixologiyası" (Ə.S. Bayramov, M. Seyidov və b., Bakı, 1975), "Məhkəmə psixologiyası məsələləri" (Ə.S. Bayramov, Ə. Əlizadə, İ. Seyidov, Bakı, 1985), "Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsə-

ləri" (Ə.S. Bayramov, Ə.Əlizadə, İ. Seyidov, Bakı, 1987) adlı tədris vəsaiti hazırlanıb nəşr olunmuşdur.

"Məhkəmə psixologiyası məsələləri" adlı dərs vəsaitində məhkəmə psixologiyasının mövzusu, vəzifələri, metodlar, ədliyyə işçilərinin peşə keyfiyyətləri; "Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsələləri" adlı vəsaitdə isə istintaq prosesinin bəzi cəhətləri, məhbusların psixoloji xüsusiyyətləri, onlara tərbiyəvi təsirlər, hüquqa zidd davranışla mübarizə sahəsində psixoloji əməliyyatların tətbiqi məsələləri və s. geniş şəkildə təhlil olunur.

Bu dövrdə həmçinin sosial psixologiyaya aid iki dərslik "Sosial psixologiya" (Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, C. Təhmasib, 1976) və "Sosial psixologiyanın aktual məsələləri" (Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, Bakı, 1986) nəşr olmuşdur.

Sosial psixologiyada şəxsiyyət problemi mərkəzi problemdir. Dərslikdə şəxsiyyət və onun formalaşmasının "qanunauyğunluqları", "şəxsiyyət", "İnsan" və "fərd" anlayışları təhlil olunur. Bundan sonra şəxsiyyətin spesifik cəhətləri-onun şüura malik olması və strukturu təhlil edilir. Buna əsasən şəxsiyyətin təşəkkülünə imkan verən amillər nəzərdən keçirilir. Bu baxımdan şəxsiyyətin tələbatları (tələbatların növləri, tələbatların yaranması mexanizmi), motivlər, motiv və qərar qəbulu prosesi, təcrübə, qavrayış, təfəkkür və hafizə haqqında verilən məlumat xüsusi əhəmiyyət kəsb edir.

"Sosial psixologiyanın aktual məsələləri" adlı dərslik isə daha təkmilləşdirilmiş formada nəşr olunmuşdur. Dərslikdə elmi biliklər sistemində sosial psixologiyanın yeri, mövzusu, başqa elmlərlə əlaqəsi, vəzifələri, üsulları təhlil olunur. Sosial psixologiyada idarəetmə mədəniyyəti,

rəhbərlik və liderlik məsələləri, kollektiv-daxili frustrasiya, sosial psixologiyanın tətbiqi və digər mövzular ətraflı izah olunur. Dərslikdə qrup və kollektivdə şəxsiyyətlərarası münasibətlər, sosial psixologiyanın inkişaf tarixi, qrup nəzəriyyəsi, şəxsiyyətin sərvət meylinin formalaşması və digər problemlər də diqqətdən yayınmamışdır.

1950-ci illərdən başlayaraq, Azərbaycan psixologiyasına yeni gənc qüvvələr gəlməyə başladı. Bundan əvvəlki yaşlı nəsillərdən öyrənərək, respublikamızda psixologiya elminin gələcək inkişaf taleyini öz öhdələrinə götürdülər. Elmdə yeni yol açmağa səy göstərdilər və çox hallarda istədiklərinə də nail oldular. Belə istedadlı psixoloqlardan biri də Ə.S. Bayramovdur. Təfəkkür və onun inkişaf xüsusiyyətləri, təlimdə təfəkkür prosesinin yeri və rolu, şagirdlərin bir şəxsiyyət kimi formalaşmalarında əqli keyfiyyətlərin əhəmiyyəti və s. məsələlər alimin ilk tədqiqatlarının əsas mövzusunu təşkil etmişdir. O, bu sahədə axtarışlarını davam etdirmiş, professor Ə.K. Zəkuyevin rəhbərliyi ilə "Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III-IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri" (Bakı, 1959) adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. Ə.S. Bayramov uzun illər, psixologiyanın ümumi nəzəri məsələlərinə, ("Qəribə psixi hadisələr" Bakı, 1967) tarixinə, şəxsiyyət psixologiyasına (şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri, Bakı, 1981) aid müəyyən əsərlər yazsa da, ancaq diqqətini təfəkkür problemindən yayındırmamışdır. "Kiçik yaşlı məktəblilərdə əqli keyfiyyətlərin inkişaf dinamikası" (Bakı, ADU, 1967) adlı doktorluq dissertasiyasında, üç silsilə əsərlərində "Şagirdlərdə təfəkkürün inkişafı" (Bakı, 1967), "Şagirdlərdə təfəkkür müstəqilliyinin inkişaf xüsüsiyyətləri" (Bakı, 1966),

“Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsüsiyyətləri” (Bakı, 1967), yüzdən artıq məqalələrində təfəkkürün məktəbəqədər yaşdan başlayaraq ilk gənclik yaşı da daxil olmaqla bütün dövrlərdə inkişaf xüsüsiyyətlərini öyrənmiş və bu problemi tədqiqi sahəsində xeyli müvəffəqiyyətlə nail olmuşdur.

1970-1980-ci illərdə Azərbaycanda həm psixologiyanın nəzəri problemlərinin, psixologiya tarixinin və həm də xalq maarifi ilə bağlı tədqiqatların aparılması baxımından uğurlu dövrlərdəndir. Bu illərdə əməkdar elm xadimi,professor Ə.S.Bayramov psixologiyanın başqa sahələrində olduğu kimi, psixologiya tarixi sahəsində də az iş görməmişlər.

Ə.S.Bayramov psixologiya nəzəriyyəçisi və tarixçisi kimi özünə layiq yer tutmuşdur. Onun yuxarıda adlarını çəkdiyimiz məqalələrlə yanaşı “Təfəkkür müstəqilliyi və tənqidliyinin tədqiqinə dair”, (V.İ.Lenin adına APİ-nin Elmi əsərləri, 1959, X c.), “SSRİ psixoloqlarının IV-V qurultayları arasındakı dövrdə Azərbaycanda psixologiya elminin inkişafı haqqında”, ( V.İ.Lenin adına APİ-nin Elmi əsərləri, 1977, № 3), S.M.Kirov adına ADU-da “Psixologiya elminin inkişafı” (S.M.Kirov adına ADU-nun Elmi əsərləri, 1977, № 2), adlı əsərləri və diqər məqalələri də bu problemə həsr olunmuşdur. Həmin əsərlərdə XX əsrdə Azərbaycanda psixologiya elminin inkişafı barədə ətraflı məlumat verilir, kadr hazırlıgı problemləri təhlil edilir, dərsliklərin, monoqrafiyalarin, elmi-kütləvi əsərlərin nəşri barədə fikir yürüdülür, elmin bu və gələcək inkişafı gostərilir. Azərbaycanda psixologiya elminin spesifik inkişaf xüsusiyyətləri, onun hansı sahlərinə daha çox ehtiyac duyulduğu açıqlanır.

Professor Ə.S.Bayramovun ilk eksperimental psixologiya laboratoriyaların təşkilində də xidmətləri az olmamışdır.1947/48-cı tədris ilindən başlayaraq məntiq-psixologiya kafedrası təşkil edilir. 1960-cı ildən kafedra yenidən qurularaq pedaqogika və psixologiya kafedrası adlandırılmışdır.

1971-ci ildən bu vaxta qədər BDU-nun pedaqogika və psixologiya kafedrasına Ə.S.Bayramov rəhbərlik edir. İndi həmin kafedranın yüksək elmi potensiala malik kollektivi yaranmışdır. Ə.S.Bayaramov rəhbərliyi ilə xeyli gənc namizədlik dissertasiyaları müdafiə etmişdir. Ə.S.Bayramov təfəkkür sahəsində çoxillik tədqiqat və təcrübələrini "Təfəkkürün müstəqillik və tənqidliyinə görə I-IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri" adlı namizədlik və "Kiçik məktəb yaşlı şagirdlərdə əqli keyfiyyətlərin inkişaf dinamikası" adlı doktorluq dissertasiyalarında, "Şagirdlərdə təfəkkürün inkişafı" (Bakı, 1962); "Şagirdlərdə təfəkkür müstəqilliyinin inkişafı və tərbiyəsi" (Bakı, 1966), "Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri" (Bakı, 1967) adlı monoqrafiyalarında,bir sıra məqalələrində, məruzə və tezislərində ümumiləşdirmişdir. Müəllifin bütün əsərlərini təhlil etmək imkanımın olmadığı üçün namizədlik, doktorluq dissertasiyaları və monoqrafiyaları üzərində qısa da olsa dayanmaq istərdik.

Ə.S.Bayramovun namizədlik dissertasiyası 282 səhifə həcmində olub, uç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Müəllif dissertasiyanı yazarkən 200-ə yaxın mənbələrdən istifadə etmişdir. Dissertasiyada ilk dəfə olaraq təfəkkürün təlim prosesində yeri, onun əsas keyfiyyətlərindən olan tənqidlik və müstəqilliyin mənası həmin

keyfiyyətlərin təzahür xüsusiyyətləri və inkişafı eksperimental şəkildə şərh olunmuşdur.

Müəllifin fikrincə müstqillik insanın kənar təhrik olmadan qarşıya məqsəd, sual, problem, məsələ, qoyulmasında bu suala, problemə cavab vermək üçün müəyyən yollar axtarıb tapmaqda bu və ya digər cisim və hadisəni törədən səbəblər haqqında uyğun mülahizə yürütməkdə və s. ifadə olunur. Tənqidlik isə dərk olunan fikirləri, faktları, fərziyyələri, eləcə də öz fikir və rəylərini ölçüb-biçməkdə, idrak obyektlərindən səhv və uyğunsuzluqları axtarıb tapmasında və onların səbəblərini araşdırmasında və s. ifadə olunur. Müəllif təfəkkür və onun keyfiyyətlərinin şagird şəhsiyyətinin ümumi inkişafı ilə ahəngdar olaraq, əsas etibarilə təlim-tərbiyə zamanı inkişaf etməyini burada da şagirdlər arasında fərdi fərqlər olduğunu faktlar əsasında müəyyən etmişdir.

Ə.S.Bayramov qarşıya qoyduğu məqsədinə çatmaq üçün dəqiq tədqiqat metodikası hazırlamış və həmin metodikaya əsaslanaraq Baki şəhəri 44 saylı və 7 saylı məktəblərinin I-IV siniflərində 80 nəfərə yaxın şagird üzərində iş aparmışdır. 300- dən artıq müəyyənləşdirici və öyrədici eksperiment keçirmişdir. Bu eksperimentlərə əsaslanaraq müəllif III-IV sinif şagirdlərində müstəqillik və tədqidliyin təzahür xüsusiyyətlərini, inkişaf və tərbiyə olunması yollarını öyrənmiş və maraqlı elmi nəticələr əldə etmişdir. Müəllif göstərir ki, müstəqillik və tənqidlik kimi mühüm əqli keyfiyyətlərin inkişaf qeydinə qalan hər bir müəllim təlim materiallarının təkcə məzmununa deyil, həm də onun şərhinə müqayisə və ümumiləşdirmələr, şagirdlərin nəticə çıxarmalarına fikir verməlidir. Şagird-

lərin təfəkkür fəalliği qeydinə qalmaq lazımdır. Şagirdlər daim düşündürücü suallar qarşisinda qalmalıdırlar.

Müəllif tədqiqat obyekti olaraq seçdiyi siniflərin hələ məktəbə gəldikləri ilk günlərdən, birinci sinifdən öyrənməyə başlamışdır. Bunu ikinci sinifdə davam etdirmiş, topladığı materialları III-IV siniflərdə apardığı əsas tədqiqat materialları ilə müqayisə etmişdir. Beləliklə, müəllif tədqiqat obyektini dinamikada, inkişaf halında, fəaliyyətdə, təlim-tərbiyə prosesində öyrənmişdir. Müəllif təfəkkürün, müstəqillik və təngidliyinin şagird şəxsiyyətinin ümumi inkişafı ilə əlaqədar olduğunu göstərir. Təfəkkürün müstəqillik və tənqidlik sahəsindəki fərdi fərqlərini bilmək mürəkkəb təlim-tərbiyə işində müəllimə mühüm yardım göstərir. Ona görə də müəllifin əldə etdiyi orijinal nəticələrin həm nəzəri, həm də əməli əhəmiyyəti vardır.

Azərbaycanın görkəmli psixoloqu, professor M.C.Məhərrəmov əsərə yüksək qiymət verəcək yazır: "...Əkbər Bayramov öz tədqiqatını təfəkkür probleminin məhz ən mühüm sahəsinə müstəqillik və tənqidliyi öyrənməyə həsr etməklə, praktikanın vaxtı çatmış və zəruri tələbatına səs vermişdir". Həm də gənc alim öz tədqiqatlarını əvvəldən axıra qədər təlim-tərbiyə işi ilə ciddi birlik və vəhdət halında davam etdirməklə çox düzgün elmi müvqedə durmuşdur. Təfəkkür tərbiyasinə də ümümiyyətlə deyil, şagirdlərin yaş və bilik səviyyələrini, həmçinin fərdi xüsusiyyətlərini dəqiq surətdə nəzərə alıb yanaşmaq lazımdır. Bu fərdi xüsusiyyətlər təfəkkürün müstəqillik və tənqidliyində təzahür edir. Tədqiqatın mahiyyətini təşkil edən bu fərdi xüsusiyyətlərin öyrənilib müəyyənləşdirilməsinə müəllifin xüsusi qüvvə və qayğı ilə yanaşması çox mühüm nəzəri əhəmiyyətlə malik olmaqla müəllimə,

təlim-tərbiyə işində faydalı əməli yardım göstərmək nöqteyi-nəzərdən də özünü doğruldur. Əsər yalnız müəllimlər üçün deyil, eyni zamanda ibtidai məktəb dərsliklərini yazan müəlliflər üçün də faydalədər.

Ə.S.Baramovun "Kiçik məktəb yaşlı şagirdlərdə əqli keyfiyyətlərin inkişaf dinamikası" adlı doktorluq dissertasiyasında irəli sürdüyü problemlər, əldə etdiyi nəticələr onun şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri" adlı monoqrafiyasında öz əksini tapmişdir. Bunu nəzərə alaraq biz həmin monoqrafiya barədə söz açmağı məqsədə müvafiq saydıq. "Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri" adlı əsərində Ə.S.Bayramov müasir psixologiya elminin qarşısında mühüm bir məsələ kimi duran təlimlə əqli inkişaf arasındakı münasibət məsələsinə daha geniş yer verir. Müasir psixologiyada psixi inkişaf və təlim problemlərinə müxtəlif baxışlar mövcuddur. Ə.S.Bayramov apardığı tədqiqatlara əsaslanaraq təlim prosesinin səmərəli təşkilinin uşaqların əqli inkişafına təsirin yol və vasitələrini göstərir. O, haqlı olaraq göstərir ki, hər cür təlim uşaqlara inkişafetdirici təsir göstərmir. Müəllif görkəmli rus psixoloqu L.S.Viqotskinin məşhur nəzəriyyəsinə istinad edərək inkişaf etdirici təlimin xarakteri şərh edir. Təlim hələ yetkinləşməmiş psixoloji funksiyaların formalaşmasına imkan yaradır, onu lazımi istiqamətə yönəldir. Məhz bu nöqteyi-nəzərdən L.S.Viqotski əqli inkişafın iki səveyyəsinin olduğunu göstərirdi.

Birincisi, aktual inkişaf səviyyəsidir. Bu səveyyədə olan uşaqlar müəyyən tapşırıqları müstəqil olaraq yerinə yetirilər. İkinci səviyyə üçün xarakterik cəhət odur ki, uşaq ona verilmiş tapşırıqları müstəqil deyil, yalnız köməkçi suallar, misallar, nümunələr əsasında həll edə

bilirlər. L.S.Viqotski bunu inkişafın yaxın zonası adlandırmışdır. Təlim prosesində məhz belə isə, o, aktual inkişaf səviyyəsinə keçir. Başqa sözlə, təlim uşaqların idrak qabiliyyətlərini o dərəcədə inkişaf etdirməlidir ki, artıq müəyyən dövrdən sonra onların özləri lazımi biliyi müstəqil olaraq mənimsəməyə qadir olsunlar, köməyə o qədər də möhtac olmasınlar. Ə.S.Bayramov, L.S.Viqotskinin həmin nəzəriyyəsinə istinad edərək təlim prosesinin bu xüsusiyyətləri ilə bağlı olan cəhətləri, birinci növbədə kiçik yaşlı məktəblilərin əqli inkişaf xüsusiyyətlərini aşkar etmişdir.

Kitabda əqli keyfiyyət anlayışı, məsələsinin tarixi, həmin keyfiyyətləri öyrənməyən metodlar ətraflı şərh olunur. Məktəbəqədər yaş dövründən başlayaraq I-Iv sinif şagirdləri də daxil olmaqla uşaqların əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri şərh edilir. Tədqiqat zamanı məlum olur ki, birinci sinif şagirdləri əksər hallarda zahiri cəhətlərə, qeyri-mühüm əlamətlərə diqqət yetirir, çox zaman kənardan istiqamət verildikdə belə cisim və hadisələr arasındakı mürəkkəb daxili əlaqələri, onların mahiyyətini müstəqil olaraq dərk etməyə, anlamağa müvafiq olmurlar. Buna görə də onlar müstəqil surətdə, düşünmək, məsələni həll etməyin yeni yolunu axtarıb tapmaq lazım olduğu hallarda çox zaman aciz qalır, əksər hallarda isə təqlidə meyl edirlər.

İkinci sinif şagirdlərində bu çərçivə birinci sinifdə əldə edilən yeni biliklər sayəsində nisbətən genişlənir. Odur ki, ikinci sinif şagirdləri, ətraf hadisələrin nəticələri ilə nəinki maraqlanmağa, həm də tanış olmayan, lakin həyat təcrübələrinə uyğun olan hadisələrə izahat verməyə, onları ölçüb-biçməyə başlayırlar. Bununla yanaşı olaraq

şagirdlər cisim və hadisələrin mahiyyətini onların arasındaki qanunauyğunluğun əlaqələri daha ətraflı dərk etməyə yaxınlaşırlar. Məktəblərdə uzun müddət aparılan müşahidələr göstərir ki, III və IV sinif şagirdləri, birinci və ikinci sinif şagirdləri kimi, müəyyən mətni heç də ancaq mexaniki surətdə öyrənib danışmağa keyfiyyətlənmirlər. Onlar qarşılarına çıxan şəkilləri sadəcə olaraq nəzərdən keçirib kənara atmır, dərs zamanı yaldaşlarının danışıqlarına, fikir və mülahizələrinə, tərzi-hərəkətlərinə, davranışlarına laqeyd yanaşmırlar. Bütün bunların hamısından müvafiq nəticə çıxarar və yaxşını pisdən seçə bilərlər. III və VI sinif şagirdləri oxuduqları əlavəkitablardakı hadisələr, eşitdikləri söhbətlərə, fikir və rəylərə də yeni nəzərlə baxırlar. Onlarda hər yeni şeyi müəyyən cəhətdən ölçüb-biçmək, onları yoxlamaq kimi xüsusiyyətlər, mütamadi surətdə olmasa da, nisbətən tez-tez özünü büruzə verir.

Ə.Bayramov bu xüsusiyyətləri sadəcə olaraq təsvir etməklə kifayətlənmir. O, həm də ibtidai sinif şagirdlərində müstəqillik və tənqidlik kimi keyfiyyətləri yaradan psixoloji zəminləri də göstərir və müəllimlərin diqqətini həmin psixoloji çalarlara yönəldir.

Psixoloqun fikrincə şagirdlərdə təfəkkürün müstəqillik və tənqidliyinin inkişaf etdirilməsi qeydinə qalan hər bir müəllim şagirdlərdən hər bir qanun və qaydaya aid özlərindən misal gətirmələrini tələb etməli, bu şagirdin gətirdiyi misalların uyğun olub-olmadığını digər şagirdlərə yoxlatdırmalı; adlara münasib (həm üslub, həm də məzmunca) misal tapmağa şagirdləri təhrik etməlidir.

a) onları həmişə dərsi öz sözləri ilə danışmağa, oradan lazımi nəticə çıxarmağa sövq etməli, bir

şagirdin danışığına, onun çıxardığı nəticələrin doğru olub-olmadığına sinfin digər şagirdlərinin nəzarətini təmin etməli;

b) bəzi mətnləri keçdikdən sonra, onu şagirdlərin özlərinin bitmiş hissələrə ayırmasına, hər hissəni məzmununa görə adlandırmasına nail olmalı və bu zaman bir neçə şagirdin verdiyi başlığı oxutdurub ümumi sinfin müzakirəsinə verməli və s. (səh.332-333).

Müəllif tövsiyə edir ki, müəllim çalışmalıdır ki, keçilən dərslərdən şagirdlər özləri müvafiq nəticələr çıxarsınlar. Bunun üçün müəllim dərsi izah edərkən hər şeyi hazır şəkildə şagirdlərə çatdırmağa səy etməlidir.

Ə.S.Bayramov eksperimentlərin nəticələrinə uyğun olaraq ibtidai məktəb şagirdlərini təfəkkürün tənqidilik qrupuna ayrılmasına və təlim işində həmin xüsusiyyətlərə əməl olunmasını məsləhət bilir.

"Birinci qrupa daxil olan şagirdlər məsələnin öhdəsindən başlıca olaraq qarşıya ümumi məqsədlər qoyarkən gələ bilərlər. Həmin şagirdlərin idrak obyektlərinə tənqidi surətdə yanaşmaları üçün kənar təhrikə, köməyə lüzum yoxdur. Belə şagirdlər cəhd edirlər ki, məsələlərə hərtərəfli yanaşsın idrak obyektini müxtəlif tərəflərdən, müxtəlif nöqteyi-nəzərdən dərk etsinlər. Hadisələrə bu cür yanaşdıqda, həmin şagirdlər idrak obyektlərindəki səhv və nöqsanları da nəzərdən qaçırmır, onları tapıb aşkar edirlər.

İkinci qrupa daxil olan şagirdlər isə qarşıya ümumi xarakterli məqsədlər qoyduqda səhv olan mətnə və ya şəkilə nöqsansız bir mənbə kimi baxır: kənar yardım olmadan, müəyyən istiqamət olmadan təlim materialına hər saat tənqidi surətdə yanaşmırlar. Deməli, belə şagird-

lərin onların qarşısında duran vəzifələrin konkret şəkildə müəyyənləşdirilməsinə onlardan nə tələb edildiyini anlatmağa ciddi ehtiyac duyurlar. Bu qrupa daxil olan şagirdlər asanlıqla təsirə məruz qalırlar.

Üçüncü qrupa daxil olan şagirdlər isə qarşıya konkret xarakterli məqsəd qoyduqda belə, istənilən nəticəni əldə edə bilmirlər. Belə şagirdlər də sadə assosiativ əlaqələr daha üstünlük kəsb edir. Onlar təhrik olmadan məsələnin mahiyyətini dərk etməkdə, müvafiq nəticə çıxarmaqda çətinlik çəkirlər. Sistemsizlik, qeyri-mütəşəkkillik, onların fikri fəaliyyəti üçün səciyyəvidir. Öz hərəkət və rəftarlarına da tənqidi münasibət bəsləməkonlarda zəif olur. Buna görə də onlar cavab verərkən bir sıra səhvlərə, ziddiyyətlərə yol verir, sanki bu ziddiyyətləri heç sevmirlər. Bunun üçün xüsusi olaraq sual vermək, onların diqqətini ayrıca olaraq bu və ya digər məsələnin üzərinə, mövcud ziddiyyətlərə yönəltmək lazım gəlir. Belə şagirdlər yalnız ayrı-ayrı konkret cəhətlərə dair suallar verdikdən sonra məsələnin mahiyyətini dərk etməyə müvəffəq ola bilərlər. Bu xüsusiyyətləri təlim-tərbiyə işində nəzərə almaq zəruridir" (səh. 338-339).

"Şagirdlərdə təfəkkür müetəqilliyinin inkişzfı və tərbiyəsi" adlı əsər əsasən təfəkkürün müstəqilliyinə həsr olunmuşdur. Burada birinci növbədə təfəkkür müstəqilliyinin mahiyyəti, əqli inkişafda mövqeyi şərh olunmuşdur. Əsərdə həmçinin kiçik məktəb yaşlı şagirdlərin təfəkkürün müstəqilliyinin xüsusiyyətləri, həmin keyfiyyətin inkişzf etdirilməsi yolları göstərilmişdir. Müəllifin fikrincə təlim prosesində şagirdlərin təfəkkürün müstəqilliyinin inkişafı qayğısına qalan müəllim birinci növbədə onların təsəvvür və baxış dairəsini genişləndirməlidir. Təsəvvür

və baxiş dairəsinin genişləndirilməsi şagirdə müstəqil surətdə düşünmək üçün əsas verir. Belə şagird həyata açıq gözlə baxır. Kitabda yeni materialın müəllimlər tərəfindən şərhi zamanı təfəkkürün müstəqilliyini inkişaf etdirməyin yolları da ətraflı izah olunur. Müəllif belə bir nəticəyə gəlir ki, yeni dərsin izahı zamanı şagirdlərin fikir fəalliğini artırmaq, təfəkkür müstəqilliyinə meydan vermək üçün ziddiyyətli vəziyyət yaratmaq üsullarıda çox əhəmiyyətlidir. Belə olduqda şagirdlər ziddiyyətdən çıxış yolu axtarmağa daha fəal surətdə qoşulur və müəyyən nəticəyə gəlir. "Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsüsiyytləri" adlı monoqrafiyada Ə.S.Bayramov məktəbəqədər yaşlı uşaqlarda təfəkkürün ikişafına, o cümlədən əqli keyfiyyərlərin təzəhür xüsusiyyətlərinə müəyyən qədər yer versədə, əsas diqqətini ibtidai məktəb şagirdlərində təfəkkürün müstəqilliyi və tənqidliyinin təzahür xüsusiyyətlərinin geniş və hərəkətli təhlilinə yönəltmişdir. Müəllif kiçik məktəblinin təfəkkür müstəqilliyinin və təngidliyinin inkişaf etdirilməsi yollarını da ətraflı göstərmişdi. Müəllif tədqiq etdiyi hər hansı bir məsələni dərindən, ətraflı şəkildə şərh edir. Ə.S.Bayramov təfəkkür sahəsində xarici ölkə psixoloqlarının tədqiqlərini ümümiləşdirib təhlil etmişdir. Ə.S.Bayramov bu əsərdə məsələnin tədqiqi tarixindən danışarkən, istər 1920-cı ildən əvvəl və istərsə də ondan sonrakı dövrdə Azərbaycanda təfəkkürün tədqiqi sahəsində görülmüş işlərə müəyyən qədər yer vermişdir.

Ə.S.Bayramov eksperimental material və qabaqcıl müəllimlərin iş təcrübəsi əsasında müəllimin şagirdlərdə müstəqillik və tənqidliyi inkişaf etdirmək üçün istifadə etməsi zəruri  olan yol və vəsaitləri də müəyyənləşdirmişdir. Ə.S.Bayramov qyd edir ki, "Təlim prosesində şagird-

lərdə əqli keyfiyyətlərin inkişafi əgər birtərəfədən materialın məzmunundan, məntiqi quruluşundan asılıdırsa, digər tərəfdən, təlim üsullarından, şagirdlərin həm materialı necə və hansı qaydalarla mənimsəməsindən asılıdır. Şagirdləri fəallaşdırmaq, onlarda hər şeydən əvvəl, təlim prosesində onların müstəqilliyinin təzahürünə geniş imkan vermək lazımdır”.

Ə.S.Bayramov belə bir nəticəyə gəlir ki, kiçik məktəb yaşlı şagirdlərin böyük əksəriyyətində qarşıya ümümi məqsəd qoyularkən idrak obyektlərinə müyyən tənqidi münasibət bəsləmək, onları ciddi surətdə nəzərdən keçirmək, ona müxtəlif tərəflərdən yanaşmaq bacarığı hələ zəif olur. Uşaqların hamısı yox, yalnız bəziləri kənar göstəriş, yardım almadan tənqidi surətdə düşünə bilir. Tənqidilik qabiliyyəti ibtidai sinif şagirdlərində mövcuddur. Lakin, onun təzahür və inkişaf etdirilməsi üçün qarşıya ümimi xarakterli məqsədin qoyulması heç də kifayət deyildir. Həmin imkanı gerçəkliyə çevirməkdən ötrü başqa vasitələrə, daha konkret məqsədlərə əl atmaq lazımdır. Müəlluf daha sonra qeyd edir ki, “ibtidai sinif şagirdləri müstəqil və tənqidi düşüncə qabiliyyətinə malik olsalar da, hələ ciddi surətdə təsir altına düşürlər, başlıca olaraq tələb edilən şeyləri yerinə yetirməyə səy göstərirlər”.

Təfəkkürün müstəqillik və tənqidliyinə görə kiçik məktəblilərin bir-birindən nə dərəcədə fərqlənməsinin dəqiq təhlili və böyük əməli əhəmiyyət kəsb edir. Bu cəhətdən müəllifin aşkar etdiyi fərqlər diqqəti cəlb edir. Müəllif belə bir cəhətə xüsusi diqqət yetirir ki, təffəkkürün müstəqillik və tənqidliyi bütün şagirdlərdə eyni dərəcədə inkişaf etmədiyi kimi, onun təlim prosesində təzahürü də eyni deyildir. Müəllif bu cəhətdən kiçik məktəbliləri üç

qrupa bölür: birinci qrupa məsələnin öhdəsindən başlıca olaraq qarşıya ümumi məqsədlər qoyularkən gələ bilən, kənar sövq olmadan müstəqil düşünən və idrak obyektlərinə tənqidi münasibət bəsləyən şagirdləri daxil edir. İkinci qrup şagirdlər isə qarşıda duran vəzifələrin konkret şəkildə müəyyənləşdirilməsində onlardan nə tələb edildiyini anlatmağa ciddi ehtiyac duyurlar. Üçüncü qrup şagirdlər isə qarşıya konkret xaraktrli məqsəd qoyduqda belə, istənilən nəticənıəldə edə bilmirlər.

Ə.S.Bayramovun təfəkkürün müstəqillik və tənqidiliyinə aid eksperimental tədqiqləri yalnız kiçik məktəblinin təfəkkür xüsusiyyətlərini öyrənmək baxımından deyil,həm də mühüm elmi, mənəvi və metodoloji problemlərin həlli baxımından da böyük nəzəri və praktik əhəmiyyətə malikdir. Son dövrlərdə professor Ə.S.Bayramovun rəhbərliyi ilə təfəkkürün digər inkişaf səviyyələrinin öyrənilməsinə kompleks tədqiqlər həsr olunmuşdur ki, bu da Azərbaycan psixologiyası tarixində sevindirici faktlardandır.

Respublikamızda gənclik dövründə yaradıcılığın psixoloji məsələlərini ətraflı surətdə işıqlandıran bununla bədii əsərin psixoloji təhlilinə istiqamət verən əsərlər azdır. Buna görə Azərbaycan psixoloqlarından Ə.S.Bayramovun da belə ber problemi tədqiq etməsi təqdirəlayiqdir.

Ə.S.Bayramov bədii yaradıcılığın bəzi məsələlərinə aid bir neçə əsər yazmışdır.

Ə.S.Bayramovun "Bədii yaradıcılığın məsələləri" adlı məqaləsində yaradıcılıq prosesində müşahidəçilik, təfəkkür, təxəyyül və hissin sənətkarın yaradıcılığı prosesində nə dərəcədə iştirakı, yazıçının bu psixoloji məsələlərdən necə məharətlə istifadə etməsi ustalıqla şərh olunmuşdur. Məqalədə qeyd edilir ki, "Bədii əsərdə təsvir olunan

surətlərindaxili aləmi düzgün əks etdirilmədikdə, hər hansı bir gəhrəmanın davranışı psixoloji cəhətdən düzgün əsasladırılmadıqda hərəkətlər süni təsir bağışlayır. Surətin daxili aləminin sənətkar tərəfindən inandırıcı surətdə açılması bədii əsərin təsir gücünü artırır”. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığındandakı ən gözəl məziyyətlərindən biri məhz bu cəhətə xüsusi diqqət vermələrindədir. Sənətkar bədii əsərdə psixoloji səhnələr yaratmaqla tənqidçi təfəkkürün xüsusiyyətlərini açır,tənqidçinin hansı psixoloji keyfiyyətlərə malik olmasını həm psixoloq, həm də bir ədəbiyyatçı kimi təhlildən kiçirir. Müəllif qeyd edir ki, “Tənqidçi təkçə bu və ya digər sənətkarın müvəffəqiyyət və nöqsanlarını müəyyənləşdirməklə kifayətlənmir, çünki ədəbi inkişaf həm də sabahın vəzifələrinin müəyyənləşdirilməsinə də möhtacdır”.

Ə.S.Bayramov tənqidçinin bədii zövqünün ədəbi inkişaf üçün nə dərəcədə faydalı olmasını M.F.Axundov, E.Braun, U.Kibb, P.Hemmer, A.Krimski, F.Köçərli, C.Məmmədquluzadə, C.Cabbarlı, S.Vurğun kimi alim və sənətkarların yaradıcılığına müraciət edərək təhlil edir, müasir ədəbi tənqidçilərin məhz bu baxımdan əsərə münasibət göstərmələrini məsləhət bilir. Məqalədə həmçinin Ə.S.Bayramov tənqidçi təfəkkürünün müxtəlif inkişaf səveyyələrini də açmağa, bunları faktik materiallar əsasında şərh etməyə nail olmuşdur. Müəllif qed edir ki, “Tənqidçi bədii əsər üzərində düşünür, təfəkkürün tənqidliyi həmin düşüncə gedişində özünü göstərir. Lakin bədii əsərlərin təhlili zamanı, hər bir tənqidçinin inkişaf səviyyasindən asılı olaraq, tənqidi təfəkkürün özü də müxtəlif səviyyədə təzahür edir”. Məqalədə tənqidçi təfəkkürünün

müstəqillik və tənqidliyi, dünyagörüşü, əqidəsi, zövqü, psixoloji baxımdan təhlil olunur.

Psixoloq ədəbi tənqidçiləri ona görə təqsirləndirir ki, onlar əsərin ancaq ideyasına, bədii dil xüsusiyyətlərinə, kompozisiyasına və s. görə təhlil edir. Əsrin psixoloji təhlinin üstündən sükutla keçirlər. Müəllif bu məsələdən bəhs edərək yazir: "Bu məsələlərlə yanaşı əsəri psixoloji cəhətdən də telil etmək zəruridir. Çünki, hər bir bədii əsərin ərkəzinde insan durur. Badii əsərin psixoloji təhlilində iki mühüm cəhətə xüsusi fikir vermək lazımdır. Bunlardan biri təsvir olunan surətlərin daxili aləminin açılmasıdır. Buraya hər hansı surətin hıssləri, düşüncəsi daxildir. İkinci tərəfdən surətin obyektiv aləmə, başqa insanlara, eləcə də özünə münasibət məsələsidir". Məqalədə tənqidçi təfəkkürünün başqa xüsusiyyətləri də ətraflı şərh olunmuşdur. Bədii yaradıcılığın ümumi psixoloji xüsusiyyətləri və tənqidçinin bədii təfəkkürünün çalarları haqqında söylənilən fikirlər ilk gənclik dövründə gənclərimizin bədii yaradıcılığa yiyələnməsində mühüm rol oynaya bilər.

Ə.S.Bayramovun "Şəxsiyyətin təfəkkürünün aktual psixoloji problemləri" adlı kitabında erkən gənclik yaşı dövründə şaqirdlərin ədəbi yaradıcılığının təzahür xüsusiyyətləri, böyük yaşlı məktəblilərin ədəbi yaradıcılığının strukturu, o cümlədən bədii təsvir vasitələrində poetik sintaksisın təzahürü araşdırılmış, məktəblilərdə əbədi yaradıcılıq qabiliyyətinin tərbiyəsi yolları psixolojı təhlildən keçirilmişdir.

Ali məktəb psixoloqiyası tələbə şəxsiyyətinin formalaşmasını, onlarda ictimai-siyasi təfəkkürün, əxlaqii hisslərin, fəal həyat mövqeyinin yaranmasının psixoloji prob-

lemlərini öyrənir. Elmin bu yeni sahəsi Azərbaycan psixoloqlarının da diqqətini cəlb etmişdir. Buraya ilk növbədə Azərbaycan Dövlət Universitinin psixologiya kafedrasında professor Ə.S.Bayramovun rəhbətliyi ilə aparılmış tədqiqatları aid etmək olur. Onun redaktorluğu ilə üç tematik məcmuə "Tələbənin idrak fəaliyyəti və şəxsiyyətinin təşəkkülü" (Bakı, 1981),"Təlim-tərbiyyə prosesində şəxsiyyətin fəallaşdırılmasının xüsusiyyətləri, yol və vasitələri" (Bakı, 1984), "Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləti" (Bakı, 1985) hazırlammış və Azərbaycan Dövlət Universitinin nəşriyyatı vasitəsilə çap olunmuşdur. Tematik məcmuələrə daxil olan materialların əksəriyəti tələbələrin psixoloji xüsusiyyətlərinin şəhrinə həsr olunmuşdur.

Ə.S.Bayramov "Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri" adlı kitabının ikinci bölməsində ali məktəbdə təlim-tərbiyyənin psixoloji problemləri təhlil edir. Müəllif çoxilik ali məktəb təcrübəsinə, apardığı psixoloji tədqiqatlara arxanalaraq, ali məktəbə təlim-tərbiyyə işinin təşkilinin psixoloji əsaslarını, tələbə şəxsiyyətinin formalaşmasının qanunauyğunluqlarını, təlim-tərbiyyə prosesində tələbələrə düzgün təsir göstərməyin yol və vasitələrini, tələbə-müəllim münasibətlərinin yaranması xüsusiyyətlərini fakrlarlla izah etmişdir. Həmin bölmədə tələbə-gənclərlə mənəvi idealın təşəkkülünün bəzi xüsusiyyətləri də təhlil edilir.

Tələbə təfəkkürünün inkişaf xüsusiyyətləri Ə.S.Bayramovun tədqiqatları içərisində mühüm yer tutur. Onun bu mövzuya həsr etdiyi əsərlərində tələbələrdə təfəkkür tərzinin xüsusiyyətləri mücərrəd və məntiqi təfəkkürün xarakterik cəhətləri və tələbə təfəkkürünün təlim prosesində

inkişaf dinamikası məsələləri öz real həllini tapmişdir. Şəxsiyyətin təşəkkülünün, dünyagörüşünün, ideya yetkinliyinin siyasi mədəniyyətinin formalaşmasında ali məktəblərin rolu misilsizdir.

Professor Ə.S.Bayramov rəhhbərliyi ilə O.F.Kərimov, R.Cavadov, tələbələrinin qrup şəraitində məsələ həlli prosesində təfəkkürün tənqidliyinin və müstəqilliyinin təzahür xüsusiyyətləri və həmin keydiyyətlərin səmərəli təşkili yollarının öyrənmişlər.

"Gənclik və özünütərbiyə haqqında söhbət", (Ə.S.Bayramov, Bakı, 1967), "Gənclərin özünü tərbiyəsi haqqında" (Ə.S.Bayramov, Bakı, 1961) adlı əsərlərdə, namizədlik və doktorluq dissertasiyalarında, dərslik və dərs vəsaitlərində ali məktəb psixologiyasına toxunulmuş, tələbələrin ideya-siyasi tərbiyəsinin, təlimin tapşırıqlarını mənimsəməsinin psixoloji məsələləri öyrənilmişdir.

Ə.S.Bayramovun pedaqoji psixologiya üzrə eksperimental tədqiqatlar aparılmasında da xidmətləri vardır. Onun "Müasir dövrdə təlimin aktual psixoloji problemləri" adlı məqaləsi məhz bu niyyətlə yazılmışdır.

Pedaqoji psixologiyanın əsas bölmələrindən biri olan tərbiyə psixologiyasına dair Ə.S.Bayramovun "Gənclərin özünütərbiyəsi haqqında" (Bakı, 1961), "Gənclik və özünütərbiyə haqqında söhbət" (Bakı, 1967), "Özünütərbiyə haqqında" (1972) adlı əsərləri vardır. Bu əsərlərdə tərbiyənin mahiyyəti, tərbiyəyə təsirgöstərən psixoloji amillər, ətraflı şəkildə şərh olunur. 1979-cu il aprel ayında Bakida "Fəal həyat mövqeyinin formalaşdırılması" mənəvi tərbiyə məsələlərinə həsr olunmuş nəzəri konfrans keçirilmişdir. Konfransda Azərbaycan psixoloqlarından Ə.S.Bayramov və başqaları iştirak etmişlər.

Respublikamız üçün mütəxəssis-psixoloq hazırlığında ixtisaslaşdırılmış müdafiə şuralarının da rolu böyükdür. Bu iş Azərbaycanda istənilən səviyyədə olmayıb.

1922-1923- cü tədris ilindən BDU-də professor Ə.S.Bayramovun böyük səyi ilə psixologiya üzrə müdafiə şurası yaradılıb. Bu müdafiə şurası az bir meddətə iki nəfər psixologiya elmləri doktoru, on nəfərə yaxın azərbaycanlı, üç nəfər xarici vətəndaş namizədlik dissertasiyasını müdafiə etmişlər.

1970-1980- ci illər Azərbaycanda həm psixologiyanın nəzəri məsələlərinin və həm də psixologiya tarixinin öyrənilməsi baxımından uğurlu dövrlərdəndir.

Bu illərdə əməkdar elm xadimi, professor Ə.S.Bayramov psixologiyanın başqa sahələrində olduğu kimi, psixologiya tarixinin öyrənilməsi sahəsində də az iş görməmişdir.

O, bir tərəfdən XX əsrdə Azərbaycanda psixologiyanın inkişaf probleminin araşdırmış, digər tərəfdən respublikamızda elmi psixologiyanın söykəndiyi qaynaqları ətraflı öyrənərək elmimizi zənginləşdirmişdir.

“Psixologiya etüdlər” (1989), “Psixoloji düşüncələr” (1994), “Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri” (1975), “Etnik psixologiya məsələləri” (1996) adlı kitablarda Azərbaycan xalqının etnik stereotip və yönümləri, etnik xarakteri, adət-ənənələri, həyat tərzi, məişət psixologiyası maraqları barədə ətraflı məlumat verilir, klassik ədəbi bədii irsimizdə psixoloji problemlərin qoyuluşu şərh olunur.

Müəllif həmin əsərlərdə elmi faktlarla etnik psixologiyanın mövzusunu, vəzifələrini, əhəmiyyətini, metod-

larını və digər problemlərini şərh etmiş və problemin öyrənilməsinin vacibliyini açıqlamışdır.

Ə.S.Bayramovun yaradıcılığında diqqəti cəlb edən cəhətlərdən biri də şifahi xalq yaradıcılığı nümunələrində. Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərində etnik psixologiyaya aid qiymətli fikirlərin öyrənilməsidir.

"Kitabi Dədə-Qorqud"da etnik stereotiplərin inkişafı", "A.A.Bakıxanovun irsində etnik psixologiyaya aid ideya və problemlərin inkişafı", "Nizami Gəncəvinin əsərlərində şəxsiyyət və liderlik problemi", "C.Məmmədquluzadənin irsində və "Molla Nəsrəddin" jurnalında etnik psixoloji xüsusiyyətlərin inkişafı barədə", "M.Ə.Sabirin irsində etnik psixoloji xüsusiyyətlərimizin inkişafı haqqında" adlı sanballı elmi əsərləri dediklərimizə əyani sübutdur. Professor Ə.Bayramov 1989-cu ildən başlayaraq mütəmadi surətdə bu problemə müraciət etmiş və məsələnin kompleks tədqiqinə nail olmuşdur.

Onun rəhbərliyi ilə "Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri" (1985) adlı tematik məcmuə yazılmışdır. "Kitabi Dədə-Qorqud dastanında Azərbaycan xalqının etnik psixoloji xüsusiyyətlərinin inikisi", "Nizami Gəncəvinin yaradıcılığında şəxsiyyət problemi" adlı namizədlik dissertasiyaları hazırlanmış və yüksək səviyyədə müdafiə olunmuşdur.

Ə.S.Bayramovun yaradıcılığının müəyyən bir hissəsini XX əsrdə Azərbaycanda elmi psixologiyanın inkişaf tarixinin öyrənilməsi təşkil edir. O, 1970-ci illərdən başlayaraq bu sahədə daha ciddi fikir vermiş və diqqəti cəlb edən əsərlər yazmışdır.

Ə.S.Bayramov bir tərəfdən psixologiya tarixinə aid əsərlər yazır və digər tərəfdən Azərbaycanda psixologiya

elminin inkişafını xarici ölkələrin mətbuatında, sanballı konfrans və qurultaylarda təbliğ edirdi.

"Azərbaycan məktəbi jurnalında psixologiya məsələləri", "Böyük Oktyabr və Azərbaycan Sovet psixologiyası", "SSRİ psixoloqlarınn IV-V qurultayları arasındakı dövrdə Azərbaycanda psixologiyanın inkişafı haqqında", "Azərbaycan sovet psixologiyası tərəqqidə", "Böyük Oktyabr sosialist inqilabı və Azərbaycanda psixologiya elminin inkişafı", "Azərbaycan psixologiyasında şəxsiyyətin formalaşması və idrak fəaliyyətinin tədqiqi problemləri", "Tələbənin idrak fəaliyyəti və şəxsiyyətin təşəkkülü", (Bakı, ADU-nun nəşri, 1981), "Azərbaycan SSRİ-də psixologiya elminin inkişafı"("Вопросы психологии" j., 1987, №5), "S.M.Kirov adına ADU-da psixologiya elminin inkişafı" (ADU-nu elmi əsərləri, tarix və fəlsəfə seriyası, 1977, №2) və başqa yüzlərlə belə məqalələr bu məqsədlə yazılmışdır. Həmin əsərlərdə Azərbaycanda psixologiya elminin inkişafı barədə ətraflı məlumat verilir, kadr hazırlığı problemləri təhlil edilir, dərsliklərin, monoqrafıyaların elmi-kütləvi əsərlərin nəşri barədə fikir yürüdülür, elmin bugünki vəziyyəti, gələcək inkişaf prespektivləri barədə malumat verilir.

XX əsrdə Azərbaycanda elmi psixologiyanın inkişaf edib formalaşması Ə.S.Bayramov fəaliyyəti ilə bağlı olmuşdurş. O, ömrünün ən kamillik dövrünü yaşayır. Ona uzun ömur. Cansağlığı və elmi fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

## Ə.Ə ƏLİZADƏ

**XX** əsrin 60-cı illərində Azərbaycan psixologiya əlminə gənc ümidverici istedadlar gəlirdi. Həmin alimlər özlərinin gərgin əməyi ilə psixologiya elminin əsas məsələlərini öyrənir, Azərbaycan Respublikasında bu elmin inkişafına səylə çalışırdılar.

Əbdül Əli oğlu Əlizadə bu gənclərdən idi. Ə.Əlizadə 1932-ci ilin avqust ayında Bakı şəhərində anadan olmuş, orta təhsilini başa vurduqdan sonra 1950-ci ildə Bakı Dövlət Universitetinin fililigiya fakultəsinin məntiq-psixologiya şöbəsiə daxil olmuş, 1955-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.

Oxuduğu müddətdə o, görkəmli alimlərin, xüsusilə Akademik A.O.Makovelskinin, dos. M.Məhərrəmovun məsuliyyətli və bilikli tələbə kimi diqqətini cəlb etmiş və ona böyük ümid bəsləmişlər. O, universiteti bitirdikdən sonra 1955-58-ci tədris ilində Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq texnikumunda psixologiyadan dərs demişdir. 1959-cu ildən isə indiki N.Tusi adına ADPU-nun psixologiya ixtisası üzrə aspiranturasına daxil olmuş və 1962-ci ildə təhsilini bitirmişdir. Elə həmin ildə namizədlik dissertasiyasını müdafiə edərək psixologiya elmləri namizədi alimlik dərəcəsini almışdır.

Ə.Əlizadə həmin universitetin psixologiya kafedrasında müəllim, baş müəllim, dosent, professor vəzifəsində çalışmış, 1975-ci ildən indiyə qədət isə ümumi psixologiya kafedrasına başçılıq edir.

Professor Ə.Əlizadə öz işgüzarlığı, mənəvi təmizliyi, elmi dünyagörüşü, zəngin biliyi ilə müəllimlərinin etimadını doğrultdu. Bu gün o, respublikamızın elmi ictimaiy-

yətinin, pedaqoq və psixoloqlarının ən sevimlisidir. Ə.Əlizadə xasiyyətcə mülayim və səmimidir. O, rəhbərlik etdiyi ümumi psixologiya kafedrasının əməkdaşlarına aspirant və dissertantlarına qarşı çox həssasdır. Ə.Əlizadənin yaradəcələq dairəsi çox genişdir. O, ən çox məktəblilərin psixoloji xüsusiyyətlərini öyrənmişdir. Lakin, məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsinin psixoloji problemlərinə də yeri gəldikcə müəyyən yer vermişdir. "İlk addımlar" (1968), "Uşaqlarda diqqətin tərbiyə edilməsi" (1962), "Uşaqlarda kollektivçilik hissinin tərbiyə edilməsi" (1963) və başqa əsərlərini buna misal göstərmək olar.

Müəllif həmin əsərlərdə məktəbəqədər yaşlı uşaqlarda diqqətin, kollektivçilik hissinin, əqli keyfiyyətlərin inkişaf xüsusiyyətlərini öyrənmiş və onların tərbiyəsinin psixoloji problemləri barədə maraqlı məlimatlar vermişdir.

Görkəmli Azərbaycan pedaqoqu M.Muradxanovun redaktorluğu ilə nəşr olunan "İlk addımlar" (Y.Kərimov la birlikdə) kitabı məktəbəqədər təhsilin inkişafında çox böyük əhəmiyyət kəsb edir. Respublikamızın adlı-sanlı psixoloqu Ə.S.Bayramov həmin kitaba çox böyük qiymət verərk yazırdı: "Məlumdir ki, yenicə yeriməyə başlayan uşağın atdığı ilk addımlar çox halda qətiyyətsiz olur, ilk addımlarını atarkən uşaq tez-tez büdrəyə bilir. Xoşbəxtlikdən u ilk addımlar qəti və çox inamlı atılmışdır. Kitab ilk görünüşdən nəinki, uşaqları, hətta yaşlı adamları da cəlb edir, onların sevincinə səbəb olur ilk addşmlar kinabı, hər şeydən əvvəl, uşaqların zehnini rəngarəng materiallarla zənginləşdirir. Kitaba oyuncaqlar, məktəb, yemək şeyləri , dirrik və bostan, vəhşi heyvanlar, ev və çöl

quşları, şəhər, nəqliyyat, at, meşə, kənd haqqındakı materiallar bu cəhətdən diqqəti cəlb edir”.

Qeyd etmək lazımdır ki, “İlk addımlar” kitabı həm təlim,həm də tərbiyəedici mənbə kimi çox böyük əhəmiyyətə malikdir. Uşaqların psixoloji xüsusiyyətlərinin nəzərə alınması, rəngarəng maraqlı materialların seçilməsi, onların cəzbedici şəkillərlə müşayiət edilməsi, öz oxucularının həm əqli,həm əxlaqı, həm də estetik tərbiyəsini üzvü surətdə hayata keçirməyə yönəldilməsi kitabın başlıca məziyyətləridir.

“Fikrimizcə əsərin müəllifləri, rəssamları, böyük əmək sərf etmiş, minlərlə bağça yaşlı uşaqların və onların valideynlərinin dərin rəğbətini qazanmışdır”.

Professor Ə.Əlizadə tədqiq etdiyi problemlərin dərin bilicisidir. Onun təlimlə bağlı ilk tədqiqatları respublikamızda demək olar ki, işlənilməyən təxəyyül problemidir. O, bu əsəri ilə XX əsrdə Azərvaycanda eksperimental psixologiyanın inkişafında öz sözünü dedi. “Şagirdlərin yaradıcı təxəyyül fəaliyyətində analiz və sintez proseslərini xüsusiyyətləri” (Bakı, 1962) adlı namizədlik dissertasiyası bu baxımdan diqqəti cəlb edir. Dissertasiyada təlim prosesində təxəyyülün rolu, inkişaf xüsusiyyətləri və tərbiyə edilməsi yolları tutarlı faktlarla şərh olunur.

Əsərdə həmçinin təxəyyül fəaliyyətində təhlil və tərkibin xüsusiyyətləri, onların inkişafını şərtləndirən amillər, təhlil və tərkibin qarşılıqlı əlaqəsi, təlim prosesində onların yeri, tərbiyə yolları eksperimental tədqiqatlar əsasında olduqca maraqlı şəkildə izah edilir.

Müəllif tədqiq zamanı əldə etdiyi nəticələri məharətlə ümumiləşdirib təlimin səmərəli təşkili üçün dəyərli tövsiyələr vermişdir.

O,göstərir ki, təlim prosesində  təxəyyülün inkişafına nail olmaq üçün hər şeydən əvvəl şagirdlərin gerçək aləmə dair qavrayış və təsəvvürlərini daim genişləndirib zənginləşdirmək lazımdır.

Şagirdlər dərk etməlidirlər ki, yaradıcıləğən əsas mərkəzi ideya aydınlığıdır. Buna nail olmaq üçün isə şagirdlər gərək ətraflı düşünsünlər,təhlil-tərkib əməliyyatı aparsınlar. Müəllif əsərdə məhz bu cəhətlərə xüsusi fikir vermiş, orijinal metodikası əsasında yaradıcı təxəyyül fəaliyyətində analiz və sintez inkişaf qanunauyğunluqları müəyyənləşdirmişdir.

Əsardə analiz və sintez hər bir səviyyəsinin xüsusiyyətləri və onları doğuran səbəblər aydınlaşdırılır. "IV-VI sinif şagirdlərində yaradıcı təxəyyülün tərbiyəsi haqqında" adlı bölmədə təxəyyülün tərbiyəsi məsələləri şərh olunur. Təxəyyülün tərbiyəsi başqa psixi proseslərdən, eləcə də şəxsiyyətin fərdi psixi xassələrindən təcrid edilmiş şəkildə aparıla bilməz. Şəxsiyyət öz yaratdığı obrazları idarə etməyi bacarmalıdır. Bu da ağıl, iradə, təmkinlik tələb edir. Deməli, təxəyyül idrakın bütün prosesləri ilə, xüsusi ilə təfəkkür və iradə ilə ayrılmaz vəhdət, qarşılıqlı əlaqə və asılılıq halında cərəyan edir.

Müəllif göstərir ki, şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirmək üçün, hər bir səviyyənin xüsusiyyətləri təlim-tərbiyə prosüsində nəzərə alınmalıdır. Əsərdə faktlar sadəcə olaraq sadalanmır. Həmin faktları törədən amillər psixoloji baxımdan açılır, təxəyyülün təlimdə yeri göstərilir.

"Yaradıcı təxəyyülün tədqiqi tarixinə dair" adlı birinci fəsiləd bizim eradan əvvəl IV əsrdən başlamış XX əsrin 50-ci illərinə qədər təxəyyül probleminə həsr edilmiş

tədqiqatlar ətraflı şərh olunur, oxucularda mövcud vəziyyət barədə aydın təsəvvür yaradır. Bu fəsil oxuyarkən məlum olur ki, müəllif xeyli əsər oxuyub və onları tənqidi təhlildən keçirib. Təxəyyülün tənqidinin ümumdünya miqyasında bu cür təhlil Azərbaycan psixologiyası üçün çox dəyərli bir hadisədir. Bu yığcam məlumatdan Azərvbycan oxucuları təxəyyül barədə geniş bilik əldə edə bilərlər.

Dissertasiyanın ikinci fəsli tədqiqatın metodıkasına həsr olunmuşdur. Ə.Ə.Əlizadə psixologiyada çoxdan işlənən müşahidə, fəaliyyət məhsullarının təhlili üsullarından geniş istifadə etməklə yanaşı, özünün düşünüb hazırladığı "mühakimə", "təhlil", "eskiz", "müzakirə", "illüstrasiya", kimi tərzlərdən də bəhrələnmişdir.

Əsrin üçüncü fəsli IV-VI sinif şagirdlərin yaradıcı fəaliyyətində analiz və sintez proseslərinin öyrənilməsinə həsr olunmuşdur. Ə.Ə.Əlizadə tədqiqatda əldə etdiyi faktlari məharətlə ümumiləşdirib, təlim-tərbiyə prosesinə xidmət baxımından təqdim etmişdir. Dördüncü fəsildə IV-VI sinif şagirdlərində yaradıcı təxəyyülün tərbiyəsi yolları açıqlanır. Bütövlükdə götürüləndə Ə.Əlizadənin bu əsəri XX əsrdə Azərbaycanda psixologiyanın inkişafına və eləcə də xalq maarifinə xidmət işinə dəyərli töhfədir. Nəhz buna görədir ki, əsər vaxtında respublikamızın adlı-sanlı alim və psixoloqlarından olan Ə.K.Zəkuyev, F.Ə.İbrahimbəyov, M.C.Məhərrəmov, M.S.Nəcəfov, D.U.Uznadze adına Gürcüstan Psixologiya İnstitunun direktoru, professor A.S.Pranqişvili, V.Q.Norakidze və başqaları tərəfindən yüksək qiymətləndirilmişdir. Dissertasiyanın rəsmi opponenti, psixologiya elmləri namizədi, dosent M.C.Məhərrəmov dissertasiya işinə və ümumiyyətlə

Ə.Ə.Əlizadənin şəxsiyyətinə yüksək qiymət vermişdir. O, yazır ki, "Təxəyyülün inkişafına məktəblilərin bir şəxsiyyət kimi tərbiyələndirilib yetişdirilməsi ilə birlik halında nail olmaq böyük əhəmiyyətə malik bir vəzifədir. Bu vəzifəni yerinə yetirmək üçün də inkişafın qanunauyğunluqlarıni öyrənmək, ona düzgün istiqamət vermə yollarını axtarıb tapmaq lazımdır. Ə.Ə.Əlizadə öz qarşısına məhz həyatımızın bu zəruri tələbatından doğan belə ber məqsəd qoyub tədqiqata girmişdir. Psixologiyada təxəyyül problemi nisbətən az tədqiq edilmişdir. Azərbaycan psixologiyasında isə bu yer tamamilə boş idi. Ə.Ə.Əlizadə bu sahədə ilk müvəffəqiyyətli addım atmış, tədqiqatının gedişi və nəticələrini əks etdirən orijinal bir əsər yaratmışdır".

Ə.Ə.Əlizadə bu sahədə elmi axtarışlarını davam etdirərək "Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyəsi", (Bakı, 1965), "Şagirdlərdə yaradıcı fəaliyyətin psixologiyası" (Bakı, 1968) adlı kitabların, "Yaradıcılığın bəzi psixoloji məsələləri" (Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, "Azərbaycan" j., 1958, №3), "V-VI sinif şagirdlərində təxəyyülün tərbiyəsi məsələsinə dair" ("Azərbaycan məktəbi" j., 1959, №7), "Rəsm tədrisinin bəza psixoloji məsələləri haqqında" ("Politexnik təlim j., 1958, №4), "V sinif şagirdlərində təxəyyülün tərbiyəsi məsələsinə dair" (" Azərbaycan məktəbi" j., 1959, №7), "Orta məktəbdə şagirdlərə şeir əzbərlətmək yolları haqqında" ("Azərbaycan məktəbi" j., 1958, №9), "Şagirdlərin təxəyyül fəaliyyətində analiz və sintez bacarığının inkişaf xüsusiyyətləri haqqında", "Şagirdlərin konstruktiv fəaliyyətində yaradıcı təxəyyül tərbiyə etməyin bəza xüsusiyyətləri", "Şagirdlərin yaradıcı təxəyyülünün inkişafında

vərdişlərin rolu məsələsinə dair”, “IV sinif şagirdlərinin fəaliyyətində təxəyyülün təfəkkürlə qarşılıqlı əlaqəsinə dair”, “Şagirdlərdə öz yaradıcı fəaliyyətinə tənqidi münasibətlərin xüsusiyyətləri”, “ I sinif şagirdlərində bərpaedici təxəyyülün xüsusiyyətləri” və başqa əsərlərini yazmışdır. “Şagirdlərdə təxəyyülün və inkişaf və tərbiyəsi” adlı üç fəsildən ibarətdir. Birinci fəsil təxəyyülün mühiyyəti, onun fizioloji əsasları və ümumi qanunauyğunluqlarının təhlilinə həsr edilmişdir. Təxəyyülün mahiyyətini aydınlaşdırmaq üçün müəllif, hər şeydən əvvəl, onun gerçəkliklə əlaqəsini şərh edir. O göstərir ki, təxəyyül surətləri nə qədər əfsanəvi olursa-olsun, onların əsasını maddi aləmdə mövcud olan cisim və hadisələr təşkil edir. Lakin, hər bir təxəyyül surəti, maddi gerçəklik əsasinda təşəkkül tapsa da, o insanın keçmişdə qavradığı cisim və hadisələrin sadəcə olaraq xatırlanması yolu ilə yaranmır. Bədii, elmi və ya texniki fəaliyyətinin özünəməxsus vəzifə və xüsusiyyətləri olduğu üçün alimin, yazıçının, şagirdlərin yeni təxəyyül surətlər yaratmaq üsulu bir-birindən fərqlənir. Lakin buna baxmayaraq fəaliyyət sahələrində təxəyyül surəti yaratmaq mexanizmi eynidir. Kitabda məhz bu baxımdan, təxəyyülün üsul və tərzləri haqqında geniş məlumat verilməsi də təqdirəlayiqdir. Kitabda maraqlı bölmələrdən biri də, şagirdlərin bərpaedici təxəyyül, fəaliyyət sahələrində onun oynadığı mühüm rolun inandırıcı misallarla ətraflı aydınlaşdırılmasıdır. Bu isə həm tərbiyəçi, həm də müəllim işi üçün praktik əhəmiyyətə malikdir. Bərpaedici təxəyyül surətlərinin yaradılmasında, fərqlər də özünü göstərir. Bu fərqləri nəzərə almadan müəllimin şagirdlərə bərpaedici təxəyyülün tərbiyəsi sahəsində apardığı iş istənilən nəticəni

vermez. Kitabda bu məsələlər də xüsusi diqqət mərkəzində olmuşdur. Müəllif şagirdlərdə bərpaedici təxəyyül tərzlərinin təşəkkülünə də xüsusi diqqet yetirmişdir. Üçüncü fəsildə yaradıcı təxəyyülün məzmunu açılır. Müəllif uzun illər apardığı tədqiqat işlərinin nəticələrinə əsaslanaraq, şagirdlərdə yaradıcı təxəyyülün əsas inkişaf xüsusiyyətlərini hərtərəfli təhlil etmişdir.

Yaradıcı təxəyyül fəaliyyətində təhlili və tərkib prosesləri mühüm rol oynayır. Hər hansı bir yeni surətin yaradılması qavrayiş materiallarının təhlil və tərkib edilməsi yolu ilə baş verir. Buna görə də Ə.Ə.Əlizadə tərəfindən yaradıcılıq prosesində təhlil və tərkib əməliyyatlarının qanunauyğunluqlarının öyrənilməsi şagirdlərdə yaradıcı təxəyyülü inkişaf və tərbiyə etmək nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir. Məlum olduğu kimi,yaradıcı təxəyyül yaradıcı fəaliyyətin mühüm tərkib hissələrindən biridir. Məsələyə bu cəhətdən yanaşan müəllif, təxəyyüllə yaradıcı fəaliyyət arasında olan əlaqəni düzgün və inandırıcı  şəkildə şərh etmişdir. Kitabda C.Məmmədquluzadə, Ə.Haqverdiyev, C.Cabbarlı, M.S.Ordubadi, S.Vurğun, S.Rəhimov və başqa görkəmli Azərbaycan yazıçılarına aid verilmiş nümunələr təxəyyülün bədii yaradıcılıqda rolu haqqında aydın təsəvvür yaradır.

Kitabda şagirdlərin yaradıcı təxəyyül fəaliyətinə tənqidi münasibətin xüsusiyyətləri haqqında verilmiş material da maraqlıdır. Məllif haqlı olaraq götərir ki, yaradılmış təxəyyül surətlərinin necə təkmilləşdirilməsi, şagirdin öz səhvini hansı meyara görə qiymətləndirməsindən asılıdır. Müəllifin apardığı tədqiqat göstərir ki, şagirdlər

şəkildəki səhvləri, kompozisiya, həqiqətəuyğunluq, estetik və zahiri oxşarlıq cəhətindən qiymətləndirirlər.

Ə.Ə.Əlizadə təxəyyül promlemi sahəsində apardığı eksperimental tədqiqatları ilə respublikamızda xalq təhsilinin inkişafına xeyli kömək etmişdir. Onun yuxarıda adlarını çəkdiyimiz əsəsləri bu gün də müəllimlərimizə metodiki vəsait kimi kömək edir.

Ə.Ə.Əlizadənin tədqiqatları həmişə pedaqoji ictimaiyyətin diqqət mərkəzində olmuşdur. “Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyə edilməsi”adlı kitabı haqqında da həmin dövrdə mətbuatda xeyli rəylər getmişdir. Psixologiya elmləri doktoru, professor M.Ə.Həmzəyevin “Təxəyyül haqqında yeni əsər” (“Azərbaycan məktəbi“ j., 1966, N5) adlı məqaləsində əsərə böyük qiymət verərək yazır: “Təxəyyül şagirdlərin təlim fəaliyyətində mühum rol oynayır”. Şagirdləri həyata və yaradıcı əməyə hazırlamaq üçün onlarda başqa keyfiyyətlərlə yanaşı təxəyyülü də inkişaf etdirmək lazımdır.Ə.Ə.Əlizadənin “Şagirdlərdə təxəyyül inkişafı və tərbiyə edilməsi” adlı kitabında bu məsələlər geniş tədqiqat materialları əsasında ətraflı şərh olunur.

Psixologiya sahəsində belə bir əsərlərin nəşrini geniş oxucu kütləsi həmişə böyük rəğbətlə qarşılayır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, respublikamızda təlimin psixoloji problemlərinin öyrənilməsi işində Ə.Ə.Əlizadənin fəaliyyətini təkcə təxəyyül prosesinin tədqiqi ilə məhdudlaşdırmaq olmaz. “Müasir təlim metodlarının psixoloji məsələləri haqqinda”, (“Azərbaycan məktəbi” jurnalı, 1978, №3),”Psixodiaqnostika və məktəb təcrübəsi” (”Azərbaycan məktəbi”) jurnalı, 1986, №12) və başqa məqalələri buna misal göstərmək olar. Ə.Ə.Əlizadə

bütün şüurlu fəaliyyətini Azərbaycanda xalq maarifinin inkişafına həsr edib. O, müntəzəm olaraq respublikamızın dövrü mətbuatında, televiziya və radio verilişlərində, həmin problemə aid maraqlı çıxışlar etmiş və ictimaiyyət dərin hörmətini qazanmışdır.

Ə.Ə.Əlizadə XX əsrin 60-cı illərindən başlayaraq psixoseksual inkişafın sosial-psixoloji nəzəriyyəsi sahəsində tədqiqatlar apararaq Azərbaycan psixologiya tarixində yeni bir məktəbin əsasını qoydu. "Yoldaşlıq və dostluq tərbiyəsi" (Bakı, 1964), "Ailədə uşaqların cinsi tərbiyəsi" (Bakı, 1968), "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi"(Bakı, 1986) adlı kitabları və yüzlərlə məqaləlləri, "Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri" (1975) adlı doktorluq dissertasiyası bu sahədə alimə böyük şöhrət gətirdi.

"Yoldaşlıq və dostluq tərbiyəsi" adlı əsərində yeniyetmələrdə dostluq və yoldaşlıq hisslərinin inkişafı və bu əxlaqi keyfiyyətlərin tərbiyə olunması yolları həyati misallarla şərh olunur, "Ailədə uşaqların cinsi tərbiyəsi ", "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi" adlı əsərlər isə, sanki bir-birini tamamlayır. Birinci əsərdə Azərbaycan psixologiyasında ilk dəfə olaraq cinsi tərbiyə, fəlsəfi, tibbi, pedaqoji və psixoloji istiqamətdə təhlil olunur. Müəllif əsərdə ən çox psixoloji istiqamətə fikir verərək gösterir ki, cinsi tərbiyə nəinki yeniyetmələrdə əməyə, ictimai fəaliyyətə, həm də onları bir şəxsiyyət kimi həyata hazırlayır. Cinsi tərbiyəyə təsir göstərən ailə mühiti, məktəb, onları əhatə edən digər münasibətlər sistemi də psixoloji ustalıqla təhlil edilir. Müəllif sanki valideynlərlə, müəlimlərlə üzbəüz oturub,onlarla söhbət edir,övladlarını yaxşı tərbiyə etmək üçün onlara məsləhət verir. Bəzi adət ənənələrin

mənfi təsiri misallarla göztərilir. Kitabda həmçinin yeniyetməlik və misallarla göstərilir. Kitabda həmçinin yeniyetməlik və ilk gənclik yaşlarında məhəbbət hissinin yaranması, onun təzahür xüsusiyyətləri və inkişafı şərh olunur.

Ə.Ə.Əlizadə cinsi tərbiyə haqqında tədqiqlərini davam tedirərək, elmi-nöqteyi nəzərdən daha sanballı əsər olan "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi" adlı kitabda vermişdir. Kitabda şəxsiyyət psixologiyası və cinsi tərbiyə məsələləri, oğlanlarla qızların qarşılıqlı münasibətlərinin mənşəyi, yaşıllıq hissi və meylinin formalaşması, cinsi identifikasiyanın xüsusiyyətləri, cinsi mənlik şüuru və həya hissi, maraqlar, yeniyetmələrdə cinsi psixoloji və mənəvi yetkinlik, onların özləri haqqında təsəvvürlərin formalaşması; əxlaqi şüurun tərbiyəsi və bu yaşda dostluq və məhəbbət hissləri,cinsi tərbiyə sahəsində səhvlərin psixoloji təhlili və aradan qaldırılması yolları, valideynlərin, müəllimlərin oğlan və qızların dostluğuna münasibətləri, maraqlı, həyati faktlar əsasında təhlil edilir. Ə.Ə.Əlizadə bu sahəyə aid xeyli ədəbiyyat araşdırmış və onları yeniyetmələrin psixoloji xüsusiyyətləri haqqında Azərbaycanın milli-əxlaqi normaları ilə əlaqələndirib təhlil etmişdir. Kitabın maraqlı cəhətlərindən biri də problemin ardıcıl, dinamik şəkildə izah edilməsidir. Şagirdlərin məhəbbət və dostluğu baxışlarının təkamülü. Onların bir-birini qavramalarının xüsusiyyətləri, şagirdlərin yüksək qiymətləndirdikləri keyfiyyətlər, valideynlərin və müəllimlərin, oğlan və qızların dostluğuna münasibəti və digər məsələlər əsərdə ətraflı təhlil edilmişdir. Orta məktəb müəllimləri, tərbiyəçi və valideynlər üçün nəzərdə tutulmuş bu kitab Azərbaycan şagirdlərin məhəbbət və dost-

luğu baxışlarının təkəmülü, onların bir-birini qavramalarının xüsusiyyətləri, şagirdlərin yüksək qiymətləndirdikləri keyfiyyətlər, valideynlərin və müəllimlərin, oğlan və qızların dostluğuna münasibəti və digər məsələlər əsərdə ətraflı təhlil edilmişdir. Oorta məktəb müəllimləri, tərbiyəçi və valideynlər üçün nəzərdə tutulmuş bu kitab Azərbaycan psixologiyasında, tərbiyə probleminə həsr edilmiş hələlik yeganə tədqiqat xarakterli əsərdir.

Ə.Ə.Əlizadə XX əsr Azərbaycan psixologiyası tarixində bədii yaradıcılığın psixoloji problemləri ilə də məşğul olmuşdur. "Şagirdlərdə yaradıcı fəaliyyətin psixologiyası" (Bakı, 1968) adlı əsərdə isə Ə.Ə.Əlizadə şagierdlərin yaradıcı fəaliyətinin ümumi qanunauyğunluqlarını izah etməklə yanaşı, gənclərdə bədii yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsinin zəruriliyini qed edir. Kitab iki hissədən ibarətdir. Birinci hissədə, yaradıcılıq fəaliyyəti haqqında qısa və aydın məlumar verilir. Yaradıcı fəaliyyət sözün əsl mənasında, ictimai əhəmiyyətə malik yeni orijinal məhsul verən fəaliyyətə deyilir. Məlumdur ki, yaşlıların yaradıcı fəaliyyəti ilə məktəblinin yaradıcı fəaliyyəti fərqlənir. Məktəblinin yaradıcılığı əsasən ədəbi-bədii, elmi-texniki fəaliyyətin müxtəlif sahələrini əhatə edir. Müəllif yaradıcı fəaliyyətin əsas tərkib hissələrini izah edir.

Şagirdlərdə yaradıcı fəaliyyətin, hər hansı bir sahəsini imkişaf etdirmək istəyən hər bir müəllim, fəaliyyətinin bu tərkib hissələrini nəzərə almasa, şagirdlərin yaradıcı fəaliyyətinin gedişinə istiqamət verə bilməz. Kitabda qabiliyyətlər, maraq və meyllər, təsəvvür və biliklər, yaradıcılıq prosesində özünü göstərən psixi halətlər haqqında, ətraflı izahat verilir. Müəllif yaradıcı fəaliyyətin inkişafında

qabiliyyətin həlledici rolunu elmi faktlarla sübut edir. O, belə nəticəyə gəlir ki, şagirdlərdə yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi məktəbdə aparılan təlim-tərbiyə işinin tərkib hissəsi olmalıdır. Yaradıcı fəaliyyətin başqa tərkib hissələri haqqında da məlumat verilir və bunların həmçinin fəaliyyətin inkişafında rolu aydınlaşdırılır.

Ə.Əlizadə yaradıcı fəaliyyətin hazırlıq, yeni surətlərin fikrən formalaşması, yeni surətlərin bilavasitə yaradılması və dəqiqləşdirilməsi kimi üç mərhələsi olduğunu göstərir.

Şagirdlərin yaradıcı fəaliyyətinin təzahür xüsusiyyətlərini, inkişaf yollarını göstərir.

Ikinci hissədə, şagirdlərin bədii, təsviri, texniki, konstruktiv fəaliyyətinin psixoloji məsələləri və bu fəaliyyətin inkişaf yolları göstərilir.

Ə.Əlizadə yaradıcı fəaliyyətin mərhələlərini izah edərək göstərir ki, yaradıcılığın birinci mərhələsində, meydana çıxan ən mühüm məsələlərdən biri yaradıcılıq məqsədinin təşəkkülü və onun konkretləşdirilməsidir. II mərhələ şagirdin yaradıcılıq məqsədini necə həyata keçirəcəyi, onun texniki təfəkkür, fəza təxəyyülü və təsəvvürlərin inkişaf səviyyəsindən asılılığıdır. Üçüncü mərhələdə, şagird öz texniki ideyasını həyata keçirərkən, hazırlanan konstruksiyasının bir çox detallarını, bəzən onun özünü əsaslı surətdə dəqiqləşdirilməli olur.

Ə.Əlizadə şəxsiyyətlərarası münasibətlərə aid, fikir və mülahizələrini, bu sahədə apardığı eksperimental təcrübələrini ümumiləşdirərək, 1975-ci ildə müdafiə etdiyi "Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin formasının psixoloji problemləri" adlı doktorluq dissertasiyasında vermişdir. Dissertasiya VI fəsil və biblioqrafiyadan ibarət

olub, 418 makina səhifəsi həcmindədir. Birinci fəsildə tədqiqatın metodikası, əsas vəzifələri şərh olunmuşdur.

Müəllif giriş hissədə şəxsiyyətlərarası münasibətlər problemini dünya psixologiyasının son nailiyyətləri və özünün tədqiqatları əsasında təhlil edir.O, cinslərarası münasibətlərin aktuallığından bəhs edərək yazır: "Cins şəxsiyyətin antropoloji xarakterikasına aid olub. əsasən ictimai-demokratik amillərədn biridir" (səh. 16). İnsan münasibətləri kimi, cinslərarası münasibətlər də ictimai-tarixi apsetdə təhlil olunur. Həmin münasibətlərin təşəkkülü, inkişafı və formalaşmasında etnopsixoloji amillərin, ailənin, mühitin rolu ətraflı göstərilir. Burada cinslərarası münasibətlərin iki tərəfi-kişi ilə qadının bir-birinə münasibəti, cəmiyyət və kollektiv səviyyəsində vətəndaşın münasibəti, diqqət mərkəzində durur. Onun fikrincə, hər iki tərəf cinslərarası münasibətləri psixoloji baxımdan səciyyələndirmək üçün əsas verir. "Şəxsiyyət münasibət obyekti kimi götürüldükdə, belə bir meyar rolunu oynaya bilər". Ə.Əlizadə bu problemin təhlili prosesində insana şəxsiyyət baxımından yanaşır. O, bu qənaətə gəlir ki, cinslərarası münasibətləri psixoloji baxımdan təhlil etmək üçün, onları "Şəxsiyyət vasitəsilə və şəxsiyyətin təzahürü kimi aydınlaşdırmaq zəruridir" (səh. 21).

Dissetasiyanın birinci fəslində həmçinin tədqiqatın məqsədi, vəzifələri, metodikası verilir. Dissertasiya işi ilə tanışlıq göstərir ki, müəllif oğlan və qızlar arasında spesifik münasibətlərin formalaşması şəraitin mahiyyətini, bu münasibətlərin strukturası və tiplərinin əsas xüsusiyyətlərini və s. məsələləri öyrənməyi qarşısına məqsəd qoymuş və ədalət naminə demək lazımdır ki, o, məqsədinə tamamilə nail olmuşdur.

“Oğlanlarla qızlar arasında qarşılıqlı münasibətlərin formalaşması şəraitinin təhlili” adlı məsələ dissertasiyasının ikinci fəslini əhatə edir.

Müəllif oğlanlarla qızların qarşılıqlı münasibətinin mənşəi məsələlərinə toxunur. O, psixoloji tədqiqatlarla özünün eksperimentlərinə əsaslanaraq məktəbəqədər və kiçik məktəb yaşlı dövründə oğlanlarla qızların arasında qarşılıqlı münasibətlərin formalaşması xüsusiyyətlərini açıqlayır.

Dissertasiyada həmçinin cinslərarası münasibətlər, həmin münasibətlərin müxtəlif yaş dövrlərində təzahür xüsusiyyətləri, valideyn və müəllimlərin bu sahədə mövqeləri, sosial-cinsi status, dostluq və məhəbbət hissi və başqa məsələlər haqqında geniş məlumat verilir.

Tədqiqatda müəyyən olunur ki, məktəbəqədər yaş dövründə öğlanlarla qızların qarşılıqlı münasibətləri zahirən oğlanın oğlan, qızın qızla qarşılıqlı münasibətlərindən fərqlənmir. Lakin, əsasən sosiametrik üsulla aparılan tədqiqatlar göstərir ki, bütün yaş qruplarında oğlanlarla qızların ünsiyyətində özünəməxsus cəhətlər də mövcuddur (səh. 64). Kiçik məktəb yaşı dövründə münasibətlər sabit deyil, ayrı-ayrı hallar nəzərə alınmazsa görüş təyin etmək onlar üçün səciyyəvi deyil, bu münasibətlər əsasən bir-birinə göstərməkdə, birgə oynamaqla ifadə olunur. Onların qarşılıqlı münasibəti cinsi xarakter daşımır (səh. 71).

Aydın məsələdir ki, yeniyetməlik yaşı dövründə oğlan və qızların münasibətində yeni psixoloji çalarlar özünü göstərir. Əxlaqi və mənlik şüurunun formalaşması, özünü yaşlı adam kimi aparmaq, hissi ünsiyyət tələbatı, əks cinsə marağın artmasə və s. məsələlər həmin yaş dövrü üçün səciyyəvidir.

Ə.Əlizadə dissertasiyada məhz bu münasibətlərin yaranmasının psixofizioloji mexanizmlərini təhlil edir, müəllim və tərbiyəçilərin diqqətini həmin psixoloji çalarlarla yönəldir.

Dissertasiyanın üçüncü fəslində cinsi fərqlənmə fenomeni haqqında məlumat verilir.

Cinsi fərqlənmənin müxtəlif yaş dövrlərində təzahür xüsusiyyətləri göstərilir. Aparılan tədqiqatların nəticələrinə görə cinsi fərqlənmə iki mərhələni (məktəbəqədər, kiçik məktəb və yeniyetməlik dövrləri birinci mərhələni, sonrakı yaş dövrləri ikinci mərhələni) təşkil edir. Cinsi fərqlərin birinci mərhələsində oğlanlar ikinci mərhələsində qızlar fəal olurlar. Bu məsələlər tədqiqatın ana xəttini təşkil edir. Müəllif Azərbaycan psixologiya məktəbi tarixində ilk dəfə olaraq, problemə ətraflı yanaşır, oğlan və qızların maraqlarında cinsi fərqlərin çox vaxt müəllim və valideynlər cinsi qarşılıqlı münasibətlərin yaranmasına, həmin prosesin gedişinə laqeyd olur. Nəticədə uşaqların tərbiyəsində qarşısıalınmaz mənfi keyfiyyətlər yaranır. Bunu nəzərə alaraq Ə.Əlizadə əsərdə cinsi qarşılıqlı münasibətlərin qavranılmasını, təşəkkülünü və təkamülünü inandırıcı faktlarla izah edir. Müəllim və valideynlərin mövqeyini göstərir. Dissertasiyanın beşinci fəslində oğlanlarla qızlar arasında şəxsi qarşılıqlı münasibətlərin strukturası və tipləri haqqında məlumat verilir. Psixologiyada hər bir oğlan və qız üçün real surətdə şəxsi qarşılıqlı münasibətlərin iki – oğlanlarla oğlanların və ya qızlarla qızların şəxsi qarşılıqlı münasibətləri, qızlarla oğlanların şəxsi qarşılıqlı münasibətləri- strukturası haqqında danışılır. Müəllif haqlı olaraq bu iki strukturanı vəhdət

halında görür və əsasən ikinci strukturun təhlilinədaha geniş yer verir.

Oğlan və qızların arasında şəxsi qarşılıqlı münasibətlərin təşəkkülü xüsusiyyətlərin formalaşmasında cinsi fərqlərin xüsusiyyətləri də əsərdə izah olunur. Ə.Əlizadə tədqiqatlarına istinad edərək yazır ki, "...V sinifdə şəxsi qarşılıqlı münasibətlərin formalaşması müəyyən bir qız və ya qız qrupunun fəal rol oynaması ilə bağlıdır. Bu cəhətdən VI sinifdə mühüm dəyişikliklər medana çıxır. Tədqiq etdiyimiz VI sinifdə təcrid olunmuş oğlan yoxdur, oğlanların 3 nəfəri isə çox səs almışdır. VII sinifdə oğlanlarla qızlar arasında şəxsi qarşılıqlı münasibətlərin təşəkkülündə onların hər ikisi eyni dərəcədə mühüm rol oynayır. VIII sinifdə şəxsi qarşılıqlı münasibətlərin təşəkkülündə oğlanlar daha çox fəal rol oynamağa başlayarlar. Bu eyni zamanda IV sinifdə də özünü göstərir".

Yuxarı siniflərdə, xüsusi ilə X sinifdə bir sıra hallarda qızların özləri oğlanları rədd etmək mövqeyində dayanır, şüurli surətdə oğlanlarla özləri arasında nəinki psixoloji, həm də coğrafi məsafə yaradırlar (səh. 205-209).

Müasir psixologiyada qruplarda qarşılıqlı münasibətlərin struktuurası üç meyar (emotiv, kommunikativ, funksional) baxımdan təhlil olunur. Dissertasiyada ən çox həmin münasibətlərin emotivlik tərəfinə diqqət yetirilir. Müəllif bu sahədə, aparılmış tədqiqatlara müraciət edir, onları ümumiləşdirərək qarşılıqlı münasibətlərin tipini ( simpatiya, laqeydlik, antipatiya) ayırd edir və bu tiplərin hər birinin psixoloji xarakteristikasını verir.

Müəllif eyni zamanda qrupda oğlanlarla qızların şəxsi qarşılıqlı münasibətlərinin üç tipini də (müsbət emosional, mənfi emosional, neytral) müəyyənləşdirmişdir.

Ə.Əlizadə çoxlu psixoloji faktlara istinad edərək, V-X siniflərdə oğlanlarla qızlar arasında qarşılıqlı münasibətlərin motivlərini göstərir. Burada siniflər üzrə bir dinamiklik özünü göstərir. Oğlanların qızlara, qızların oğlanlara verdikləri qiymət siniflər üzrə müxtəlif xarakter daşıyır. Əsərdə həmçinin müsbət və mənfi tipli münasibətlər də ətraflı verilir. Şəxsi qarşılıqlı münasibətlərdə cinsi meylin böyük rolu var. “Dissertasiyada bu problem də psixoloji ustalıqla şərh edilir. Orada qeyd olunur ki, cinsi meyl anadangəlmə olub, cinsi yetişmə dövründə meydana çıxır və cinsi münasibətlərində onun təbii cəhəti kimi özünü göstərir, təzahür edir” (səh. 249). Əsərin məziyyətlərindən biri də, məktəblilərdə erkən vaxtından əvvəl cinsi meylin formalaşmasının səbəblərini cinsi gigiyena qaydalarının nəzərə çarpdırılması, cinslərarası münasibətlər haqqında təhrif olunmuş informasiyaya malik olmaları, cinsi marağın formalaşması, urbolizasiya və sosial cinsi nəzarətin zəifliyi (səh. 253-261) elmi-praktiki səpgidə təhlil olunmasıdır. V fəsil şəxsiyyətin elektiv funksiyası və şəxsi qarşılıqlı münasibətlərin təşəkkülü formalaşması təhlil edilir.

VI fəsildə, yeniyetmə və gənclik yaşı dövrlərində, şagirdlərdə dostluq, yoldaşlıq, rəğbət və məhəbbət hisslərinin inkişaf səviyyələri haqqında geniş məlumat verilir. Rəğbət hissi oğlan və ya qızlarda əks cinsin nümayəndəsinə yaranan seçici emosional münasibətlərin özünəməxsus ifadəsidir. Onu da qeyd etmək lazımdır ki, rəğbət hissi emosionalqiymətə əsaslanır. Sabit hiss deyil. Əsərdə məktəblilər arasında yaranan belə hissi-emosional halların yaranması xüsusiyyətləri ilə əraflı təhlil olunur. Dostluq-

məhəbbət hissinin özünəməxsus boyaları, inkişaf şərtləri, həmin hisslərin fərqli xüsusiyyətləri şərh olunur.

Əsərdə oğlan və qızların maraqlarında, cinsi fərqlərin təşəkkülü, onların özünü dərk etməsi, qiymətləndirməsi, etnopsixoloji amillərin yeri, ümumiyyətlə, cinsi dəyişiklik və şəxsi qarşiliqli münasibətlərin psixoloji problemlərinin öyrənilməsinin tərbiyəvi əhəmeyyəti elmi faktorlarla şərh olunur. Əsəri oxuyarkən, müəllim zəhməti və bu zəhmət hesabına əldə olunmuş nəticələr bir daha oxucuda tədqiqata rəğbət hissi oyadır.

Ə.Əlizadənin bu dissertasiyası və bu problemlə bağlı əsərləri, məqalə və tezisləri, məruzələri XX əsr Azərbaycan psixologiyasına yeni bir töhfədir.

XX əsrdə Azərbaycanda milli psixoloji kadrların hazırlanmasında da professor Ə.Əlizadənin böyük xidmətləri olmuşdur. O, respublikamızda psixologiya-pedaqogika ixtisasları üzrə müdafiə olunmuş, namizədlik və doktorluq dissertasiyalarına rəy yazmış, opponent kimi çıxış etmişdir.

Ə.Əlizadə on beş nəfərə yaxın psixologiya elmləri namizədi (Ə.Baxşəliyev, Z.Ə.Əliyev, Ş.Şabanov, B.İ.Rzayev, Q.Məmmədov və başqaları) yetişdirmişdir, beş nəfər elmlər doktoruna (Ə.Ə.Qədirov, S.İ.Seyidov, Ə.T.Baxşəliyev, H.Ə.Əlizadə) bilavasitə yaxından kömək etmişdir. Hal-hazırda onun rəhbərliyi ilə xeyli aspirant, dissertant, elmi-tədqiqat işləri aparırlar.

Ə.Ə.Əlizadə eyni zamanda M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetində fəaliyyət göstərən psixologiya ixtisası üzrə müdafiə şurasının üzvüdür.

Psixologiya üzrə dərslik və dərs vəsaitinin hazırlanması işində Ə.Əlizadənin əməyi çox olmuşdur. “Psixo-

logiya" (1964), "Yaş və pedaqoji psixologiya məsələləri" (1974), "Yaş və pedaqoji psixologiya" (II hissə, 1977), "Məhkəmə psixologiyası" (1975), "Ümumi psixologiya" (1981), "Sosial psixologiya" (1976), "Sosial psixologiyanın aktual məsələləri" (1986), "Məhkəmə psixologiyası məsələləri" (1985), "Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsələləri" (1987), "Psixologiya" (1989), "Ailə" (1989), "Ailə həyatının etikası və psixologiyası üzrə müntəxəbat" (1989), "Məktəblinin psixologiyası" adlı dərslik və dərs vəsaitlərinin nəşrində Ə.Ə.Əlizadə əsas müəlliflərdən biri kimi iştirak etmişdir.

Ə.Ə.Əlizadə XX əsrin ikinci yarısından başlayaraq Azərbaycan psixoloqlarının xarici ölkə psixoloqları ilə yaradıcılıq əlaqələrin də var qüvvəsi ilə kömək etmişdir. O, keçmiş SSRİ psixoloqlarının qurultaylarında, (II-Moskva, 1963; III-Kiyev, 1968; IV-Tbilisi, 1971; V-Moskva, 1977; VI-Moskva, 1983) simpoziumlarda, beynəlxalq konqreslərində iştirak etmiş və maraqlı məruzələr etmişdir.

Ə.Ə.Əlizadə həmçinin Zaqafqaziya psixoloqlarının ənənvi konfranslarının da (I-Tbilisi, 1959; II-Yerevan, 1960; IV-Tbilisi, 1965; V-Yerevan,1970; VI-Bakı, 1974; VII-Tbilisi. 1977;  IX-Bakı, 1983) fəal iştirakçısı olmuşdur.

Ə.Ə.Əlizadənin tədqiqatlarına həmişə xarici ölkə psixoloqların həssaslıqla yanaşmış və ona bir elmi mənbə kimi müraciət etmişlər.

1975-ci ildən Moskvada akademik A.A.Smirnovun "SSRİ-də psixologiya elminin inkişafı və müasir vəziyyəti" adlı kitabı nəşr olundu. Bu əsərdə Azərbaycan

psixoloqları, o cümlədən, Ə.Ə.Əlizadənin tədqiqatları qiymətləndirilir.

1979-cu ildə keçmiş Leninqradda, S.S.Kuzmina və B.E.Simyonovanın redaktorluğu altında "Sosial psixologiya" adlı monoqrafiya nəşr olunmuşdur.

Monoqrafiyada sosial psixologiyanın bir sıra metodoloji problemləri şərh olunur, fərəhli haldır ki, kollektiv daxilində şəxsiyyətlərarası münasibətlərin strukturu, həmin münasibətlərdə cinsi fərqlərin xüsusiyyətləri barədə danışılarkən, Azərbaycan psixoloqu professor Ə.Ə.Əlizadənin adı çəkilir və onun doktorluq dissertasiyasında əldə etdiyi elmi nəticələrə istinad olunur.

Sankt-Peterburq psixoloqu Kuts Valer Aleksandroviç namizədlik dissertasiyasının avtoreferatında da, Ə.Ə.Əlizadənin tədqiqlərindən faydalandığını bildirir.

Professor Ə.Ə.Əlizadə geniş elmi diapozona malik olan bir alimdir. O, iyirmiyə yaxın psixologiya dərsliklərinin, otuzdan artıq tədris vəsaitlərinin, proqramlarının, beş yüzə qədər elmi-metodiki məqalələrin, tezis və məruzələrin müəllifidir. O, on beş nəfərdən çox elmlər namizədi, altı nəfər psixologiya elmləri doktoru yetişdirmişdir.

Ə.Ə.Əlizadə çox təvəzökar və mənəviyyatdca pak bir insandır. Onun keçdiyi yolu, elmi-psixoloji fəaliyyəti gələcək nəsl üçün bir örnəkdir.

Ə.Əlizadə XX əsrin 60-cı illərindən başlayaraq psixoseksual inkişafın sosial-psixoloji nəzəriyyəsi sahəsində tədqiqatlar apararaq Azərbaycan psixologiya tarixində yeni bir məktəbin əsasını qoymuşdur "Yoldaşlıq və dostluq tərbiyəsi" (Bakı, 1964), "Ailədə uşaqların cinsi tərbiyəsi" (1968), "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi" (1986) adlı kitabları və yüzlərlə məqalələri, "Cinsi

diformizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri" (1975) adlı doktorluq dissertasiyası bu sahədə alimə böyük şöhrət gətirmişdir.

## M.Ə.HƏMZƏYEV

**XX**əsrdə Azərbaycan psixologiya elminin inkişaf edib formalaşmasında, elmi-tədqiqat işlərinin yazılmasında, milli psixoloji kadrların hazırlanmasında M.Ə.Həmzəyevin özünemexsus yeri vardır.

M.Ə.Həmzəyev 1929-cu ildə Laçın rayonunun Əhmədli kəndində anadan olmuş, orta təhsilini başa vurduqdan sonra Bakiya gəlmiü 1948-1952-ci illərdə indi N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitinin filologiya fakültəsinin məntiq-psixologiya şöbəsini fərqlənmə diplomu ilə bitirmişdir.

M.Ə.Həmzəyev tələbə olarkən ona ders seyən müəllimlərin (M.Ə.Həmzəyev, M.Mustafayeva və başqaları) dərin hörmətini qazanmış, ozünü bacarıqlı, işgüzar tədqiqatçı kimi göstərmişdir.

Psixologiya elminə hədsiz həvəsini görən müəllimləri onu psixologiya ixtisası üzrə aspiranturaya layiq bilmişlər.

M.Ə.Həmzəyev əməkdar elm xadimi, professor Ə.K.Zəkuyevin rəhbərliyi ilə respublikamız üçün spesifik və faydalı olan Azərbaycan dilinin mənimsənilməsinin psixoloji problemlərini öyrənməyə başlamış və bu sahədə tədqiqatlar aparmışdır.

M.Ə.Həmzəyev yorulmaq bilmədən öz üzərində işləyən alimdir. Bunun nəticəsidir ki, elə aspiranturanı

bitirən ildə, yəni 1955-ci ildə "İbtidai-məktəbin II sinif şagirdlərində samitlər üzrə düzgün yazı verdişlərinin təşəkkül etməsi və inkişafının psixoloji xüsusiyyətləri" adlı namizədlik dissertasiyasını müdafiə edərək alimlik dərəcəsi almışdır. O, bir müddət Bakının 208 N-li orta məktəbində işləmiş, 1960-cı ildə isə Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda baş elmi işçi kimi fəaliyyətə baçlamıdır.

M.Ə.Həmzəyev 1961-ci ildə həmin istitutun pedaqogika-psixologiya şöbəsinə rəhbərlik etmişdir. Çox keçmir ki, institutda psixologiya şöbəsinə ayrıca fəaliyyət göstərir. M.Həmzəyev isə psixologiya laboratoriyasına rəhbərlik etməyə başlayır. Bu proses 1974-cü ilə qədər davam edir.

1961-1974-cü illər alimin yaradıcılığının ən məhsuldar dövrü olmuşdur. O, bu illərdə həmin psixologiya laboratoriyasının işini xeyli canlandırmış, respublikamızın adlı-sanlı psixoloqlarının (Z.Mehdizadə, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə və başqaları) oraya cəlb etmişdir.

Onu da qeyd etmək lazımdır ki, 1931-ci ildən fəaliyyət göstərən bu laborotoriya ilk elmi-psixoloji mərkəz olmuşdur. M.Abbasova, M.Mustafayeva, S.Hacıyev, F.İbrahimbəyov, Ə.K.Zəkuyev, Ə.Əlizadə, kimi görkəmli Azərbaycan pedaqoq və psixoloqları burada çalışmış və geniş elmi-tədqiqat işləri aparmışlar.

1961-1974-cü illərdə respublikamızda hazırlanmış namizədlik və doktorluq dissertasiyalarının, elmi-kütləvi əsərlərin, əksəriyyəti bu laborotoriyada müzakirə edilərək müdafiəyə nəşrə olunmuşdur.

M.Ə.Həmzəyev həmişə respublikamızın pedaqoji-psixoloji ictimaiyyətində seçilib-sayılan amillərdən olub.

O, 1974-cü ildən 1978 ilə qədər Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun pedaqogika-psixologiya kafedrasına rəhbərlik etmişdir. 1978-ci ildən bu günə qədər isə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun psixologiya kafedrasının müdiri kimi fəaliyyət göstərir.

M.Ə.Həmzəyevin yaradıcılığının ana xəttini Azərbaycan dilinin mənimsənilməsi psixologiyası problemi təşkil edir. Onun ən uğurları bu sahədə olmuşdur. O, ömrünün ən məhsuldar dövrünü bu sahəyə həsr etmiş və böyük bir məktəb yaratmışdır. Onun rəhbərliyi ilə on beş nəfərə yaxın aspirant, dissertant (Ş.Babayev, N.İbrahimxəlilova, K.Kərimov, A.Quliyev, Q.Məmmədov və başqaları) məhz həmin problem üzrə müdafiə etmoş və bu gün də öz tədqiqatlarını davam etdirirlər.

M.Ə.Həmzəyev respublikamızda bu sahənin ən mahir bilicisidir. O, bu sahədə aid ona yaxın monoqrafiya, yüzdən artiq elmi-kütləvi əsərlər, məqalələr həsr etmişdir.

Müəllif "İbtidai məktəbin IIsinif şagirdlərində samitlər üzrə düzgün yazı vərdişlərinin təşəkkül etməsi və inkişafının psixoloji xüsusiyyətləri" adlı namizədlik dissertasiyasında özünün çoxilik təcrübəsi və məktəblərdə apardığı tədqiqatlara istinad edərək belə bir nəticəyə gəlir ki, səs təhlilinin, müqayisənin, sonu cingiltili samitlərlə bitən sözlərin kökünə sait artırmaqla yaxlamanın,yzı işlərinin düzgün təhlilinin, səhvlərin xəbərdarlığının II sinif şagirdlərində samitlər üzrə düzgün yazı vərdişlərinin inkişafına təsiri böyükdür.

Dissertasiyada əldə edilmiş nəticələrdən aydın olur ki, II sinif şagirdləri samitləri mənimseyərkən, müxtəlif fərdi fərqlərə malik olurlar. Ona görə də müəllimlər onlarda bu səpgidə baş verən çətinlikləri aradan qaldimaq

istəyərkən, mütləq həmin fərdi fərqləri nəzərə almalıdılar. İkinci sinif şagirdləri, yazılışı ilə deyiliş arasında fərq olan sözlərdə daha çox səhvə yol verirlər. Xüsusilə onlar sözün kökünün sonunda cingiltili samitləri karlarla, əksinə, əvəz edirlər. Tədqiqatin məziyyətindən biri də, səhvlərin islahı yollarının göstərilməsidir. II sinifdə samitlər üzrə düzgün yazı vərdişlərinin yaranması qeydinə qalmaq istəyən müəllim, yazı zamanı sözləri ucadan, aydın və aramla demək yolu ilə nitqin hərəkət analizatorlarının fəaliyyətini gücləndirir  və bu yolla şagirdlərdə düzgün yazı vəriş-lərinin təşəkkülünə nail olur.Burada ən vacib cəhətlərdən biri də, şagirdin buraxdığı səhvi görüb qavramasıdır. Belə hallarda səhaların miqdarı azalır.

M.Ə.Həmzəyevin 1969-cu ildə müdafiə etdiyi "Azərbaycan dili orfoqrafiyası və durğu işarələrinin mənimsenilməsi psixologiyası" adlı doktorluq disser-tasiyası, həmin problemi özündə əks etdirən monoqrafik əsərləri "III-IV sinif şagirdlərinin orfoqrafiyanı mənim-sənilməsinə dair" (1961), "Yazı təliminin bəzi məsələləri" (1961), "Durğu işarələrinin mənimsəməkdə durğu və inonasiyanın rolu" ("Azərbaycan müəllimi" qəzeti, 1962, 14 yanvar), "Orfografiyanın tədrisi prosesində şagirdlərin təfəkkürünün fəallaşdırılmasına dair", ("Azərbaycan məktəbi" jurnalı, 1964, N6), "Orfografiya və durğu işarəsi səhvləri üzərində işin psixoloji əsasları haqqinda" (AETPİ, Elmi əsərləri, 1964, IV buraxılış), "Orfoqrafik qaydaları anlamaq və mənimsəməkdə durğu və intonasiyanın rolu", (AETPİ, Elmi əsərləri, 1962, III buraxılış), "X sinifdə xüsusi və ümumi isimlərin orfografiyasını mənimsəməyin psixologiyasına dair" (AETPİ, Elmi əsərləri, 1960, I buraxılış), "İbtidai məktəb şagirdlərində düzgün yazı

verdişlərinin yaradılması və inkişafı haqqında" ("Azərbaycan məktəbi" jurnalı, 1957, №9), "Orfoqrafiya təliminin psixoloji əsasları " İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1982, №6 və s. ona yeni şöhrət qazandırdı.Onun doktorluq dissertasiyası həmin dövrdə adlı-sanlı alimlərin, psixoloqların diqqətini cəlb etdi.

Moskva, Kiyev, Gürcüstan, Qazaxstan və digər şəhərlərin psixoloqları dissertasiya haqqında müsbət fikir söylədilər.

Moskvalı professor D.N.Boqoyavlenski dissertasiyanın elmi-praktik ahəmiyyətini nəzərə alaraq göndərdiyi rəydə yazırdı: "İndiyə qədər rus pedaqoji və psixoloji adabiyyatında öz əhəmiyyətinə görə belə bir əsər yazilmamışdır".

Onun resmi opponentlərindən olan L.İ.Landa (Moskva), A.S.Abdullayev, Y.M.Seyidov da əsərə yüksək qiymət vermişlər.Həm namizədlik, və həm də doktorluq dissertasiyalarında M.Həmzəyev ilk dəfə olaraq respublikamızda ana dilinin mənimsənilməsi ilə bağlı qarçıya çıxan çətinliklərin psixoloji məsələlərini öyrənmiş, müəlliçlərə bu sahədə xeyli kömək göstərmişdir.

Orfoqrafik vərdişlərə yiyələnmək, düzgün yazmağı bacarmaq,nitq ünsiyyəti üçün əsas şərtlərdən biri olduğuna görə aşağı siniflərdən başlayaraq şagirdlərin orfoqrafiyanı düzgün mənimsəmələrinə, onlarda orfoqrafik vərdişlərin yaranmasına nail olmaq lazımdır.Müəllif qeyd edir ki, yazıda orfoqrafik qayadalara riayət edilməsi ilə yanaşı, durğu işarələrindən düzgün istifadə olunması da nitqin daha yaxşı, aydın başa düşülməsinə xidmət edir. Şifahi nitqin aydın, səlis və anlaçıqlı olmasında, fəsilə, intonasiya, vurğu mühüm rol oynayır. Yazılı nitqdə də, durğu

işarələrinin bu qüdrətindən istifadə olunur. Deməli, Azərbaycan dilinin öyrənilməsində həmin dildə aydın və səlist danışmaq üçün orfografiya və durğu işarələrinin qayda-qanunlarına düzgün əməl olunmalıdır. Məktəb təcrübəsi göstərir ki, şagirdlər öz yazılarında, danışıqlarında çoxlu orfoqrafiya və durğu işarələri səhvlərinə yol verirlər.

M.Ə.Həmzəyev əsərlərində məhz bu məsələlər xüsusi diqqət yetirir,şagirdlərin qarşılaşdıqları çətinliklərin psixoloji problemlərini aydınlaşdırır.

M.Ə.Həmzəyevin əsərlərində diqqəti cəlb edən məsələlərdən biri də,mənimsəmə rosesində baş verən sehvlər və onları doğuran səbəblərin psixoloji təhlili ilə bağlıdır. Müəllif ilk dəfə olaraq Azərbaycan dilinin mənimsenilməsində generalizasiya hadisəsinin mahiyyətini geniş açmış, hətta generalizasiyanın yeni formalarını, tiplərini müəyyənləşdirmişdir (forma generalizasiyası, məna generalizasiyası və s.)

Bununla yanaşı müəllif, dildaxili interneferenfiyanın orfoqrafiya və durğu işarələrinin mənimsənilməsinə təsiri məsələlərini də yüksək elmi səviyyədə aça bilmişdir.

M.Ə.Həmzəyevin apardığı tədqiqatlar və eləcədə keçmiş ittifaq və beynəxalq miqyasında ke4irilən psixologiya məclislərindəki çıxışları, xarici ölkə alimlərinin diqqətini cəlb etmiş və həmin asərlərə istinad olunmuşdur.

"Orfoqrafiyanın mənimsənilməsi psixologiyası" (N.D.Boqayavlinski, Moskva, 1966), "İbtidai məktəbdə rus dilini öyrənməyin psixoloji problemləri", (L.İ.Aydarova, Moskva, 1978), "İbtidai məktəb şagirdlərində ana dili təlimin keyfiyyətini yüksəltməyin psixoloji əsasları" (S.F.Juykov, Moskva, 1979) adlı əsərlərdə alimin yara-

dıcılığına müraciət olunması, onun tədqiqatlarının müasirliyini bir daha təsdiq edir.

M.Ə.Həmzəyev psixologiyanın başqa problemləri üzrə də tədqiqatlar aparmış, respublikamızda xalq maarifinin inkişafına xeyli kömək etmişdir.

XX əsrdə Azərbaycanda psixologiyanın tədrisində, bu sahə üzrə dərsliklərin və dərs vəsaitlərinin yazılmasında professor M.Ə.Həmzəyevin böyük əməyi olmuşdur. O, uzun müddət Azərbaycan Dövlət Bədən Tərbiyə institutunda, indiki N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində, Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda psixologiyadan mühazirələr oxumuş və psixologiyanın sirrlərini tələbələrə öyrətmişdir.

Azərbaycan psixoloqları 1970-ci illərdən başlayaraq respublikamızın müvafiq ali məktəbləri ücün yaş və ya pedaqoji psixologiya dərsliyi yazmağa təşəbbüs göstərmiş və bu sahədə xeyli uğurlar qazanamışdır. Bu işdə M.Ə.Həmzəyev də fəal iştirak etmişdir.

"Yaş və pedaqoji psixologiya məsələləri", "Yaş və pedaoji psixologiya" adlı dərslikləri buna misal göstərmək olar. 1982-ci ildə rus dilində olan ümumi psixologiya dərsliyi Azərbaycan dilinə tərcümə olunmuşdur.

A.V.Petrovskinin redaktorluğu ilə 1977-ci ildə Moskva şəhərində nəşr olunan bu dərsliyin tərcüməsinə Ə.S.Bayramov, Ə.Ə.Əlizadə və İ.Seyidova birlikdə M.Ə.Həmzəyev də iştirak etmişdir.

XX əsrdə Azərbaycan respublikasında psixologiya üzrə dərsliklərin və dərs vəsaiylərinin yazılması sahəsində professor M.Ə.Həmzəyevin ən böyük uğuru onun 1992-ci ildə nəşr etdirdiyi “Pedaqoji psixologiya dərsliyidir”.

Dərslik müasir psixologiyanın nailiyyətləri əsasında

yazılmışdır.

Dərslikdə pedaqoji psixologiyanın mövzusu, vəzifələri, metodları şərh edilir, bu elmin qarşısında duran vəzifələr milli təhlil konsepsiyasının tələbləri baxımından konkret faktlarla izah olunur.

Pedaqoji psixologiya kursunda ən geniş öyrənilən problemlərdən biri tərbiyə psixologiyasıdır. Müəllif həyat təcrübəsinə, psixoloji ustalığına, Müstəqil Azərbaycan Respublikasının sosial-iqdisadi, ictimai-siyasi vəziyyətinə arxalanaraq uşaq yeniyetmələrdə tərbiyənin təşəkkülü və inkişafının psixoloji qanunauyğunluqlarını inandırıcı faktlarla şərh etmişdir.

Təlim psixologiyası bölməsində isə öyrənməyin psixologiyası, təlim fəaliyyəti və psixi proseslər, təlimin motivləri, altı yaşlı uşaqlarla aparılan işi səmərələşdirməyin psixoloji əsaları və digər məsələlər açıglanır. Dərslikdə həmçinin pedaqoji fəaliyyət və müəllim əsasları problemləri də ətraflı izah olunur.

Dərslikdən təkcə tələbələr deyil, müəllim və tərbiyəçilər də geniş istifadə edirlər.

XX əsrdə Azərbaycan psixologiya elminin inkişafında əsas amillərdən biri də alimlərimizin xarici ölkə psixoloqları ilə sıx əməkdaşlıq etməsi olmuşdur.

Bu sahədə də M.Ə.Həmzəyevin əməyi az olmamışdır. Azərbaycan Respublikası 1920-1990-cı illərdə keçmiş SSRİ-nin tərkib hissəsi kimi fəaliyyət göstərmişdir. Ona görə də respublikamızın psixoloqları SSRİ-də keçirilən psixologiya konfranslarında, qurultay və simpoziumlarda həmişə iştirak edərək, Azərbaycan psixologiya elmini təbliğ etmişlər. M.Ə.Həmzəyevin keçmiş SSRİ psixoloqlarının ikinci (Sankt-Peterburq, 1963), üçüncü (Kiyev,

1968), dördüncü (Tbilisi, 1971), beşinci (Moskva, 1977), altıncı (Moskva, 1983) qqurultaylarında məruzə və tezis-lərlə iştirak etməsi buna əyani sübutdur.

1920-1988-ci illər arasında Zaqafqaziya psixoloq-ların arasında elmi-yaradıcılıq əlaqələri çox möhkəm olmuşdur. Ədalət naminə deмək lazımdır ki, yaradıcılıq əlaqələrindən hər iki tərəf bəhrələnmişlər.

Zaqafqaziya psixoloqlarının belə ənənəvi konfrans-ları 1983-cü ilə qədər davam etmişdir. Bu müddət ərzində doqquz belə elmi məclis keçirilmişdir. Onların hamısında (I-Tbilisi, 1959; II-Yerevan, 1960; III-Bakı, 1962; IV-Tbilisi, 1965; V-Yerevan, 1970; VI-Bakı, 1974; VII-Tbilisi, 1977; VIII-Yerevan, 1980; IX-Bakı. 1983) M.Ə.Həmzəyev maraqlı məruzələrlə iştirak etmişdir.

Professor M.Ə.Həmzəyevin elmi-psixoloji taradı-cılığı ilə tanışlıq göstərir ki, o, 1950-ci illərədn başlayaraq Azərbaycanda psixologiya elminin yaradıcılarından biri olmuşdur.

Professor M.Ə.Həmzəyevin əsas elm-tədqiqat istiqa-məti Azərbaycan dilinin mənimsənilməsində qarşıya çıxan çətinliklətin psixoloji problemləri və onların aradn qaldırılması yolları olmuşdur. O, həm namizədlik (1955), həmdə doktorluq (1969) dissertasiyalarını bu problemə həsr etmişdir. Professor M.Ə.Həmzəyev bu məsələ ilə bağlı xeyli elmi-metodiki məqalələr, əsərlər yazmış, elmi məclislərdlə mərezələrlə çıxış etmişdir. M.Ə.Həmzəyev Azərbaycan dilinin mənimsənilməsinin psixoloji problem-lərinin öyrənilməsi sahəsində Azərbaycanda özünəməxsus məktəb yatamışdır. Respublika Müəllimlər Təkmilləşdir-mə İnstitunun psixologiya kafedrasının müdiri, pedaqoji elmləri doktoru, K.Kərimov, həmin kafedranın əməkdaşı

Ş.Babayev, H.Zərdabi adına Gəncə Pedaqoji İnsitutunun psixologiya kafedrasının dosenti N.İbrahimxəlilova, Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun psixologiya kafedrasının dosenti A.Quliyev və onlarca başqaları həmin məktəbin yetişdirmələridirlər.

M.Ə.Həmzəyev təkcə bir problem çərçivəsində qalmamışdır. O, psixologiyanın müxtəlif sahələrinə aid əsərlər yazmış və imkan daxilində Azərbaycan psixologiya elminin inkişafına kömək etmişdir.

## Ə.Ə.QƏDİROV

Professor Ələddin Əhməd oğlu Qədirov 1929-cu ildə Qazax rayonun Pirili kəndində anadan olub. 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin məntiq-psixologiya müəllimi təyin olunmuşdur.

1953-cü ildə Gəncə Dövlət Universitetində, 2001-ci ilin sentyabrında Təhsil Problemləri İnstitutunda elmi-pedaqoji fəaliyyətini davam etdirir.

Ə.Qədirov səmərəli pedaqoji fəaliyyətlə yanaşı, psixologiya elminin ən çətin, vacib sahəsini- təfəkkür problemini, şagirdlərin idrak imkanlarını araşdırmağa, tədqiq etməyə başlamışdır.

Müasir elmi-texniki inqilabın yaratdığı zəngin informasiya bolluğu və qavranılması zəruri biliklər sistemi insanın idrak imkanlarını mütləq surətdə nəzərdən keçirməyi tələb edir. Deməli, cəmiyyətin inkişaf dərəcəsi yalnız ölkədə hasil olan məhsulların miqdarı və ya elmin, texnikanın səviyyəsi ilə deyil, birinci növbədə, orada tərbiyə olunan insanın, şəxsiyyətin, kamillik dərəcəsi ilə ölçülməlidir. Eyni zamanda müasir dövrdə nəzəri biliklərin çəkisi artır və buna müvafiq olaraq, şagirdlərdə elmi-

nəzəri təfəkkürü inkişaf etdirmək zərurəti meydana çıxır. Odur ki, bu məsələ ilə əlaqədar təlimin başlanğıc dövründə şagirdlərdə empirik biliklə nəzəri biliyin münasibəti, əyani-obrazlı təfəkkürlə mücərrəd –nəzəri təfəkkürün dialektik vəhdəti, bunların təzahür xüsusiyyətləri, inkişaf prosesində onların arasındakı dinamik münasibətlərin korrelyasiyası, dialektik-nəzəri təfəkkürün məzmun, forma və qanunauyğunluqlarının müasir səviyyədə dəqiq, məntiqi, qnoseoloji şərhi, habelə təfəkkür tipləri təşəkkülünün psixoloji mexanizminin öyrənilməsi kimi bir sıra psixoloji problemləri kompleks halında həlli tələb olunur.

Göründüyü kimi həmin problemlərin eksperimental tədqiqi çox mühüm elmi-nəzəri və əməli əhəmiyyət kəsb edir. Hələ elmi yaradıcılığın astanasında ikən təfəkkür probleminə ciddi meyl göstərən indi haqqında söhbət gedən pedaqoqun, tədqiqatçının qarşısında insan təfəkkürünün xüsusiyyətləri tədqiq etmək kimi mühüm və olduqca mürəkkəb bir problem dururdu və nəhayət, onun həyatında yuxusuz gecələr, gərgin axtarışlar dövrü başlandı.

Ə.Qədirov elmi çətinliklərə nəinki sina gəldi, həm də qarşıya qoyulmuş məsələlərin öhdəsindən məharətlə gəldi: 1961-ci ildə A.İ. Gertsen adına Leninqrad Pedaqoji İnsitିtutunda “Kiçik məktəb yaşlı uşaqlarda mücərrəd təfəkkürün inkişafı” adlı namizədlik dissertasiyası müvəffəqiyyətlə müdafiə etdi. Elə həmin vaxtdan da işlədiyi psixologiya kafedrasının rəhbərliyinə irəli çəkildi. Elm aləminə atəlan ilk uğurlu addım onu daha böyük axtarışlara sövq etdi.

O, psixologiya elmində indiyədək çox az işlənmiş bir problemi- kiçik yaşlı məktəblilərdə təfəkkürün mücərrəd-

ləşdirmə prosesini-əməliyyatını tədqiq etməyi qarşısına məqsəd qoydu. Maraqlı burasıdır ki, həmin problem müəllifin əvvəllər apardığı tədqiqlərdən nəsə tapmaqla bir növ onların məntiqi davamına çevrildi.

Belə bir məqsəd qoyuluşu ondan irəli gəlir ki, məktəblilərin elmi biliklərə yiyələnmələri onlardan daha dəqiq, dərin ümumiləşdirmə və mücərrədləşdirmə qabiliyyəti tələb edir. Çünki indiki təlim fəaliyyəti elmi-texniki tərəqqi ilə mənimsənilən bilik və məlumatların artırılması, şagirdlərin daha çox nəzəri biliklə silahlandırılması, təlim prosesində məktəblilərin dərketmə imkanlarını və qazanılan bilikləri təcrübəyə tətbiq etmə bacarığının genişləndirilməsi və s. kimi mürəkkəb prinsiplər üzərində qurulur.

Müasir psixologiyada "xüsusidən ümumiyə", "əyani-obrazlıqdan və ya hissdən mücərrədliyə" keçid birtərəfli proses kimi şərh olunur və indiyə qədərki tədqiqatlarda, əsasən, həmin üsulun üstünlüyü gödtərilir ki, bu da "empirik" təlim sisteminin əsasını təşkil edir. Ancaq keçidin ikinci , həm də əsas tərəfi- mücərrəddən- konkretə yüksəliş prosesi, onun qanunauyğunluqları və həmin keçidin dialektik ontogenetik səviyyəsini araşdırmaq isə tədqiqatdan kənarda qalmışdır.

Bəllidir ki, şagirdlər I sinifdən etibarən, ələlxüsus, ana dili dərslərində geniş həcmi bədii mətnlərlə, qiraət materialları ilə işləməli olurlar. Bu isə məktəblidən zəruri mücərrədləşdirmə qabiliyyəti tələb edir. Odur ki, müəllim tərəfindən bu cür mətnlər şagirdlərin mücərrədləşmə bacarığını spesifik xüsusiyyətlərinin öyrənilməsi həmin işin səmərəli təşkilini təmin edir. Aşağı sinif şagirdlərində bədii mətnlər üzərində mücərrədləşdirmənin xüsusiyyətlərini aşkara çıöarmaq məhz, bu baxımdan, çox mühüm

nəzəri və əməli əhəmiyyətə malikdir.

Göstərilənlərə əlaqədər tədqiqatın qarşısında mücərrədləşdirmənin qneseoloji və psixoloji mahiyyətini aşmaq, onun mexanizmini şərh etmək, insanın idrak fəaliyyətində mövqenin müəyyənləşdirmək, kiçik məktəbyaşlı şagirdlərdə mücərrədləşdirmənin təzahür xüsusiyyətlərini və inkişaf dinamikasını araşdırmaq, müxtəlif məzmunlu təlim materialların şagirdlərdə materiallr üzrə mücərrədləşdirmənin xarakter və inkişafına təsirini açmaq və nəhayət, elmi məfhumların mənimsənilməsində mücərrədləşdirmənin mahiyyətinin və rolunu müəyyənləşdirmək kimi konkret və mürəkkəb vəzifələr qoyulmuşdur.

Bəli, Ələddin Əhməd oğlu Qədirov belə bir çətin problemin həllinə girmişdir. “Problemi gprmək, onun həllini tapmaqdan qat-qat çətindir. Birinci üçün təxəyyül, ikinci üçün isə ancaq bacarıq tələb olunur” (D.Bernald).

Kiçik yaşlı məktəblilərdə mücərrəd, nəzəri təfəkkürün inkişaf xüsusiyyətlərini aşkara çıxarmaq məqsədilə yenidən eksperimental tədqiqlər başlandı. Aparılan psixoloji eksperimentdən alınan nəticələrin dürüstlüyünü müəyyənləşdirmək üçün 15 il müddətində gərgin əmək çəkildi. Məlumdur ki, psixoloji problemlərin öyrənilməsində tədqiqat metodikasının işlənib hazırlanması təcrübə-eksperiment xüsusi əhəmiyyət kəsb edir.

Adekvat metodakadan alınan eksperimental-psixoloji tədqiqatın nəticələrinin bir qismi 1973-cü ildə “Kiçik yaşlı məktəblilərdə mücərrədləşdirmənin inkişafı” (“Maarif” nəşriyyatı, Bakı, 1973) adlı kitab şəklində çapdan çıxdı. Əsərdə mücərrədləşdirmənin mahiyyəti, bədii mətnlər, şəkillər, habelə cisimlərin modelləri üzərində şagirdlərin mücərrədləşdirmə əməliyyati və bu əməliyyatın məfhum-

ları mənimsənilməsi prosesində təzahür və təşəkkül xüsusiyyətlərinin eksperimental surətdə tədqiqindən alınan nəticələr öz əksini tapmışdır.

1974-cü ildə fevralda isə Ə.Ə.Qədirov psixologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün "Kiçik yaşlı məktəblilərdə mücərrədləşdirmənin inkişafı" mövzusunda dissertasiya müdafiə etdi. Dissertasiya işinin ümdə məziyyətlərindən biri bundan ibadətdir ki, o, psixologiya elmində aparılan müasir tədqiqatlar ilə həmahəng səsləşir, uşaq psixikasının öyrənilməsi sahəsində J.Piaje, D.B.Elkonin, V.V.Davidov, Ə.S.Bayramov və Q.İ.Minskayanın tədqiqatları ilə dialektik vəhdətdə sanki məntiqi zəncirinin bir halqasını təşkil edir. Həmin tədqiq işində Ə.Ə.Qədirov eksperimental surətdə sübut edir ki, empirik bilik verən ənənəvi təlim müasir dövrün tələbini ödəmir. Odur ki, təlimin məzmununu elmi-texniki tərəqqi səviyyəsində dəyişdirməklə yanaşı, ibtidai sinif şagirdlərində elmi-nəzəri təfəkkürün inkişafına böyük üstünlük vermək lazımdır; məktəblilərin yeni təfəkkür "modeli" dialektik, nəzəri təfəkkür modeli olmalıdır. Sonra o, göstərir ki, mücərrədləşdirmə cisim və hadisələrin bir sıra əlamətlərindən yanıma- təcrid olunma forması kimi mənalı mətnləri bilavasitə dinləyib söyləyən zaman hələ birinci sinifdə ikən şagirdlərə müyəssər olur və o, məktəblinin nitq inkişafından çox asılıdır.

Şagirdlərin idrak fəaliyyətini öyrənən tədqiqatçı mücərrədləşdirmənin perseptual və konseptual səviyyələrini meəyyənləşdirmişdir ki, burada konseptual səviyyə yüksək dərəcədə inkişaf etmiş şagirdlər üçün daha çox səciyyəvidir. Buna həm də şagirdlərin nəzəri biliklər sisteminə istinad etməsi və əqli fəaliyyət tərzlərinin vəhdətinə

yiyələnməsi kimi baxmaq lazımdır.

Beləliklər, Ə.Ə.Qədirov kiçik məktəblilərdə (I-IV sinif şagirdlərində) mücərrədləşdirmə prosesinin qanunauyğunluqlarını müəyyənləşdirmişdir ki, bunun da təlim metodlarının dəyişdirilib təkmişdirilməsi üçün böyük əhəmiyyəti vardır.

Müəllifin müəyyənləşdirdiyi fakt və qanunauyğununluq uşaq təfəkkürünün müasir nəzəriyyəsini, şagirdlərin idrakının mücərrədən konkretə doğru cərəyan etməsini tədqiq etmək üçün yeni və perspektiv istiqamətin əsasını təşkil edir, burada, ələlxüsus pedaqoji təfəkkürün, mücərrədləşdirmənin konseptual səviyyəsinin tədqiqi öz təxirəsalınmaz həllini gözləyən çox perspektivli bir problemdir. XXI əsrdə bu sahədə geniş kompleks eksperimental tədqiqlərin aparılması müasir pedaqoji psixologiyaya, məktəbə çox böyük verə bilər, şagirdlərdə nəzəri, yaradıcı təfəkkürə formalaşdırmağa geniş üfüqlər açar.

Ə.Qədirovun elmi fəaliyyətinin nəzəri və əməli əhəmiyyəti haqqında Bakı, Moskva, Leninqrad, Zaqafqaziya və Orta Asiyanın görkəmli psixoloqları yüksək elmi fikirlər söyləmişlər.

Ə.ƏQədirov sırf elmi tədqiqat xarakterli işlə yanaşı, elmi metodik və tədrisə dair ədəbiyyatın hazırlnması və psixoloji bilikləri təbliği sahəsində də xeyli əmək sərf etmişdir.

Müəllifin 1965-ci ildə çapdan çıxan "Uşaqların psixoloji xüsusiyyətləri" adlı əsəri valideyn və tərbiyəçələrə, habelə ibtidai məktəb müəllimlərin kömək məqsədilə hazırlanmışdır. Burada psixi proseslərinn inkişaf qanunuyğunluqlarından, müasir dövr uşaqlarının düzgün

tərbiyəsi yallarından söhbət açılır, elmlərin əsaslarına dərindən və möhkəm yiyələnmədə onların psixi inkişaf xüsusuiyyətləri və mənəvi aləmlərin bələd olmağın zərurliyi göstərilir.

Ə.Ə.Qədirovun 1966-cı ildə nəşr olunan "Uşaqların tərbiyəsinə aid valideynlərlə söhbət" kitabçasında isə şıltaq və ərköyün, habelə, çətin tərbiyə olunan uşaqların, eyni zamanda nitqi qüsürlu körpələrin hansı vəsaitə və üsullarla tərbiyə edilməsi yolları şərh olunmuşdur. Burada həmçinin tərbiyədə şəxsi nümunənin rolu, şıltaqlığın əmələ gəlməsi, ata-ananın əsəbi olmasının uşağa təsiri, nadinc və ətalətli uşaqlaın tərbiyəsi, ögey uşağın seçmə və ibtidai məktəb şagirdlərinin mədəni davranış qaydaları haqqında valideynlərə ətraflı məlumat verilir.

Elmi işlə pedaqoji fəaliyyətə çox incə səmərəli şəkildə əlaqələndirməyə bacaran müəllifin qiyabiçilərə kömək məqsədilə yazılmış "Psixologiyadan metodik göstəriş", "Qiyabi şöbədə", tədris prosesinin təşkilinə dair metodik göstəriş (1968, 1974, 1980, 1987-ci illər) adlı vəsaitlərində şagirdlər psixoloji cəhətdən öyrənməyə, psixologiya fənni üzrə sinifdənkənar tədbirlər aparmağa, kurs və yoxlama işlərini yazmağa, həmçinin tələbələrin pedaqoji xarakteristika tərtib etməyə və dərsin psixoloji təhlilinə, praktik məşğələlərin aparılmasına dair göstərişlər verilmişdir.

Bu günkü gənc nəslin inkişaf və tərbiyəsinə düzgün nəzarət, rəhbərlik etmək, habelə, sürətlə artan elmi-texniki tərəqqinin əsaslarını onlara dərindən mənimsətmək üçün uşaqların dərketmə imkanlarını, idrak proseslərin inkişaf qanunauyğunluqlarını  və həmin proseslərin inkişaf qanunauyğunluqlarını və həmin proseslərin necə dəyişdiril-

məsi yol və vasitələrini bilmək zəruridir.

Vaxtilə təbabətin atası sayılan Hippokrat göstərirdi ki, səbəbi qaldıranda xəstəlik də ötüb keçər. Uşağın psixi inkişaf xüsusiyyətlərinə, mənəvi aləminə yaxından bələd olmadan ona heç cür təsir göstərə bilmərik.

Ə.Ə.Qədirovun 1970-ci ildə (Bakı) "Maarif" nəşriyyatı tərəfindən buraxılmış "Uşaqlarda idrak proseslərinin inkişafı" adlı əsəri məhz yuxarıda göstərilən məsələlərin işıqlandırılmasına həsr edilmişdir. Burada uşaq anadan olduğu dövrdən 12 yaşınadək onda dıqqət, nitq, duyğu, qavrayış, hafizə, təfəkkür və təxəyyül kimi idraki proseslərin inkişaf xüsusiyyətlərindən ətraflı bəhs olunur.

Müasir dövrdə psixologiya elmi insan fəaliyyətinin bütün sferalarına dərindən nüfuz etdiyi zaman ali məktəblərdə onun tədrisinə ayrılan saatların miqdarı əhəmiyytəli dərəcədə artmışdır. Məlum olduğu kimi ali pedaqoji məktəblərdə ümumi psixologiya fənni ilə yanaşı, yaş və pedaqoji psixologiyada da tədris olunur. Lakin elmin bir sıra sahələrndə olduğu kimi, burada da Azərbaycan dilində olan mənbələrə, ədəbiyyata ciddi ehtiyac duyulurdu. Ə.Ə.Qədirovun 1971, 1986, 1999, 2002-ci illərdə çapdan çıxmış "Yaş psixologiyas" adlı tədris vəsaiti bu baxımdan çox əhəmiyyətlidir. Bu əsər respublikamızda əsas tədris vəsaiti olduğundan oxucuların ehtiyac və tələbatını nəzərə alaraq dördüncü dəfə nəşr olunur. Həmin vəsaitdə yaş psixologiyasının mövzusu və üsulları, inkişaf və təlim, çağa və körpələrin, həmçinin uşaq və məktəblilərin, yeniyetmə və gənclərin inkişaf xüsusiyyətləri, oyun və təlim fəaliyyəti elmi səviyyədə, lakonik şəkildə şərh edilmişdir.

Müəllifin "Elm" nəşriyyatı tərəfindən buraxılmış "Mədəni davranış və onun tərbiyəsi", "Gənclərin etiketi",

“Gənclərin mədəni davranış qaydaları” adlı əsərlərində gənclərə özlərini ictimai yerlərdə, ailədə, qonaqlıqda və bu kimi şəraitdə necə aparmaları, ümumiyyətlə, rəftar və davranışlarını necə tənzim etmələri barədə tövsiyyələr verilir, hər bir şəxsin özündə mədəni vərdiş və adətlər tərbiyə etməsinin yolları göstərilir.

Ə.Ə.Qədirovun “Psixologiyadan praktik məşgələlərin aparılmasında dair metodik göstəriş” (1976, 1993) kitabçalarında əsərin adından da göründüyü kimi, psixologiya kursunu öyrənərkən tələbələrlə aparılan praktik məşgələlərə aid əməli məsləhətlər verilir, tələbələrimizin yaradıcılıq qabiliyyətlərini, tədqiqatçılıq səylərini inkişaf etdirməyin yol və vasitələrindən geniş söhbət açılır.

Gərgin zəhmətdən həzz alan tədqiqatçının müxtəlif səpgidə yazılmış, haqqında qısaca danışdığımız həmin əsərləri elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.

Mütərəqqi amerikan alimi Nobert Viner başqa alimlərlə olan elmi əlaqələrə böyük ahəmiyyət verərək yazırdı: “Elmlə səmərəli məşğul olmaq üçün, mənə hər şeydən evvəl, başqa alimlərlə fikir mübadiləsi etmək lazımdır”. Doğurdan da, müasir şəraitdə hər cür elmi tərəqqini digər elmi müəssisə və elmi mütəxəssislərlə sıx əməkdaşlıq və informasiya mübadiləsindən kənarda təsəvvür etmək mümkün deyildir. Bu baxımdan Ə.Ə.Qədirov bir sıra elmi məclislərdə: Zaqafqaziya psixoloqlaının II (Yerevan, 1960), III (Bakı, 1962), V (Yerevan, 1970), VI (Bakı, 1974), VII (Tbilisi, 1977), IX (Bakı, 1983) konfraslarında, SSPİ psixoloqlarının II (Leninqrad, 1963), III (Kiyev, 1968), V (Moskva, 1977) qurultaylarında, Ümumdünya psixoloqlarının XVIII konqresində (Moskva,

1966) öz tədqiqləri barədə geniş məlumat vermiş, görkəmli alimlərlə fikir mübadiləsi etmişdir.

Ə.Ə.Qədirov müxtəlif elmi məclislərdə fəal iştirak etməklə bərabər, əsərlərə rəy yazmış, doktorluq və namizədlik dissertasiyalarına rəsmi opponent olmuş, həmçinin dövri mətbuatda müntəzəm surətdə elmi və elmi-metodik xarakterli məqalələrlə çıxış etmişdir. Ümumiyyətlə, onun indiyəcək 15 kitabı, "Вопросы психологии" (Moskva), "Azərbaycan məktəbi", "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnallarında, ali məktəblərin "Elmi qeydlər"ində, "Elmi əsərlərində", habelə, "Azərbaycan müəllimi", "Azərbaycan gəncləri" və digər qəzetlərdə, yuxarıda adı çəkilən elmi məclislərin materiallarında məqalələr, tezisləri çap olunmuşdur.

Son illərdə ümidverici gənc psixoloqlarının yetişməsi respublikamızda psixologiyanın gələcək inkişafının uğurlu olacağından xəbər verir. S.Seyidov, B.Əliyev, İ.Novruzlu, R.Əliyev Ə.Baxşəliyev, G.Məmmədova və b. belə psixoloqlardandır.

S.İ.Seyidov
B.Əliyev
Ə.Baxşəliyev
İ.Novruzlu
R.Əliyev
S.Məcidova
R.Qədirova
E.Şəfiyeva
K.R.Əliyeva
K. .Məmmədova

.

## S.İ.Seyidov

Seyidov Səməd İsmayıl oğlu 1964-cü il yanvarın 18-də Bakı şəhərində anadan olmuşdur. Leninqrad Dövlət Universitetinin psixologiya fakültəsini bitirmişdir. Psixologiya elmləri doktoru, professordur. İngilis və rus dillərini bilir.

Beynəlxalq Psixoloqlar Assosiasiyasının üzvüdür.

1986-cı ildən Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda laborant, baş laborant, müəllim, baş müəllim, tədris işləri üzrə prorektor vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

2005-ci il noyabrın 6-da 36 saylı Xətai dördüncü seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının sədridir.

Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Qazaxıstan, Azərbaycan-Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir.

Evlidir, 2 övladı var.

**Ə.T.Baxşəliyev**

20 ildən artıq bir müddətdə Azərbaycanda psixologiya tarixi üzrə doktorluq dissertasiyası müdafiə olunmamışdı. Lakin 1996-cı ildə Ərəstun Təriş oğlu Baxşəliyev "XXəsrdə Azərbaycanda psixoloji fikrin inkişafı" mövzusunda doktorluq dissertasiyası müdafiə etdi. Azərbaycanda psixologiya tarixi üzrə görkəmli mütəxəssis Ə.Baxşəliyev 1973-cü ildə "Sovet Azərbaycanında psixologiyasının inkişaf tarixindən" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.Ə.Baxşəliyev xüsusilə Azərbaycanda elmi psixologiyanıın təşəkkül tapmasından sonrakı dövrün öyrənilməsinə diqqət yetirmiş, təhlillər aparmışdır. O, hazırda ADPU-da yaş və pedaqoji psixologiya kafedrasına rəhbərlik edir.

Ə.T.Baxşəliyev 11-dən artıq dərslik və dərs vəsaitlərinin , monoqrafiyaların, 100-dən çox elmi – kütləvi əsərlərin, məqalələrin müəlifidir.

**B.H.Əliyev**

1961-ci il mart ayının 20-də Ağdam şəhərində anadan olmuşdur. 1979 - ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin psixologiya fakültəsinə daxil olmuşdur. 1983-ci ildə həmin fakültəni bitirdikdən sonra Azərbaycan Dövlət Universitetini «Psixologiya və pedaqogika» kafedrasında təyinatla əmək fəaliyyətinə başlamışdır.

1984-1987-ci illərdə Azərbaycan dövlət televiziyasında aylıq «İdrak» elmi-kütləvi verilişinin müəllifi və

aparıcısı olmuşdur. Azərbaycanda elmi dünyagörüşün, elmi təfəkkürün formalaşdırılması, cəmiyyətin, təhsilin humanistləşdirilməsi, insan amilinin əhəmiyyəti haqqındakı fikirlərin elmi surətdə əsaslandırılması istiqamətində həmin verilişlərin böyük rolu olmuş və tamaşaçıların rəğbətini qaşanmışdır.

AMEA-nın müxbir üzvü, prof.B.H.Əliyev keçmiş SSRİ-də məhkəmə-psixoloji ekspertizasının ümumi nəzəriyyəsini işləyib hazırlayan ilk tədqiqatçı alimdir. O, həmin nəzəriyyəyə söykənərək ilk dəfə olaraq fizioloji affektin müəyyən edilməsinin yeni metodikasını və psixoloji meyarlarını, həmçinin məhkəmə-psixoloji ekspertizasının növlərinin təsnifatı sistemini müəyyənləşdirmişdir. Əldə edilmiş nəticələr hüquq praktikasında istifadə edilərək cəzanın fərdiləşdirilməsində və obyektiv araşdırılmasında istifadə edilir. Zəruri əhəmiyyyət daşıyan "fizioloji affektin" məhkəmə ekspertizasının təşkili və keçirilməsi prinsiplərini, ekspert-psixoloqun rəyinin sübutun bir növü qiymətləndirilməsinin elmi-hüquqi əsaslarını müəyyənləşdirmişdir. Bu məsələyə dair elmi məqalələrlə beynəlxalq və respublika elmi konfranslarında çıxışlar etmişdir.

AMEA-nın müxbir üzvü, prof.B.H.Əliyev həmin tədqiqatlarına əsaslanaraq Azərbaycanda ilk dəfə olaraq 1990-cı ildə məhkəmə-psixoloji ekspertizası elmi-tədqiqat laboratoriyasını yaradılmışdır. Həmin laboratoriya öz fəaliyyətində o zamanlar Cənubi Qafqaz və Orta Asiya respublikalarını əhatə edirdi.

Azərbaycanda ilk dəfə olaraq Bakı Dövlət Universitetində «Eksperimental psixologiya» elmi-tədqiqat laboratoriyasını yaradaraq idrak prosesləri, şəxsiyyət psi-

xologiyası sahəsində elmi araşdırmalara rəhbərlik edir. Şəxsiyyətin yaradıcılıq imkan və potensialının aktuallaşması və şəxsiyyətin özünügerçəkləşdirməsinin metodoloji və psixoloji əsasları tədqiq edilir. İlk dəfə olaraq respublikada eksperimental psixologiyanın əsasları işlənmişdir. AMEA-nın müxbir üzvü, prof.B.H.Əliyev «Şəxsiyyətə yeni baxış» nəzəriyyəsini işləyib hazırlamış və bu nəzəriyyə əsasında fundamental tədqiqatların aparılmasına elmi rəhbərlik edir. Onun siyası liderin psixologiyası, siyası liderin tipologiyası, ümummilli liderin psixoloji portreti kimi tədqiqatları bu sahədəki nəzəriyyələrdə mövcud olan boşluqları doldurmuş, cəmiyyətdə gedən ictimai-siyasi proseslərə tarixi şəxsiyyətin nüfuzunun göstərdiyi təsir araşdırılmışdır.

AMEA-nın müxbir üzvü, prof.B.H.Əliyevin elmi yaradıcılığı çoxşaxəlidir. Onun tədqiqatlarında ekologiyanın və sosial ekologiyanın fəlsəfi-psixoloji məsələləri, təhsil və tərbiyənin psixoloji əsasları, insanın ekstremal şəratdə davranışının tənzimlənməsi, Dekartın, Aristotelin və Bəhmənyarın fikirlərinin idrak nəzəriyyəsinin inkişafında rolu, cinayət və mülki hüququn, həmçinin kriminologiyanın əsas məsələlərinin, xüsusi biliklərin hüquq praktikasında tətbiqinin metotoloji əsasları, milli dövlətçilik və demokratik inkişafın sosial, fəlsəfi və psixoloji aspektləri, kütlə psixologiyası, siyasi və ümummilli liderin psixoloji portreti, sosial və psixoloji tədqiqatların metodologiyası öz əksini tapmışdır. Bu yeni istiqamətlər üzrə onun tədqiqatlarına istinad olunaraq müxtəlif mövzularda 11 namizədlik, 3 doktorluq dissertasiyası müdafiə olunmuşdur. Respublikamızda ilk dəfə olaraq 1999-cu ildə «Psixologiya jurnalı»nı təsis etmiş və elə həmin dövrdən

hal-hazıra kimi onun baş elmi redaktorudur. Jurnal qısa müddətdə respublikada və xarici ölkələrdə diqqəti cəlb etmiş, elmin inkişafında böyük rol oynamışdır. 2005-ci ildə onun təşəbbüsü və rəhbərliyi altında ilk dəfə olaraq psixologiya elminin rəsmi internet saytı yaradılmışdır (www.psixologiya.az). Azərbaycan psixologiya elminin təbliğində, dünya psixologiya elminə inteqrasiyasında jurnalın və rəsmi saytın əhəmiyyətli rolu vardır.

Ərazilərimizin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş bir milyondan artıq insanın psixoloji reabilitasiyası ilə bağlı İngiltərənin Haşford universitetinin əməkdaşları ilə birlikdə B.Əliyevin təşəbbüsü və rəhbərliyi altında xüsusi proqram hazırlanılıb həyata keçirilmişdir. AMEA-nın müxbir üzvü, prof.B.H.Əliyev elmi-pedaqoji kadrların hazırlanmasında daima bilavasitə iştirak edir. Belə ki, 1993-cü ildən 1999-cu ilə kimi psixologiya elmləri üzrə AAK-ın dissertasiya şurasının elmi katibi, 2000-ci ildən hal-hazıra kimi isə həmin dissertasiya şurasının sədridir. Həmçinin BDU-da psixologiya elmləri üzrə magistr dissertasiyalarının müdafiəsi üzrə ixtisaslaşdırılmış Elmi Şuranınsədridir.

Elmi fəaliyyətinə görə 1999-cu ildə Beynəlxalq Kadrlar Akademiyasının həqiqi üzvü seçilmişdir. 1997-ci ildən BDU-nun «Psixologiya» kafedrasının müdiridir. Eyni zamanda «Eksperimental psixologiya» ETL-in elmi rəhbəridir. B.H.Əliyev elmi-pedaqoji fəaliyyətlə yanaşı, ictimai-siyasi fəaliyyətlə də məşğuldur. Azərbaycan Respublikası Milli Məclisinin II Çağırışının (2000-2005-ci illər) və III Çağırışının deputatı seçilmişdir. 2001-2005-ci illərdə Avropa Şurası Parlament Assembleyasının

üzvü kimi «Elm və təhsil məsələləri komitəsinin», «Monitorinq komitəsinin» üzvü və «Geniş miqyaslı miqrantlar və köçkünlər işi üzrə» alt komitənin sədri olmuşdur.

Hal-hazırda Azərbaycan Respublikası Milli Məclisinin «Elm və təhsil məsələləri daimi komissiyasının» sədr müavinidir.

Azərbaycan Respublikası Prezidenti yanında «Əfv məsələləri üzrə komissiya»nın və Dövlət Qulluğunu İdarəetmə Şurası yanında «Korrupsiyaya qarşı mübarizə üzrə komissiya»nın üzvüdür. B.H.Əliyev AMEA-nın müxbir üzvi (2007), millət vəkilidir.1989-cu ildə fəlsəfə sahəsində «Межнациональное общение как объект социально-психологического анализа» mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır.

1998-ci ildə psixologiya elmləri üzrə «Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizası problemləri» adlı doktorluq dissertasiyasını müdafiə edərək psixologiya elmləri doktoru elmi dərəcəsini, 2000-ci ildən psixologiya elmləri üzrə professor elmi adı almışdır.

2000 –ci ildən bu gunədək Psixologiya kafedrasının professoru.

2000 – hazırki dövrə kimi psixologiya elmləri üzrə AAK-ın dissertasiya şurasının sədridir.

1999 - Beynəlxalq Kadrlar Akademiyasının həqiqi üzvü seçilmişdir.

1997-ci ildən hazırkı dövrə kimi - BDU-nun «Psixologiya» kafedrasının müdiridir.

1993-1999 - psixologiya elmləri üzrə AAK-ın dissertasiya şurasının elmi katibi.

1992 – BDU-nun «Psixologiya» kafedrasının dosenti.

1983-1992 – ADU-nun «Psixologiya və pedaqogika» kafedrasında müəllim «Hüquq psixologiyasının aktual poroblemləri», «Caninin psixologiyası və öyrənilməsi», «Əməliyyat axtarış fəaliyyətinin psixologiyası», «Sosial psixologiya», «Hüquq psixologiyası», «Ümumi psixologiya» kursunun «Psixologiyanın əsasları», «Şəxsiyyət və fərdiyyətin psixologiyası» bölmələri və qeyri-ixtisas fakültələrində «Psixologiya» fənləri üzrə mühazirə dərsləri aparır. 4 monoqrafiya, 7 dərslik və dərs vəsaiti, 10 proqram və metodiki tövsiyə, 117 elmi məqalə və tezisin müəllifidir, xarici ölkədə 15 əsəri çap edilmişdir.

## Mövzu-16
## Azərbaycanda psixologiyanın müasir inkişaf vəziyyəti

Azərbaycan psixologiya elmi özünün yeni, mühüm bir dövrünə qədəm qoyduqdan sonra professor Ə.S. Bayramov, M.Ə. Həmzəyev, Ə.Ə. Əlizadə, S.İ. Seyidov, B.H. Əliyev Azərbaycanda psixologiya elminin yeni istiqamətlərini müəyyənləşdirmişlər. Bununla yanaşı olaraq, özləri də səmərəli şəkildə elmi axtarışlarını davam etdirmiş, gənc kadrların hazırlanmasında iştirak etmişlər.

Ə.S.Bayramovun elmi fəaliyyətində bir neçə istiqamət diqqəti cəlb edir. Bunlardan biri də təfəkkürün tənqidilik və müstəqilliyinin inkişaf xüsusiyyətləri ilə bağlıdır. Bu tədqiqatlarla eksperimental psixologiyanın inkişafında yeni bir mərhələ başlamışdır. Professor Ə.Ə.Bayramov kifayət qədər araşdırılmamış bir problem olan ağlın keyfiyyətləri problemini tədqiq etmişdir. Təfəkkür problemini başqa mütəxəssislər də təqdiq etmişdir. Ancaq bu tədqiqatlarda təfəkkür proses kimi öyrənilir və onu şəxsiyyətlə bağlayan cəhətlərə diqqət edilmirdi. Ə.S.Bayramov isə təfəkkür psixologiyasında yeni eksperimental istiqamət müəyyənləşdirdi. O, təfəkkürün tənqidilik və müstəqilliyinin inkişaf xüsusiyyətlərini öyrənmək üçün adekvat tədqiqat metodikası işləyib hazırlamışdır və təsadüfi deyildir ki, o dövrdə Leninqradın, Moskvanın görkəmli psixoloqları tədqiqatçının orjinal yaradıcılıq səylərini və müasirlik hissini yüksək dəyərləndirmişlər. Professor Əbdül Əlizadə haqlı olaraq vurğulayır ki, Ə.S.Bayramov özünün sonrakı tədqiqatlarında bu "səmərəli toxumu" necə deyərlər, gərgin zəhmətin sehrində boya-başa çatdırdı. Geniş nəzəri

ümumiləşdirmələr apardı, “perseptiv” inikasdan tənqidi təfəkkürün funksiyalarını, strukturunu və mənşəyini aydınlaşdırdı. Bu sahədə olan tədqiqatlarının nəticələri müəllifin 45 elmi məqalə, 3 monoqrafiyasında və tezislərində öz əksini tapmışdır.

Ə.S.Bayramov həm “Kitabi-Dədə Qorqud” dastanlarında, həm də Nizami, Füzuli, Nəsimi, C.Məmmədquluzadə, A.Bakıxanov, M.Ə.Sabir kimi sənətkarlarımızın yaradıcılığında psixoloji fikirləri tədqiq etmişdir. Bu tədqiqatlarla bağlı Ə.Ə.Əlizadə qeyd edir ki, Ə.S.Bayramovun elmi yaradıcılığında milli psixoloji fikir tariximizin formalaşması kimi bir istiqamət formalaşmışdır. Milli psixoloji fikir tarixi qədim olmasına baxmayaraq kifayət qədər araşdırılmamış, tədqiq edilməmişdir. Halbuki bu məsələlərin tədqiq edilməsi, öyrənsilməsi son dərəcə əhəmiyyətlidir. Bu baxımdan Ə.S.Bayramovun klassik sənətkarlarımız olan Nizami Gəncəvi, M.Füzuli, Nəsimi, M.Ə.Sabir, M.F.Axundov və A.A.Bakıxanovun psixoloji görüşlərinə aid olan məqalələri maraq doğurur. Nizami Gəncəvinin əsərlərində hürufizmin psixoloji kökləri, rənglərin simvolikası kimi mürəkkəb məsələlər bu məqalələrdə öz əksini tapmışdır. Həmçinin buradakı fikirlər dünya psixoloji fikri ilə müqayisə edilmişdir. Məsələn İ.Nəsiminin psixoloji konsepsiyasını həm qədim hindu zenbuddizm təlimləri ilə, həm də müasir psixoloji nəzəriyyə və cərəyanlar olan ekzistensial psixologiya, freydizm istiqamətlərində araşdırır. Həmin tədqiqat nəticələri nəşr olunan bir çox elmi jurnal və məqalədə, həmçinin müəllifin 3 kitabında öz əksini tapmışdır.

Ə.S.Bayramovun elmi yaradıcılığında diqqəti cəlb edən istiqamətlərdən biri də etnopsixologiya məsələləri ilə

bağlıdır. Uzun illər bu istiqamətdə tədqiqat işləri aparmaq qadağan edilmişdir. Müstəqillik illərində professor Ə.S. Bayramov etnoslararası qarşılıqlı münasibətlərin psixoloji problemləri istiqamətində tədqiqatlar aparmış, nəticədə "Etnik psixologiya məsələləri" (Bakı, 1996), ""Kitabi-Dədə Qorqud" dastanında etnik-psixoloji xüsusiyyətlərin inikası" (Bakı, 2000), professor Ə.Ə. Əlizadənin "Azərbaycan etnopsixologiyasına giriş" (Bakı, 2003),"Xəmsə"də yaş və pedaqoji psixologiya məsələləri" kimi əsərlərini ərsəyə gətirmişdir.

Professor Ə.S.Bayramovun "Kitabi-Dədə Qorqud" dastanında etnik-psixoloji xüsusiyyətlərin inikası" əsəri onun bu istiqamətdə illərlə aparmış olduğu tədqiqatların bir qismini əhatə edir. "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin qeyd edildiyi ərəfədə kitabın ərsəyə gəlməsi xalqımızın etnik-psixoloji xüsusiyyətlərinin tarixi mənşəyini öyrənmək baxımından çox faydalı olmuşdur. Əsərdə Ə.S.Bayramov qeyd edir ki, hər bir xalq mənəvi tərəqqiyə nail olmaq və özünüqiymətləndirmək üçün ancaq öz sosial-iqtisadi keçmişinə deyil, həm də özünün psixoloji keçmişinə yaxşı bələd olmalıdır. Yəni hər bir xalq necə tərəqqi etdiyini, hansı mənəvi-psixoloji keyfiyyətlərə malik olduğunu, hansı psixoloji dəyişikliyə məruz qaldığını bilməlidir. Bunu isə xalqın etnik-psixoloji xüsusiyyətlərini tarixi planda araşdıraraq müəyyən etmək olar. Ümumiyyətlə qeyd edək ki, etnopsixoloji məsələlərin miqyası çox genişdir və onun öyrənilməsi nəticəsində dilimizin, tariximizin, ədəbiyyatımızın təhlilini verə bilər, uşaq tərbiyəsi kimi vacib bir məsələni tamamilə həll edə bilərik. Müstəqil respublikamızın bir çox sosial-psixoloji problemləri içərisində milli təhsil və tərbiyə məsələsi mühüm

yer tutur. Müəllif qeyd edir ki, xalqa məxsus olan etnik xüsusiyyətlərin məcmuyu həmin xalqın məhz folklorunda, ədəbi materiallarında toplanır. Bu baxımdan "Kitabi-Dədə Qorqud" çox dəyərli bir xəzinədir. Müəllifin bu fikri yalnızca bir fikir, ideya olaraq qalmamış və bu istiqamətdə mühüm psixoloji araşdırmalar aparılmışdır. Professor Ə.S.Bayramovun "Kitabi-Dədə Qorqud"dan başqa, Nəsimi, Nizami, M.F.Axundov. A.Bakıxanov, M.Ə.Sabir, C.Məmmədquluzadə irsinin psixoloji təhlili ilə bağlı apardığı tədqiqatlarının nəticələri həm respublikamızda, həm də xarici ölkələrin elmi jurnallarında nəşr olunmuşdur.

Dərsliyə daxil olunmuş materiallar etnik psixologiya elminin strukturuna uyğun verilmişdir. Bu da dastanın psixoloji təhlilinə elmi prinsiplə yanaşıldığını göstərir. Məhz belə elmi yanaşmanın nəticəsi olaraq kitabdakı materiallar məişət psixologiyası səviyyəsində qalmamışdır. Ə.S.Bayramov hər hansı etnik-psixoloji problemin dastanda əks etdirilməsi xüsusiyyətlərini verməzdən əvvəl həmin problemin müasir etnik-psixoloji məzmununu vermişdir. Belə olan halda oxucu əvvəlcə etnik psixologiyanın mahiyyəti və məzmunu ilə yaxından tanış olur, daha sonra dastanda əks olunmuş etnik-psixoloji xüsusiyyətləri elmi səviyyədə mənimsəyir və nəticə çıxarır. Əsərdə öz əksini tapan problemlər təkcə dastanda əks olunmuş tarixi keçmişimizin deyil, həm də bu günümüzün və gələcəyimizin problemləridir. Burada müəllif yeri gəldikcə, dastanda öz əksini tapmış etnik-psixoloji xüsusiyyətlərimizlə müasir psixologiyamız arasında müqayisələr də aparır. Beləcə oxucunu düşünməyə, tarixi keçmişimizə nəzər salmağa, ibrət almağa çağırır. Kitabdakı materialların psixoloji təhlili etnik-psixoloji tariximizlə əlaqəli müxtəlif mənbələrin

öyrənilməsi baxımından da faydalıdır. Ona görə də bu vəsait təkcə bu günkü tədqiqatçılarımız üçün deyil, həm də gələcək tədqiqatçılar üçün çox yaxşı nümunədir.

Sevindirici haldır ki, professor Ə.S.Bayramov bu məsuliyyətli işə bir çox mütəxəssisləri də cəlb etmiş və beləliklə etnopsixoloji tədqiqat istiqaməti respublikamızda məhsuldar bir psixoloji məktəb yaratmışdır. Bu da onun yorulmaz elmi tədqiqatlarının nəticəsi idi.

Müasir dövrdə təhsilin demokratikləşdirilməsi və humanistləşdirilməsinin mühüm aktuallığı var. Bu cəhətdən professor Ə.Ə.Əlizadənin "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" (Bakı, 1998) ,"Yeni pedaqoji təfəkkür: ideyalar, problemlər. Psixopedaqoji araşdırmalar" (Bakı, 2001), M.Ə. Həmzəyevin "Yaş və pedaqoji psixologiyanın əsasları" (Bakı, 2000; 2003) əsərləri maraq doğurur.

Professor Səməd Seyidov menecment psixologiyası, professor Bəxtiyar Əliyev hüquq psixologiyası və sosial psixologiyanın aktual problemləri sahəsində yeni istiqamətlər müəyyənləşdirmişlər.

Cəmiyyət iqtisadi münasibətlərin yeni formalarına keçdikdən sonra menecment psixologiyasının öyrənilməsində də irəliləyiş oldu. Müstəqilliyin qazanılması və bazar iqtisadiyyatının hökm sürdüyü demokratik bir cəmiyyətin qurulması yalnızca sosial, siyasi və iqtisadi münasibətlərin təşkilinə yox, həm də fəaliyyət effektivliyinin determinə olunmuş amillərinə çevrilən insan münasibətlərinin rolunu və əhəmiyyətini bir daha anlamağa imkan yaratdı. Professor Səməd Seyidovun menecment sahəsində ərsəyə gətirdiyi vəsait fəaliyyət zamanı insan psixologiyasının bir çox xüsusiyyətləri, həm də qismən fəaliy-

yətin təşkil edilməsi ilə bağlı olan biliklərdə olan boşluqları doldurmaq cəhdlərindəndir. Onun hazırladığı vəsaitdə menecment əsaslarının analizi, həmçinin ona təsir edən mühüm psixoloji tədqiqatlar haqqında məlumat verilir. Burada insan amilinə menecment psixologiyasının özəyi kimi baxılır, onun öyrənilməsinə xüsusi olaraq fikir verilir. Menecmentin dörd fundamental sualı ortaya çıxmışdır: "Necə motivasiya etməli?", "Necə qarşılıqlı fəaliyyət göstərməli?", "Necə təsir etməli?", "Necə seçməli?". Bu sualı cavablandırmamışdan öncə şəxsiyyətin strukturu, psixi proseslərin xüsusiyyətləri təhlil edilməlidir. Burada müəllif bu sahədə aparılan tədqiqatlara əsaslanaraq insan şəxsiyyətinin şərhinə aid yeni bir yanaşma hazırlamışdır.

Qeyd etdiyimiz kimi Bəxtiyar Əliyev psixologiyanın hüquq psixologiyası sahəsində yeni istiqamətlər müəyyənləşdirmiş, Əkbər Bayramovla birlikdə hüquq psixologiyasına aid dərslik nəşr etdirmişlər. Bu dərsliyin ərsəyə gətirilməsinin də mühüm səbəbləri var idi. Respublikamızda hüquq sahəsində fəaliyyət göstərənlərin psixoloji hazırlıq səviyyəsi olduqca aşağıdır. Buna görə də onlar daha çox təhdid etmək və kobud davranışlardan daha çox istifadə edirlər. Ona görə də hüquq sahəsində çalışan işçilərin psixoloji biliklərlə silahlanmağı vacib məsələlərdəndir. Həm də "Məhkəmə psixologiyası məsələləri" kitabı hüquq psixologiyasının sahələrini tam əhatə etməmişdir. Bundan başqa, burada sovet dövrünə aid hüquq sistemi öz əksini tapmışdır. Hüquq psixologiyası psixologiya və hüquq elmlərinin qovşağında meydana çıxmışdır. Çünki hər ikisinin obyekti insandır. Hüquq sahəsində çalışanlar insan davranışının psixoloji səbəblərini bidikdə öz işlərinin öhdəsindən layiqincə gələ bilir. Əgər

hüquq sahəsində fəaliyyət göstərən şəxs insan psixologiyasından xəbərdar olmazsa ya da bu məsələni ciddiyə almazsa o zaman ciddi fəsadlar meydana çıxa bilər. Həmçinin hər hansı cinayət əməli törədən şəxsin psixoloji vəziyyətinin aşkarlanması məsələsinə diqqət yetirilir. Belə bir vəziyyətdə hüquq psixologiyasına aid vəsaitin ərsəyə gətirilməsi, bu sahədə yeni istiqamətlərin müəyyənləşdirilməsi olduqca zəruri bir məsələ idi. Professor Əkbər Bayramov və Bəxtiyar Əliyev bu işin öhdəsindən gəlmişlər.

Hələ həllini gözləyən çoxsaylı problemlər vardır ki, onların araşdırılması da zəruridir. Bunlar hərbi psixologiya, iqtisadiyyatın psixologiyası, siyasi psixologiya və sairəni əhatə edir. Düşünürük ki, dünyada psixologiya elminin öyrənilməsi sahəsindəki imkanlar Azərbaycan psixologiya elminin inkişafına əsaslı təsir göstərəcəkdir. Azərbaycanda psixoloji fikrin, elmi psixologiyanın inkişaf tarixinin öyrənilməsi həm də xalqın həyat yolunun, ictimai-tarixi proseslərin, düşüncə və təfəkkür tərzinin inkişafı və formalaşmasının öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar isə milli şüurun və milli özünüdərkin formalaşması deməkdir. Milli inkişaf isə özünüdərkdən başlayır.

# ƏDƏBİYYAT.

1.Ağayev Ş.S.Sovet Azərbaycanında psixologiyanın elminin inkişafı. Bakı, 1967.

2. Baxşəliyev Ə.T. XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı . I hissə, Bakı, 1995.

3.Baxşəliyev Ə.T. XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı . II hissə, Bakı, 1996.

4.Baxşəliyev Ə.T. XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı . III hissə, Bakı, 1998.

5. Baxşəliyev Ə.T. Azərbaycanda psixologiya elmi XX yüzillikdə . Bakı, 2002.

6. Baxşəliyev Ə.T. Azərbaycanda psixologiya elmi XX yüzillikdə . Bakı, 2005.

7.Baxşəliyev Ə.T. Azərbaycan milli mənəvi dəyərlərinin sosial- psixoloji mahiyyəti. Bakı, 2011.

8.Baxşəliyev. Ə.T. Psixologiya tarixi oçerkləri. Bakı, 2012.

9.Bayramov Ə.S, Əlizadə Ə.Ə, Seyidov İ.Ə. Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri. Bakı, 1985.

10. Bayramov Ə.S. Psixoloji düşüncələr. Bakı, 1994.

11. Bayramov.Ə.S. Psixoloji etüdlər. Bakı, 1989.

12. Əliyev R.İ. Şəxsiyyətin və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı. 2000.

13. Əliyev.R.İ. Şəxsiyyətin təşəkkülünün etnopsixoloji məsələləri. Bakı, 2003.

14.Əliyev.R.İ. Psixologiya tarixi. Bakı, 2006.

15.Əlizadə.Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş, Bakı, 2003.

16. Əlizadə.Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi.Bakı, 1988.

17.Nacıyev S.N. Psixologiya haqqında söhbət. Bakı, 1954.

18. Makovelski A.O. Nizaminin ictimai- siyasi və fəlsəfi görüşləri. Bakı, 1955.

19. Nəsrəddin T. Əxlaqi- Nasiri. Bakı, 2005.

20. Zəkuyev Ə.K. Füzulinin psixoloji görüşləri. Bakı, 1959.

21.Zəkuyev Ə.K. Azərbaycanda 40 ildə psixologiyanın inkişafı. Bakı, 1960.

**Ərəstun Baxşəliyev**
**Qəribə Rəhimova**

# AZƏRBAYCANDA PSİXOLOGİYANIN İNKİŞAF TARİXİ

DƏRS VƏSAİTİ

***Nəşriyyatın direktoru:*** ***Hüseyn Hacıyev***
***Dizayn:*** ***Müşfiq Hacıyev***
***Montajçı:*** ***Elmira İsmayılova***
***Cildçi:*** ***Elmar Mikayılov***

***Çapa imzalanmış 22.10.2019-cu il***
***Kağız formatı 60x84 $^{1/16}$, çap vərəqi 21,5***
***Sifariş 353, sayı 200***

***ADPU-nun mətbəəsi***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+912) 493-74-10***
***Email: poliqrafiya@mail.ru***